AZƏRBAYCAN TEXNOLOGİYA UNİVERSİTETİ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

“İNNOVATİV EKOSİSTEMLƏRİN İNKİŞAFINDA UNİVERSİTETLƏRİN ROLU”

Zəfər Gününə həsr olunmuş Respublika Elmi-Praktik Konfransın Materialları

I hissə

5-6 Noyabr 2024

GƏNCƏ

conference.atu.edu.az

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Texnologiya Universiteti

İNNOVATİV EKOSİSTEMLƏRİN İNKİŞAFINDA UNİVERSİTETLƏRİN ROLU

Respublika Elmi-Praktik Konfransının

M A T E R İ A L L A R I

I H İ S S Ə

I BÖLMƏ. QİDA MÜHƏNDİSLİYİ VƏ TEXNOLOGİYALARI

II BÖLMƏ. SÜNİ İNTELLEKT, ELEKTRONİKA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI

III BÖLMƏ. TEKSTİL VƏ YÜNGÜL SƏNAYE

IV BÖLMƏ. DİZAYNDA İNNOVATİV TEXNOLOGİYALAR

GƏNCƏ – 2024

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNOLOGİYA UNİVERSİTETİ
Zəfər gününə həsr olunmuş "İnnovativ ekosistemlərin inkişafında universitetlərin rolu" mövzusunda Respublika Elmi-Praktik Konfransının

TƏŞKİLAT KOMİTƏSİ

Sədr: Yaşar Ömərov
Sədr müavini: Sahil Həmidov

Üzvlər

Raqif Hüseynov
Rauf Bağırov
Şahmar Həsənov
Rövşən Əliyev
Mehman Kərimov
Cəsarət Şabanov
Qalibə Məmmədova
Sevda Qurbanova
Eldəniz Bayramov
Arzu Əsgərov
Mətləb Əliyev
İlham Əlizadə
Ülviyyə Məmmədova
Şamo Salayev
Xudayar Məmmədov
Rövşən Hacıyev
Mehman İsmayılov
Fazil Kərimov
Şakir Əliyev
Əhəd Nəbiyev
Məntiq Cəfərov
Fizuli Məmmədov
Sakit Verdiyev
Elşad Məmmədov
Yusif Hümbətov
Namiq Əsgərov
Tofiq Mirzəyev
Nigar Əmiraslanova
Fuad Yusifov
Hamlet Kəsəmənli
Rövşən Qasımov
Xatirə Qurbanova
İlhamə Rəhimova
Cahangir Hacıyev
İmaş Hacıyev
Cəmil Səfərov
Ələmdar Əlbəndov
Xəyalə Məmmədova
Nofəl Hacıyev

Redaksiya Heyəti

Fəxrəddin Həsənov
Mobil Qarayev
Mehriban Aslanova
Elmir Cəfərov
Vüsal Bayramov
Hafiz Əsgərov
İlahə Qurbanova
Ramidə Xəlilova
Zəminə Novruzova
Mətanət Mustafayeva
Gülnarə Əsədova
Nurlan Suvarov
Adilə Həsənova
Ülvi Rəfizadə
Kənan Abdullayev
Tural Ələkbərov
Hicran Ramazanova
Gülnar Rzayeva
Ayşən Məmmədova
Zeynəb Qocayeva
Gülnaz Hüseynova
Nilufər Orucova
Zeynəb Həsənzadə
Aysel İsmayılzadə
Təhminə Nəbiyeva
Aysel Yusibova
Nilgün Məmmədova
Aynur Sadıqova
Zeynab Məmmədova
Səkinə Hüseynova

KONFRANS MATRİALININ I HİSSƏSİNİ TƏRTİB EDƏNLƏR:

1. **Fəxrəddin Həsənov**
2. **Adilə Həsənova**
3. **Gülnaz Hüseynova**

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ – CONTENTS

Ön söz ... **9**
I BÖLMƏ. QİDA MÜHƏNDİSLİYİ VƏ TEXNOLOGİYALARI ... **10**
Y.A.Ömərov, Ə.Ə.Nəbiyev, E.Ə.Bayramov, E.A.Əhmədova. Xurma şirəsi əlavə etməklə çörəyin C vitamini ilə zənginləşdirilməsi ... **10**
Y.A.Ömərov, S.Qurbanova, E.Əhmədova. Xurma meyvəsində fenol birləşmələrinin tədqiqi ... **12**
S.Əhmədova, Ə.Nəbiyev, A.Qasımova. Qidalanma və ekoloji problemlər ... **16**
M.A.Xəlilov, F.X.Yusifov. Meyvə-tərəvəz xammalının bifidogen xüsusiyyətlərinin tədqiqi ... **18**
M.S.Aslanova, Y.Y.İbrahimov. Nardan yeni çeşiddə konserv məhsulunun hazirlanması texnologiyası ... **20**
Е.В.Бадамшина, С.А.Леонова, Н.Ш.Никулина. Влияние тритикалевой муки и отрубей в технологии хлебобулочных изделий ... **23**
Ə.Ə.Nəbiyev, V.F.İbrahimov, R.R.Əliyeva, İ.Ə.Kazımova. Meyvə və tərəvəz şirələrindən kupaj üsulu ilə yeni şirənin hazırlanma texnologiyası ... **28**
Е.И.Кощина, E.I.Koshchina, Н.Ш.Никулина, N.S.Nikulina. Применение сушеных плодов шиповника в хлебобулочном изделии ... **30**
A.Bağırzadə, Ə.Ə.Nəbiyev. Tokay tipli şərabların istehsalında karbohidratların rolu ... **34**
F.İ.Əliyeva, M.S.Aslanova. Çörək məmulatlarının hazırlanması üçün tritikale ununun üstün keyfiyyət göstəricilərinin tədqiqi ... **36**
И.Кязимова, А.Набиев. Тенденции потребительских предпочтений в области ароматизированных вин ... **39**
E.Ş.Məmmədov, F.M.Musayev. Pivə istehsalında dənin isladılması prosesinin təkmilləşdirilməsi ... **42**
Е.Муштатенко, М.Садыгова, Э.Байрамов, А.Набиев. Сравнительный анализ аминокислотного состава пайзовой и пшеничной муки ... **44**
E.Ə.Bayramov, Ə.Ə.Nəbiyev. Balqabaq püresi əlavə edilmiş çörəkdə natrium və kaliumun miqdarca nisbətinin əhəmiyyəti ... **47**
И.Кязимова, А.Касумова. Питательные характеристики растительных напитков для детей ... **50**
A.A.Hacıyeva, M.M.Cavadov, X.A.Məmmədova. Təhlükəsiz qida məhsullarının hazırlanmasında xurma meyvəsinin rolu ... **52**
И.Т.Гареева, А.С.Нигматзянов. Совершенствование рецептуры творожника с безглютеновым сырьём ... **54**
Ü.Əhmədova, İ.Qocayev, A.Qasımova. Çəhrayı süfrə şərabları istehsalında tətbiq olunan texnologiyaların araşdırılması ... **59**
А.Б.Халилова, Н.Ф.Абдуллаева. Прополис как основной продукт пчеловодства (apis propolis) ... **61**
U.Babayeva, C.Qocayev, A.Qasımova. Ölkəyə idxal olunan quş ətinin gömrük ekspertizası ... **63**
М.К.Садыгова, Н.Г.Шамакова, А.А.Набиев, Э.Э.Байрамов. Экологический аспект при разработке рецептуры хлебных палочек функционального назначения на основе муки из зерна пайзы ... **65**
E.E.Heydərov. Şərab istehsalında texnoloji amillərinin əsaslandırılması ... **69**
N.H.Qurbanov, M.M.Tağıyev, E.M.Omarova. Yabani yetişən çiriş (eremurus spectabilis) yarpaqları funksional əhəmiyyətli qida kompozisiyaları və texnologiyalar yaradılması üçün perspektiv xammaldır ... **72**
M.M.Tağıyev, R.N.Vəliyev, H.Azər oğlu Behbudov. Ağ balakən qarğıdalı sortunun bəzi kimyəvi göstəricilərinin tədqiqi ... **75**
E.Ə.Bayramov, A.Z.Şəmmədova. Yerli buğda ununun çörəkbişirilmə xassələrinin təhlili ... **78**
E.Bayramova, İ.Kazımova, Afət Qasımova. Feyxoa meyvəsinin sort xüsusiyyətlərinin öyrənilməsi ... **79**
A.A.Hacıyeva, D.M.Babayev, A.R.Hüseynova. İnulin tərkibli konserv məhsullarinin hazırlanma texnologiyası ... **82**
H.Naghiyeva, M.Mammadova, A.Sadigova, S.Mammadli. Variability of proliferative responses of tomato (lycopersicon esculentum mill.) explants in vitro under salt stress ... **84**
N.Niyazova, D.Aliyeva, İ.Huseynova. The study of antioxidant enzyme activity and proline accumulation in local tomato varieties under drought and post-drought recovery ... **87**
А.Манджиева, Э.Байрамов, А.Набиев. Изучение возможности использования люцерны при производсте хлебо-булочных изделий ... **89**

Y.Ömərov, A.Babayev, Ə.Nəbiyev. Spirt istehsalı üçün buğda və qarğıdalı unlarının biokimyəvi göstəricilərinin müqayisəli tədqiqi **92**
Kh.Safarova, G.Ismayilova, A.Sadigova, H.Nagiyeva. Combined use of phenylalanine as a precursor and ferulic acid in wheat callus culture **95**
M.Məmmədzadə, M.İsmayılov. Brendi içkisinin texnologiyasının tətbiqi **97**
K.Q.Qarayev. Funksional qida istehsalında meyvə əsaslı tərkiblərin istifadəsi: zefir istehsal texnologiyasının inkişafi **100**
Q.M.Namazov, U.C.Mehdiyev, S.İ.Hüseynova. Qirmizi süfrə şərabinin müasir üsulla istehsalı..**103**
А.С.Нигматзянов, A.S.Nigmatzyanov, Е.И.Кощина, E.I.Koshchina. Исследование микрофлоры закваски спонтаного брожения на солодовом сусле **105**
M.Tağıyev, A.Cəfərova. Efir yağlı bitkilərdən hazırlanmış balzam tipli içkinin tərkibində 5-hidroksimetilfurfurolun tədqiqi **109**
Ş.Mustafayev, T.Xanlarov. Taxıl məhsullarına tələbatın tədqiqi **112**
N.R.Əsgərov. Maye qida məhsullarının bəzi istilik fiziki xassələrinin təcrübi yolla təyin edilməsi..... **116**
M.T.İsmayılov, H.Y.Əsgərov, S.H.Mahmudov. Üzüm bitkisinin aqroekologiyası **118**
V.Jafarova, M.Mammadova, G.İsmayilova, E.Hasanzade. Study of proteins in morphogenic and non-morphogenic wheat callus **121**
H.R.İsmayılova, S.Ü.Haciyeva. Yeni nəsil qida qablaşdırma və paketləmə texnologiyaları: davamlılıq və innovasiyalar **123**
A.A.Hacıyeva, X.A.Məmmədova. Ekoloji və iqlim dəyişikliklərin xurma meyvəsinin qidalılıq dəyərinə təsiri **126**
А.Касумова. Использование методов молекулярной кулинарии при приготовлении мороженного **128**
M.T.İsmayılov. Şərabçılıqda blokçeyn texnologiyasının tətbiqi: innovativ yanaşmalar, imkanlar və problemlər **129**
M.M.Tağıyev. Azərbaycanın şərab mikrozonalarının şərab turizminin inkişafına təsirinin araşdırılması **133**
A.Ələkbərov. Ət və ət məhsullarının soyudulma üsullarının tətqiqi **135**

II BÖLMƏ. SÜNİ İNTELLEKT, ELEKTRONİKA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI 139
G.B.Garayev, A.M.Alili. Transforming neural networks on manifold and renormalization **139**
Z.N.Hüseynov, M.İ.Məmmədov, Z.H.Zeynalov, B.R.Məmmədova. Arp-spoofing şəbəkə hücumunun aşkarlanması üsulları **141**
S.Q.Verdiyev, N.F.Cəfərov. Veb səhifələrdən verilənlər bazasına göndərilən informasiyanın Javascript proqramlaşdırma dili ilə şifrələnməsi **144**
Z.Ə.Məhərrəmov, Ü.R.Rəfizadə. GPON texnologiyaları haqqında..... **146**
З.Э.Керимова, Х.Ю.Исмайлова. Аудиогенные припадки вызванные интенсивными слуховыми стимулами **149**
N.F.Cəfərov. İnformasiya təhlükəsizliyi üçün proqramlaşdırma dili seçmək..... **150**
N.İ.Almənmədova, M.İ.Məmmədov. Qeyri-səlis sistemlərin modelləşdirilməsi..... **152**
L.A.İsrəfilova, R.F.Quliyeva. Bulud texnologiyaları. Bulud hesablama **154**
L.A.İsrəfilova, R.F.Quliyeva. Kompüter şəbəkəsi kabelləri. Ethernet və fiber optik şəbəkələrin müqayisəsi **156**
M.İ.Rəhimov, L.A.İsrəfilova, R.F.Quliyeva. Şəbəkə arxitekturası **158**
А.М.Мамедова, А.Н.Мамедова. Интернет вещей (iot) и их информационная безопасность **160**
V.Mustafa, F.Musayeva. Veb texnologiyasının tarixi inkişaf mərhələləri. Veb 4.0 texnologiyası **163**
E.M.Namazov, T.Ş.Əliyeva. Fiber optik kabellərdə birləşmə zamanı yaranan nasazlıqlar və itkilərə qarşı təsir üsulları **165**
T.Ş.Ələkbərova, A.E.Rzayeva. Elektron imza vasitəsilə kiber təhlükəsizliyin təmini **167**
S.Y.Quliyev, E.M.Namazov. Müasir proqramlaşdirma dillərində mühəndislik məsələlərinin həlli..... **170**
A.Məmmədzadə, E.Həsənov. Psevdo-Təsadüfi Ədədlər Generatorları **171**
İ.H.Hümbətov, R.N.Vəliyev, A.N.Məmmədova. Neft çıxarma sənayesində enerji itkisinin azaldılması **173**
V.A.Seyidov, B.M.Bagirov. Developing explainable ai (xai) methods for deep reinforcement learning agents in safety-critical applications **175**

F.O.Həsənov, M.B.Cəfərov. Müasir şəbəkə texnologiyalarından istifadə edərək müəssisənin korporativ informasiya şəbəkəsinin işlənib hazırlanması **178**
A.N.Əliyeva, S.K.Məmmədova, E.K.Kazımova. Bulud hesablamalarının yerləşdirmə modellərinin üstünlükləri və çatışmazlıqlarının araşdırılması **180**
V.A.Seyidov, B.M.Bagirov. Beyond imitation: examining goal motivation and goal formation as predictors of cognitive performance in AI **183**
Ə.M.Rəcəbli, M.İ.Məmmədov. Kiçik yaşayış məntəqəsi üçün IEEE 802.16E standartının wimax simsiz rabitə şəbəkəsinin işlənməsi və qurulması **186**
K.R.Qasımov. İstixana mikroiqliminin idarəetmə sisteminin alqoritminin işlənməsi **188**
M.B.Cəfərov, M.B.Talıbov. Kompüter şəbəkəsində informasiya təhlükəsizliyi mexanizminin istifadəsi və tətbiqi **191**
P.Ə.Abbasova, İ.A.Hüseynov. İot cihazlarının təhlükəsizlik riskləri və həll yolları **192**
S.Q.Verdiyev, N.X.Gurzalıyeva. Korporativ şəbəkələrin proqram konfiqurasiyasının idarə olunması... **195**
S.Q.Verdiyev, N.V.Kazımova. İntellektual sistemlərin müasir metod və modellərinin tədqiqi **197**
E.M.Namazov, A.M.Musayeva. İnformasiya axınının təhlükəsizliyi arxitekturasının optimallaşdırılması yollarının tədqiqi **198**
A.Q.Məsimov, T.N.Məmmədhəsənov. AI texnologiyası, süni intellekt anlayışı və inkişafı **200**
Ü.Üzdənov, R.Qasımov. Müəyyən mövzu sahəsi üzrə elektron təhsil resurslarının və kursların yaradılması texnologiyasının işlənib hazırlanması **202**
A.S.Qələndərov, G.M.Hüseynova, V.N.Bayramova. Kompüterlərin korporativ şəbəkələrində informasiya ehtiyatlarının optimal çatdırılma müddətinin təhlili və sintezi **204**
N.A.Sadıxova. Bilik, informasiya, verilənlər anlayışları arasındakı əlaqə **206**
Z.U.Həsənli. Bulud texnologiyalarında təhlükəsizliyin təmini **208**
R.F.Qasımov, K.R.Qasımov. Minimal ağac gövdəsi və onun tətbiqi **210**
K.R.Abdullayev, S.Q.Verdiyev. Steqanoqrafiya və kriptoqrafiya: əlaqələr və inteqrasiya **212**
A.Ə.Aslanova, A.M.Vəliyeva. Bulud texnologiyalarının üstünlükləri və iş proseslərinin optimallaşdırılması üçün bulud həlləri **214**
N.Ə.Əliyev, Ş.R.Əsgərli. İnternet şəbəkəsinin Azərbaycan seqmentində veb saytların optimal axtarış metodları **216**
N.Əliyeva. Robototexnikanın nailiyyətləri və Azərbaycanda onun bəzi tətbiq sahələri **218**
S.V.Quliyev. Yaşıl dünya üçün informasiya texnologiyasının rolu **220**
S.V.Quliyev. İnformasiya texnologiyaları və süni intellekt **223**

III BÖLMƏ. TEKSTİL VƏ YÜNGÜL SƏNAYE 225
C.Ə.Hacıyev, A.Ə.Məmmədova, C.İ.Mustafayeva, S.M.Musayeva. Qadın trikotaj məmulatlarının bədəndən çıxarılarkən aldığı deformasiyaların xüsusiyyətləri **225**
İ.Q.Qasımov, V.M.Abbasova, E.Ə.İsayeva, L.İ.Atakişiyeva. Xalq boyama üsullarına müasir elmi yanaşma **227**
T.Ə.Tağıyeva, Ş.R.Musazadə. Azərbaycanın milli kişi və qadın geyimlərində istifadə olunan bədii parçaların çeşidlərinin tarixi tədqiqatı **230**
İ.Q.Qasımov, N.C.Məhərrəmova, G.A.Tomuyeva. Bitki mənşəli boyaların insan sağlamlığında əhəmiyyəti **233**
T.Q.Kərimov, H.R.İmanov. Dünya ayaqqabı sektorunda ayaqqabı istehsalının tarixi **235**
T.Q.Kərimov, H.R.İmanov. Müasir dövrdə qadın ayaqqabılarında istifadə edilən ornamentlərin növləri (çiçək, həndəsi, abstrakt, bitki motivləri və s.). **237**
A.V.Hüseynquliyeva, T.Q.Kərimov. Uşaq ortopedik ayaqqabılarının bədii layihələndirilməsi üsullarının analizi **239**
R.X.Aslanova, S.C.Məmmədova, T.D.Həsənova. Azərbacan xalçalarının bədii xüsusiyyətləri və onların məzmunu **240**
F.Ə.Babayev, Ə.F.Babazadə, X.T.Babayeva. Donluq pambıq parçaların keyfiyyətinin toxunma prosesində formalaşdırılmasının tədqiqi **243**
T.H.Mirzəyev, E.Ə.Xudiyeva. Birlaylı və çoxlaylı uşaq geyimlərinin termotənzimlənmə texnologiyası..**245**
S.M.Şükürova, H.Q.Kərimov. Əyiricilik məqsədi ilə emal edilən pambıq liflərinin keyfiyyətinin təcrübi qiymətləndirilməsi **247**
M.E.Atakişiyeva, H.Q.Kərimov. Paltolar üçün yun parçaların istismar və gigiyenik tələblərinin laborator ekspertizası **250**

IV BÖLMƏ. DİZAYNDA İNNOVATİV TEXNOLOGİYALAR 252
T.H.Mirzəyev, X.T.Şəliyev. Qadın qarederobları üçün baza geyimlərinin seçilməsinin ümumi prinsipləri..**252**
İ.A.Haciyev. Ekodizaynda ekotexniki problemlər..... **254**
T.H.Mirzəyev, T.E.Həmidov. Geyim hissələrinin yapışqanlı araqatı materialları ilə birləşdirilməsində qısalmanın tədqiqi..... **256**
Z.Z.Quliyeva, İ.A.Hacıyev. Müasir loqotiplərə qoyulan tələblər..... **258**
Ş.R.Əliyev, G.N.Əliyeva, S.R.Məmmədova, N.R.Həsənova. Müasir Azərbaycan geyimində üslubların təhlili..... **260**
Ə.Z.Məmmədov, K.M.Məmmədova. Qarabağda dekorativ tətbiqi sənət və sənətkarlar..... **263**
Şakir Rüstəm oğlu Əliyev, Gülnarə Nurəddin qızı Əliyeva, Radə İsfəndiyar qızı Əsgərova, S.V.Heydərov. Bədii üslub dəyişikliyi kontekstində kostyumun tarixi təkamülü..... **266**
Ə.Z.Məmmədov, K.M.Məmmədova. Ümummilli lider Heydər Hliyev, Azərbaycan xalqının mənəvi və milli ənənələrini yaşadandır..... **269**
Г.Ф.Аббасова, А.Т.Паша. Новые тенденции эволюции женских сумок..... **272**
С.Дж.Мамедова, Р.Х.Асланова. Актуальность внедрения новых технологий в дизайн одежды.. **275**
L.D.Məmmədtağıyeva, İ.A.Hacıyev. Ənənəvi mədəniyyətdə geyimin simvolik funksiyası..... **277**
Ş.R.Əliyev, G.N.Əliyeva, F.Ə.Fərəci, S.V.Heydərov. Dizayna əsaslanaraq geyim materialının ekoloji cəhətdən inkişaf etdirilməsi..... **279**
R.T.Mirzəyev. Eko geyim dizaynı..... **282**
İ.C.Əsgərov, R.F.Mehdizadə, A.R.Hüseynova. Barokko üslubunun müxtəlif sahələrə təsiri..... **284**
S.A.İsmayılov, H.N.Qumaşova, H.Ə.Ramazanova. Süni intellekt və dizayn..... **286**
M.R.Qarayev, A.Ə.Məmmədova. Dizayn və psixologiya..... **288**
Ş.R.Əliyev, G.N.Əliyeva, R.F.Mehdizadə, Nəzrin R.Həsənova. Geyim modelinin layihələndirilməsində erqonomika anlayışı..... **291**
İ.C.Əsgərov. Müasir sənaye dizaynının təkmilləşdirilməsində innovativ texnologiyaların rolu..... **293**
M.R.Qarayev, C.İ.Mustafayeva. Qrafik dizaynın gələcəyi..... **295**
Ş.R.Əliyev, F.İ.Əliyeva, A.G.Həsənova. Kostyumların dizaynında üslub və hazırlanma üsulların tətbiqi . **297**
Ə.Məhərrəmov. Rəssam palitrası və onun yaradıcılıq prosesindəki imkanları..... **300**

Ön söz

Artıq dörd ildir ki, böyük qürur və fəxrlə qeyd etdiyimiz 8 noyabr "Zəfər Günü" Azərbaycan tarixinin ən parlaq və ən əhəmiyyətli gününə, Azərbaycan xalqının isə ən əlamətdar və böyük təmtəraqla qeyd etdiyi milli bayramına çevrilibdir. 30 ilə yaxın həsrətində olduğumuz, Vətən deyə alışıb yandığımız torpaqlara, Azərbaycanın ən gözəl guşələrindən biri olan Qarabağa nəhayət böyük zəfərlə qovuşduq. Artıq Azərbaycanın üçrəngli məğrur bayrağı Xankəndi başda olmaqla işğaldan azad olunmuş bütün şəhər və rayonlarımızda qürurla dalğalanmaqdadır və o bayrağı artıq o zirvələrdən kimsə endirə bilməz! Bu şanlı zəfərin qazanılmasında başlıca amil sözsüz ki, sarsılmaz xalq-dövlət-ordu birliyidir. Xalqın nümayiş etdirdiyi birlik və böyük vətənpərvərlik, rəşadətli Azərbaycan Ordusunun görünməz qəhrəmanlığı və ən nəhayət bir lider kimi hər kəsi "Dəmir yumruq" altında birləşdirən, həyata keçirdiyi xarici siyasət, tətbiq etdiyi hərbi strategiya və nümayiş etdirdiyi iti ağlı ilə hər kəsi özünə heyran edən Ali Baş Komandan bu möhtəşəm qələbəmizin əsas memarlarıdır.

Azərbaycan Ordusunun istər 2020-ci ilin sentyabr-noyabr aylarında həyata keçirdiyi hərbi əməliyyatlarda, istərsə də 2023-cü il sentyabrın 19-da həyata keçirdiyi 24 saatlıq hərbi əməliyyatda tətbiq etdiyi müasir hərbi texnologiyalar yeni döyüş modellərini ortaya qoydu. Yeni modellərdən istifadə müasir texnologiyaların həyatın bütün sahələrində vacibliyini bir daha göstərmiş oldu. Yüksək texnologiyaların tətbiqi işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərində də özünü göstərməkdədir. Bu gün ağıllı kənd, ağıllı şəhər konsepsiyası əsasında aparılan quruculuq işlərində əks olunan müasir innovativ ekosistemlər öz aktuallığı ilə diqqət çəkir. Dövrümüzdə elm və texnologiya birbaşa istehsal gücünə çevrilib.

Respublikamız Qlobal Rəqabətlik Hesabatında üstünlüyün əldə edilmə dinamikasını yüksək tempdə saxlamaq üçün müasir innovativ ekosistemlərin müxtəlif sahələrdə tətbiqini daim gücləndirməkdədir. Qlobal iqtisadiyyatın inkişaf meyllərini nəzərdən keçirsək son dövrlər rəqəmsallaşmaya və innovasiyalara marağın pik həddə çatmasını müşahidə edə bilərik. Dünyanın elm və tədqiqatyönümlü ideyalara və onların tətbiq sahələrinə diqqəti günü-gündən artmaqdadır. Bu mənada innovativ ekosistemlərin və yeni düşüncəli startapların yaradılması və fəaliyyətinin stimullaşdırılması hər bir uğurlu ali təhsil müəssisəsi üçün gələcəyə hesablanmış strateji hədəflərdən hesab olunur.

İqtisadiyyatın dayanıqlı inkişafında innovativ ekosistemlərin mühüm rolu var. İnnovasiya biznesdə yenilik - müasir alətlərin tətbiqi və mürəkkəb proseslərin asan həlləri deməkdir. Yeni texnologiyaların Azərbaycanda tətbiqi prioritet məsələlərdəndir. Bu baxımdan həmin sahəyə elm-təhsil-innovasiya üçbucağı çərçivəsində dəstək, startap ekosistem qurucularının fəaliyyətinin genişləndirilməsi perspektiv uğurlar üçün əlavə imkanlar açır və yenilikçi təşəbbüslərin ölkə iqtisadiyyatına daha çox töhfə verməsinə imkan yaradır. Qloballaşma və sürətli texnoloji tərəqqi dövründə innovasiyalar həm dövlət, həm də özəl sektorda dayanıqlı inkişafın ayrılmaz hissəsinə çevrilib. Müasir texnologiyalar həyatın bütün sahələrinə nüfuz edir, biznesin ənənəvi üsullarını dəyişir, istehsalın səmərəliliyini artırır, yeni istehlak vərdişləri formalaşdırır və sosial-iqtisadi problemlərin həlli üçün yeni imkanlar yaradır. Ölkələrin bir çoxu innovasiyanı dünya miqyasında rəqabət qabiliyyətini artırmaq yolunda əsas vasitə kimi qəbul edir.

Azərbaycan Texnologiya Universiteti müasir dövrün çağırışlarına adekvat cavab verən ideya təşəbbüslərinin dəstəklənməsi istiqamətində uyğun işlər görməkdədir. 8 Noyabr Zəfər Gününə həsr olunan "İnnovativ Ekosistemlərin İnkişafında Universitetlərin Rolu" adlı Elmi-Praktik Konfrans da eyni məqsədə xidmət edir və ölkədə bu sahədə aparılan mühüm işlərə öz töhvəsini verməkdədir.

Dos. Yaşar Ömərov
Azərbaycan Texnologiya Universitetinin rektoru

I BÖLMƏ. QİDA MÜHƏNDİSLİYİ VƏ TEXNOLOGİYALARI

XURMA ŞİRƏSİ ƏLAVƏ ETMƏKLƏ ÇÖRƏYİN C VİTAMİNİ İLƏ ZƏNGİNLƏŞDİRİLMƏSİ

Yaşar Adil oğlu Ömərov
y.omarov@atu.edu.az
Əhəd Əli oğlu Nəbiyev
e.nebiyev@atu.edu.az
Eldəniz Ənvəroviç Bayramov
e.bayramov@atu.edu.az
Elnarə Akif qızı Əhmədova
axmedovaelnare@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Azərbaycanın kənd təsərrüfatında prioritet sahələrdən biri də taxılçılıqdır. Bu sahədə aparılan elmi tədqiqatlar nəticəsində keyfiyyətli, quraqlığa, xəstəliyə və digər stress faktorlarına daha dözümlü, məhsuldar buğda sortları alınmışdır [1]. Burada əsas məqsəd ölkəmizə buğda idxalını azaltmaq, əhalinin çörəyə olan ehtiyacını yerli buğda istehsalı hesabına təmin etməkdir.

Son zamanlar ekoloji sistemin çirklənməsi get-gedə artır, nəticədə taxıl bitkilərində o cümlədən buğdada kifayət qədər faydalı qida maddələri toplanmır. Bununla yanaşı, çörək istehsalında istifadə edilən buğda ununun da keyfiyyəti pisləşir, kleykovina həddən çox möhkəm və qısaqırılan olur [2]. Saxlanma zamanı çörək tez xarab olur və kiflənir. Belə olduqda insan sağlamlığı təhlükə altında olur. Ona görə əhalinin gündəlik qida rasionunda mühüm yer tutan qida məhsullarının, xüsusən də çörəyin faydalı qida maddələri ilə zənginləşdirilməsi və tez xarab olmasının qarşısının alınması insan sağlamlığı üçün çox vacibdir [3].

İşin məqsədi. Buğda ununa xurma şirəsi əlavə etməklə istehsal edilən çörəyin C vitamini ilə zənginləşdirilməsi və miqdarca dəyişmə xarakterinin tədqiq edilməsidir.

Tədqiqat obyekti. Əzəmətli-95 buğdasından alınmış əla sort una xurma şirəsi əlavə etməklə istehsal edilən çörəkdir.

Tədqiqatın məsələləri. Əzəmətli-95 buğdasından alınmış əla sort unda, xurma şirəsində və əla sort una xurma şirəsi əlavə etməklə istehsal edilən çörəkdə C vitamininin miqdarca təyin edilməsidir.

Tədqiqatın predmeti. Buğda ununa əlavə edilən xurma şirəsindəki C vitamininin çörəkdə miqdarca dəyişmə xarakterinin tədqiqidir.

Tədqiqat metodları. Nəzəri tədqiqatlar ədəbiyyəat mənbələrinin verilənlərinə, təcrübi tədqiqtlar isə məlum olan standartlara əsasən aparılmışdır. Xurma şirəsinin hazırlanması, çörək nümunələrinin bişirilmə metodikası ədəbiyyatda verilmişdir [4]. Alınmış nəticələr məlum statistik metodlarla işlənmişdir.

Tədqiqat zamanı əla sort buğda ununa I, II və III variantlar üzrə müvafiq olaraq 5, 10 və 15% miqdarda xurma şirəsi əlavə etməklə bişirilmiş çörək nümunələrinin keyfiyyət göstəriciləri nəzarət çörəyi ilə müqayisə edilmişdir [5].

Nəticələr və müzakirələr. Tədqiqat zamanı müəyyən edilmişdir ki, buğda ununa 10 % miqdarda xurma şirəsi əlavə edildikdə orqanoleptik göstəricilərinə görə ən yaxşı çörək alınır. Buğda ununa 10%-dən çox miqdarda xurma şirəsi əlavə edildikdə çörəyin orqanoleptik göstəriciləri pisləşir. Xörək yeməklərində istehlakçılar tərəfindən yaxşı qarşılanmır.

Tədqiqatın nəticələrindən müəyyən edilmişdir ki, buğda ununda C vitamini yoxdur, xurma şirəsində isə 9,6 mq/100 q olmuşdur. Buğda ununa xurma şirəsi əlavə etdikdə I, II və III variant üzrə hazırlanmış çörək nümunələrində C vitamin 0,24-0,72 mq/100q intervalında dəyişmişdir. C vitamini həddən çox möhkəm və ya qısaqırılan kleykovinanı

zəiflədir və reoloji xassələrini yaxşılaşdırır. Bundan başqa C vitamini insan orqanizminin sağlamlığı üçün də faydalıdır [6].

Əgər Azərbaycanda C vitamininin adambaşına düşən sutkalıq normasının maksimum 110 mq olduğunu nəzərə alsaq, onda insan sutka ərzində 380 q çörək yeməklə C vitamininə olan tələbatını 1,7 % təmin edə bilər.

Nəticə. Buğda ununa xurma şirəsi əlavə edildikdə unda yaş kleykovinanın elastiklik xassələri yaxşılaşmış, orqanoleptik göstəricilərinə görə ən yaxşı çörək hesab edilən, II variant üzrə (10% itburnu şirəsi əlavə etməklə) hazırlanan çörək nümunəsində C vitamini 0,48 mq/100q olmuşdur.

Açar sözlər: buğda, un, çörək, xurma siropu.

ƏDƏBİYYAT

1. Əliyev C.Ə., Tələi C.M., Musayev Ə.C., Hüseynova İ.M., Əhmədov M.Q., Abdullayev A.M., Rəhimova X.H., Serebryakova S.İ., Əmirov L.Ə., Novruzlu Q.A., Rzayev M.Y., Dünyamalıyev S.A., Hacıməmmədov İ.M., Həsənova Q.M., Əzizova N.H. "Dənli və dənli-paxlali bitki sortlarının kataloqu"/ KTN, AEM, AzETƏİ, - Bakı, - 2013, - 296 s.
2. Takahashi A., Flanigan M.E., McEwen B.S., Russo S.J. "Aggression, social stress, and the immune system in humans and animal models. Frontiers in Behavioral Neuroscience". Published online, - 2018, - 12:56, - 1-16.
3. Байрамов Э.Э. Совокупность состава и свойств рецептурных компонентов пшеничного теста. Журнал «Известия вузов. Пищевая технология». ФГБОУ ВПО КубГТУ, - 2017, - №2-3 (356-357), - 103-106.
4. Bayramov E., Akbarova F., Mustafayeva K., Gurbanova S., Babayeva U., Aslanova M., Nabiyev A. "Application of persimmon syrup to increase the biological value and organoleptic indicators of bread". Eastern-European Journal of Enterprise Technologies, - 2022, - 6 (11 (120)), - 69–88.
5. Bayramov E.Ə. "Laboratoriyada hazırlanmış çörək nümunəsinə əsasən unun çörəkbişirilməyə yararlığının təyini: metodik göstəriş". - Gəncə: Əsgəroğlu, - 2017, – 40s.
6. Medoro A., Davinelli S., Colletti A., Micoli V., Grandi E., Fogacci F. et al. Nutraceuticals as modulators of immune function: A review of potential therapeutic effects. Preventive Nutrition and Food Science, - 2023, - 28(2):89-107.

ОБОГАЩЕНИЕ ХЛЕБА ВИТАМИНОМ С ПУТЁМ ДОБАВЛЕНИЯ ХУРМОВОГО СИРОПА

Яшар Адиль оглы Омаров
y.omarov@atu.edu.az
Ахад Али оглы Набиев
e.nebiyev@atu.edu.az
Эльданиз Энверович Байрамов
e.bayramov@atu.edu.az
Эльнаре Акиф кызы Ахмедова
axmedovaelnare@gmail.com
Азербайджанский Технологический Университет

В статье проведена работа по обогащению хлеба витамином С путем добавления 5, 10 и 15% сиропа из хурмы сорта «Хиакуме» в пшеничную муку, полученную из сорта «Азаматли-95». Установлено, что в контрольном образце хлеба витамина С отсутствует, а в наилучшем варианте образца хлеба, приготовленного по II варианту, путем добавления 10% хурмового сиропа к пшеничной муке, содержание витамина С составляло 0,48 мг/100г. При добавлении хурмового сиропа реологические свойства клейковины улучшаются.

Ключевые слова: пшеница, мука, хлеб, хурмовый сироп.

ENRICHING THE BREAD WITH VITAMIN C BY ADDING PERSIMMON SYRUP

Yashar Adil oglu Omarov
y.omarov@atu.edu.az
Ahad Ali oglu Nabiyev
e.nebiyev@atu.edu.az
Eldaniz Enverovich Bayramov
e.bayramov@atu.edu.az
Elnare Akif gizi Akhmedova
axmedovaelnare@gmail.com
Azerbaijan Technological University

In the article the work on enrichment of bread with vitamin C by adding 5, 10 and 15 % of persimmon syrup of "Hiakume" variety to wheat flour obtained from "Azamatli-95" variety has been carried out. It was found that in the control sample of bread there was no vitamin C, and in the best variant of bread sample prepared according to II variant, by adding 10% persimmon syrup to wheat flour, the vitamin C content was 0.48 mg/100g. The addition of persimmon syrup improved the rheological properties of gluten.

Key words: wheat, flour, bread, persimmon syrup.

XURMA MEYVƏSİNDƏ FENOL BİRLƏŞMƏLƏRİNİN TƏDQİQİ

Yaşar Adil oğlu Ömərov
y.omarov@atu.edu.az
Sevda Qurbanova
qurbanova-sevda@inbox.ru
Elnarə Əhmədova
axmedovaelnare@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Fenol birləşmələri bioloji fəal maddələr olub bitki aləmində, o cümlədən xurma meyvəsində geniş yayılmış üzvi birləşmələrdir. Hal-hazırda bitkilərdə fenol birləşmələrinin 3000-dən artıq nümayəndəsi aşkar edilmişdir. Bu birləşmələr insanların gündəlik həyat-fəaliyyəti üçün vacib komponentlərdir. İnsanların gündəlik qida rasionunda fenol birləşmələrinin çox olması onların sağlam yaşamasında mühüm əhəmiyyət kəsb edir [3]. Bu birləşmələr qan dövranı prosesinin tənzimlənməsində, yaddaşın möhkəmlənməsində, yorğunluğun aradan götürülməsində, iş qabiliyyətinin daha səmərəli fəaliyyət göstərməsində mühüm rol oynayırlar. Fenol birləşmələri insan orqanizmindən radiasiyanı xaric etmək qabiliyyətinə malikdirlər. Radiasiyaya məruz qalan insanlar daim fenol birləşmələri ilə zəngin olan qida məhsulları ilə qidalanmalıdırlar[4].

Fenol birləşmələri antioksidant, antimikrob, antimutagen və digər xüsusiyyətlərə malikdirlər[1]. Elə ona görə də insanlar fenol birləşmələri ilə zəngin olan qida məhsulları ilə qidalandıqda onlarda mikrobioloji və digər arzuolunmayan xəstəliklərin əmələgəlmə riskini azaldır [5]. Bu baxımdan xurma, bütün meyvələr içərisində fenol birləşmələri ilə daha zəngin olan qida məhsuludur. Xurma meyvəsi fenol birləşmələri ilə zəngin olduğuna görə o heç bir xəstəliyə məruz qalmır. Hətta meyvənin yetişməsində heç bir kimyəvi dərman preparatından istifadə olunmur. Xurma meyvəsinin tərkibi fenol birləşmələrinin ayrı-ayrı nümayəndələri ilə zəngin olduğuna görə o yüksək qidalılıq dəyərinə malikdir. Hal-hazırda bu meyvədən bir çox xəstəliklərin müalicəsində geniş istifadə olunur[2]. Ona görə də xurma meyvəsindən əhalimizin bütün il boyu istifadə etmələri onların sağlamlığı baxımından çox önəmlidir. Fenol birləşmələri insanların gündəlik qida rasionunda 50-60 mq olmalıdır.

Xurma meyvəsinin tərkibində geniş yayılmış fenol birləşmələri tərkibindəki karbon atomunun sayından asılı olaraq əsasən üç qrupa bölünür: - monomer, oliqomer və polimer. Bir atomlu sadə fenollara misal olaraq fenolu (hidroksibenzol), iki atomlu fenollara – pirokatexini (o-dihidroksibenzol), hidroxinonu (p-dihidriksibenzol), rezorsini (m-dihidroksibenzol) göstərmək olar. Tərkibində üçatomlu sadə fenollara isə pirohallol (1,2,3-üçhidroksibenzol) və florqlüsin (1,3,5-üçhidroksibenzol) aiddir.

Xurma meyvəsinin tərkibində monomer quruluşa malik $C_6 – C_1$ sıra fenol birləşmələri həm sərbəst, həm də birləşmiş şəkildə olur. Onların xurma meyvəsində ən geniş yayılmış nümayəndələrinə misal olaraq paraoksibenzoy, salisil, protokatexin, rezorsil, hentizin, hallol, vanilin və siren turşularını göstərmək olar.

Xurma meyvəsində $C_6–C_1$ sıra fenol birləşmələrinin ayrı-ayrı nümayəndələrinin çox olması onun keyfiyyətinə, qidalılıq dəyərinə və uzun müddət saxlanmasına müsbət təsir göstərir. Xurma meyvəsi $C_6 – C_3$ sıra fenol birləşmələri ilə də zəngindir. Bu qrup fenol birləşmələrindən xurmada parakumar, kofein, oksihidrodarçın, metilləşmiş ferul və sinap turşularına rast gəlinir. Oliqomer və polimer fenol birləşmələrinin hidrolizindən əmələ gələn $C_6 – C_1$ kimi, bu sıra fenol birləşmələrinin də xurma meyvəsinin tərkibində aldehidlərinə və spirtlərinə də təsadüf olunur. Bu turşular bitkilərdə, o cümlədən xurma meyvəsində həm sərbəst, həm də birləşmiş şəkildə oliqomer və polimer fenol birləşmələrinin tərkibində olur.

Xurma meyvəsinin xoş ətirli, özünəməxsus spesifik dadının yaranmasında $C_6–C_3$ sıra fenol birləşmələri iştirak edir. $C_6–C_3$ sıra fenol birləşmələrinin turşuları, aldehidləri və spirtləri xurma meyvəsinin şirəsində çox, lətində və qabığında az olur. Birləşmiş şəkildə bu sıra fenol birləşmələri əsasən liqnanın, liqninin tərkibində qabıq və lət hissədə daha çox olur. Liqninin hidrolizindən xurma meyvəsində müxtəlif sayda $C_6–C_3$ sıra fenol birləşmələri əmələ gəlir. $C_6–C_1$ və $C_6–C_3$ sıra fenol birləşmələrinin ayrı-ayrı nümayəndələrinin xurma meyvəsinin yetişməsində və saxlanmasında bioloji rolu az öyrənilmişdir. Bu baxımdan apardığımız tədqiqat işində fenol birləşmələrinin ayrı-ayrı nümayəndələrinin tədqiqi xüsusi yer almışdır.

Xurma meyvəsinin özünəməxsus ətrinin, dadının formalaşmasında liqnan da iştirak edir. Onun hidrolizi zamanı sərbəst $C_6–C_3$ sıra fenol birləşmələri əmələ gəlir ki, bu da xurma meyvəsinin qidalılıq dəyərinin yüksəlməsinə səbəb olur.

$C_6–C_3–C_6$ sıra fenol birləşmələri mühüm bioloji xüsusiyyətə malik olmaqla *flavanoidlər* adlandırılır. Flavanoidlərin molekulunda A və B benzol nüvəsi, bir heterotsiklik oksigen körpülü birləşmə olur. Meyvə tərəvəzlərdə bir çox flavanoidlərin bioloji rolu daha geniş öyrənilmişdir. Ancaq xurma meyvəsində isə flavanoidlər barədə az materiallar vardır. Bitki mənşəli məhsullarda geniş yayılmış flavanoidlər əsasən 6 qrupa bölünürlər: 1.Katexinlər; 2. Antosianlar; 3.Leykoantosianlar; 4. Flavononlar; 5. Flavonlar; 6.Flavonollar [1].

Katexinlər meyvələrin, o cümlədən xurmanın tərkibində daha çox olur. Bu qrup flavonoidlər xurma meyvəsinin tərkibində həm sərbəst, həm də birləşmiş şəkildə aşı maddələrinin və ya kondensləşmiş tanninlərin tərkibində olur. Ədəbiyyat materiallarının təhlilindən məlum olmuşdur ki, antosianlardan başqa xurma meyvəsinin tərkibində digər flavonoidlərə həm sərbəst, həm də birləşmiş şəkildə rast gəlinir. Xurma meyvəsi katexinlərlə daha zəngindir. Katexinlər rəngsiz kristallik maddələr olub digər flavanoidlərdən fərqli olaraq qlikozidlər əmələ gətirmirlər. Katexinin quruluşu ilk dəfə 1925-ci ildə alnman alimi Freydenberq tərəfindən verilmişdir. Onun tərkibində iki asimmetrik karbon atomu (C_2-C_3) olduğuna görə dörd izomer forması vardır.

Xurma meyvəsi yetişdikcə katexinlərdən ilk əvvəl onun lətində və toxumunda (+)katexin, (-)epikatexin, (-)hallokatexin və epikatexinhallat olur. Xurma meyvəsi tam yetişdikdə isə katexinlərin digər izoformalarına (-)epikatexinhallata, hallokatexinhallata da təsadüf olunur. Xurmanın şirəsinə nisbətən lətində, qabığında və toxumunda katexinlər

daha çox olur. Tam yetişmiş xurma meyvəsinin tərkibində katexinlərin ümumi miqdarının 50%-ni (-) hallokatexin, 15-20%-ni (+)katexin, təxminən bir o qədər də epikatexin və epikatexinhallat təşkil edir. Katexinlər xurmanın tərkibində biflavanoidlər və prosianidinlər formasında da olurlar. Ümumiyyətlə xurma meyvəsinin tərkibi flavonoidlərin nümayəndəsi olan katexinlərin ayrı-ayrı nümayəndələri ilə daha zəngindir. Katexinlərin mühüm boloji xüsusiyyətlərindən biri də onların P vitamini aktivliyinə malik olmasıdır. Bu o deməkdir ki, katexinlərlə zəngin olan xurma meyvəsinin tərkibində digər vitaminlərlə müqayisədə P vitamini daha çox olur. Bu əsas onunla əlaqədardır ki, katexinlər P vitamininin antioksidantı sayılır. Xurma meyvəsinin yetişmə müddəti ötdükdə isə katexinlər və onların ayrı-ayrı nümayəndələri spesifik fermentlərin (polifenoloksidaza, o-difenoloksidaza, katexinoksidaza, tirozinaza, peroksidaza və s.) aktivliyinin artması ilə miqdarca azalaraq tənəffüs prosesinə sərf olunurlar. Elə ona görə də xurmanın saxlanmasında yetişmə müddəti ötmüş meyvələrdən istifadə olunması məqsədəuyğun deyildir.

Xurma meyvəsinin tərkibində flavanoidlərin nümayəndəsi olan leykoantosianlara da təsadüf olunur. Bu birləşmələrə leykoantosianidinlər də deyilir. Bunların tərkibində üç asimmetrik karbon (C_2, C_3, C_4) atomu olduğuna görə onların səkkiz izoforması mövcuddur. Flavanoidlərin izomerlərinə aqlikonlar deyilir. Meyvə-tərəvəzlərdə, o cümlədən xurmada leykoantosianların əsas üç izomerinə – leykopelarquanidinə, leykosianidinə, leykodelfidinə rast gəlinir.

Apardığımız tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, fenol birləşmələri insan orqanizmi üçün çox mühüm əhəmiyyətə malikdir. Onlar orqanizm üçün enerji vermək qabiliyyətinə malik deyillər. Ancaq fizioloji təsir göstərirlər. Fenol birləşmələri canlı oraqnizmdə baş verən sintez prosesində (zülalların, fermentlərin, hormonların və s.) iştirak edirlər. Fenol birləşmələri ilə zəngin olan qida məhsulları gec oksidləşir. Mikrobioloji xəstəliklərə qarşı daha davamlı olurlar. Hətta bəzi məhsulların saxlanmasında və emalında oksidləşmə prosesinin qarşısını almaq üçün tərkibi fenol birləşmələri ilə zəngin olan məhsullardan istifadə olunur. Yuxarıda qeyd olunanlardan məlum olur ki, xurma meyvəsi insanların həyat fəaliyyəti üçün lazım olan fenol birləşmələri ilə daha zəngindir. Bu baxımdan da əhalimizin daha sağlam yaşamasını təmin etmək üçün onların gündəlik qida rasionuna fenol birləşmələri ilə zəngin meyvə-tərəvəzlər, o cümlədən xurma meyvəsinin daxil olması vacib məsələdir.

Açar sözlər: xurma meyvəsi, fenol birləşmələri, qidalılıq dəyəri.

ƏDƏBİYYAT

1. Nəbiyev Ə.Ə., Moslemzadeh E.Ə. Qida məhsullarının biokimyası. Bakı, "Elm", 2008-444 səh.
2. Fətəliyev H.K. Bitkiçilik məhsullarının saxlanması və emalı texnologiyası fənnindən praktikum / Elm, Bakı, 2013, 227 səh.
2. Həsənov Z. M., Əliyev C.M. Meyvəçilik / Bakı, MBM, 2011, 520 səh.
3. Qurbanova S.O., Nəbiyev Ə.Ə., Babayeva U.Ə. Xurma meyvəsinin yetişmə müddətindən asılı olaraq bəzi biokimyəvi göstəricilərin miqdarca dəyişmə dinamikasının tədqiqi. GDU, "Müasir biologiya və kimyanın aktual problemləri" adlı elmi-praktik konfrans, Gəncə, 2015, səh.122-125
4. Qurbanova S.O., Nəbiyev Ə.Ə. Müxtəlif xurma sortlarinda biokimyəvi göstəricilərin tədqiqi. Bakı, AMEA-nın Xəbərləri, Biol. və Tibb elmləri, c.70, №3, səh. 100-105
5. Omarov, Y., Gurbanova, S., Babayeva, U., Gasimova, A., Heydarov, E., Gasimova, G., & Nabiyev, A. (2023). Improving the storage technology of persimmon fruit (Diospyros kaki L.) In the refrigeration chamber. *Eastern-European Journal of Enterprise Technologies*, *4*(11 (124), 20–36.

ИССЛЕДОВАНИЕ ФЕНОЛЬНЫХ СОЕДИНЕНИЙ В ПЛОДАХ ХУРМЫ

Яшар Омаров
y.omarov@atu.edu.az
Севда Курбанова
gurbanova-sevda@inbox.ru
Эльнара Ахмедова
axmedovaelnare@gmail.com
Азербайджанский Технологический Университет

В статье изучены роль некоторых представителей фенольных соединений, которые очень важны для человеческого организма. Они не обладают способностью обеспечивать организм энергией, но имеют физиологический эффект. Фенольные соединения участвуют в процессах синтеза (белков, ферментов, гормонов и др.) в живых организмах. Пищевые продукты, богатые фенольными соединениями, окисляются медленно. Они более устойчивы к микробиологическим заболеваниям. Даже при хранении и переработке некоторых продуктов для предотвращения процесса окисления используются продукты, богатые фенольными соединениями. Известно, что плоды хурмы богаты фенольными соединениями, необходимыми для жизнедеятельности человека. В связи с этим для обеспечения более здоровой жизни нашего населения важно включать в их ежедневный рацион фрукты и овощи, богатые фенольными соединениями, в том числе хурму.

Ключевые слова: плоды хурмы, фенольные соединения, пищевая ценность.

STUDY OF PHENOLIC COMPOUNDS OF PERSIMMON FRUITS

Yashar Omarov
y.omarov@atu.edu.az
Sevda Gurbanova
gurbanova-sevda@inbox.ru
Elnara Akhmedova
axmedovaelnare@gmail.com
Azerbaijan Technological University

The article studies the role of some representatives of phenolic compounds that are very important for the human body. They do not have the ability to provide the body with energy. But they have a physiological effect. Phenolic compounds are involved in the synthesis processes (proteins, enzymes, hormones, etc.) in living organisms. Food products rich in phenolic compounds oxidize slowly. They are more resistant to microbiological diseases. Even when storing and processing some products, products rich in phenolic compounds are used to prevent the oxidation process. It is known that persimmon fruits are rich in phenolic compounds necessary for human life. In this regard, to ensure a healthier life for our population, it is important to include fruits and vegetables rich in phenolic compounds, including persimmon, in their daily diet.

Key words: persimmon fruits, phenolic compounds, nutritional value.

QİDALANMA VƏ EKOLOJİ PROBLEMLƏR

Sevda Əhmədova[1]
sevda_axmedova@inbox.ru
Əhəd Nəbiyev[2]
ahad.nabiyev@mail.ru
Afət Qasımova[3]
a.qasimova@atu.edu.az
Gəncə Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2,3]

Ekoloji təhlükəsizlik - insanın həyati baxımdan vacib ekoloji maraqlarının mühafizəsidir. İlk növbədə hər bir insanın təmiz, sağlam, əlverişli ətraf mühitə sahib olmaq hüququ vardır, hansı ki, təbiətin və insanın təsərrüfat fəaliyyətinin birgə balanslaşdırılmış mövcudluğu ilə əldə oluna bilər. Yəni ətraf mühitə təsir edən yükləmə onun bərpa olunma gücündən artıq olmamalıdır. Hal-hazırda bəşəriyyətin rahat və təhlükəsiz inkişafı üçün təhlükə ətraf mühitin əlverişsiz vəziyyətindən qaynaqlanır və insan və cəmiyyətin qarşıqlı münasibətlərindən, insanların ayrı-ayrı fəaliyyət növlərinin ətraf mühitə təsir dərəcəsindən asılı olur. Bununla əlaqədar olaraq istehlak və istehsala insanın həyat fəaliyyətinin sosial prosesləri kimi nəzər yetirmək tələb olunur.

Ətraf mühit təbiətin bütün komponentlərini əhatə edir: hava, su, torpaq, flora və fauna, yeraltı sərvətlər [1]. Təbii ehtiyatlar ölkənin iqtisadi potensialının tərkib hissəni təşkil edir, onlar bir çox hallarda ölkənin beynəlxalq əmək bölgüsündə yerini müəyyənləşdirir. İstehsal miqyası genişləndikcə onların iqtisadiyyatda rolu yüksəlir, bu da sərvətlərin tükənməsinə və neqativ halların yaranmasına gətirib çıxarır. Ətraf mühitin bərpa olunmayan dəyişiklikləri bəşəriyyətin sonrakı mövcudluğunu və Yer kürəsində həyatın qorunub saxlanmasını təhlükə altına qoyur.

Qida təhlükəsizliyi – insan sağlamlığına zərər yetirə biləcək maddələrinin qida məhsullarına keçməsinin qarşısını alan proses və fəliyyətlərdir. Qida məhsullarının təhlükəsizliyi, istehalk üçün zərərsiz qida məhsullarının alınmasına istiqamətlənmişdir. Qida məhsullarının təhlükəsizliyinin yüksəldilməsi istiqamətində beş əsas prinsip rəhbər tutulur: təmizliyə riayət etmək; çiy məhsulları termiki emaldan keçən məhsullardan kənada saxlamaq; Məhsulları ciddi termiki emala məruz qoymaq; məhsulları təhlükəsiz temperaturda saxlamaq; təhlükəsiz sudan və təhlükəsiz xammaldan istifadə etmək.

Qida məhsullarının və xammalın təhlükəsizliyi onların tərkibində olan mikroorqanizmlərin sayına və həyat fəaliyyəti məhsullarının miqdarına, kimyəvi və bioloji təbiətli maddələrin sayına görə qiymətləndirilr.

Qida məhsulları aşağıdakı hallarda çirklənmələrə məruz qalır: bitkiçilikdə pestisidlərdən, gübrələrdən, suvarma sularından, bərk və maye sənaye tullantılarından, kommunal və başqa sulardan, təmizləyici qurğuların çöküntülərindən istifadə zamanı gigiyenik qaydaların pozulması; heyvandarlıqda və quşçuluqda istifadəsi qadağan edilən əlavələrin, konservantların, boy tənzimləyicilərinin, dərman preparatlarının istifadəsi və ya istifadəsinə icazə verilən dərmanların artıq dozada tətbiqi; havadan, sudan, torpaqdan toksiki maddələrin, o cümlədən radionukleidlərin daxil olması; qida məhsullarına toksiki maddələrin avadanlıqlardan, qab-qacaqdan, inventardan, taradan, qablaşdırma materiallarından keçməsi, hansı ki, qadağan edilən polimer, rezin, metal və başqa materiallardan hazırlanmışdır; xammal və hazır məhsulun istehsal texnlogiyasında və saxlanmasında sanitariya qaydalarına əməl edilmədikdə, bu zaman bakterial toksinlərin əmələ gəlməsinə şərait yaranır; qida məhsullarının və ərzaq xammalının istifadəsinə icazə verilməyən rəngləyicilərlə, antioksidləşdiriclərlə çirklənməsi və ya onlardan yüksək miqdarda istifadə edildikdə [2].

Qida əlavələrinin istifadəsini asanlaşdırmaq məqsədilə Avropa Şurası onların rəqəmlə kodlaşdırma sistemini işləyib hazırlamışdır. Hər bir qida əlavəsinə əvvəli E hərfi ilə başlayan üç və dördrəqəmli nömrə verilmişdir.

Bu rəqəmlər finksional siniflərin adları ilə birlikdə istifadə olunurlar, və qida əlavələrinin texnoloji funksiyasına görə qrupunu əks etdirirlər. E hərfi işarəsi və identifikasiya nömrəsinin aydın izahı vardır, belə ki, o konkret maddənin təhlükəsizliyə görə yoxlanmış olmasını, həmin qida əlavəsi üçün tövsiyyələrin işlənib hazırlanmasını və təmizlik meyarlarının müəyyən edilməsini göstərir.

Qida əlavələri və Bioloji aktiv maddələr (BAM) arasında prinsipial fərq vardır. Hal-hazırda qidada istifadə olunan qiymətli əlavələr – amerikan həyat tərzinin nöbəti ideyasıdır. Hər gün televiziyadan və dövrü mətbuat səhifələrindən belə preparatların reklamı gedir və insanları inandırmağa çalışırlar ki, müxtəlif xəstəliklərin müalicəsində və profilaktikasında istifadəsi məqsədəuyğundur. BAM istehsalçıları və təbliğatçıları yeni məhsulların mövcudluğunu onunla izah edirlər ki, müasir insanların qidası onun həyat fəaliyyəti üçün lazımi vitamin, mineral və s. maddələri vermir [3].

Qida əlavələri çoxluq təşkil edir və insanlar uzun illərdir onlardan istifadə edir, ancaq düşünmürlər ki, alimlər balıq yağı, kətan toxumu yağı, arıçılıq məhsulları, fermentləşdirilmiş süd çubuqları, cücərmiş buğda və soya, yosunlar, itburnu ekstraktı və s. digər bitkilər üçün belə adlar qoymuş və insanlar da uzun illərdir ki, onlardan təhlükəsiz şəkildə istifadə edirlər.

Minlərlə BAM vardır. Hər bir insan bu maddələrdən rahatlıqla istifadə edir, belə ki, vitaminlər də bioloji aktiv əlavələrə aiddir. Həkimlər hesab edirlər ki, bioəlavələr hər kəsə lazımdır. Ancaq xırda bir nüansı nəzərə almaq lazımdır ki, hər bir fərdin öz əlavəsi olmalıdır. Məsələn, hamilə qadınlara fol turşusu, uşaqlara-yod, siqaret çəkənlərə E və C vitamini, ahıl insanlara zülal və doymamış yağ turşuları və s.

Beləliklə, aparılan araşdırmalardan aydın olur ki, ekoloji tarazlığın pozulması insan orqanizminə də təsir edir, ona görə də qidada yaranan disbalansı optimallaşdırmaq üçün bioəlavələrdən istifadə çıxış yolu hesab oluna bilər.

Açar sözlər: ekoloji təhlükəsizlik, ətraf mühit, qidalanma, qida əlavələr, bioloji aktiv maddələr.

ƏDƏBİYYAT

1. Məmmədov Q. Ekologiya və ətraf mühit. Bakı, Elm, 2004, 504 s.
2. Варфоломеева В.В., Терентьев А.В. Современная экология. Самара: Издательство Самарского университета, 2023, 68 с.
3. Беспалов В.Г., Некрасов В.Б. Биологически активные добавки к пище и возможности их использования в профилактической медицине. Российский медико-биологический вестник имени академика И.П.Павлова. №3-4, 2001, с. 196-201

ПИТАНИЕ И ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

Севда Ахмедова[1]
sevda_akhmedova@inbox.ru
Ахад Набиев[2],
ahad.nabiev@mail.ru
Афет Касумова[3]
a.qasimova@atu.edu.az
Гянджинский Государственный Университет[1],
Азербайджанский Технологический Университет[2,3]

Экологическая безопасность – состояние защищенности жизненно важных экологических интересов человека, прежде всего его прав на чистую, здоровую, благоприятную для жизни окружающую природную среду, возникающее при достижении сбалансированного сосуществования окружающей природной среды и

хозяйственной деятельности человека, когда уровень нагрузки на природную среду не превышает ее способности к самовосстановлению. В настоящее время угроза для безопасности и комфортного существования и развития человека начинает исходить от неблагоприятного состояния окружающей среды, которое зависит от процесса взаимоотношения природы и общества, степени воздействия на среду определенных видов деятельности человека. В последнее время в питании человека встречаются недостатки жизненно важных веществ, поэтому для восполнения рациона питания важно использовать биологически активные добавки.

Ключевые слова: экологическая безопасность, окружающая среда, питание, пищевые добавки, биологически активные добавки.

NUTRITION AND ENVIRONMENTAL PROBLEMS

Sevda Akhmedova[1],
sevda_akhmedova@inbox.ru
Ahad Nabiyev[2],
ahad.nabiev@mail.ru
Afet Gasimova[3]
a.qasimova@atu.edu.az
Ganja State University[1],
Azerbaijan Technological University[2,3]

Environmental safety is a state of protection of vital environmental interests of a person, first of all, his rights to a clean, healthy, favorable for life environment, arising when achieving a balanced coexistence of the environment and human economic activity, when the level of load on the natural environment does not exceed its ability to self-heal. At present, the threat to the safety and comfortable existence and development of a person begins to come from the unfavorable state of the environment, which depends on the process of interaction between nature and society, the degree of impact on the environment of certain types of human activity. Lately, there have been deficiencies of vital substances in human nutrition, so it is important to use biologically active supplements to replenish the diet.

Key words: environmental safety, environment, nutrition, food additives, biologically active supplements.

MEYVƏ-TƏRƏVƏZ XAMMALININ BİFİDOGEN XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

Müşfiq Aslan oğlu Xəlilov
fmim@list.ru
Fuad Xəqani oğlu Yusifov
fuadyusifov36@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Pro- və prebiotik xüsusiyyətlərə malik qida məhsulları istehsalının genişləndirilməsi insan orqanizmi üçün ekoloji təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir. Bu nöqteyi-nəzərdən aparılan tədqiqatların nəticəsi olaraq demək olar ki, prebiotiklər arasında pektin maddələri xüsusi çəkiyə malikdirlər. Və əsasən də aşağı eterləşmə quruluşlu pektinlər daha yaxşı effektivlik göstərirlər [1].

Məhz meyvə-tərəvəz əsaslı içki və desertin hazırlanması alkoqolsuz məhsul çeşidlərinin artırılmasına xidmət edir, belə ki, bunlar insan orqanizminin bifidogen təsirə malik maddələrlə zənginləşdirilməsində mühüm rol oynayırlar. Seçilmiş meyvə-tərəvəz (heyva və uğundur) xammalının prebiotik xüsusiyyətlərini araşdırmaq üçün onların südlə qarışdırılmış nümunələrinin (25 % xammal, 75 % süd) fermentasiyası aparılmışdır. Proses-

dən əvvəl qarışıq pasterizə edilmiş, soyudulmuş (37 ^{0}C-yə qədər) və üzərinə 5 % miqdarında probiotik maya əlavə edilməklə 10 saat müddətində fermentasiyaya (şəkil 1) məruz qalmışdır [2, 3].



Şəkil 1. Meyvə-tərəvəz püreləri üçün titrlənən turşuluğun fermentasiya müddətindən asılılığı

Tədqiqatın nəticəsi olaraq şəkil 1-ə əsasən demək olar ki, südə meyvə-tərəvəz xammalının daxil edilməsi fermentasiyanı sürətləndirir və bü özünü heyva və yerkökü püresində daha qabarıq şəkildə biruzə verir. Belə ki, nəzarət üçün götürülmüş süd nümunəsində 4 saatdan sonra titrlənən turşuluq 40 ^{0}T olduğu halda, heyva püresi 60 ^{0}T, yerkökü üçün isə 55 ^{0}T göstəricisinə malik olur. Bu, xammalın pektin maddələri ilə zənginliyi ilə bağlıdır.

Açar sözlər: bifidogen, prebiotik, probiotik.

ƏDƏBİYYAT

1. Agnan Marie. Enzymatic production of pectic oligosaccharides from polygalacturonic acid with commercial pectinase preparations / Agnan Marie et al. //Food and bioproducts processing. – 2012. – №90. – P. 588–596.
2. Огнева О.А. Десерты функционального назначения с использованием молочной сыворотки / О.А. Огнева, Л.В. Донченко // IX Межд. науч. конф. «Современная наука: актуальные проблемы и пути их решения». Липецк, 2014. – С. 38-40.
3. https://studfile.net/preview/8981051/page:19/

ИССЛЕДОВАНИЕ БИФИДОГЕННЫХ СВОЙСТВ ПЛОДООВОЩНОГО СЫРЬЯ

Мушфиг Аслан оглы Халилов
fmim@list.ru
Фуад Хагани оглы Юсифов
fuadyusifov36@gmail.com
Азербайджанский Технологический Университет

Расширение производства продуктов питания с про- и пребиотическими свойствами имеет большое значение с точки зрения экологической безопасности для организма человека. В результате исследований можно сказать, что пектиновые вещества имеют особый вес среди пребиотиков. И главным образом пектины с низкой структурой этерификации показывают лучшую эффективность.

Именно приготовление напитков и десертов на плодоовощной основе служат увеличению ассортиментов безалкогольной продукции, так как они играют важную роль в обогащении организма человека веществами, оказывающими бифидогенное действие. Ферментацию этих образцов в смеси с молоком (25 % сырья, 75 % молока) проводили с целью исследования пребиотических свойств выбранного плодоовощного сырья (айвы и свеклы). Перед процессом смесь пастеризовали,

охлаждали (до 37 ^{0}C) и ферментировали в течение 10 часов с добавлением 5 % пробиотических дрожжей.

Ключевые слова: бифидоген, пребиотик, пробиотик.

STUDY OF BIFIDOGENIC PROPERTIES OF FRUIT AND VEGETABLE RAW MATERIALS

Mushfig Aslan oglu Khalilov,
fmim@list.ru
Fuad Khagani oglu Yusifov
fuadyusifov36@gmail.com
Azerbaijan Technological University

The expansion of production of food products with pro- and prebiotic properties is of great importance in terms of environmental safety for the human body. As a result of research, it can be said that pectin substances have a special weight among prebiotics. And mainly pectins with a low esterification structure show better efficiency.

It is the preparation of fruit and vegetable-based drinks and desserts that serve to increase the range of non-alcoholic products, as they play an important role in enriching the human body with substances that have a bifidogenic effect. Fermentation of these samples in a mixture with milk (25 % raw materials, 75 % milk) was carried out in order to study the prebiotic properties of the selected fruit and vegetable raw materials (quince and beetroot). Before the process, the mixture was pasteurized, cooled (to 37 ^{0}C) and fermented for 10 hours with the addition of 5 % probiotic yeast.

Keywords: bifidogenic, prebiotic, probiotic.

NARDAN YENİ ÇEŞİDDƏ KONSERV MƏHSULUNUN HAZIRLANMASI TEXNOLOGİYASI

Mehriban Sahib qızı Aslanova,
aslanovamehriban@gmail.com
Yasər Yalçın oğlu İbrahimov
yaseribrahimov96@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Giriş. Müasir dövrdə emal və qida sənayesinin qarşısında duran əsas məsələlərdən biri əhalinin yüksək keyfiyyətli və iqtisadi cəhətdən əlverişli qida məhsulları ilə təmin olunmasından ibarətdir. Bu sahədə aparılan mühüm işlərdən biri yeni konserv çeşidlərinin hazırlanmasıdır. Bu çeşidlər həm istehsal sadəliyinə, həm də keyfiyyət, qidalılıq dəyəri və iqtisadi baxımdan əvvəlki çeşidlərdən üstün olmalıdır.

Vətəni Ön Asiya və Azərbaycan sayılan narın mədəni və yabanı sortlarından şirə, şərbət, ekstrakt, narşərab, nardaşa, şirə ilə bərabər şəkər qarışığından dadlı və gözəl içki-qrenadin istehsal olunur. Bu məhsulların kimyəvi tərkibi müxtəlifdir[1].

İşin məqsədi. Apardığımız tədqiqat işimizin əsas məqsədi Azərbaycanda yetişdirilən nar sortlarından yeni çeşiddə konserv çeşidinin hazırlanmasıdır. Bu çeşid “Şəkərdə nar dənələri” adlanır.

Tədqiqatın obyekti və metodikası. Tədqiqat obyekti olaraq Göyçay və Tərtər rayonlarında yetişdirilən nar sortlarından Azərbaycan Güleyşəsi nar sortu götürülmüşdür. Bu sortlardan yeni məhsul hazırlanmışdır. Hazırlanmış yeni məhsulun keyfiyyətinin qiymətləndirilməsi üçün onun nar şirəsi və nar ekstraktı ilə müqayisəi aparılmışdır. Aparılmış analizlər müasir tədqiqat metodlarına əsasən yerinə yetirilmişdir.

İşin aparılması və müzakirəsi. Nar meyvələrinin tərkibinə daxil olan maddələrin miqdarı onun sortundan, yetişdirildiyi iqlim şəraitindən, bağlarda aparılan aqrotexniki

tədbirlərin keyfiyyətindən asılıdır. Nar şirəsinin tərkibində 76-78% su, 14-21%-dək şəkərlər, 3-4% turşular, 3%-dək yağ, 1,5%-dək protein olması müəyyən olunmuşdur[2]. Müəyyən olunmuşdur ki, nardan hazırlanan yuxarda adları qeyd olunan məhsullarda istilik emalı nəticəsində C vitamininin miqdarı kəskin azalır, meyvənin ilkin təbii xüsusiyyətləri aradan çıxır. Bunun nəticəsi olaraq alınan məhsulun qismən əmtəəlik keyfiyyətləri aşağı düşür(ətri, rəngi dəyişir)[3]. Hazırladığımız yeni çeşiddə bu çatışmamazlıqları aradan qaldırmağa müvəffəq olmuşuq. Yeni çeşidin əsas xüsusiyyəti ondan ibarətdir ki, hazır məhsuldan təmiz meyvə ətri gəlir, gözəl xarici görünüşə malikdir. Ən əhəmiyyətlisi də odur ki, bu məhsulda C vitamininin miqdarı müqayisə üçün götürülmüş digər məhsullara nisbətən artıq olmuş, rəng maddələrinin miqdarı əhəmiyyətli miqdarda saxlanmışdır.

Tədqiqat üçün Göyçay və Tərtər rayonlarında yetişdirilən nar sortlarından Azərbaycan Güleyşəsi nar sortlarından istifadə etmişik. Əvvəlcə narın və şəkərin hansı nisbətdə qarışdırılmasını müəyyən etmişik. Bundan sonra hazır məhsulun nə qədər müddətdə və hansı temperaturda sterilizasiya olunmasını müəyyənləşdirmişik.

İlkin tədqiqat işləri üçün 4 ədəd 200ml-lik qablarda yeni çeşiddən- "Şəkərdə nar dənələri" hazırladıq və onun kimyəvi tərkibini öyrəndik. Hazırladığımız məhsulun digər məhsullarla (nar şirəsi, nar ekstraktı) ilə müqayisəli ekspertizasını apardıq[4].

Tədqiqat işimizin ilkin müqayisəli nəticələri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1

Çeşidin adı	Rəngi	Quru maddənin miqdarı,%-lə	Ümumi turşuluq, %-lə	Rəng maddələri, mq/dm^3-lə	C vitamini-nin miqdarı, mq%-lə	Mineral maddələr, %-lə
Nar şirəsi	Tünd qırmızı	17,1	2,26	2969,06	4	0,305
Nar ekstraktı	Tünd qəhvəyi	42,6	12,7	1731,09	-	1,184
Şəkərdə nar dənələri	Parlaq qırmızı	31,6	3,1	3302,75	6	0,311

Nəticə. "Şəkərdə nar dənələri"ni hazırlamaqda məqsədimiz nar şirəsi və nar ekstraktına nisbətən bu çeşiddə C vitamininin miqdarını qismən sabit saxlamaq, nar meyvəsinin ilkin təbii xüsusiyyətlərini, onun tərkibində olan mineral maddələrin miqdarını saxlamaqdır. Yeni çeşid öz keyfiyyətinə və qidalılıq dəyərinə görə nar şirəsi və nar ekstraktından üstündür.

Hazırladığımız yeni çeşid əmtəə görünüşü cəhətindən olduqca gözəl məhsul olaraq alınmışdır. 15 gündən artıq saxlanma müddəti ərzidə heç bir neqativ hal baş verməmişdir. Bu onu göstərir ki, sterilizasiya rejimi düzgün seçilmiş, nar dənələrinin və şəkərin miqdarı verilən həcm üçün düzgün müəyyənləşdirilmişdir. Bütün bunlar isə analizlərin son nəticələrinin qənaətbəxş olduğunu göstərir.

Açar sözlər: nar, sort, fiziki-kimyəvi göstəricilər.

ƏDƏBİYYAT

1. Aslanova M.S., Nəbiyev Ə.Ə. Nar sortlarının müxtəlif üsullarla saxlanmasının tədqiqi / Monoqrafiya. Bakı: Ecoprint nəşriyyatı, -2023, -186 s.

2. Aslanova M.S., Əliyeva F.İ. Azərbaycanda bölgələr üzrə yetişdirilən nar sortlarının əsas keyfiyyət göstəricilərinin müqayisəli təhlili // The XXXV International Scientific Symposium

"Mahmud Kashgari: Common Heritage of the Turkic World" Amsterdam / Holland: -The 25th of February 2023, - s. 262-267.
3. Aslanova M.S. Müxtəlif nar sortlarından tullantısız texnologiyalı nar şirəsi alınmasının tədqiqi. The XXXII International Scientific Symposium “Turk's Victory: from Chanakkale to Karabakh”. Kars -Eskishehir / Turkey: - The 26 th of November 2022, -s. 339-342.
4. Aslanova M.S. Nardan şəkərdə nar dənələrinin hazırlanması. “Nizami Gəncəvi yaradıcılığında vətən məhəbbəti” mövzusunda Respublika elmi konfransı. Lənkəran Dövlət Universiteti 29 oktyabr, Lənkəran: -2021, -s. 120-124.

ТЕХНОЛОГИЯ ПРОИЗВОДСТВА НОВЫХ ВИДОВ КОНСЕРВОВ ИЗ ГРАНАТА

Мехрибан Сахиб кызы Асланова
aslanovamehriban@gmail.com
Ясар Ялчин оглы Ибрагимов
yaseribrahimov96@gmail.com
Азербайджанский Технологический Университет

В качестве объекта исследования из сортов гранаты, выращиваемых в Гейчайском и Тертерском районах, был взят Азербайджанская Гулейша. На основе этих сортов был разработан новый продукт. Чтобы оценить качество нового продукта, его сравнили с гранатовым соком и экстрактом граната. Новый сорт превосходит гранатовый сок и экстракт граната по своим качествам и пищевой ценности. За период хранения более 15 дней отрицательных случаев не выявлено. Все это свидетельствует о том, что окончательные результаты анализов являются удовлетворительными**.**

Ключевые слова: гранат, сорт, физико-химические свойства.

TECHNOLOGY FOR THE PREPARATION OF A NEW VARIETY OF POMEGRANATE CANNED PRODUCTS

Mehriban Sahib kizi Aslanova
aslanovamehriban@gmail.com
Yasar Yalchin oglu Ibrahimov
yaseribrahimov96@gmail.com
Azerbaijan Technological University

Azerbaijani Guleysha was taken as the object of the study from the pomegranate varieties grown in the Goychay and Terter regions. A new product was developed based on these varieties. In order to evaluate the quality of the new product, it was compared with pomegranate juice and pomegranate extract. The new variety surpasses pomegranate juice and pomegranate extract in its quality and nutritional value. No negative cases were detected during the storage period of more than 15 days. All this indicates that the final analysis results are satisfactory**.**

Keywords: pomegranate, variety, physico-chemical property.

ВЛИЯНИЕ ТРИТИКАЛЕВОЙ МУКИ И ОТРУБЕЙ В ТЕХНОЛОГИИ ХЛЕБОБУЛОЧНЫХ ИЗДЕЛИЙ

Бадамшина Е.В.[1]
evbadamshina@bk.ru
Леонова С.А.[2]
leonova@inbox.ru
Никулина Н.Ш.[3]
Nelya8787@mail.ru
к.т.н., ведущий научный сотрудник аналитической лаборатории БНИИСХ УФИЦ РАН, г. Уфа, Россия[1];
д.т.н., профессор кафедры технологии общественного питания и переработки растительного сырья ФГБОУ ВО Башкирский ГАУ, г. Уфа, Россия[2];
к.б.н., доцент кафедры технологии общественного питания и переработки растительного сырья ФГБОУ ВО Башкирский ГАУ, г. Уфа, Россия[3].

Введение. Расширение ассортимента и повышение качества продукции - важнейшие проблемы хлебопекарной отрасли. Использование нетрадиционных видов сырья, совершенствование технологии, повышение пищевой и биологической ценности изделий находятся в приоритете, поскольку позволяют насытить рынок разнообразной, в том числе специализированной и функциональной, продукцией и удовлетворить запросы разных групп потребителей. Одним из важных направлений является разработка рецептур изделий из муки тритикале.

Тритикале сорта Башкирская короткостебельная селекции Башкирского НИИСХ относится к высококачественным сортам, предназначенным для продовольственного использования [1]. Тритикалевую муку готовили самостоятельно в лабораторных условиях. Зерно подвергали гидротермической обработке, муку получали на лабораторной вальцовой мельнице А1-МЛП-4, способной обеспечивать 70% выход муки высшего сорта (по пшенице).

В технологиях хлеба широко используют различные виды нетрадиционного сырья [2-5]. Нередко применяют концентраты квасного сусла и их аналоги. Солодовый экстракт «Мальт Экстракт» представляет собой непрозрачную вязкую густую жидкость темно-коричневого цвета. В состав входит тритикале, ржаной ферментированный солод, солод светлый ячменный пивоваренный, солод ржаной неферментированный, вода. Рекомендуется вносить экстракт в муку при замесе теста в соответствии с рецептурой. Учитывая состав сырья, используемого при производстве экстракта и его химический состав, проведены испытания по влиянию «Мальт экстракта» и тритикалевой муки на свойства хлеба.

Результаты исследования и обсуждение. В качестве базовой рецептуры был взят батон с осолодованными хлопьями. Рецептуры приведены в таблице 1.

Таблица 1- Опытные рецептуры батонов

Наименование сырья	Контроль	Замена хлопьев на отруби	Без «Мальт экстракта»	Тритикалевая мука, %			
				25	50	75	100
Опара: Мука пшеничная х/п в/с	50,00	50,00	50,00	37,50	25,00	12,50	-
Мука тритикалевая	-	-	-	12,50	25,00	37,50	50,00
Дрожжи сухие инстантные	1,00						

Вода 28-30 °С	30,00						
Замачивание: 15-20 мин Осолодованные пшеничные хлопья	4,00	-					
Ячменные хлопья	8,00	-					
Тритикалевые отруби	-	12,00					
Вода 20-30 °С	20,00	20,00					
Тесто: Мука пшеничная х/п в/с	38,00	38,00	38,00	28,50	19,00	9,50	-
Мука тритикалевая	-	-	-	9,50	19,00	28,50	38,00
Соль пищевая	1,90						
Дрожжи сухие инстантные	1,00						
Сахар белый	4,50						
Молоко сухое	2,00						
КПД «ЛТ Мягкость»	0,5						
Масло подсолнечное	3,00						
Экстракт солодовый «Мальт Экстракт»	2,00	2,00	-	2,00			
Вода 16-18°С	7,00	7,00	7,00	7,00			

Внешний вид образцов батонов в разрезе по вариантам опыта приведен на рисунке 1.





Рисунок 1 - Внешний вид образцов батонов по вариантам (1- контроль, 2- с заменой осолодованных хлопьев на тритикалевые отруби, 3- без «Мальт Экстракта», 4- 25% тритикалевая мука, 5- 50% тритикалевая мука, 6- 75%, 7- 100% тритикалевая мука).

Внесение тритикалевой муки отразилось на свойствах батонов. В таблице 2 показаны результаты дегустационной оценки изделия по вариантам.

Таблица 2- Органолептическая оценка образцов батонов

Показатели качества изделия	Оценка, баллы	Оценка с учётом весомости, баллы						
		Кон-троль	Без «Мальт экстрак-та»	Замена ячменных и пшеничных хлопьев на трикалевые отруби	25%	50%	75%	100%
Внешний вид: форма	1-5	4,5	4,83	4,66	4,58	4,66	4,16	3,83
Состояние поверхности корки	1-5	4,33	4,5	4,16	4,33	4,33	4,33	4,08
Окраска корок	1-5	4,66	4,5	4,33	4,33	4,5	4,08	4
Цвет мякиша	1-5	4,58	4,33	4,33	4,66	4,66	4,08	3,5
Структура пористости	1-5	4,5	4,66	4,16	4,33	4,5	3,58	3,33
Вкус	1-5	4,5	4,5	4,8	4,66	4,91	4,16	4,16
Аромат (Запах)	1-5	4,66	4,66	4,5	4,66	4,66	4	4
Разжевываемость мякиша	1-5	4,58	4,66	4,66	4,5	4,66	4,16	4,16
Средний балл		4,54	4,58	4,45	4,51	4,61	4,07	3,88

Наиболее высокую оценку дегустаторов получили батоны с 50% количеством тритикалевой муки.

Мякищ батона подвергли определению реологических свойств на структурометре СТ-1. Кривые деформации показаны на рисунке 2.



Рисунок 2 а - Деформация мякиша батона с заменой осолодованых хлопьев на тритикалевые отруби и с 50% муки тритикале



Рисунок 2 б - Деформация мякиша образца хлеба контрольного образца (без «мальт экстракта»)

Графики позволяют видеть, что деформация мякиша с 50 % муки тритикале и добавлением мальтэкстракта несколько возрастает по сравнению с батоном, приготовленным по контрольной рецептуре. Это свидетельствует о лучших реологических свойствах мякиша, что подтверждают и результаты определения отношения высоты к диаметру (табл. 3). При этом пористость практически не менялась.

Таблица 3 - Физико-химические показатели батонов

Наименование показателя	кон-троль	Замена пшеничных и ячменных хлопьев на тритикалевые отруби	Без «Мальт экстракта»	Тритикалевая мука,%			
				25	50	75	100
Пористость, %	26,0	26,0	26,0	26,0	26,0	26,0	26,0
H/D	1.3	1,3	1,3	1,27	1,37	1,16	1.16
Кислотность, град	2,1	2,4	2,0	2,3	2,5	3,0	3,5

Выводы. Увеличение дозировки тритикалевой муки в рецептуре способствует возрастанию кислотности, однако при внесении свыше 50 % снижает вкусовые достоинства хлебобулочных изделий. Исходя из вышеизложенного, следует признать оптимальным вариант с 50 % заменой.

В результате проведенных экспериментов разработан сорт батонов с использованием тритикалевых отрубей, а также из смеси пшеничной муки высшего сорта, тритикалевой муки из сорта Башкирская короткостебельная с добавлением «Мальт экстракта». Установлено, что применение солодового «Мальт экстракта» позволяет повысить органолептические, физико-химические и реологические свойства готовых изделий.

Ключевые слова: хлеб, мука тритикале, отруби, солодовый экстракт, деформация мякиша.

ЛИТЕРАТУРА

1. Бадамшина Е.В., Ишбердина Р.Р., Леонова С.А., Гареева И.Т. Сравнительная оценка показателей качества и безопасности зерна тритикале нового сорта Башкирская 3 и сорта Башкирская короткостебельная трех селекционных линий: АД 46332, АД 63248 и АД 63938 // Хлебопродукты. – 2020. – № 9. – С. 34-36.
2. Дмитриев А.А., Малец А. И., Сорокин С. С. [и др.]. Использование смеси из нетрадиционных видов муки в производстве хлебобулочных изделий// Сурский вестник. – 2019. – № 1(5). – С. 13-17.
3. Калмыков, П.Н. Исследование функционального назначения тритикалевой муки / П.Н. Калмыков, О.Г. Попова, В.А. Попова // Тритикале и его роль в условиях нарастания аридности климата: мат-лы меж-дунар. науч.- практ. конф. – Ростов - на - Дону, - 2012. - С.194-200.
4. Пащенко, Л. П. Использование тритикале в хлебопечении / Л.П. Пащенко [и др.] // Известия вузов. Пищевая технология. - 2001. - № 2-3. - С. 110-113.
5. Leonova S., Koshchina E., Kalugina O., Gareeva I., Badamshina E., Leshchenko N. Triticale flour in bakery and rusk products // Food Science and Technology International. - 2021. - С 3273.

TRİTİKALE UNU VƏ KƏPƏYİNİN ÇÖRƏK MƏHSULLARI TEXNOLOGİYASINA TƏSİRİ

Badamshina E.V.[1]
evbadamshina@bk.ru
Leonova S.A.[2]
leonova@inbox.ru
Nikulina N.Ş.[3]
Nelya8787@mail.ru
Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun analitik laboratoriyası, Ufa, Rusiya[1]
Başqırd Dövlət Aqrar Universiteti, İctimai iaşə və tərəvəz xammalının emalı texnologiyası kafedrası Ufa, Rusiya[2]
Başqırd Dövlət Aqrar Universitetinin İctimai iaşə və tərəvəz xammalının emalı texnologiyası kafedrası, Ufa, Rusiya[3]

Çörəklər tritikale kəpəkindən, həmçinin yüksək dərəcəli buğda unundan, Səməni ekstraktı əlavə edilmiş Başqırd qısastar sortundan tritikale unu qarışığından hazırlanmışdır. Müəyyən edilmişdir ki, səməni "Səməni ekstraktı"nın istifadəsi hazır məhsulların orqanoleptik, fiziki-kimyəvi və reoloji xüsusiyyətlərini yaxşılaşdıra bilər.

Açar sözlər: çörək; tritikale unu, kəpək, Səməni ekstraktı, qırıntı deformasiyası.

THE INFLUENCE OF TRITICALE FLOUR AND BRAN IN BAKERY TECHNOLOGY

Badamshina E.V.[1]
evbadamshina@bk.ru
Leonova S.A.[2]
leonova@inbox.ru
Nikulina N.Sh.[3]
Nelya8787@mail.ru
Analytical Laboratory of the Institute of Economics of the Russian Academy of Sciences, Ufa, Russia[1]
Department of Technology of Public Catering and Processing of Vegetable Raw Materials, Bashkir State Agrarian University, Ufa, Russia[2]
Department of Technology of Public Catering and Processing of Vegetable Raw Materials, Bashkir State Agrarian University, Ufa, Russia[3]

Loaves have been developed using triticale bran, as well as from a mixture of premium wheat flour, triticale flour from the Bashkir short-stemmed variety with the addition of "Malt extract". It has been established that the use of malt Malt extract makes it possible to increase the organoleptic, physico-chemical and rheological properties of finished products.

Key words: loaves; triticale flour, bran, Malt Extract, crumb deformation.

MEYVƏ VƏ TƏRƏVƏZ ŞİRƏLƏRİNDƏN KUPAJ ÜSULU İLƏ YENİ ŞİRƏNİN HAZIRLANMA TEXNOLOGİYASI

Əhəd Əli oğlu Nəbiyev
e.nebiyev@atu.edu.az
Vəli Fuad oğlu İbrahimov
v.ibrahimov2002@cloud.com
Rəşidə Rəşid qızı Əliyeva
r.aliyeva@uteca.edu.az
İnarə Əli qızı Kazımova
kazimovainara@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Bütün dünya üzrə aktual mövzulardan biri əhalinin fasiləsiz olaraq qida məhsullarına artan tələbatlarını qarşılamaq məqsədilə istehsalın effektivliyini və intensivliyini təmin etməkdir. İnsanların sağlamlığı üçün onları ekoloji cəhətdən təmiz olan, bitki mənşəli ərzaqlarla, eyni zamanda təbii olaraq hazırlanmış şirələrlə təmin etmək vacib məsələlərdən biridir.

Bu səbəblərlə ölkəmizin bir çox rayonlarında yetişdirilmiş meyvə-tərəvəzlərdən istifadə olunmaqla məhsul və şirələr hazırlanılır. Təbiətdən əldə edilən təmiz meyvə-tərəvəzlərin tərkibləri insan orqanizmi tərəfindən asan mənimsənilə bilən üzvi və qeyri-üzvi maddələrlə zəngin olur. Onlar isə orqanizmdə maddələr mübadiləsinin baş verməsində önəmli rol oynayırlar.

Meyvə və tərəvəzlərin əkilib becərilməsi üçün ölkəmiz əlverişli iqlim şəraitlərinə malikdir. Bundan başqa ölkəmizin inkişafı nəticəsində yaradılmış zavodlar və laboratoriyalar lazımı və təkmilləşdirilmiş texnologiyalara sahibdirlər. Onlar nəticəsində də alma meyvəsi və yerkökü tərəvəzindən alınmış şirələri kupaj üsulu ilə müəyyən nisbətdə qarışdıraraq ekoloji cəhətdən təmiz, keyfiyyətli və rəqabətə davamlı şirə hazırlanması insanların sağlamlığı baxımından çox faydalıdır. Tədqiqatlara əsasən, kupaj üsulu ilə hazırlanmış şirələrdə xeyli sayda insan orqanizmi üçün faydalı müxtəlif fenol birləşmələr, sərbəst qlükoza və fruktoz, yetərincə üzvi turşular, o cümlədən yod və onun qidalılıq üçün dəyərini təyin edən digər komponentlər vardır.

Kupaj olunmuş şirələr, əsas şirənin qidalılıq, rəng və dad kimi əsas xüsusiyyətlərini artırmaq üçün başqa meyvə və tərəvəz şirələri ilə qarışdırılmasından əldə olunur. Bu zaman şirənin tərkibi göstəriciləri də kondisiyaya uyğunlaşdırılaraq tənzimlənir. Kupaj üsulu ilə şirə hazırlamaq üçün istifadə olunan alma şirəsinin tərkibində çoxlu miqdarda orqanizm tərəfindən asan mənimsənilən qida komponentləri vardır. Belə ki, alma şirəsinin tərkibi karbohidratlar, fermentlər, üzvi turşular, mineral duzlar, zülal maddələri, vitaminlər və sair qida komponentləri ilə zəngin olmağına baxmayaraq, onun tərkibində insan orqanizmi üçün faydalı olan β-karotin yox dərəcəsindədir [1, 2].

Yerkökü şirəsinin tərkibində əsas maddə isə insan orqanizmində A vitamininə (retinol) çevrilən β-karotindir. β-karotin insan orqanizmi üçün əhəmiyyətli bir maddədir. Çünki insan orqanizmində A vitamininin yeganə və tək mənbəyidir. A vitamini insan orqanizmində çatışmadıqda insanlarda stress, yorğunluq və ən əsası isə korluq (gecə korluğu) əmələ gəlir. Bu da öz növbəsində insan sağlamlığı üçün böyük bir risk faktorunu özlüyündə əks etdirir [3].

Qeyd etmək lazımdır ki, hər bir şirənin ayrı-ayrılıqda özünə məxsus spesifik xüsusiyyəti vardır. Aparılmış analizlərin təhlilindən məlum olmuşdur ki, alma meyvəsi və yerkökü tərəvəzindən hazırlanmış şirələrin tərkibi üzvi və qeyri-üzvi maddələrlə zəngindir. Belə ki, alma şirəsinin tərkibi üzvi turşularla, mineral maddələrlə, fermentlər, yerkökü şirəsi isə β-karotinlə zəngindir. Ayrılıqda bu şirələri qəbul etmək insan orqanizmi üçün o qədər də faydalı deyildir.

Beləliklə, β-karotinlə zəngin olan yerkökü şirəsini üzvi turşular, mineral maddələr və digər qida komponentləri ilə zəngin olan alma şirəsi ilə müəyyən nisbətdə kupaj üsulu ilə qarışdıraraq insan orqanizmi üçün daha faydalı şirə hazırlamaq müasir dövrdə məqsədə uyğun hesab edilir.

Açar sözlər: kupaj olunmuş şirələr, β-karotin, üzvi turşular.

ƏDƏBİYYAT

1. Sadıqov Ə.N., Sadıqova N.M. Azərbaycanda alma bitkisi. "Səda" nəşr., Bakı: - 2005. - s. 9.
2. Липская С.Л. Биохимический состав плодов яблони. Плодоводство. Т.19, Минск: 2007. - с. 81.
3. Surles, R., Weng, N., Simon, P. W., and Tanumihardjo, S. A. 2004 Carotenoid Profiles and Consumer Sensory Evaluation of Specialty Carrots of Various Colors. Journal of Agricultural and Food Chemistry.

ТЕХНОЛОГИЯ ПРИГОТОВЛЕНИЯ НОВОГО СОКА ИЗ ФРУКТОВЫХ И ОВОЩНЫХ СОКОВ МЕТОДОМ КУПАЖИРОВАНИЯ

Ахад Али оглы Набиев
e.nebiyev@atu.edu.az
Вели Фуад оглы Ибрагимов
v.ibrahimov2002@cloud.com
Рашида Рашид гызы Алиева
r.aliyeva@uteca.edu.az
Инара Али гызы Кязимова
kazimovainara@gmail.com
Азербайджанский Технологический Университет

В настоящее время считается целесообразным смешивание морковного сока, богатого β-каротином, с яблочным соком, богатым органическими кислотами, минеральными веществами и другими питательными компонентами, в определенном соотношении методом купажа для приготовления более полезного для организма человека сока.

Ключевые слова: купажные соки, β-каротин, органические кислоты.

NEW JUICE PREPARATION TECHNOLOGY FROM FRUIT AND VEGETABLE JUICE BY COUPAGE METHOD

Ahad Ali oglu Nabiyev
e.nebiyev@atu.edu.az
Veli Fuad oglu Ibrahimov
v.ibrahimov2002@cloud.com
Rashida Rashid gizi Aliyeva
r.aliyeva@uteca.edu.az
Inara Ali gizi Kazimova
kazimovainara@gmail.com
Azerbaijan Technological University

Mixing carrot juice rich in β-carotene with apple juice rich in organic acids, mineral substances and other nutritional components in a certain ratio using the coupage method to prepare a more useful juice for the human body is considered appropriate in modern times.

Key words: coupage juices, β-carotene, organic acids.

ПРИМЕНЕНИЕ СУШЕНЫХ ПЛОДОВ ШИПОВНИКА В ХЛЕБОБУЛОЧНОМ ИЗДЕЛИИ

Е.И. Кощина
E.I.Koshchina
koshchina65@mail.ru
Н.Ш. Никулина
N.S. Nikulina
nelya8787@mail.ru
ФГБОУ ВО Башкирский ГАУ, Уфа, Россия
Bashkir state agrarian university, Ufa, Russia

Введение. В последнее время идет тенденция к обогащению продуктов питания различными активными веществами растительного происхождения. Шиповник, являясь растительным сырьем, идеально подходит для этой цели. Хлеб всегда в нашей стране пользуется большим спросом среди разных слоев населения, от высшего к низшему. Современный потребитель при покупке хлеба, наиболее большему значению уделяет срокам годности, полезности и внешнему виду продукции, запаху, вкусу. Ведь сенсорное восприятие или по-другому органолептические показатели, наиболее важные фактор для человека, с точки зрения качества и безопасности. Сенсорный анализ в хлебе позволяет определить ароматические оттенки и текстуру изделий [1-3]. Для проведения сенсорного анализа не требуется дорогостоящего оборудования, приборов, реактивов и он не трудоемок по времени. Данный вид анализа пищевой продукции проводится посредством дегустаций, т. е. исследований, осуществляемых с помощью органов чувств специалиста дегустатора, поэтому сенсорная оценка в определенной степени субъективна. Чтобы оставаться востребованным и конкурентоспособным на рынке производства продуктов питания многие производители идут на использование улучшителей качества продукции путем использования различных добавок и применения витамизированного сырья.

Плоды шиповника идеально подходят так как содержат витамины С, В4, Е, В3, В5, -каротин, для внесения в рецептуру пшеничного хлеба для придания внешнего вида, что не маловажно при зрительном восприятии, так как большинство информации человека получает с помощью зрения. Запах — это второй существенный показатель качества продаваемой продукции и ее свежести.

Шиповник в процессе роста и формирования плода выделяет очень благоприятный и фруктовый аромат, что ощущается при заваривании и выпечке хлеба. В народной медицине в большинстве случаев, плоды шиповника используют в качестве источника витаминов в лечении простудных заболеваний, укрепления иммунной системы [4].

Объекты исследования. Выбор сушеных плодов шиповника обусловлен доступностью и низкой себестоимостью сырья, а также наличием в их составе большого количества витаминов и антиоксидантов, относящихся к разным классам химических соединений. В исследовании использовали плоды шиповника от производителя ООО «Витачай». Порошок, получаемый измельчением сушеных плодов шиповника, добавляли при замесе в тесто в различной дозировке. Выявили оптимальную дозу добавки порошка шиповника, путем пробных лабораторных выпечек и оценке органолептических показателей готовых изделий согласно ГОСТ Р 58233-2018 Хлеб из пшеничной муки. Технические условия.

В качестве контрольного образца была взята рецептура хлеба пшеничного без внесения добавки. Выброженное тесто делили на куски, укладывали в формы и отправляли на расстойку, а затем выпекали.

Исследование порошка шиповника. В ходе исследования на биологически активные вещества порошка шиповника проведены исследования на содержание антоцианов и каротиноидов. Антоцианы являются природными соединениями, придающие окраску. Установлено, что количество антоцианов составило 12,87 % [4]. Каротиноиды – растительные пигменты, обладающих биологической активностью и антиоксидантными свойствами [4]. Проведено исследование определения β-каротина в исследуемом образце шиповника. Результат составил 8 мг % [5]. Оценку органолептических показателей проводили путем дегустации на факультете пищевых технологий Башкирского ГАУ. Результаты представлены на рисунке 1 и в таблице 1.

Рисунок 1 - Органолептическая оценка качества хлеба пшеничного с добавлением порошка шиповника

В результате анализа полученных данных, приведенных на рисунке 1, определили оптимальный вариант добавления порошка шиповника в хлебобулочные изделия. Им оказалась изделие с дозировкой 6 % порошка шиповника. В результате анализа полученных данных, приведенных на рисунке 1, определили оптимальный вариант добавления порошка шиповника в хлебобулочные изделия. Им оказалась изделие с дозировкой 6 % порошка шиповника.

Таблица 1 - Влияние порошка шиповника на органолептические показатели

качества хлебобулочных изделий

Показатель	Контроль	Доза добавки, %				
		2 %	4 %	6 %	8 %	10 %
Внешний вид	Форма правильная, гладкая поверхность					
Пористость	Равномерная				Близкая к тонкостенной	
Цвет мякиша	Светло-желтый	Золотистый			Коричневый	
Вкус	Свойственный, без постороннего	С едва уловимым легким привкусом	Ощущается вкус шиповника			Выражен кислый вкус
Запах	Свойственный, без постороннего	Шиповника				

Из таблицы видно, что по органолептическим показателям образец с дозировкой 6 % оказался самым оптимальным.

С целью оценки биологической ценности хлеба определили содержание каратиноидов в готовом продукте. В качестве оптимального образца был взят на анализ образец с содержанием 6 % порошка шиповника хлеб пшеничный из муки высшего сорта. В результате анализа хлебобулочного изделия фотометрическим методом было выявлено что образец с дозировкой добавки 6 % порошка шиповника содержит 1,06 мг/100 г β-каротина.

Выводы. Установлено, что введение порошка шиповника улучшает качество хлебобулочного изделия. Оптимальной дозировкой на основе проводимых опытов и результатов дегустационной оценке стал образец с внесением добавки порошка шиповника 6 % от массы муки, приводит к повышению качества хлеба пшеничного по органолептическим и физико-химическим показателям, снижению крошковатости, при добавлении в хлеб пшеничный порошок шиповника, влажность изделий снижается, что объясняется присутствием в добавке пищевых волокон. Хлеб пшеничный приобретает светло-кремовый цвет и более равномерный интенсивный окрас корок, а также фруктовый аромат шиповника. Шиповник позволяет обогатить хлеб пшеничный за счет содержания витаминов, каротиноидов и железа. Идентифицируется процесс брожения. Биологически активные вещества входящие в состав порошка шиповника повышают пищевую ценность хлеба и улучшают функциональные свойства благодаря увеличению содержания витамина С и каротина. Применение в производстве хлеба пшеничной муки и порошка шиповника позволяет расширить ассортимент мучных изделий и повысить качество продукта.

Ключевые слова: хлебобулочное изделие, мука пшеничная, сушеные плоды шиповника, пористость, влажность, антоцианы, каротиноиды, крошковатость, витамины.

ЛИТЕРАТУРА

1. Багаутдинов И.И. Современные технологии продуктов питания. Сборник научных статей международной практической конференции. Ответсвенный редактор Горохов А.А., 2014.-с.16

2. Заграничная, А. Д. Оценка условной крахмалистости зернового сырья

Республики Башкортостан / А. Д. Заграничная, О. Ю. Калужина, А. С. Нигматзянов // Наука молодых – инновационному развитию АПК: материалы XVI Национальной научно-практической конференции молодых ученых, Уфа, 14 ноября 2023 года. – Уфа: Башкирский государственный аграрный университет, 2023. – С. 236-240. – EDN PGAQDB.

3. Заграничная, А. Д. Перспективы ультразвуковой обработки зерна / А. Д. Заграничная, А. Р. Нафикова // Продукты питания: производство, безопасность, качество: материалы международной научно-практической конференции, Уфа, 21 февраля 2024 года. – Уфа: Башкирский государственный аграрный университет, 2024. – С. 153-156. – EDN EPSFHB.

4. Багаутдинов, И. И. Сахарное печенье и Кексы, обогащенные плодами шиповника майского / И. И. Багаутдинов, А. Н. Гусев, О. Ю. Калужина // Вестник КрасГАУ. – 2024. – № 5(206). – С. 192-198. – DOI 10.36718/1819-4036-2024-5-192-198. – EDN NVNQUJ. Лукин, А.А.

QURUMUŞ İTBURNU MEYVƏLƏRİNİN ÇÖRƏK MƏMULATLARINDA TƏTBİQİ

E.İ. Koşçina
koshchina65@mail.ru
N.S. Nikulina
nelya8787@mail.ru
Başqırd Dövlət Aqrar Universiteti, Ufa, Rusiya

Məqalədə qurudulmuş itburnu meyvələrinin buğda çörəyinin orqanoleptik keyfiyyət göstəricilərinə təsirinin öyrənilməsi təqdim olunur.

6% qurudulmuş itburnu meyvəsini əlavə edilməsinin çörəyin məhsuldarlığına müsbət təsiri aşkar edilmişdir: məhsulun dadı və aroması yaxşılaşır, məsamə strukturu inkişaf etmiş qalır və məhsulların görünüşü və forması nəzarət nümunəsinə nisbətən pisləşmir.

Açar sözlər: çörək məhsulları, buğda unu, itburnu meyvə qurusu, məsaməlilik, nəmlik, antosiyaninlər, karotenoidlər, xırdalanma, vitaminlər.

APPLICATION OF DRIED ROSE HIPS IN BAKERY PRODUCTS

E.I.Koshchina
koshchina65@mail.ru
N.Sh. Nikulina
nelya8787@mail.ru
Bashkir State Agrarian University, Ufa, Russia

The article presents a study of the effect of dried rosehip fruits on the organoleptic quality indicators of wheat bread. The positive effect of adding 6% of dried rosehip fruits on bread indicators was revealed: the taste and aroma of the product improves, while the porosity structure remains developed and the appearance and shape of the products do not deteriorate relative to the control sample.

Key words: bakery product, wheat flour, dried rosehip fruits, porosity, moisture, anthocyanin, carotenoids, crumbiness, vitamins.

TOKAY TİPLİ ŞƏRABLARIN İSTEHSALINDA KARBOHİDRATLARIN ROLU

Afaq Bağırzadə
afaqbagirzade8@gmail.com
Əhəd Nəbiyev
ahad.nabiyev@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Vətəni Macarıstan Respublikası olan və "Kral şərabı" adlanan Tokay tipli şirin desert şərabları xüsusi texnologiya əsasında hazırlanır. Bu şərab ilk dəfə Macarıstanın Tokay şəhərində istehsal olunduğuna görə, elə adı da bu şəhərin şərəfinə adlandırılmışdır. Tokay şərabları orqanoleptiki göstəricilərinə görə sarı samanı, açıq nar və ya çay rənginə, qarışıq gül ətrinə, bal təravətinə, müxtəlif meyvələrin iyinə, azacıq yandırılmış çörək ətrinə malik olması ilə səyiyyələndirilir [1,3].

Macar texnologiyasına əsasən Tokay tipli şərab hazırlamaq üçün istifadə olunan ağ və qırmızı üzüm sortlarının salxımları tənək üzərində burularaq müəyyən müddət soluxdurulur, sonra emal edilir. Burada əsas məqsəd üzüm gilələrinin tərkibində suyun buxarlanması hesabına şəkər faizini süni olaraq artırmaqdır. Əvvəlcədən soluxdurulmuş üzüm gilələrində şəkər 40-42% arasında olmalıdır. Tokay tipli şərab hazırlamaq üçün üzüm şirəsinin qıcqırması təbii yolla spirt və digər inqrediyentlər əlavə etmədən aparılır. Qıcqırma prosesində şirədə 14-16 h.% arasında spirt əmələ gəldikdə qıcqırma prosesi təbii olaraq dayanır. Şərab materialının tərkibində həm spirt, həm də təbii şəkər qalır. Hazırlanmış Tokay şərab materialı müxtəlif texnoloji əməliyyatlardan keçdikdən sonra təmizlənmiş, steril palıd tutumlarda (çəllək) saxlanılır.

Tədqiqat obyekti kimi Samux rayonu ərazisində yetişən texniki ağ Rkasiteli, qırmızı Kaberne–Sovinyon üzüm sortlarından istifadə edilmişdir. Qeyd olunan üzüm sortları digər texniki üzüm sortlarına nisbətən yüksək şəkər toplama qabiliyyətinə malikdirlər.

Tədqiqatın əsas məsələsi keyfiyyətli, dünya standartlarına cavab verə biləcək Tokay tipli şərab istehsal etmək üçün seçilmiş üzüm sortlarının tərkibində şəkərləri tədqiq etməkdən ibarətdir. Tokay tipli şərabların istehsalında sadə şəkərlərin nümayəndəsi olan qlukozaya nisbətən fruktozanın çox olması bu şərab materialının keyfiyyətinə çox yaxşı təsir göstərə bilər.

Tədqiqat işində istifadə olunan üzüm sortlarında ümumi şəkər, qlükoza və fruktoza standart metodlardan istifadə edilərək müəyyən edilmişdir.

Tokay tipli şərablar şirin desert şərablar təsnifatına aiddir. Tokay şərabı istehsalında istifadə olunan üzüm sortları yüksək təbii şəkərliyə malik olmalıdır. Hazırladığımız Tokay tipli şərab şirin desert şərablarına aiddir, tərkibində təbii olaraq 16-20% şəkər olmalıdır. Üzümün əsas keyfiyyət göstəricisi şəkərlərdir [6].

Ədəbiyyat materiallarının araşdırılmasından məlum olmuşdur ki, üzümün tərkibində 80-dən artıq şəkərlər və ya karbohidratlar vardır [2]. Apardığımız tədqiqat işinin təhlilindən məlum olmuşdur ki, üzüm təbii şərab hazırlamaq üçün alternativi olmayan yeganə xammaldır. Şərab hazırlamaq üçün xammalda dörd əsas komponentin lazımi qədər olması mütləqdir. Əks halda şərabın özünəməxsus ətri, dadı, spesifikliyi, dolğunluğu, kondisiyaya uyğunluğu və digər faydalı qida komponentlərinin olması mümkün deyildir. Keyfiyyətli şərab istehsalı üçün ilk növbədə keyfiyyətli də xammalın, yəni üzümün tərkibində tələb olunan qədər şəkər, ümumi turşuluq, fenol birləşmələri və az miqdarda pektin maddələrinin olması vacibdir [7]. Ümumi şəkər həm qıcqırma üçün, həm də şərab materialının tərkibində qalıq şəkərin saxlanması üçün istifadə olunur. Heteropolisaxaridlərin nümayəndəsi olan pektin maddələrinin şərabda az olması onun keyfiyyətinə müsbət təsir göstərir. Pektin maddələri kolloid hissəcik olduğuna görə, şərabın bulanlıqlığına səbəb olur [4,5]. Bundan başqa, şərabda yüksək toksiki təsirə malik metil spirtinin əmələ gəlməsi pektin maddələrinin hidrolizi ilə əlaqədardır. Pektin ilə zəngin olan üzüm sortlarından yüksək

keyfiyyətli şərab hazırlamaq mümkün deyildir. Bu əsas onunla əlaqədardır ki, üzümün tərkibində pektin maddələri miqdarca çox olduqda, şərabda fermentativ hidroliz nəticəsində metil spirtinin miqdarı yüksək olmaqla yanaşı onun şəffaflığına da təsir edir. Ona görə də, şərab istehsalında üzümün yetişmə dərəcəsinə xüsusi olaraq fikir verilməlidir. Belə ki, üzüm yetişdikcə onun tərkibində pektin maddələri get-gedə azalır. Şərab istehsalı üçün tam yetişmiş üzümdən istifadə olunması daha məqsədəuyğundur. Yetişmiş üzümlə müqayisədə yetişməmiş üzümün tərkibində pektin maddələri çox olur.

Üzümün tərkibində sortdan asılı olaraq 0,5-4,5%-ə qədər saxaroza olur. Ədəbiyyat materiallarının araşdırmasından məlum olmuşdur ki, tünd şərablarla müqayisədə süfrə şərablarının tərkibində demək olar ki, saxaroza olmur. Üzümün və şərabın tərkibində çox az miqdarda maltozaya, rafinozaya və digər oliqosaxaridlərə də təsadüf olunur.

Üzüm giləsinin formalaşmasında və yetişməsində polisaxaridlərin mühüm əhəmiyyəti vardır. Belə ki, üzüm giləsi formalaşdıqda gilənin tərkibində polisaxaridlər nisbətən çox olur. Üzüm yetişdikcə polisaxaridlər hidroliz olunaraq oliqosaxaridlərə və monosaxaridlərə çevrilirlər.

Şərab istehsalında polisaxaridlərin nümayəndəsi olan pektin maddələrinin həm bioloji, həm də texnoloji xüsusiyyətləri mövcuddur. Üzüm şirəsi əzinti ilə birgə qıcqırdıqda spesifik fermentlərin (protopektinaza, poliqalaktronaza, pektinesteraza, pektaza və s.) təsiri ilə sadə şəkərlərə çevrilir. Bu zaman şirə çıxımının 1-3%-ə qədər artma ehtimalı çoxalır. Ona görə də, son zamanlar üzüm şirəsinin əzinti ilə birgə qıcqırmasından əvvəl əzintiyə daha çox multiferment kompleksi əlavə olunur. Burada əsas məqsəd polisaxaridlərin monosaxaridlərə çevrilməsinə nail olmaqdan və istifadə olunan ferment preparatlarının təsirindən şərab materialında kolloid hissəciklər əmələ gətirə biləcək polisaxaridləri miqdarca azaltmaqdan, şərab materialının daha tez şəffaflaşmasına, onun uzun müddət stabil qalmasına nail olmaqdan ibarətdir.

Tokay tipli şərabların hazırlanmasında karbohidratların xüsusi rolu vardır. Şərab demək olar ki, karbohidratların məhsuludur. Keyfiyyətli Tokay tipli şərab hazırlamaq üçün üzümün yetişmə dərəcəsinə də fikir vermək lazımdır.

Karbohidratlar şərabın dadının, ətrinin stabilliyinin əldə olunmasında mühüm rol oynayırlar. Şərabın tərkibini təşkil edən karbohidratlar fiziki təsirə və biokimyəvi çevrilmələrə uğrayaraq, yeni maddələrin əmələ gəlməsinə səbəb olur ki, bu da şərabın dadına, dolğunluğuna, rənginə, keyfiyyətinə müsbət təsir göstərir.

Açar sözlər: ümumi şəkər, qlükoza, fruktoza, Rkasiteli, Kaberne-Sovinyon.

ƏDƏBİYYAT

1. Fətəliyev H.K. Qidalanma və sağlamlıq. Bakı: Elm, 2023. 384 s.
2. Nəbiyev Ə.Ə. Şərabın kimyası. Bakı: Elm, 2010, 472 s.
3. Fətəliyev H.K., Heydərov E.E. Süfrə şərablarının müasir texnologiyası. Bakı: 2017. 336s
4. Кишковский З.Н. Технология вина. Москва: ЛиПП, 1984, 504 с.
5. Omarov Y.A., Gasimova A.A., Nabiev A.A Study of pectinesterase enzyme activity in grape varieties used for the production of tokay wines International Scientific and Practical Conference «Scientific advances and innovative approaches». Tokyo. Japan: February 23-24, 2023, p. 5-7**.**
6. Bagirzadeh A., Omarov Y., Hacıyeva A. Improvement of the production technology of tokay wines based on the revealed effect of enzyme activity on the quality of grape variety. Eastern-European Journal of Enterprise Technologies, 2023. Vol. 2(11 (122)) , p.49-62
7. Omarov Y.A., Haydarov E.E., Ismayilov M.T., Gasimova A.A., Cavadov M.M., Nabiyev A.A. Improvement of technology for producing wine material for tokay. Eastern-European Journal of Enterprise Technologies, 1/11 (127), 2024, p.-52-63.

РОЛЬ УГЛЕВОДОВ В ПРОИЗВОДСТВЕ ВИН ТИПА ТОКАЙ

Афаг Багирзаде
afaqbagirzade8@gmail.com
Ахад Набиев
ahad.nabiyev@mail.ru
Азербайджанский Технологический Университет

Вино токайского типа относится к сладким десертным винам, в нем естественно должно содержаться 16–20 % сахара. Сахара являются основным показателем качества винограда. Важным условием при производстве токайского вина является повышенное содержание сахара в сырье. Сорта винограда, используемые для производства токайского вина, должны иметь высокое содержание натуральных сахаров. Низкое содержание в вине пектиновых веществ, являющихся представителями гетерополисахаридов, положительно сказывается на его качестве. Поскольку пектиновые вещества представляют собой коллоидные частицы, обусловливающие мутность вина. Кроме того, образование в вине высокотоксичного метилового спирта происходит за счет гидролиза пектиновых веществ.

Ключевые слова: общий сахар, глюкоза, фруктоза, Ркацители, Каберне-Совиньон

THE ROLE OF CARBOHYDRATES IN THE PRODUCTION OF TOKAJI-TYPE WINES

Afag Bagirzade
afaqbagirzade8@gmail.com
Ahad Nabiyev
ahad.nabiyev@mail.ru
Azerbaijan Technological University

Tokaji wine is a sweet dessert wine, it should naturally contain 16-20% sugar. Sugars are the main indicator of grape quality. An important condition for the production of Tokaji wine is the increased sugar content in the raw materials. Grape varieties used for the production of Tokaji wine should have a high content of natural sugars. Low content of pectin substances in wine, which are representatives of heteropolysaccharides, has a positive effect on its quality. Since pectin substances are colloidal particles that cause turbidity of wine. In addition, the formation of highly toxic methyl alcohol in wine occurs due to the hydrolysis of pectin substances.

Key words: total sugar, glucose, fructose, Rkatsiteli, Cabernet Sauvignon.

ÇÖRƏK MƏMULATLARININ HAZIRLANMASI ÜÇÜN TRİTİKALE UNUNUN ÜSTÜN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

Fatma İsmayıl qızı Əliyeva
fatma.aliyeva.1@mail.ru
Mehriban Sahib qızı Aslanova
aslanovamehriban@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Dövlət siyasətinin prioritet istiqaməti sağlam qidalanma sisteminin formalaşdırılması və həyata keçirilməsi olmalıdır.Bu gün enerji və zülal mənbəyi kimi tanınan taxıl qədim zamanlardan bəri insanların ən çox istifadə etdiyi qida məhsullarından biridir. Bütün dövlətlər kifayət qədər taxıl istehsal edərək öz ehtiyaclarını ödəməsi və sonra ixrac baxımından inkişaf etməsi böyük əhəmiyyət kəsb edir. Buna görə də yeni alternativ məhsullar yetişdirmək, yetişdirilən məhsulların məhsuldarlığını artırmaq və məhsulların satış strategiyasını hazırlamaq vacibdir. Çörək- kökə məmulatları əsas qida məhsullarından biridir və normal insan fəaliyyəti üçün gərəkli olan qida maddələri, o

cümlədən zülallar, karbohidratlar, lipidlər, vitaminlər, mineral maddələr və qida lifləri ilə zəngindir[3]. Çörək istehsalı üçün əsasən buğda və çovdar unundan istifadə olunur[3].

Tritikale ilk dəfə 19-cu əsrin sonlarında Şotlandiya və Almaniyada laboratoriyalarda yetişdirilmiş buğda (Triticum) və çovdarın (Secale) hibrididir. Alman seleksiyaçısı V.Rimpau [Alman] 1888-ci ildə ilk dəfə buğdanı çovdarla çarpazlaşdırmaqla buğda-çovdar hibridi olan tritikale əldə etmişdir. Son illər bu dənli bitki növü kommersiya baxımından əlverişli bir məhsula çevrilib.

Tritikale yüksək məhsul potensialı və əsas amin turşuları (lizin, triptofan) ilə artan protein tərkibi ilə xarakterizə olunan yeni taxıl məhsuludur. Bu, onun qidalanma və yem üstünlüklərini müəyyənləşdirir. Protein tərkibi buğdadan 1-1,5%, çovdardan isə 3-4% yüksəkdir. Qlutenin tərkibi buğdadan 3-4% yüksəkdir, lakin keyfiyyəti aşağıdır.

Tritikale iki müxtəlif cinsin - buğda və çovdarın xromosom komplekslərini birləşdirərək əldə edilən yeni botanika cinsidir[2]. Bu, təbiətdə analoqu olmayan yeganə mədəni bitkidir.

Tritikale nişasta, spirt və un istehsalı üçün əla xammaldır. Tritikaledə nişastanın miqdarı 70-74%-ə çata bilər. Xaricdə, məsələn, Belarusiyada kultura fermentasiya istehsalında (pivə, qida və texniki məqsədlər üçün spirt) fəal şəkildə istifadə olunur.

Tritikale çörəyi həcmcə buğdadan aşağı, çovdardan üstündür, lakin qida dəyərinə görə həm buğdadan, həm də çovdardan üstündür. Müalicəvi, profilaktik və pəhriz əhəmiyyəti olan çörək bütöv üyüdülmüş tritikale taxılının çörək unundan əldə edilir. Aşağıdakı göstəricilərə malikdir: xüsusi həcm 2,43 və 2,36 sm^3/q, məsaməlilik 58 və 56%, turşuluq 3,0 və 3,6 dərəcə, lizin və triptofanın tərkibi tam buğda unundan hazırlanan çörəkdən 2% yüksəkdir.

Tədqiqatın məqsədi. Tritikale ununun çörək-bulka məmulatlarının istehsalında istifadə edilməsinin üçün keyfiyyət göstəricilərinin araşdırılmasıdır. Çörək məmulatlarında istifadə üçün uyğun keyfiyyəti yüksək olan resepturanın hazırlanma qaydasını tədqiq etməkdir.

Son illər yüksək məhsuldarlığa malik, xəstəliyə və soyuğa qarşı davamlı olan tritikale dənli bitkisinə maraq artmışdır. Tritikale ununun tərkibində mineral maddələr, A, C, E, zülal, nişasta və əvəz olunmayan aminturşular vardır[1].

Tritikale unundan çörək istehsalında istifadəsi daha çox araşdırılsa da ondan peçenye, krekerlərin, kekslərin və başqa qənnadı məmulatlarının hazırlanmasında istifadə edilir[1].

Tritikale taxılında çovdar və buğdadan daha çox makro və mikroelementlər var. Tərkibində çoxlu mis, fosfor, kalium, maqnezium, kalsium, natrium, sink, manqan və dəmir, həmçinin B9, B5, B1, PP və E vitaminləri var. Tritikale unundan hazırlanan çörək liflə zəngindir və çox qidalıdır. Toksinləri və tullantıları aradan qaldırmağa kömək edir. Tritikale unundan tez hazırlanan səhər yeməklərində və maddələr mübadiləsi xəstəliklərindən əziyyət çəkən şəxslər üçün pəhriz çörəklərinin hazırlanmasında istifadəsi məsləhətlidir.

Tritikale dəninin texniki göstəriciləri, buğda bitkisinin göstəricilərinin səviyyəsinə tam çata bilmir. Buna görə də çörək- kökə və unlu qənnadı məmulatlarının hazırlanmasında buğda ununun qarışığından da istifadə edilir.

Beləliklə, qeyd etmək lazımdır ki, tərkibində yüksək bioloji aktiv maddələr olan qeyri-ənənəvi bitki xammalından və ondan istehsal olunmuş məhsuldan səmərəli istifadəyə, yəni profilaktik qidalanma üçün nəzərdə tutulmuş çörək və unlu qənnadı məmulatları texnologiyalarının yaradılmasına yönəlmiş tədqiqatlar aktualdır.

Tədqiqatın aparılması. Tədqiqat Azərbaycan Texnologiya Universitetinin laboratoriyasında aparılmışdır. Tədqiqatda tritikale ununun orqanoleptiki və fiziki -kimyəvi metodlardan istifadə edərək keyfiyyət göstəriciləri təyin olunmuşdur.

Tritikale ununun keyfiyyət göstəriciləri

Göstəricilərin adı	Miqdarı
Nəmliyin kütlə payı, %	14,6
Kleykovinanın kütlə payı,%	27
Kül maddənin miqdarı,%	0,53
Unun ağlığı	52
Düşmə ədədi, san	115

Nəticə. Aparılan tədqiqatlar nəticəsində məlum oldu ki, tritikale unu tərkibinə görə buğda və çovdar unundan üstündür. Tritikale unundan çörək-kökə istehsalında, qənnadı məmulatları və pəhriz yeməklərinin hazırlanmasında istifadə etmək olar.

Açar sözlər. Tritikale, buğda, çovdar, çörək, məsaməlilik, amin turşuları, nişasta.

ƏDƏBİYYAT

1. Bayramov E.Ə.,Qasımova A.A.Unun çörəkbişirmə xassələri və onların təyin edilməsi.Bakı: -Ecoprint, -2019, -140s.
2. Целевое использование продуктов переработки зерна тритикале Бадамшина Е.В., к.т.н.[1], Леонова С.А., д.т.н.[2], Иванова Ю.С.[1]. Тритикале. Материалы заседания секции тритикале ОСХН РАН он-лайн «Тритикале. Селекция, генетика, агротехника и технологии переработки сырья» 9 июня 2020 г. Ростов-на-Дону: -2021, -281с.
3. Tritikale unu ve gam kullanımının ekmeğin bazı kalite özellikleri üzerine etkisi.The effect of triticale flour and gum usage on some quality characteristics of bread Seda Coşkun Tuğan, Halis Gürbüz Kotancilar, Kimya Seyyed Cheraghi, Pınar Civelek Gıda Mühendisliği Bölümü, Ziraat Fakültesi, Atatürk Üniversitesi, Ata Gida dərgisi, Erzurum, Türkiye: -2022. -34s.

ИССЛЕДОВАНИЕ ВЫСШИХ ПОКАЗАТЕЛЕЙ МУКИ ТРИТИКАЛЕ ДЛЯ ВЫПЕЧКИ ХЛЕБОБУЛОЧНЫХ ИЗДЕЛИЙ

Фатьма Исмаил кызы Алиева
fatma.aliyeva.1@mail.ru
Мехрибан Сахиб кызы Асланова
aslanovamehriban@gmail.com
Азербайджанский Технологический Университет

Тритикале – новый ботанический род, полученный путем объединения хромосомных комплексов двух разных родов – пшеницы и ржи. Это единственное культурное растение, не имеющее аналогов в природе.

Тритикале – новая зерновая культура, отличающаяся высоким потенциалом урожайности и повышенным содержанием белка и незаменимых аминокислот (лизина, триптофана). Это определяет его пищевые и кормовые предпочтения. Содержание белка на 1-1,5% выше, чем у пшеницы и на 3-4% выше, чем у ржи. Содержание клейковины на 3-4% выше, чем у пшеницы, но качество ниже.

Технические показатели зерна тритикале не могут в полной мере достичь уровня показателей растения пшеницы. Поэтому смесь пшеничной муки используют и при приготовлении хлеба и мучных кондитерских изделий.

Ключевые слова. Тритикале, пшеница, рожь, хлеб, пористость, аминокислоты, крахмал.

INVESTIGATION OF SUPERIOR QUALITY INDICATORS OF TRITICALE FLOUR FOR THE PREPARATION OF BAKERY PRODUCTS

Fatma Ismayil gizi Aliyeva
fatma.aliyeva.1@mail.ru
Mehriban Sahib gizi Aslanova
aslanovamehriban@gmail.com
Azerbaijan Technological University

Triticale is a new botanical genus obtained by combining the chromosomal complexes of two different genera - wheat and rye. It is the only cultivated plant that has no analogues in nature.

Triticale is a new cereal crop characterized by high yield potential and increased protein content with essential amino acids (lysine, tryptophan). This determines its nutritional and feed preferences. The protein content is 1-1.5% higher than wheat and 3-4% higher than rye. The content of gluten is 3-4% higher than wheat, but the quality is lower.

2. Габдрахимова, А.А. Перспектива применения различных функциональных ингредиентов в рецептуре мучных кондитерских изделий / А. А. Габдрахимова, А. А. Черненкова, Е.И. Кощина // Наука молодых – инновационному развитию АПК: материалы XI Национальной научно-практической конференции молодых ученых, Уфа / Башкирский государственный аграрный университет. Том Часть II. – Уфа: Башкирский государственный аграрный университет, 2018. – С. 114-118.
3. Каримова, А.Ф. Изучение применения тыквенного сока в производстве молочных продуктов / А. Ф. Каримова, И. В. Миронова, Н. Ш. Исхакова // Состояние, проблемы и перспективы производства и переработки сельскохозяйственной продукции: Материалы Международной научно-практической конференции, посвященной 10-летию факультета пищевых технологий / ФГОУ ВПО "Башкирский государственный аграрный университет", факультет пищевых технологий, кафедра технологии мяса и молока. – Уфа: Башкирский государственный аграрный университет, 2011. – С. 270-273.
4. Мусин, А.А. Современные тенденции в пищевой промышленности: монография / А.А. Мусин. - Казань: Казанский университет, 2019. - 187 с.
5. Improving sugar cookie recipe with functional properties / A. Chernenkova, S. Leonova, E. Kuznetsova [et al.] // Agriculturae Conspectus Scientificus. – 2020. – Vol. 85, No. 2. – P. 159-174.

QLÜTENSİZ XAMMAL İLE KƏSMİK RESEPTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İ.T. Qarayeva
inzira_shra@mail.ru
A.S. Niqmatsyanov
almas.nigmatzyanov@mail.ru
Başqırd Dövlət Aqrar Universiteti, Ufa, Rusiya

Məqalədə terapevtik, pəhriz və uşaq qidası üçün kəsmik reseptinin təkmilləşdirilməsi haqqında məlumat verilir. Dondurulmuş.qurudulmuş banan xəmir üçün əsas kimi seçilmişdir. Buğda ununu 0-dan 100% - ə qədər banan unu ilə əvəz edən məhsullar üçün reseptlər hazırlanmışdır, 100% əvəzedici məhsul orqanoleptik göstəricilərə görə ən yüksək bal toplamışdı. 100% dəyişdirmə ilə nəzarət və prototipin doldurulması üçün hazırlanmış xəmir strukturometrdəki struktur və mexaniki xüsusiyyətləri öyrənilmişdir. Deformasiya üçün lazım olan maksimum qüvvəni 360 q, 1,5 mm deformasiya ilə göstərdi.eyni zamanda, buğda ununun bananla tam əvəzlənməsi ilə nümunə 2200 q maksimum qüvvə və 2,25 mm daha böyük deformasiya göstərdi. Deformasiyanın artması, banan unu testinin daha çox plastikliyə sahib olduğunu və qırılmadan böyük deformasiyaya tab gətirə biləcəyini göstərir.

Açar sözlər: kəsmik, qurudulmuş banan unu, struktur və mexaniki xassələr.

IMPROVING THE RECIPE OF COTTAGE CHEESE WITH GLUTEN-FREE RAW MATERIALS

I.T. Garayeva
inzira_shra@mail.ru
A.S. Nigmatzyanov
almas.nigmatzyanov@mail.ru
FSBEI HE Bashkir SAU, Ufa, Russia

The article provides information on improving the formulation of cottage cheese for therapeutic, dietary and baby food. The flour from freeze-dried bananas was chosen as the base for the dough. Formulations of products with the replacement of wheat flour with banana flour from 0 to 100% were developed, the product with 100% replacement received the highest scores in organoleptic indicators. The prepared dough for the filling of the control and experimental sample with 100% replacement was examined by structural and mechanical properties on a structurometer. The control sample demonstrated the maximum force required for deformation, equal to 360 g with a deformation of 1.5 mm. At the same time, the sample with a complete replacement of wheat flour with banana flour showed a significantly higher maximum force of 2200 g and a greater deformation of 2.25 mm. An increase in deformation with greater force also indicates that the banana flour dough has greater plasticity and is able to withstand large deformations without tearing.

Key words: cottage cheese, freeze-dried banana flour, structural and mechanical properties.

ÇƏHRAYI SÜFRƏ ŞƏRABLARI İSTEHSALINDA TƏTBİQ OLUNAN TEXNOLOGİYALARIN ARAŞDIRILMASI

Ülviyyə Əhmədova
hasanovaulviyya543@gmail.com
İlham Qocayev
i.qocayev@atu.edu.az
Afət Qasımova
a.qasimova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Çəhrayı şərabların çox qədim illərdə qırmızı şərabların duruldulması ilə kəşf edildiyi və Yunanıstanda ərsəyə gəldiyi bildirilir. Ilk çəhrayı şərab istehsalının Fransanın Tabel, Loire və Provans bölgələrində həyata keçirildiyinə ədəbiyyat materiallarında rast gəlinir . Sonralar İtaliya və digər regionlarda da çəhrayı şərab istehsalına başlanmışdır.

Parlaq–çəhrayı moruq tonlu, ətirli və təzə cavan çəhrayı şərablar daha yüksək qiymətləndirilir. Onu şirəsi rəngli olmayan qırmızı üzüm sortlarının (Kaberne-Sovinyon, Merlo, Mədrəsə və s.) əzintidə qısa müddətli saxlanması, yaxud şirəsi rəngli üzüm sortlarının (Saperavi, Calita, Odessa qarası və s.) salxımının bütöv sıxılması ilə, həmçinin də kupaj yolu olan xüsusi texnologiya ilə alırlar.

İkinci qrup şərablar Fransada "Kleret" adı altında buraxılır. Bu şərabların rəngi demək olar ki, ağdır. Üçüncü qrupa ən qeyri-tipik, oksidləşmiş, daha az dəyərli çəhrayı turş şərablar aid edilir.

İntensiv rəng çalarlarına malik, qırmızı şərablara yaxın olan çəhrayı şərablar çəhrayı və qırmızı üzüm sortlarından alınan əzintinin davamlı saxlanması yaxud qıcqırdılması yolu ilə alınır. Ağ şərablara yaxın olan çəhrayı şərablar isə qırmızı sortlarının ağ üsulla emalından alınır. Çəhrayı turş şərablar yalnız istehsal yerinə görə adlandırıla bilməz. Bunlar çəhrayı, ağ və qırmızı üzüm sortlarından alınan sort, sepaj və kupaj şərablarıdır [2].

Çəhrayı şərabların müstəqil tipinin istehsalı əsasən Fransada həyata keçirilir. Burada turş şərabların etalon sayılacaq çəhrayı Bordo, Bordo kleret, Burqund çəhrayısı hazırlanır. Bu ölkədə çəhrayı şərablar alınması texnologiyasının qanunvericilik bazası və özünəməxsus texnoloji üsülları işlənib hazırlanmışdır. Onlardan biri də çəhrayı üsülla şərabçılıqdır, başqa sözlə üzümün çəhrayı üsülla emalıdır. Bu texnologiyanın mahiyyəti ondan ibarətdir ki, kifayət qədər rənglənmiş üzüm sortları şirənin əzintidə 6-24 saat müddətində saxlanması və bəzən də qıcqırdılması ilə, başqa sözlə, qırmızı üsülla emal olunur. Alınan şirə dərhal soyudulur və çox ciddi şəkildə çökdürülür ki, şirəyə iri asılqan hissəciklər keçməsin. Həmin texnologiya çəhrayı şərablarda minimum miqdarda fenol birləşmələri və kifayət qədər antosianlar olmasına zəmin yaradır. Lakin sonrakı yetişdirmə və şərab materiallarının emalı rəngdə qeyri-tipik sarı çalarların əmələ gəlməsinə səbəb olmaqla, rəng maddələrinin idarə olunmaz şəkildə çökməsi ilə nəticələnir. J.Ribero-Qayon və əməkdaşlarına görə Fransa çəhrayı şərablarında antosianların miqdarı 10-160 mq/dm^3 arasında dəyişir. Bu isə fransız çəhrayı şərablarının dayanıqlı olmayan tərkibindən xəbər verir. Eyni zamanda Fransa qanunvericiliyində kupaj sxemi ilə çəhrayı şərablar istehsalı qadağan edilmişdir [2].

Digər ölkələrdə klassik texnologiyadan demək olar ki, istifadə olunmur. Fransa üçün isə o, ənənəvi olub, üzüm sortları və yerli şəraitdən asılı olaraq müxtəlif çəhrayı şərablar alınmasını təmin edir. Belə ki, Senso, Qara qrenaş, Qara Pino üzüm sortlarından boz, zəif rənglənmiş kleretlər; Kaberne fran, Murvedr, Kaberne-Sovinyon üzüm sortlarından – çəhrayı şərablar alınır.

Eyni zamanda cəhrayı şərabların klassik hazırlanma texnologiyası (Provans, Fransa) da mövcud olub, qırmızı üzüm sortlarının "cəhrayı üsulla" emalını nəzərdə tutur. Onun mənası bundadır ki, yüngül cəhrayı rəngi almaq üçün əzinti 6-10 saat sakit-statik rejimdə

(qarışdırıcı olmadan) saxlanır. Alınan şirə ağ şərablar üçün olduğu kimi qıcqırmadan əvvəl asılqanlardan yaxşı təmizlənir. Qalan digər əməliyyatlar olduğu kimidir [1].

MDB ölkələrində çəhrayı şərablar qırmızı (çəhrayı), qırmızı və ağ, sortlar qarışığından ağ süfrə şərablarının alınma texnologiyasına uyğun, həmçinin ağ və qırmızı şərab materiallarının kupajı ilə alınır. Bu şərablar qırmızı üsulla şirənin əzintidə az müddətdə saxlanması yolu ilə hazırlanmasına da icazə verilir.

MDB ölkələrində markalı çəhrayı şərab buraxılmır lakin 12 adda ordinar çəhrayı turş şərablar buraxılmaqdadır.

Moldovada Kauşan adlı ordinar çəhrayı turş şərabı istehsal olunur. Həmin şərab vaxtilə "Maqaraç"da işlənən kupaj texnologiyasına əsasən hazırlanır.

Azərbaycan çəhrayı şərablar ənənəsi olan ölkələrdəndir. Hələ 1948-ci ildə Qarabağda çəhrayı "Hadrut" şərabı buraxılırdı. Həmin şərab Xındoqnı, ağ və qırmızı üzüm sortlarının qarışığından sepaj-kupaj texnologiyası ilə alınırdı. Şərabın rəngi çəhrayıdan tünd-çəhrayıya, ətri – sorta məxsus xarakterdə, dadı – harmoniyalı, dolgun, təzə və yüngül turşuluqdadır [1].

Hadrut kəndində yetişən Xındoqnı üzümü 16-19% şəkərlikdə və 6-7 q/dm^3 titrləşən turşuluqda yığılır. Zavoda gətirilən üzüm ağ üsulla emal olunur. Alınan şirə 18-20 saat müddətində dincə qoyulur. Durulmuş şirə palıd butlara vurulur, üzərinə 3% təmiz maya məhlulu əlavə edilir, qıcqırdılır və sonra çöküntüdən ayrılır. Dekabrda ikinci köçürmə aparılır emal olunur.

Buna oxşar texnologiya ilə Qarabağda becərilən Xindoqnı üzüm sortundan "Qişi" çəhrayı şərabı hazırlanır.

"Al şərab" çəhrayı şərabı Tavkveri üzüm sortu 16-19% şəkərlikdə və 6-7 q/dm^3 titrləşən turşuluqda yığılır. Zavoda gətirilən üzüm əzilir, darağı ayrılır, şirə sulfitləşdirilərək dincə qoyulur. 18-24 saatdan sonra şirə qıcqırmaya veriləcək, üzərinə təmiz maya məhlulu əlavə olunur. Sonadək qıcqırılmadan və kifayət qədər duruldulmadan sonra şərab çöküntüdən ayrılır. Həftədə 1-2 dəfədən az olmamaqla başı doldurulur. Şərabın sonrakı işlənməsi texnoloji təlimatlara uyğun şəkildə yerinə yetirilir. Şərab ordinar olub, yetişdirilmir.

Tədqiqat nəticəsindən məlum olur ki, ölkədə yerli şəraitdə becərilən üzüm sortlarından istifadə edilməklə çəhrayı şərabların texnologiyasının təkmilləşdirilməsinə ehtiyac vardır.

Açar sözlər: çəhrayı şərablar, istehsal texnologiyası, müqayisə.

ƏDƏBİYYAT

1.Fətəliyev H.K. Şərabın texnologiyası. Dərslik. Bakı: -Elm, -2011, -596 s.
2. Nəbiyev, Ə.Ə. Şərabın kimyası. Dərslik. Bakı: -Elm, -2010, -472 s.

ИССЛЕДОВАНИЕ ТЕХНОЛОГИЙ, ПРИМЕНЯЕМЫХ ПРИ ПРОИЗВОДСТВЕ РОЗОВЫХ СТОЛОВЫХ ВИН

Ульвия Ахмедова
hasanovaulviyya543@gmail.com
Ильхам Годжаев
i.qocayev@atu.edu.az
Афет Касумова
a.qasimova@atu.edu.az
Азербайджанский Технологический Университет

В статье рассматриваются разные технологии приготовления розовых вин. Известно, что впервые розовые вина были приготовлены в Греции путем перегонки красных вин. Более высоко ценятся ярко-розовые, малиновые, ароматные и свежие молодые розовые вина. Производство самостоятельного вида розовых вин в

настоящее время осуществляется во Франции. Азербайджан тоже является страной, производящей розовые вина из местных сортов винограда. Исследования показали, что усовершенствование технологии приготовления розовых вин является актуальной проблемой.

Ключевые слова: розовое вино, технологии приготовления, сравнение

RESEARCH INTO TECHNOLOGIES APPLIED IN THE PRODUCTION OF PINK TABLE WINES

Ulviyya Ahmadova
hasanovaulviyya543@gmail.com
İlham Godjayev
i.qocayev@atu.edu.az
Afet Gasimova
a.qasimova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

The article discusses various technologies for making rose wines. It is known that rose wines were first made in Greece by distilling red wines. Bright pink, raspberry, aromatic and fresh young rose wines are more highly valued. Production of an independent type of rose wine is currently carried out in France. Azerbaijan is also a country producing rose wines from local grape varieties. Research has shown that improving the technology of making rose wines is a pressing issue.

Key words: rose wine, production technologies, comparison

ПРОПОЛИС КАК ОСНОВНОЙ ПРОДУКТ ПЧЕЛОВОДСТВА (APİS PROPOLİS)

Айнур Байрам кызы Халилова
aynur.khalilova.01@mail.ru
Нармина Фуад кызы Абдуллаева
Бакинский Государственный Университет

Прополис – продукт растительного и животного происхождения. Это клейкое смолистое вещество, которое пчёлы собирают с почек деревьев и модифицируют своими ферментами. Пчелы используют прополис для заделки щелей, сужения летковых отверстий и при необходимости защиты жилища от холода или жары, а также от некоторых вредителей [4].

Получаемый, как правило, кустарно на отечественных пасеках этот продукт пчел не отвечает требованиям мирового рынка и поэтому не имеет на него доступа, что не стимулирует пчеловодов увеличивать объемы его производства [3]. Основные потребители прополиса — крупные фармацевтические компании, которые предъявляют жесткие требования к его качеству. Получить прополис в промышленных объемах и высокого качества позволяет оборудование, поставляемое под маркой «АпиРусс». Известно, что пчелы не складывают корм там, где светло, а щели в своем жилище они заклеивают прополисом: стимулирующее свойство света и положено в основу предлагаемой технологии. Прополис пчелы собирают на прямоугольную решетку «Фотон», изготовленную из тонкого листа специальной нержавеющей стали. В ней выполнено более 1000 щелевидных (2 × 7 мм) отверстий. Для получения прополиса «Фотон» кладут на фланцы верхнего корпуса улья и закрывают прозрачной крышкой «Панорама». Пчелы видят свет и немедленно начинают заклеивать отверстия решетки. После завершения работы (один летный день) решетку снимают и охлаждают. При температуре ниже 15°С прополис становится хрупким и легко отделяется с помощью шпателя от полированной поверхности металлического листа. Полученный пчелиный продукт

не содержит щепок, ниток и других инородных включений[1]. На упаковке продукта проставляется точная дата его сбора. Предложенная технология позволяет собирать за сезон до 1 кг прополиса с улья.

Прополис является уникальным природным продуктом, состав которого представлен более чем 800 веществами, необходимыми для нормального функционирования всех систем организма человека, а также его внутренней санации. В его составе присутствуют фитонциды, спирты, гликозиды, полисахариды, дубильные вещества и флавоноиды[2]. В прополисе содержатся марганец, цинк, барий, титан, медь, олово, никель, кобальт, ванадий, хром, свинец (до 11,6 мкг/100 г), а также кальций, фосфор, калий, сера, натрий, железо, магний, молибден, алюминий, кремний, ртуть, селен, цирконий, фтор и сурьма.

Ключевые слова: прополис, пчелы, мёд, пасека.

ЛИТЕРАТУРА

1. А.Б. Князев, Г.И. Сержантов. Пчеловодство: -2, -2018, -с.60 –61.
2. Г.И. Сержантов Способ получения водного экстракта прополиса. Пат. РФ A23L -1/076, -2019.01.
3. Г.И. Сержантов, И.В. Заболоцкая. Пчеловодство: -2022 9, с. 54-55.
4. Л.Б. Лазебник, В.И. Касьяненко, Е.А. Дубцова, Н.Л. Белоусова. Пчеловодство: -8. -2022, с. 56 – 57.

PROPOLİS ARIÇILININ ƏSAS MƏHSULU KİMİ (APİS PROPOLİS)

A.B. Xəlilova
aynur.khalilova.01@mail.ru
N.F. Abdullayeva
Bakı Dövlət Universiteti

Propolis qiymətli bioloji aktiv arıçılıq məhsuludur. Propolisdən hazırlanan preparatlar insan xəstəliklərinin müalicəsində və bitkilərin zərərli orqanizmlərdən qorunmasında təsirli olur. Propolis qida əlavələri və kosmetika istehsalı üçün perspektivlidir. Anestezik, selektiv antimikrob təsirinə görə (yalnız patogen və çürütmə mikroflorası yatırılır) və dezodorasiya təsirinə görə propolis həm də dərman kosmetikası və gigiyena məhsullarının istehsalı üçün istifadə olunur.

Açar sözlər: propolis, arılar, bal, arıxana.

PROPOLIS AS THE MAIN PRODUCT OF BEEKEEPING (APİS PROPOLİS)

A.B.Khalilova
aynur.khalilova.01@mail.ru
N.F. Abdullayeva
Baku State University

Propolis is a valuable biologically active beekeeping product. Preparations made from propolis are effective in treating human diseases and protecting plants from harmful organisms. Propolis is promising for the production of food supplements and cosmetics. Due to its anesthetic, selective antimicrobial action (only pathogenic and putrefactive microflora is suppressed), and deodorizing effect, propolis is also used for the production of medicinal cosmetics and hygiene products.

Key words: propolis, bees, honey, apiary.

ÖLKƏYƏ İDXAL OLUNAN QUŞ ƏTİNİN GÖMRÜK EKSPERTİZASI

Ulduz Babayeva
u.babayeva@atu.edu.az
Cavid Qocayev
djavid.godzhayev@mail.ru
Afət Qasımova
a.qasimova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Əhalinin yüksək keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsi müasir cəmiyyətin ən mühüm sosial vəzifəsidir [1]. Son zamanlar ölkəmizə xaricdən çox sayda heyvandarlıq məhsulları, o cümlədən quş əti gətirilir. Ancaq onu qeyd etmək lazımdır ki, idxal olunan quş ətlərinin keyfiyyəti o qədər də ürəkaçan deyildir, belə ki, bu məhsullar qeyd olunan səbəbdən öz ölkələrində satış bazarı tapa bilmir. Ət məhsulları arasında əhalinin ən geniş təbəqəsi üçün ən əlçatan və istehlak edilən ət məhsulları olan toyuq budu nisbətən ucuzluğuna görə ölkəmizə qeyri-məhdud miqdarda idxal olunur. Qeyd edək ki, istehsal edən ölkələrdə bu məhsullar ümumiyyətlə satılmır və buna görə də onların keyfiyyətinə nəzarət məsələsi çox aktualdır. İnsan sağlamlığının qayğısına qalmaq indi əvvəlkindən daha çətindir. Bu işdə mühüm pay heyvandarlıq məhsullarının keyfiyyətinin yoxlanılması üzrə tədbirlər həyata keçirən və insanlar üçün zərərsiz olan yüksək keyfiyyətli ərzaq məhsullarının alınmasına cavabdeh olan mütəxəssislərin üzərinə düşür.

Son dövrlərdə respublikamızın istehlak bazarında uzaq xaricdən və həmçinin yerli brolyer quşçuluq fabriklərində istehsal olunan quş ətləri realizə olunur. Hazırda respublikamızın qarşısında duran ən mühüm problemlərdən biri quşçuluğun daha da inkişaf etdirilməsidir. Aparılan yoxlamalar zamanı müəyyən olunmuşdur ki, hazırda ölkəmizdə 48 quşçuluq fabriki fəaliyyət göstərir. Bu fabriklər tərəfindən ildə 68 min tona yaxın quş əti istehsal olunur. Lakin buna baxmayaraq istehsal olunan quş əti respublikamızın əhalisinin quş ətinə olan tələbatını tam ödəmir. Belə ki, dünyanın inkişaf etmiş ölkələrində adambaşına ildə 15-16 kq quş əti düşdüyü halda, bizim respublikada isə adambaşına 9 kq ət düşür.

Qeyd etmək lazımdır ki, Respublikamızda bir sıra quşçuluq fabrikləri fəaliyyət göstrir. «Siyəzən broyler», «Şəfalı broyler», «Göygöl broyler» və başqalarını misal göstərmək olar. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Çinin Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi ilə keçirilən görüşlər, həmçinin işçi qaydada aparılan tədbirlər nəticəsində quş əti və digər quşçuluq məhsullarının bu ölkəyə ixracına icazə əldə olunub. Agentlik Çinin müvafiq qurumu ilə aparılan əməkdaşlıq çərçivəsində bu ölkənin baytarlıq sahəsi üzrə idxal tələbləri əldə olunub və həmin istiqamətdə Azərbaycan ərazisində epizootoloji monitorinqlər, risk təhlilləri, tədqiqatlar, müəssisələrin qiymətləndirilməsi, məhsullar üzrə baytarlıq-sanitariya nəzarətinin gücləndirilməsi və digər tədbirlər həyata keçirilərək görülən işlər barədə hesabatlar müqabil tərəfə təqdim olunub. Həmçinin AQTA nümayəndə heyəti ilə Çin sahibkarlarından ibarət nümayəndə heyəti arasında 2023-cü il 18 may tarixində fitosanitar və baytarlıq nəzarətində olan məhsulların bu ölkə bazarlarına ixracı barədə müzakirələr aparılıb, 19 may tarixində isə Çinə quş əti idxalına maraqlı olan idxalçıları ilə Quş Əti, Yumurta Istehsalçıları Və Ixracatçıları Assosiasiyasında görüş və 5 quşçuluq təsərrüfatına baxış keçirilib. Yeni qərara əsasən, Çİnin qida təhlükəsizliyi ilə bağlı qanun və tələblərinə uyğun gələn Azərbaycanda istehsal olunan quş əti və digər quşçuluq məhsullarının idxalına dekabrın 8-dən etibarən icazə verilir. 2023-cü ilin yanvar-sentyabr aylarında quşçuluq müəssisələrində diri çəkidə 57,5 min ton quş əti və 764,5 milyon ədəd yumurta istehsal olunub. Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, 2022-ci ilin müvafiq dövrünə nisbətən quş əti istehsalı 2,9% azalıb, yumurta istehsalı isə 27,5% artıb. Ötən ilin yanvar-sentyabr aylarında quşçuluq müəssisələrində diri çəkidə 59,2 min ton quş

əti və 599,4 milyon ədəd yumurta istehsal olunub. Ümumilikdə bu müəssisələr üzrə cəmi quşların sayı 11523,5 min baş olmuş, yanvar-sentyabr aylarında hər yumurtlayan toyuqdan orta hesabla 194 ədəd yumurta alınıb. 2023-cü ildə quşçuluq müəssisələrində diri çəkidə 76,0 min ton quş əti və 1053,5 milyon ədəd yumurta istehsal olunub. 2024-cü ilin yanvar-mart aylarında quş əti də daxil olmaqla diri çəkidə 139,2 min ton ət, 504,5 min ton süd, 571,7 milyon ədəd yumurta istehsal edilib. Məhsulun ölkəyə idxalı qeyd olunan müddətdə 38 min tonadək artıb [2]. Tədbirdə eyni zamanda, Rusiya və Ukraynadan idxal olunan quş əti məhsulları ilə rəqabətdə yaranan vəziyyət müzakirə edilib.

Bu məqsədlə ölkəyə idxal olunan quş ətləri gömrük ekspertizasından keçməlidir. Gömrük ekspertizasının əsas məqsədi dövlətin təhlükəsizliyinin, insanların həyat və sağlamlığının, heyvanların, bitkilərin, ətraf mühitin, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii tarixi və arxeoloji sərvətlərinin, ölkə istehlakçılarının mənafelərinin qorunmasıdır.

Gömrük ekspertizası zamanı identifləşdirməyə göndərilən obyektlərin, onların təsviri ilə eyniləşdirilməsini nəzərdə turur. Bura eyni zamanda nümunə və problar əsasında XİF MN uyğun olaraq malın adının, keyfiyyətinin, malın harada istehsal olunduğunu müəyyənləşdirmək daxildir. Ekspert proflaktikasına isə diaqnostik hadisələrin mexanizminin, fəaliyyət üsulunun və ardıcıllığının, səbəb əlaqələrinin və s. aydınlaşdırılması, o cümlədən texnoloji ekspertiza, çıxış normalarının, xammal mənbələrinin müəyyənləşdirilməsi daxil edilir. Gömrük qanunvericiliyində hüquq pozuntularının və cinayətlərin baş verməsinə imkan verən halların aşkar edilməsi və onların aradan qaldırılması tədbirlərinin işlənib hazırlanması aiddir ki, bura saxtakarlar haqqında məlumatların toplanması və tədqiqi fəaliyyəti və gömrük tarifində kriminal təhlükəli mal mövqelərinin meydana çıxması hallarınınproqnozlaşdırılması daxildir [3].

Beləliklə, quş ətinin keyfiyyətinə nəzarət Səhiyyə Nazirliyi Baş Sanitar-Epidemiologiya Idarəsinin laboratoriyaları tərəfindən həyata keçirilir. Keyfiyyət üzrə dövlət müfəttişliyinin inspektorları, əmtəə ekspert bürosunun (ƏEB) ekspertləri, ticarət müəssisələrinin əmtəəşünasları və ixtisaslı işçiləri ətin keyfiyyətini orqanoleptiki üsulla yoxlayırlar. Əgər məhsulun keyfiyyətini kimyəvi, fiziki-kimyəvi və başqa üsullarla müəyyən etmək lazım gələrsə, onda xüsusi qida təhlükəsizliyi laboratoriyalarına müraciət edirlər. Quş ətinin əmtəəşünaslıq tədqiqi, onların fiziki, kimyəvi, biokimyəvi, biofiziki və başqa xassələrinin daha geniş öyrənilməsi elmi-tədqiqat institutlarında aparılır. Quş ətinin keyfiyyətinin əmtəəşünaslıq-ekspert sınağını, mal göndərənlərdən malı ticarət təşkilatında qəbul etdikdə əmtəəşünas-ekspertlər həyata keçirirlər. **Açar sözlər:** quşçuluq, quş əti, gömrük ekspertizası.

ƏDƏBİYYAT

1. Qida təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2022
2. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2024.pdf
3. Musayev N.X. Ərzaq malları əmtəəşünaslığının nəzəri əsasları. Dərslik. Bakı: «Çaşıoğlu» nəşriyyatı, 2003, 368 səh.

ТАМОЖЕННАЯ ЭКСПЕРТИЗА ИМПОРТИРУЕМОЙ МЯСЫ ПТИЦЫ

Улдуз Бабаева
u.babayeva@atu.edu.az
Джавид Годжаев
djavid.godzhayev@mail.ru
Афет Касумова
a.qasimova@atu.edu.az
Азербайджанский Технологический Университет

В статье рассматриваются проблемы и методы проведения таможенной экспертизы импортируемой птицы, а также статистические данные, связанные с потреблением мяса птицы и яйца.

Ключевые слова: птицеводство, мясо птицы, таможенная экспертиза

CUSTOMS EXPERTISE OF IMPORTED POULTRY

Ulduz Babayeva
u.babayeva@atu.edu.az
Javid Gojayev
djavid.godzhayev@mail.ru
Afet Gasimova
a.qasimova@atu.edu.az
Azerbaijan Technological University

The article examines the problems and methods of conducting customs examination of imported poultry, as well as statistical data related to the consumption of poultry meat and eggs.

Key words: poultry, poultry meat, customs examination

ЭКОЛОГИЧЕСКИЙ АСПЕКТ ПРИ РАЗРАБОТКЕ РЕЦЕПТУРЫ ХЛЕБНЫХ ПАЛОЧЕК ФУНКЦИОНАЛЬНОГО НАЗНАЧЕНИЯ НА ОСНОВЕ МУКИ ИЗ ЗЕРНА ПАЙЗЫ

Садыгова Мадина Карипулловна[1]
sadigova.madina@yandex.ru
Шамакова Нафиза Гумаровна[2]
nafisa_shamakova@list.ru
Ахад Али оглы Набиев[3]
e.nebiyev@atu.edu.az
Эльданиз Энверович Байрамов[4]
e.bayramov@atu.edu.az
Саратовский государственный университет генетики, биотехнологии и инженерии им. Н.И. Вавилова[1]
Западно-Казахстанский университет им. Махамбета Утемисова[2]
Азербайджанский Технологический Университет[3,4]

В настоящее время планете наносится огромный ущерб от вырубки леса, что может закончиться экологической катастрофой. Исчезновение деревьев приводит к опустыниванию, поскольку осадки смывают плодородный слой почвы. Многие животные и растения – гибнут. Обезлесивание – это мировая проблема, которая с каждым годом становится еще больше. Лес – это сложная экосистема. За счет лесных посадок обеспечивается биологическое разнообразие, стабильность существования экосистем [6]. В течение последних 10 лет многовековые таежные массивы по всей России ежегодно сокращаются примерно на 5 млн. гектаров [6].

Для бутербродов, в основном используются деревянные или пластиковые шпажки. Для деревянных вырубаются леса, для пластиковых возникает проблема их утилизации. В работе предлагается альтернативный продукт, позволяющий сохранить леса и расширить ассортимент продукции для здорового питания.

При производстве пищевых продуктов важно правильно выбрать сырье, учитывая не только экономический, но и экологический аспекты его переработки. Оно должно быть доступным, дешевым и технологичным [1-3, 5, 9]. Учитывая эти факторы, а также возможность расширения посевов пайзы в Поволжье появилась необходимость изучения направлений его использования в пищевых целях, а именно в производстве хлебобулочных изделий [7, 8].

Пайза (японское просо, китайское просо, просянка) - Echinochloa frumentaceae - принадлежит к группе просовидных культур семейства злаковых. Пайза по химическому составу и пищевой ценности близка к зерну чумизы и сорго сахарного, но значительно дешевле. Пайза признана экологически чистой культурой. Доказано,

что на загрязнённых радионуклидами почвах целесообразна замена кукурузы на пайзу, так как она обладает невысоким уровнем накопления 137 цезия [4]. По данным многих ученых, зерно пайзы содержит растительный белок, богатый аминокислотами, 13-15 %, 5 % жира, также присутствуют сахара, зола, витамины группы В, витамин Е, минеральные элементы, растительный крахмал, клетчатка и природные волокна. Растение считают хорошим абсорбирующим продуктом, т.к. употребление пайзы в пищу способствует выведению из организма солей тяжелых металлов и стронция [4, 9].

Цель исследования: совершенствование технологии хлебных палочек функционального назначения, экологически безопасных на основе муки из зерна пайзы. Исследования проводили в условиях учебной лаборатории кафедры «Технологии продуктов питания» Вавиловского университета. Зерно пайзы сорта Готика, выращенной в условиях Саратовской области в учебном хозяйстве НПО «Поволжье». Рецептура хлебных шпажек представлена в таблице 1.

Таблица 1

Рецептура и режимы приготовления хлебных шпажек

Наименование сырья и параметры процесса приготовления	Расход сырья и параметры
Мука пшеничная хлебопекарная первого сорта	80,0/75,0
Мука из зерна пайзы	20,0/25,0
Соль пищевая	2,0
Тыквенное масло	2,0
Яйцо куриное	4,0
Вода	По расчету
Влажность теста, %	37,0
Продолжительность отлежки теста, мин	20,0
Температура начальная, °С	28-30

Способ производства хлебных шпажек предусматривает замешивание пресного теста влажностью 37% из пшеничной муки первого сорта с добавлением 20% и 25% пайзовой муки (ПМ). Показатели качества сырья, полуфабрикатов и готовой продукции определяли по общепринятым методикам.

По органолептическим и физико-химическим показателям образцы с содержанием 20 % ПМ практически не отличались от контрольного образца (табл.2). Замена 25% пшеничной муки на ПЗ отражается на цвете и вкусе изделия.

Было установлено, что опытные образцы с добавлением ПМ черствеют медленнее и микробиологические показатели оставалось в пределах допустимой нормы в соответствии с требованиями СанПиН 2.3.2.1078-01. Увеличение срока сохранения свежести готовых изделий при добавлении ПМ объясняется тем, что образцы хлеба с добавками содержат больше связанной воды, т.к. содержит клетчатку, белки, которые прочно связывают влагу, снижая испарение влаги не только в тесте, но и замедляя миграцию влаги в изделиях при хранении.

Таблица 2. Показатели качества хлебных шпажек

Показатели качества	Значения показателей		
	I вариант контроль	II вариант (20% ПМ)	III вариант (25% ПМ)
Внешний вид			
-форма	форма правильная, без вмятин		
-поверхность	гладкая, без вздутий и трещин		
- цвет	светло-коричневый	коричневый	серо-коричневый

Внутренне состояние	изделия хорошо пропеченные, без признаков непромеса		
Хрупкость	изделия твердые, средне разламывающиеся с хрустом		
Вкус Запах	свойственный данному виду		Выраженный, свойственный виду используемого сырья
Влажность, %	8,2±0,2	8,5±0,2	8,3±0,1
Набухаемость, %	152	155	158
Кислотность, град	2,3	2,5	2,6
Массовая доля белка, %	9,1	13,1	13,2
Массовая доля жира, %	1,7	1,2	1,3

В результате проведенных исследований можно сделать следующие выводы: обоснована целесообразность применения муки из зерна пайзы, тыквенного масла с позиции их пищевой ценности в производстве хлебных шпажек для здорового питания; по органолептическим и физико-химическим показателям оптимизировано содержание муки из зерна пайзы в рецептуре хлебных шпажек в количестве 20%; применение хлебных шпажек при приготовлении бутербродов взамен деревянных и пластиковых позволит сохранить леса, тем самым улучшить экологическую обстановку.

Ключевые слова: пайза, мука, хлебные палочки, мука из пайзы.

ЛИТЕРАТУРА

1. Веселова А.Ю. Разработка рецептур хлебных палочек диабетического назначения / А.Ю. Веселова, М.Н. Костюченко, Г.Ф. Дремучева и др. Материалы научно-практической конференции, посвященной памяти В.С. Горбатова. – М.: НИИХП, - 2014, - С. 259-261.
2. Веселова А.Ю. Влияние овощных и фруктовых порошков на орга-нолептические показатели хлебных палочек диабетического назначения / А.Ю. Веселова, М.Н. Костюченко, Г.Ф. Дремучева и др. // Хлебопечение России. – 2014, - № 5, - С. 18-20.
3. Ильина О.А. Развитие ассортимента хлеба для здорового питания - актуальная задача отрасли / О.А. Ильина, В.С. Иунихина // Хлебопродукты. - 2016, -№ 5, - С. 18-20.
4. Корзун О.С. Возделывание просовидных культур в Республике Беларусь : монография / О.С. Корзун и др. – Гродно, - ГГАУ, - 2011, - 189 с.
5. Кривошеев А.Ю. Влияние соли поваренной пищевой на показатели качества хлебных палочек / А.Ю. Кривошеев, Е.И. Пономарева, С.И. Лукина, Е.А. Габелко // Матер. V Междунар. науч.-практ. конф. «Приоритеты и научное обеспечение реализации государственной политики здорового питания в России». – Орел,- 2017, - С. 55-59.
6. Обезлесение – глобальная экологическая проблема [электронный ресурс] – режим доступа: https://yandex.ru/turbo/s/bezotxodov.ru/jekologija/obezlesenie
7. Филонова Н.Н. Разработка рецептуры хлеба с использованием пайзовой муки для повышения качества хлебобулочных изделий/ Н.Н. Филонова, М.К. Садыгова С.В. Яценко // Известия высших учебных заведений. Пищевая технология. -2019, - №1 (367), - С. 30-34.
8. Яценко С.В. Перспективы применения пайзовой муки в технологии мучных кондитерских изделий Инновационные технологии в пищевой промышленности: наука, образование и производство: Материалы V Международной научно-технической конференции / С.В. Яценко, М.К. Садыгова, Н.Н. Филонова. – Воронеж, - ВГУИТ, - 2018, - С. 127-131.
9. Sadygova M.K., Anikienko T.I., Bashinskaya O.S., Kondrashova A.V., Kuznetsova L.I. Foxtail millet (panicum italicum) as a perspective raw material for the production of healthy products // ERNÄHRUNG | NUTRITION, - Vol. 42, - 03/04 2019, - P.56-63.

PAİZA UNUNA ƏSASLANAN FUNKSİONAL MƏQSƏDLİ ÇÖRƏKLƏRİNİN RESEPTİNİN İŞLƏNİLMƏSİNDƏ EKOLOJİ ASPEKT

Mədinə Sadıqova
sadigova.madina@yandex.ru
Nafizə Şamakova
nafisa_shamakova@list.ru
Əhəd Əli oglı Nəbiyev[3],
e.nebiyev@atu.edu.az
Eldəniz Ənvəroviç Bayramov[4]
e.bayramov@atu.edu.az
N.I. Vavilov adına Saratov Dövlət Genetika, Biotexnologiya və Mühəndislik Universiteti[1],
Mahambet Utemisov adına Qərbi-Qazaxstan Universiteti University[2],
Azərbaycan Texnologiya Universiteti[3,4]

Məqalədə çörək çubuqlarının reseptində və texnologiyasında paiza ununun istifadəsinin mümkünlüyü müzakirə olunur. Qida məhsulları istehsal edilərkən təkcə iqtisadi deyil, həm də ekoloji aspektləri nəzərə almaq vacibdir. Xammal əlçatan, ucuz və texnoloji cəhətdən inkişaf etmiş olmalıdır. Sandviçlər üçün əsasən taxta və ya plastik şişlər istifadə olunur. Taxta olanlar üçün meşələr kəsilir; plastik olanlar üçün onların atılması problemi yaranır. Elmi işdə meşələri qorumağa və sağlam qidalanma üçün məhsulların çeşidini genişləndirməyə imkan verən alternativ məhsul təklif edir. Müəlliflər xammal kimi paizanı (Yapon darısı, Çin darısı, darı) seçmişlər - *Echinochloa frumentaceae* - dənli bitkilər fəsiləsinin darıyabənzər bitkilər qrupuna aiddir. Kimyəvi tərkibinə və qida dəyərinə görə paiza çumiza və şirin sorqo taxılına yaxındır, lakin daha ucuzdur. Paiza ekoloji cəhətdən təmiz bir məhsul kimi tanınır. Volqa bölgəsində paiяanın becərilməsi genişlənir və onun qida məqsədləri üçün istifadə istiqamətlərinin öyrənilməsinə ehtiyac var. Tədqiqatlar nəticəsində sağlam qidalanma üçün çörək çubuqlarının istehsalında paiza taxıl unu və balqabaq çəyirdəyi yağından istifadənin məqsədəuyğunluğu onların qida dəyəri nöqteyi-nəzərindən əsaslandırılmışdır; test bişməsinin nəticələrinə əsasən məhsul reseptində əlavələrin tərkibinin optimallaşdırılması göstərdi ki, orqanoleptik və fiziki-kimyəvi göstəricilərə görə çörək çubuqların reseptində paiza ununun optimal tərkibi 20% təşkil edir; taxta və plastik əvəzinə sendviçlər hazırlayarkən çörək çubuqlarından istifadə meşələrin qorunmasına kömək edəcək və bununla da ekoloji vəziyyətin yaxşılaşdırılmasına kömək edəcəkdir.

Açar sözlər: paiza, un, çörək çubuqları, paiza unu.

ECOLOGICAL ASPECT IN THE DEVELOPMENT OF A RECIPE FOR FUNCTIONAL BREADSTICKS BASED ON PAIZA FLOUR

Sadygova Madina Karipullovna[1]
sadigova.madina@yandex.ru
Shamakova Nafisa Gumarovna[2]
nafisa_shamakova@list.ru
Ahad Ali oglu Nabiyev[3]
e.nebiyev@atu.edu.az
Eldaniz Enverovich Bayramov[4]
e.bayramov@atu.edu.az
Saratov State University of Genetics, Biotechnology and Engineering named after N. I. Vavilov[1],
Makhambet Utemisov West Kazakhstan State University[2],
Azerbaijan Technological University[3,4]

The article discusses the possibility of using millet flour in the recipe and technology of breadsticks. When producing food products, it is essential to consider not only economic factors but also environmental aspects. Raw materials must be accessible, cheap, and

technologically advanced. In the preparation of sandwiches, wooden or plastic skewers are predominantly utilized. The production of wooden skewers often involves deforestation, while using plastic skewers raises concerns regarding their disposal. The work proposes an alternative product that allows us to preserve forests and expand the range of products for a healthy diet. The authors chose paiza (Japanese millet, Chinese millet, millet) as a raw material - Echinochloa frumentaceae - belonging to the group of millet-like crops of the cereal family. Regarding chemical composition and nutritional value, paiza is close to the grain of chumiza and sweet sorghum but is much cheaper. Paiza is recognized as an environmentally friendly crop. The cultivation of paiza in the Volga region is expanding, and there is a need to study the directions of its use for food purposes. As a result of the research, the feasibility of using paiza grain flour and pumpkin seed oil was substantiated from the perspective of their nutritional value in the production of breadsticks for a healthy diet; optimization of the content of additives in the product recipe based on the results of test baking showed that, according to organoleptic and physicochemical indicators, the optimal content of paisa flour in the recipe for bread skewers is 20%; the use of bread skewers when preparing sandwiches instead of wooden and plastic ones will help preserve forests, thereby improving the environmental situation.

Key words: paiza, flour, breadsticks, paiza flour.

ŞƏRAB İSTEHSALINDA TEXNOLOJİ AMİLLƏRİNİN ƏSASLANDIRILMASI

Elnur Elman oğlu Heydərov
elnurheydarov77@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Şərabçılıq sənayesi müəssisələrində müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla yanaşı məhsulun keyfiyyətinə nəzarət, onun idarə olunmasının həyata keçirilməsi, texnoloji baxımdan əldə olunmuş nailiyyətlərdən istifadə olunması, yerli texnologiyaların təkmilləşdirilməsi olduqca böyük aktuallıq qazanmışdır. Ölkə şərabçılığında ekstrakt maddələrinin miqdarına nəzarət sistematik olmayıb, yalnız şərabın tam analizi yerinə yetirildikdə həyata keçirilir. Hətta təcrübi olaraq müxtəlif yerli şərab tipləri üçün ekstraktlılığın hüdud qiymətləri olduqca sərbəst buraxılmışdır. Əslində isə bu göstərici şərabın nəinki tipini, hətta istehsal olunduğu bölgəni belə səciyyələndirə bilər. Əldə olunan məlumatlar ölkə şərablarının məhz bu göstərici baxımından qənaətbəxş olmamasını göstərmişdir[1,2]. Qırmızı şərabların polifenollarla zənginliyi onları güclü antioksidant və antikonsaragen məhsula çevirir.

Mövcud süfrə şərabı hazırlanma üsulu şirənin 50% daraqsız cecədə qıcqırdılmasına və sistematik olaraq qıcqırmada olan kütlənin qarışdırılmasına əsaslanmışdır[3]. Bundan sonra şərab materialı 5-6 ay cecədə saxlanılır. Hazırlanmış şərab üçün meyvə ətri, sort çalarları, məxmərililik və kifayət qədər ekstraktivlilik xarakterikdir. Ekstraktivliliyinə görə bu şərablar avropa və Gürcüstan şərablarından seçilirlər. Buna səbəb şirənin qıcqırmasında üzümün xırdalanmasından alınan cecənin yarsının qıcqırmada iştirak etməsidir. Texnologiyanın üstün cəhətlərini nəzərə alaraq onun istehsalat şəraitində təkmilləşdirilmə yolları tədqiqat vəzifəsi olaraq qarşıya qoyulmuşdur.

Təcrübə üçün götürülmüş şərab materialı hər biri 250 l olan qablarda zirzəmi şəraitində saxlanmışdır. Hər qab müəyyən variant üçün nəzərdə tutulmuşdur. Variantlar olaraq şirəyə qıcqırma qabağı müxtəlif rejimlərdə fermentativ işlənmiş müxtəlif miqdarda təzə sıxılmış cecə əlavə edilməsi seçilmişdir. Cecənin fermentasiyası 30...35^{0}C temperaturda 3-4 saat ərzində yerinə yetirilmişdir. Fermentasiya kamerasında nəmlik 80...85% olmuşdur.

Qıcqırma 22...26^{0}C-də aparılmışdır. Belə temperatur əlverişli olub, fenol birləşmələrinin və digər faydalı komponentlərin cecədən şərab materialına daha yaxşı keçməsinə şərait yaradır, onda üzümün uçucu ətir maddələrinin qalmasına kömək edir. Təcrübə zamanı şərab materialını alkoqol qıcqırma qurtardıqdan sonra bir, iki, üç və dörd ay cecədə saxlamaq və həmçinin qıcqırma qurtaran kimi cecədən ayırmaq variantları yoxlanmışdır.

Tədqiqat nəticələrini ümumiləşdirərək texnoloji sxem seçilmişdir. Üzücü şapkalı qıcqırmada olan əzinti dövrü olaraq qarışdırılır. Fermentasiya olunmuş cecə şirəyə 5-6% miqdarında əlavə olunur. Qıcqırma zamanı temperaturun sabit saxlanması təmin edilmişdir. Qıcqırma qurtardıqdan sonra şərab materialı cecə və çöküntüdə bir ay saxlanmışdır. Bu zaman şərab materialının durulması və şərabın formalaşması baş verir. Bundan sonrakı texnoloji işlənmə və şərabın yetişməsi qəbul olunmuş texnologiya ilə davam edir. Təcrübə və nəzarət şərablarının kimyəvi tərkibi və orqanoleptik qiymətləndirilməsi cədvəl 1-də verilmişdir. Cədvəldən göründüyü kimi təcrübə şərab materialı kifayət qədər yüksək miqdarda ətir maddələrinə, ekstrakta, leykoantosianlara, katexinlərə, flavonollara, amin azotuna malikdir.

Alınmış şərab xoşagələn harmonik dadı, yaxşı duyulan sort ətri, mülayim ekstraktlılığı ilə fərqlənmiş və nəzarət nümunəsindən 0,3 bal yüksək qiymətləndirilmişdir. Yeni variantda ənənəvi variantdan fərqli olaraq cecə şirəyə əlavə olunmamışdan öncə fermentasiya olunmamışdır.

Görünür cecənin əvvəlcədən fermentasiya olması üzümün ferment sistemləri aktivləşir, fenol birləşmələrinindaha güclü oksidləşməsinə kömək edir. Bu zaman bu birləşməərin kondensasiyası və polimerizasiyası baş verir ki, bunların məhsulları şəraba xoşagələn dad xüsusiyyətləri və spesifik bürüşderecülük xassəsi vermiş olur. Bütün bunların nəticəsində son məhsulun keyfiyyəti yaxşılaşmış olur.

Cədvəl 1

Təcrübə və nəzarət şərab materiallarının kimyəvi tərkibi və orqanoleptik xarakteristikası

№	Göstəricilər	Ölçü vahidi	Müqayisə olunan nümunələr	
			Təcrübə	Nəzarət
1	Spirt	h%	12,4	12,3
2	Titrləşən turşuluq	q/dm^3	7,0	7,3
3	Uçucu turşuluq	q/dm^3	0,32	0,40
4	pH		3,20	3,11
5	Ekstrakt	q/dm^3	25,8	24,9
6	Tanin	q/dm^3	1,23	1,17
7	Leykoantosianlar	mq/dm^3	556,4	469,2
8	Flavonollar	mq/dm^3	12,4	11,0
9	Katexinlər	mq/dm^3	123,5	119,7
10	Qliserin	q/dm^3	8,4	8,4
11	Ətir maddələri	mq/dm^3	285	259
12	Ümumi azot	mq/dm^3	175	181
13	Amin azot	mq/dm^3	74,4	67,3
14	Orqanoleptik səciyyə		Kəhraba rəngində və sort ətri ilə, meyvə çaları, dadı yumşaq, məxməri, xoşagəlim, harmonik	Tünd saman rəngində və sort ətri ilə meyvə çaları, dad, yumşaq, harmonik
15	Dequstasiya qiyməti	ball	8,7	8,4

Təkmilləşdirilmiş texnologiya istehsalat şəraitində avadanlıqlardan səmərəli istifadə etməklə yüksək keyfiyyətli şərab materialı hazırlanmasında enerji, material və əmək sərfini azaltmağa, iş şəraitini yaxşılaşdırmağa və müəssisənin göstəricilərinin yüksəldilməsinə imkan vermişdir. Bu istiqamətdə aparılan elmi tədqiqat işlərində, emal avadanlıqları obyektlərində, üzümçülük və üzüm emalı ilə məşğul olan müəssisələrdə və xırda fermer təsərrüfatlarında istifadə edilməsi tövsiyə olunur.

Açar sözlər: ekstrakr, spirt, ətirli maddələr, qıcqırma.

ƏDƏBİYYAT

1.Heydərov E.E.,Fətəliyev H.K.Qırmızı natural şərabların texnologiyasının təkmilləşdirilmsi. Monoqrafiya.Elm,Bakı: 2016,128 səh.
2.Fətəliyev H.K., Heydərov E.E. Süfrə şərablarının müasir texnologiyası. Dərs vəsaiti, Bakı:Ecoprint,2017, 336s.
3. Fətəliyev, H.K. Şərabın texnologiyası. Dərslik. / H.K.Fətəliyev. - Bakı: Elm, - 2011, - 596 s.

ОБОСНОВАНИЕ ТЕХНОЛОГИЧЕСКИХ ФАКТОРОВ В ПРОИЗВОДСТВЕ ВИНА

Эльнура Эльман оглы Гейдаров
Elnurheydarov77@gmail.com
Азербайджанский Технологический Университет

Натуральные вина отличаются от других вин своей натуральностью и качеством. Богатство полифенолов, количество лейкоантоцианов и количество экстрактивных веществ в этом виде вина делают его сильным антиоксидантным и антиканцерогенным продуктом.

Ферментацию проводили при температуре 30...35^0 С в течение 3-4 часов. Влажность в камере брожения составляла 80...85%. Ферментацию проводили при температуре 22...26°С. Такая температура благоприятна и позволяет фенольным соединениям лучше проникать в виноматериал. В ходе эксперимента были проверены варианты хранения виноматериала в погребе в течение одного, двух, трех и четырех месяцев после окончания алкогольного брожения, а также отделения его от погреба сразу после окончания брожения.

Опытный виноматериал имеет достаточно высокое количество ароматических веществ, экстрактов, лейкоантоцианов, катехинов, флавонолов.

Ключевые слова: экстракт, спирт, ароматические вещества, брожение.

JUSTIFICATION OF TECHNOLOGICAL FACTORS IN WINE PRODUCTION

Elnur Heydarov Elman
elnurheydarov77@gmail.com
Azerbaijan Technological University

Natural wines differ from other wines in their naturalness and quality. The richness of polyphenols, the amount of leucoanthocyanins and the amount of extractive substances in this type of wine make it a strong antioxidant and anticarcinogenic product.

Fermentation was carried out at a temperature of 30...35^0 C for 3-4 hours. Humidity in the fermentation chamber was 80...85%. Fermentation was carried out at a temperature of 22...26°C. This temperature is favorable and allows phenolic compounds to better penetrate the wine material. During the experiment, options for storing the wine material in the cellar for one, two, three and four months after the end of alcoholic fermentation, as well as separating it from the cellar immediately after the end of fermentation, were tested.

The experimental wine material has a fairly high amount of aromatic substances, extracts, leucoanthocyanins, catechins, flavonols.

Keywords: extract, alcohol, aromatic substances, fermentation.

YABANI YETİŞƏN ÇİRİŞ (EREMURUS SPECTABILIS) YARPAQLARI FUNKSİONAL ƏHƏMİYYƏTLİ QİDA KOMPOZİSİYALARI VƏ TEXNOLOGİYALAR YARADILMASI ÜÇÜN PERSPEKTİV XAMMALDIR

Nüsrət Heydər oğlu Qurbanov[1]
nusratgurbanov@hotmail.com
Mərdan Məhərrəm oğlu Tağıyev[2]
merdanaztu@mail.ru
Elza Mədət qızı Omarova[3]
elza-omarova@mail.ru
Azərbaycan Dövlət İqrisad Unversiteti(UNEC)[1,3]
Azərbaycan Texnologiya Unversiteti[2]

Azərbaycan florasında mövcud olan yabanı bitkilərdən biri də çirişdir. Çiriş latınca Eremurus adlanır Liliaceae (Zanbaq) fəsiləsindəndir. Dünya florasında 50-yə qədər növü məlumdur. Daha çox Asiya ölkələrində, o cümlədən indiki İranda, onun Cənubi Azərbaycana aid hissələrində, Türkiyə ərazilərində geniş yayılmışdır.

Mayıs Qasımovun yazdığına görə Qafqazda və Azərbaycanda görkəmli çiriş adını daşıyan Eremurus spectabilis növünə rast gəlinir. Qida xammalı kimi bitki yabanı halda ölkənin Naxçıvan MR-da, Ağstafa, Yevlax, Göyçay, Füzuli, Gəncə, Lerik, Yardımlı və Qobustan zonalarında, Qərbi və Şərqi Zəngəzurun bütün bölgələrində tərəvəz bitkisi kimi yetişir [2].

İbn Sina özünün "Tibb elminin qanunları" kitabında Dioskoridə istinad etməklə onun adını siriş (yapışqan) hazırlanan bitki kimi göstərmişdir. Buradan belə başa düşmək olur ki,onun adı erlmusus kökündən- Eremurus Olgae Rgl yaxud E.tauricus S t. götürülmüşdür. Təbii olaraq, Dioskoridə xitabən İbn Sina burada çirişin asfodel adı ilə adlandırılmasını da qeyd etmişdir [3].

Təsədüfi deyildir ki,Türkiyə mənbələri də internetdə çirişə əsas etibarilə çiriş otu adı ilə izahat verərək latınca Asphodelus kimi xarakterizə etmişlər. Vikipediyada da belə qeyd olunmuşdur. Orada Çirişin Asphodelaceae fəsiləsinin Asphodelus cinsinə aid olduğu göstərilir. Maraqlıdır ki, burada Eremurus adı işlədilmir.

Asphodelisun növ müxtəlifliyi də çoxdur. Məryəm Badayman və əməkdaşları çiriş otunun Türkiyə zonasında latınca Asphodelus avestivus L. adı ilə Asphodelus cinsindən olduğunu göstərirlər [4, 5]. Türkiyədə qastronomiya turizmində qidalanmanın təşkili ilə bağlı çoxsaylı məqalələrdə də çiriş haqqında geniş məlumatlar vardır [6]. Asphodelus ramosus L (Liliaceae fəs.) orada quş südü də adlanır.

Demək olar ki, Azərbaycanda hələ çox qədimdən yabanı halda yetişən çiriş bitkisi özünü dədə babalarımızın və nənələrimizin hazırladığı və ən çox sevdiyi təndir qutablarının qiymətli xammalı kimi tanıtmışdır.

Hələ 1990-cı ilə qədər olan dövr ərzində isə ermənilərin Azərbaycan əhalisinə qarşı həyata keçirdiyi düşmənçilik siyasəti nəticəsində öz ata-baba yurdunu tərk edən Qərbi Azərbaycanın Nüvədi, Aldərə, Astazur və digər kəndləri ərazilərində yaşayan azərbaycanlılar tarixən dağlarda bitən bu bitkini və digər yabanı bitki sərvətlərini toplayaraq geniş şəkildə qidalanmışlar. Yerli əhali onu fevralın sonlarından martın sonuna kimi olan dövrlərdə daha çox tədarük edir, ondan müxtəlif xörəklər hazırlayırdılar.

Hal-hazırda da, çoxillik yabanı çiriş bitkisindən ölkəmizdə ədviyyat və qatqı xammalı kimi çoxsaylı milli mətbəx (kulinar) məhsulları hazırlanır. Saplaqlarının 100-120 sm uzunluğa qədər boy atmasına baxmayaraq, onun torpaq qatının üst hissəsində toplanan, uzunluğu 10÷30 sm-ə çatmiş yaşıl gövdəsi daha çox yığılaraq istifadə olunur.

Bununla yanaşı, çirişin palıd qozasına oxşar kökü geniş şəkildə orta əsr insanlarına qədimdən məlum olmuşdur. Qədim dövrlərdən çəkməçilər və usta papaqçılar çiriş kökünü yapışqan kimi də işlətmişlər. Vaxtı ilə Göyçay zonasında yaşayan çəkməçi və papaqçı

ustalar tərkibində 30%-dən çox miqdarda polişəkərlər olan çiriş kökü kütləsinin yapışqan xüsusiyyətini nəzərə alaraq onu bu sahədə işlətmişlər. Bundan əlavə, çiriş kökündən çoxsaylı məlhəmlər hazırlanmış, qədim təbabətdə ondan sınıqların müalicəsində və s.xəstəliklərdə istifadə olunmuşdur [1,2].

Maraqlıdır ki, bitki bəlkə də kökünə görə orta əsr Türk mənbələrində Asphodelus ramosus adlandırılmışdır. Ona görə də, əsas etibarılə bitki xarakterizə olunduqda asphodelus adında müalicəvi əhəmiyyəti aşağıdakı kimi izah olunmuşdur.

Çirişin qoxusu zəif də olsa soğan və sarımsağın iyini xatırladır. Burada bitkinin protein, vitamin və mineral tərkibinin zənginliyi xüsusi qeyd olunur. Türkiyədə çiriş, xalq arasında kirkiş otu, kirgiç, çiviş, yabanı pirasa, dağ pirasası, sarızanbaq və s.adlar ilə də tanınır. Anadolu, Egey və Ağdəniz bölgələri mövsümdə bu bitki ilə çox zəngin olur.

Bağırsaqlara faydası ilə yanaşı, onun vücudun müqavimətini artırdığı, həmçinin infeksiyalara qarşı çox faydalı olması da qeyd olunur. Çirişin həliminin çay şəklində, hətta qurusunun toz halına (un) salınaraq balla qarışdırılaraq qəbul edilməsi və içilməsi də faydalı sayılır. Bişirilib qovrulmuş halda, o daha ləzzətlidir. Bütün bunlara rəğmən, insanlar tərəfindən çiriş otunun orqanizmə qəbul miqdarına xüsusi fikir verilməlidir. Çox zaman o, isti emaldan yaxşı keçmədiyi halda bağırsaqlarda duruluq yaratmaqla ishal, qusma doğura bilir [7].

Çirişin yarpaqları göy soğanı xatırladır. Yuxarısında ağ çiçəyi olur. Onun kökü isə palıd qozasına bənzəyir, amma ondan bir az böyük (iri) olur. Yarpaqlarının təbiəti orta əsr mənbələrinə görə birinci dərəcəli isti və qurudur. Çirişlə qidalandıqda dərini parlaqlaşdırır və təmizləyir. Dərini əzilmiş çiriş yarpaqları ilə mazladıqda isə keçəlləşmə xəstəliyində kömək edir. Onun kökünü şərab içərisində bişirdikdə və isladılmış tənziflə təpitmə kimi işlətdikdə, qıçlarda müşahidə olunan iltihab və yanıqlarda müsbət təsir göstərir.

Bununla belə, çirişin gülü və meyvələri çiy halda yeyildikdə ishal doğurur. Çiriş sidik qovucu olub sarılığı (sarılıq xəstəliyini) müalicə edir, qanı artırır. Kökündən pörtlədilərək hazırlanmış (şəkərlə) isti təpitmə yumurtalıqda meydana çıxan şişlərə, yandırılmış külü ilə mazlanma isə səpkilərdə və yaman yaralara qoyulduqda sağalmağa kömək edir, sinirləri, keçəlliyi sağaldır. Onun gülünü və kökünü bişirilmiş halda yemək olar. İbn Sinaya görə, bu miqdar təxminən 10-15 qramdan çox olmamalıdır. Çiriş dalağa ziyandır, ona görə də onu yağlı şorbalarda istifadə etmək daha məqsədəuyğundur. Çiriş kökü dadına görə azca yandırıcıdır.

Хорошим разведением является то, из которого при высеве в чашке Петри выросло от 30–50 до 100– 300 колоний. В нашем случае в чашке №1 выросло 200 колоний с учетом разведения 10^{-3} и посева 0,1 мл в чашку Петри, также с таким же разведением выросло 275 колоний другого вида. В чашке № 2 с учетом разведения 10^{-4} число колоний составило 11, его для подсчета не использовали. Таким образом, в первом виде колоний (в чашке №1) микроорганизмов в1 мл составило $2{,}0 \cdot 10^6$КОЕ/мл, во втором виде колоний микроорганизмов в 1 мл составило $2{,}8 \cdot 10^6$КОЕ/мл.

Микробиологическое исследование закваски проводилось с помощью микроскопирования



а) б)

Рисунок 2 - Результаты микроскопирования (по визуальной оценке): а-молочнокислые кокки (Lactococcus); б-дикие дрожжи (C.milleri)

Молочнокислые бактерии окрашивались по Граму. Предположительно в закваске наблюдались молочнокислые кокки, которые относятся к семейству Streptococcaceae, а именно рода - лактококков (Lactococcus). Представители рода Lactococcus выглядят под микроскопом как сферические или овальные клетки диаметром 0,5-1,5 мкм, располагающиеся в виде отдельных одиночных клеток.

Результаты представлены на рисунке 2.

Также в поле зрения наблюдались более мелкие округленные формы, похожие на дикие дрожжи, название Saccharomycesminor. На основании полученных данных были определены параметры приготовления закваски спонтанного брожения из солодового сусла: влажность-50%, температура -28-30^{0}С, конечная кислотность -8,0-10,0 град. Продолжительность брожения в производственном цикле 4,5-5 часа. Данные параметры позволяют получить закваску с наилучшими органолептическими, физико-химическими и микробиологическими показателями.

Ключевые слова: пшеничная мука, хлебобулочные изделия, закваска, солодовое вино, самопроизвольное брожение, микрокопия.

ЛИТЕРАТУРА

1. Патент № 2805086 C1 Российская Федерация, МПК C12N 1/16, C12N 1/18, C12N 13/00. Способ получения дрожжевых композиций: № 2023100769: заявл. 13.01.2023: опубл. 11.10.2023 / О. Ю. Калужина, А. Д. Заграничная, А. А. Черненкова [и др.]; заявитель Федеральное государственное бюджетное образовательное учреждение высшего образования "Башкирский государственный аграрный университет". – EDN WHSNWF.
2. Гусев, А. Н. Влияния настоев из растительного сырья на сроки хранения Квасов / А. Н. Гусев, А. Д. Заграничная, И. И. Багаутдинов // Современное состояние, традиции и инновационные технологии в развитии АПК: материалы международной научно-практической конференции в рамках XXXIII Международной специализированной выставки «Агрокомплекс-2023», Уфа, 22–24 марта 2023 года / Часть 2. – Уфа: Башкирский государственный аграрный университет, 2023. – С. 160-166. – EDN BELOMS.
3. Влияние ультразвука на дрожжи-сахаромицеты / О. Ю. Калужина, А. Н. Гусев, И. И. Багаутдинов [и др.] // Пиво и напитки. – 2024. – № 1. – С. 28-32. – DOI 10.52653/PIN.2024.01.04. – EDN ILVKEE.
4. Деева, Н. А. Разработка рецептуры хлебцев на закваске с применением чайного гриба и цельносмолотой тритикалевой муки / Н. А. Деева, Е. И. Кощина, А. С. Нигматзянов // Технологии и продукты здорового питания: Сборник статей XII Национальной научно-практической конференции с международным участием, Саратов, 17–18 декабря 2020 года / Под общей редакцией Н.В. Неповинных, О.М. Поповой, Е.В. Фатьянова. – Саратов: Саратовский государственный аграрный университет им. Н.И. Вавилова, 2021. – С.160-166. – EDN OMJARG.

SƏMƏNİ EKSTRAKTLARININ İSTİFADƏSİ İLƏ TURŞ XƏMİRİNİN MİKROFLORASININ TƏDQİQİ

A.S. Niqmatzyanov
almas.nigmatzyanov@mail.ru
E.İ. Koşçina
koshchina65@mail.ru
Başqırd Dövlət Aqrar Universiteti, Ufa, Rusiya

Məqalə çörəkbişirmə sənayesində səməni ekstraktlarının istifadəsi ilə bağlı ədəbiyyatın nəzərdən keçirilməsini təmin edir və buğda unundan hazırlanmış bişmiş məhsullar üçün kortəbii fermentləşdirilmiş başlanğıcların qidalı qarışığının bir hissəsi kimi səməni şərabının istifadəsinin mümkünlüyünü araşdırır. Spontan fermentasiya turşunun hazırlanması üçün resept və rejimlərin təsviri verilmişdir.

Açar sözlər: buğda unu, çörək məmulatı, turş xəmir, səməni şərabı, spontan fermentasiya, mikrokopiya.

INVESTIGATION OF THE MICROFLORA OF THE SOURDOUGH FERMENTATION ON MALT WORT

A.S. Nigmatzyanov
almas.nigmatzyanov@mail.ru
E.I. Koshchina
koshchina65@mail.ru
Bashkir State Agrarian University, Ufa, Russia

The article provides an overview of the literature on the use of malt extracts in the bakery industry, investigated the possibility of using malt wort in the nutritional mixture of spontaneous fermentation starters for bakery products from wheat flour. Description of recipe and modes of preparation of spontaneous fermentation starter are given.

Key words: wheat flour, bakery product, starter, malt wort, spontaneous fermentation, microcoping.

EFİR YAĞLI BİTKİLƏRDƏN HAZIRLANMIŞ BALZAM TİPLİ İÇKİNİN TƏRKİBİNDƏ 5-HİDROKSİMETİLFURFUROLUN TƏDQİQİ

Mərdan Tağıyev
merdanaztu@mail.ru
Aygün Cəfərova
aygun-ceferova1994@mail.ru
Azərbaycan Texnologiya Unversiteti

Bildiyimiz kimi, qida məhsullarının tərkibi mürəkkəb çoxkomponentli sistem olub, üzvi və qeyri-üzvi maddələrdən, makro və mikroelementlərdən, vitaminlərdən və digər bioloji aktiv birləşmələrdən ibarətdir. Ona görə də belə tərkibli məhsulların keyfiyyəti onların qidalılıq dəyəri ilə müəyyənləşdirilir. Məhsulların tərkibindəki zülalların, yağların və karbohidratların miqdarının qeyri-mütənasibliyi insan orqanizmində baş verən bioloji proseslərin gedişinə və həyati vacib maddələrin mübadiləsinə mənfi təsir göstərir. Ona görə də məhsulların tərkibində olan fenol birləşmələrinin, qida əlavələrinin, vitaminlərin,digər üzvi və qeyri-üzvi birləşmələrin miqdarı haqqında məlumatların dəqiqləşdirilməsi çox vacibdir. Cünki, bu məlumatlar yaradılan hər bir orjinal qida məhsulları nümunələrinin təhlükəsizliyində, qida rasionunun planlaşdırılmasında və pəhriz qidalarının hazırlanmasında böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı yaradılan hər bir yeni çeşidli qida məhsullarının təhlükəsizliyi onun tərkibindəki zəhərli elementlərin, pestisidlərin, nitratların, mikotoksinlərin və digərlərinin miqdarı ilə qiymətləndirilir [6].

Bunu əsas qəbul edərək, tərəfimizdən III variantda hazirlanmiş efir yağli bitkilərdən balzam tipli içkinin tərkibində yarana biləcək 5-hidroksimetilfurfurolun miqdarının tədqiq edilməsi çox vacibdir. Çünki 5-hidroksimetilfurfurol toksiki təsirə malik bir birləşmədir.

Efir yağli bitkilərdən hazirlanmiş balzam tipli içkinin tərkibində 5-hidroksimetilfurfurolun miqdarı ABŞ-ın Perkin Elmer firmasının istehsalı olan Clarus SQ 8 GC/MS qaz xromotoqrafiya spektrometrində yerinə yetirilməklə tədqiq olunmuşdur.

Efir yağli bitkilərdən balzam tipli içki hazirlanmasında isti emal üsulu tətbiq edilir. Bildiyimiz kimi, isti emal zamanı məhsulun tərkibindəki heksozalar və pentozalar, yüksək temperaturun təsirinə məruz qaldığı və amin turşuları ilə qarşılıqlı əlaqədə olduğu üçün furan sırası törəmələrinə - 5-hidroksimetilfurfurol, 5-metilfurfurol və furfurola çevrilirlər.

Qeyd etdik ki, furan törəmələri zəhərli xüsusiyyətə malik birləşmələrdir. Məhsulun tərkibində onların miqdarının çox olması insanın sağlamlığına mənfi təsir göstərə bilər.Yüksək dozası qıcolma və ifliclə, kiçik dozası isə sinir sistemini depressiyası ilə nəticələnə bilər. Ona görə də qida məhsullarının tərkibində 5-hidroksimetilfurfurolun miqdarca çox olması arzuolunmazdır: Çünki insan orqanizmi bu sadə və mürəkkəb birləşmələri metabolizm prosesində iştirak edə bilmədiyindən, onların insanın qaraciyərində toplanması ilə yanaşı, orqanizmdə biokimyəvi proseslərin pozulması baş verə bilər [1, 2, 7].

5-hidroksimetilfurfurolun toksiki təsirə malik olması istifadə ediləcək qida məhsullarının tərkibində onun hansı miqdarda olmasını standartlaşdırmağı gündəmə gətirir.

Hal hazırda onun qida məhsullarının tərkibində hansı miqdarda olmasını müəyyən edən normativ sənədlər mövcuddur. Normativə əsasən 5-hidroksimetilfurfurolun miqdarı təbii balın tərkibində – 25 mq/kq-dan [3], Avropa İttifaqı standartlarına görə isə 5-hidroksimetilfurfurolun icazə verilə bilən maksimum miqdarı 40 mq/kq-dan çox olmamalıdır. BMT standartlarında qeyd olunur ki, isti iqlimli bölgələrdə toplanan balın tərkibində 5-hidroksimetilfurfurolun maksimum miqdarı 80 mq/kq-a qədər ola bilər [8].

Bu göstəricilər meyvə və tərəvəzlərdən hazırlanmış şirələrdə – 20 mq/l-dən [4], şirələr, nektarlar, azyaşlı uşaqların qidalanması üçün nəzərdə tutulmuş konservlərdə - 10 mq/l-dən çox olmamalıdır [6].

Qeyd edək ki, bitki xammalından və onun emalı məhsullarından içkilər istehsal edilən zaman onlarda hidroksimetilfurfurol və ya furfurol, habelə onların qarışıqları toplanır. Buna görə də, qida məhsulları üçün qeyd olunan birləşmələrin hər birinin miqdarı standartlaşdırılıb.

Belə ki, Beynəlxalq Şirə İstehsalçıları Federasiyası (IFFJP) bu birləşmələrin konsentrasiyasının meyvə şirələrinin tərkibində miqdarının maksimum 5-10 mq/dm^3, qatılaşdırılmış şirələrdə isə 25 mq/dm^3 olmasını tövsiyə edir.

Bunlar nəzərə alınmaqla ilkin olaraq tərəfimizdən efir yağlı bitkilərdən balzam tipli içki hazırlanması üçün xammal və onun istifadə miqdarı müəyyənləşdirilmiş, III variantda balzamın resepti və hazırlanma texnologiyası işlənib hazırlanmışdır. Məhsullar isti emala məruz edilmiş, müəyyən müddət saxlandıqdan sonra alınmış ekstraktlar süzülmüş, ayrı-ayrılıqda şəkər şərbəti ilə birləşdirilərək isti emala məruz edilmişdir. Bir müddət saxlandıqdan sonra tərkibində 5-hidroksimetilfurfurolun əmələ gəlmiş miqdarı öyrənilmişdir.

Müəyyən olunmuşdur ki, efir yağlı bitkilərdən hazırlanmış balzam tipli içkinin tərkibində 5-hidroksimetilfurfurolun miqdarı I variantda 13,73 mq/dm^3, II variantda 14,08 mq/dm^3, III variantda 34,65 mq/dm^3 olmuşdur. III variantda 5-hidroksimetilfurfurolun miqdarının yüksək olması tərkibində saxarozanın azaldılaraq qatılaşdırılmış qarpız şirəsi ilə əvəz edilməsi və isti emalın müddətinin uzunmüddətliliyi ilə izah edilir.

Beləliklə belə nəticəyə gəlmək olar ki, efir yağlı bitkilərdən hazırlanmış balzam tipli içkilər təhlükəsizlik baxımından standartlara uyğundur və qidalanmada istifadə edilə bilər.

Açar sözlər: efiryağlı bitkilər, balzam, isti emal, 5-hidroksimetilfurfurol.

ƏDƏBİYYAT

1. Малтабар В.М.Технология коньяка. 2-е изд. / В.М. Малтабар, Г. И. Фертман / Москва, -1971, с – 174;
2. Кишковский 3. Н. Химия вина / 3. Н. Кишковский, И. М. Скурихин / Москва, -1996. М. М.Гециу, Кишинев, с – 212;
3. ГОСТ 19792-2001 Мед натуральный. Технические условия;
4. ГОСТ 53694-2009 Продукция соковая. Определение 5- гидроксиметилфурфурола методом высокоэффективной жидкостной хроматографии;
5. ГОСТ 29032-91 Продукты переработки плодов и овощей. Методы определения оксиметилфурфурола;
6. Технический регламент Таможенного союза ТР ТС 021/2011. О безопасности пищевой продукции: утв. Решением Комиссии Таможенного союза от 09.12.2011 г. № 880. 242 с
7. Труды БГУ 2008, том 3, часть 1. Статистические данные по фенольным и фурановым компонентам коньячной продукции, импортируемой в Республику Беларусь;
8. https://online-kitchen.ru/blog/tpost/3y09rhnxh1-vredno-li-nagrevat-med

ИССЛЕДОВАНИЕ 5-ГИДРОКСИМЕТИЛФУРФУРОЛА В НАПИТКЕ ТИПА БАЛЬЗАМ, ПРИГОТОВЛЕННОМ ИЗ ЭФИРНО-МАСЛИЧНЫХ РАСТЕНИЙ

Мардан Тагиев
merdanaztu@mail.ru
Айгюн Джафарова
aygun-ceferova1994@mail.ru
Азербайджанский Технологический Университет

В статье определено количество 5-гидроксиметилфурфурола в бальзамическом напитке, приготовленном из эфиромасличных растений. Установлено, что количество 5-гидроксиметилфурфурола в бальзаме, приготовленном по трем вариантам составило: в I варианте 13,73 мг/дм^3 , во II варианте 14,08 мг/дм^3 и в III варианте 34,65 мг/дм^3. Высокое содержание 5-гидроксиметилфурфурола в III варианте объясняется уменьшением в составе сахарозы и заменой ее сгущенным арбузным соком и длительной продолжительностью тепловой обработки.

Таким образом, можно сделать вывод, что бальзамические напитки, приготовленные из эфиромасличных растений, соответствуют нормам безопасности и могут использоваться в питании.

Ключевые слова: эфиромасличные растения, бальзам, тепловая обработка, 5-гидроксиметилфурфурол.

STUDY OF 5-HYDROXYMETHYLFURFUROL IN A BALSAM-TYPE DRINK MADE FROM ESSENTIAL OIL PLANTS

Mardan Tagiyev
merdanaztu@mail.ru
Aygun Jafarova
aygun-ceferova1994@mail.ru
Azerbaijan Technological University

The article determines the amount of 5-hydroxymethylfurfurol in balsamic drink made from essential oil plants. It was found that the amount of 5-hydroxymethylfurfurol in the balsam prepared according to variant III was: 13.73 mg/dm^3 in variant I, 14.08 mg/dm^3 in variant II and 34.65 mg/dm^3 in variant III. The high content of 5-hydroxymethylfurfurol in variant III is explained by the decrease in the sucrose composition and its replacement with thickened watermelon juice and the long duration of hot processing.

Thus, it can be concluded that balsamic drinks made from essential oil plants comply with safety standards and can be used in nutrition.

Key words: essential oil plant, balsam, hot processing, 5-hydroxymethylfurfurol.

TAXIL MƏHSULLARINA TƏLƏBATIN TƏDQİQİ

Şahin Mustafayev
shahin.mustafayev@stat.gov.az
Toğrul Xanlarov
togrul.khanlarov@stat.gov.az
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi

Əhalinin həyat səviyyəsi, onun dinamikası əsaslı dərəcədə məhsuldar qüvvələrin inkişaf səviyyəsi, milli sərvətin həcmi və strukturu, ümumi milli məhsulun həcmi və istifadəsi, gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsinin xarakterindən asılıdır.

Həyat səviyyəsi, hər şeydən əvvəl, istehlak göstəriciləri ilə də müəyyən edilir və hər bir vətəndaşın, hər bir ailənin və bütövlükdə cəmiyyətin istehlak etdiyi maddi nemətlərin həcmi və strukturu onların sərəncamında olan resurslar əsasında formalaşır.

Ölkədə ərzaq məhsulları istehlakının həcmini qiymətləndirmək üçün minimum istehlak səbəti əsas götürülür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmiş ərzaq məhsullarının istehlak norması aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1

Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə istehlak səbəti (adambaşına orta illik: kq) [15]

Sıra №-si	Ərzaq məhsullarının adı	Əmək qabiliyyətli əhali	Təqaüdçülər	Uşaqlar 0-15 yaş
1	Ət və ət məhsulları	32.9	25.6	29.6
2	Süd və süd məhsulları (südə çevirməklə)	223.6	233.8	258.6
3	Yumurta (ədəd)	150.0	100.0	183.0
4	Balıq və balıq məhsulları	7.7	6.8	8.0
5	Şəkər və qənnadı məmulatları	16.9	15.8	19.7
6	Bitki yağları, marqarin və digər piylər	10.9	8.4	7.0
7	Kartof	54.8	40.2	42.0
8	Tərəvəz və bostan məhsulları	97.2	85.2	100.7

9	Çörək və çörək məhsulları (una çevirməklə)	136.8	107.9	100.5
10	Meyvə və giləmeyvə	38.0	32.0	76.0
11	Kərə yağı	7.0	5.8	6.0
12	Digər məhsullar	4.7	3.3	4.0

Bu göstəricilər hesablanarkən statistikanın ümumiləşdirici göstəricisi olan orta kəmiyyətdən istifadə edilmişdir. Ekonometriya elmi tərəfindən sübut edilmişdir ki, orta kəmiyyət bircins hadisə və məhsullar üzrə hesablanmalıdır. Orta kəmiyyətin xətası 5%-dən çox olduqda bu orta kəmiyyətdən istifadə tövsiyə olunmur və məlumatlar qruplaşdırılır. Yuxarıda verilmiş istehlak səbətinin göstəriciləri bircinslik prinsipinə uyğun gəlmir (məsələn, ət və ət məhsulları, çörək və çörək məhsulları və s. müxtəlif kaloriyə malikdir). Eyni zamanda bircins olmayan hər hansı kateqoriyaya aid olan (məsələn, çörək və çörək məhsulları) ərzaq məhsullarının qidalılıq və enerji dəyəri kəskin fərqlənir və bu göstəricilər ilkin deyil, aqreqat göstəricilər hesab olunur. Ona görə ərzaq və qida tələbatının müəyyən edilməsi zamanı əhalinin enerji və qida tələbatına əsasən istehlak səbətinin hesablanması metodundan istifadə tövsiyə edilir. Əhalinin adambaşına enerji tələbatı cins və yaş qrupları üzrə müxtəlif olduğu üçün variasiya əmsalı ayrı-ayrı yaş qrupları üzrə müxtəlif olur.

Klassik hesablama metoduna əsasən hesablanmış istehlak səbətinin yuxarıda qeyd edilmiş nöqsanlarını aradan qaldırmaq üçün Avropa İttifaqı ölkələri əhalinin cins və yaş qrupları üzrə enerji tələbatını əsas götürür. Əhalinin cins və yaş qrupu üzrə qida enerjisinə olan tələbatı Avropa İttifaqı ölkələrində aşağıdakı cədvəldə göstərildiyi kimidir [1].

Cədvəl 2. **Avropa İttifaqı ölkələrində əhalinin cins və yaş qrupu üzrə qida enerjisinə olan tələbatı [1]**

Yaş	**Kişilər**		**Qadınlar**	
	kkal	MJ (meqacoul)	kkal	MJ (meqacoul)
0-3 aylıq	545	2.28	518	2.16
0-4 aylıq	690	2.89	645	2.69
7-9 aylıq	825	3.44	765	3.20
10-12 aylıq	920	3.85	865	3.61
1-3 yaş	1230	5.15	1165	4.86
4-6 yaş	1715	7.16	1545	6.46
7-10 yaş	1970	8.24	1740	7.28
11-14 yaş	2220	9.27	1845	7.92
15-18 yaş	2755	11.51	2110	8.83
19-50 yaş	2550	10.60	1940	8.10
51-59 yaş	2550	10.60	1900	8.00
60-64 yaş	2380	9.93	1900	7.99
65-74 yaş	2330	9.71	1900	7.96
75 + yaş	2100	8.77	1810	7.61
Hamiləlik dövrü			+200	+0.8
Laktasiya dövrü, 1 aylıq			+450	+1.9
Laktasiya dövrü, 2 aylıq			+530	+2.2
Laktasiya dövrü, 3 aylıq			+570	+2.4

Bu rəqəmlər fiziki aktivliyin orta səviyyəsini nəzərdə tutur; yüksək fəallıq səviyyəsinə malik insanların tələbatı daha yüksək, çox oturaq həyat tərzi keçirənlərin tələbatı isə aşağıdır.1 yanvar vəziyyətinə görə yaş qrupları üzrə ölkə əhalisinin sayı aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 3. 1 yanvar vəziyyətinə görə yaş qrupları üzrə ölkə əhalisinin sayı, nəfər [3]

Yaş	**Kişilər**	**Qadınlar**
1 yaşadək	60184	52100
1-3 yaş	214478	188351

4-6 yaş	246595	217472
7-10 yaş	366804	317491
11-14 yaş	315497	271619
15-18 yaş	263512	231007
19-50 yaş	2457209	2431703
51-59 yaş	539634	608896
60-64 yaş	268312	305629
65-74 yaş	245528	308926
75 + yaş	96767	148652

Cədvəl 2 və cədvəl 3-in məlumatlarından istifadə etsək ölkə üzrə əhalinin enerjiyə olan tələbatı aşağıdakı cədvəldə göstərildiyi kimi olar.

Cədvəl 4. Respublika üzrə əhalinin yaş qrupuna görə enerjiyə olan tələbatı

Yaş qrupları	Kişilər, nəfər	Qadınlar, nəfər	Kişilər üzrə gündəlik enerji tələbatı, kkal	Qadınlar üzrə gündəlik enerji tələbatı, kkal	Cəmi kişilər üzrə gündəlik enerji tələbatı, kkal	Cəmi qadınlar üzrə gündəlik enerji tələbatı, kkal
1 yaşadək	60184	52100	745	698.25	44837080	36378825
1-3 yaş	214478	188351	1230	1165	263807940	219428915
4-6 yaş	246595	217472	1715	1545	422910425	335994240
7-10 yaş	366804	317491	1970	1740	722603880	552434340
11-14 yaş	315497	271619	2220	1845	700403340	501137055
15-18 yaş	263512	231007	2755	2110	725975560	487424770
19-50 yaş	2457209	2431703	2550	1940	6265882950	4717503820
51-59 yaş	539634	608896	2550	1900	1376066700	1156902400
60-64 yaş	268312	305629	2380	1900	638582560	580695100
65-74 yaş	245528	308926	2330	1900	572080240	586959400
75 + yaş	96767	148652	2100	1810	203210700	269060120
					11936361375	9443918985
Ölkə üzrə gündəlik enerji tələbatı						21380280360
Gündəlik taxıl məhsulları enerjisinə tələbat (enerji tələbatının 50% götürülmüşdür, kkal[2]						10690140180
Gündəlik taxıl tələbatı (10690140180/3000 kkal, bir kq=3000 kkal) [2]						3563380.06
Gündəlik taxıl tələbatı, tonla (3563380/1000)						3563.38006
İllik taxıl tələbatı, tonla (3563.38*365)						1300633.7

Bəzi ədəbiyyatlarda göstərilir ki, əhalinin qəbul etdiyi gündəlik enerjinin fizioloji normasının 50 faizi taxıl və taxıl məhsullarından, qalan hissəsi isə digər ərzaq məhsullarından ibarət olmalıdır [2]. Bu zaman əsas diqqət ərzaq məhsullarının qidalılığına (zülal, piylər, karbohidratlar və s.) yönəldilir. Ərzaq məhsullarının qidalılıq və enerji dəyəri arasında olan nisbətin pozulması əhalinin sağlamlığına mənfi təsir göstərir. Yəni

orqanizmdə artıq enerji asanlıqla orqanların piylənməsinə, şəkər və digər xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Ona görə də ticarət şəbəkələrində satılan bütün ərzaq məhsullarının qidalılığı göstərilməli və minimum istehlak səbətinin qidalılıq səviyyəsi də müəyyən edilməlidir [2].

Nəticə. Tədqiqatın nəticəsi göstərir ki, istehlak olunan ərzaq məhsullarının enerji dəyərinin yarısı strateji məhsul olan taxılın payına düşür. Ərzaq məhsullarının qidalılıq və enerji dəyərini hesablayarkən iqtisadi rayonların təbii iqlim şəraiti, əhalinin milli xüsusiyyətləri, əhalinin fəaliyyət növü, cins və yaş tərkibi və s. amillər də nəzərə alınmalıdır.

İstehlak səbəti ərzaq və qida təhlükəsizliyinin elmi əsaslarla proqnozlaşdırılması üçün zəruri informasiya mənbəyidir, istehlak səbətinin dəyərinə, istehlak davranışına, əhalinin pul gəlirlərinə də təsir edir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, həyat səviyyəsi, istehlak səbəti, gündəlik enerji tələbatı, taxıl məhsullarına tələbat, əhalinin sağlamlıq səviyyəsi.

ƏDƏBİYYAT

1. Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı
2. https://egoist24.ru/az/banki-rossii/chto-takoe-veshchestvo-v-ede-mineralnye-veshchestva-v-produktah-pitaniya-iz-chego.html
3. http://www.azstat.gov.az

ИССЛЕДОВАНИЕ СПРОСА НА ЗЕРНОВЫЕ ПРОДУКТЫ

Шахин Мустафаев
shahin.mustafayev@stat.gov.az
Тогрул Ханларов
togrul.khanlarov@stat.gov.az
Государственный Комитет Статистики Азербайджанской Республики
Центр Научных Исследований и Статистических Инноваций

Для определения суточной потребности населения в пищевой энергии в статье проведена оценка количества потребляемой пищи мужчинами и женщинами в разных возрастных группах. Для этого использовалась минимальная потребительская корзина. Проведено математико-статистическое исследование энергетической ценности по половозрастным группам населения для прогнозирования пищевой и энергетической ценности пищевых продуктов и продуктов питания. Исследовано соблюдение принципа однородности для прогнозов среднего количества. Коэффициент вариации и коэффициент стабильности проверялись на соответствие условию нормальности. Отмечена важность проведения статистических исследований с помощью современных программных пакетов и статистических методов.

Ключевые слова: продовольственная безопасность, уровень жизни, потребительская корзина, суточная потребность в энергии, спрос на зерновые продукты, уровень здоровья населения

THE STUDY OF DEMAND FOR GRAIN PRODUCTS

Shahin Mustafayev
shahin.mustafayev@stat.gov.az
Toghrul Khanlarov
togrul.khanlarov@stat.gov.az
State Statistics Committee of the Republic of Azerbaijan
Center for Scientific Research and Statistical Innovation

The article assesses the amount of food consumed by men and women in different age groups to determine the daily need of the population for food energy. For this, the minimum consumer basket was used. Mathematical and statistical study of energy value

by sex and age groups of the population was carried out to predict the nutritional and energy value of food products and foodstuffs. The expectation of the principle of homogeneity for forecasts of the average quantity is investigated. The coefficient of variation and the coefficient of stability were checked for compliance with the normality condition. The importance of conducting statistical research with the help of modern software packages and statistical methods was noted.

Key words: food security, standard of living, consumption basket, daily energy demand, demand for cereal products, health level of the population.

MAYE QİDA MƏHSULLARININ BƏZİ İSTİLİK FİZİKİ XASSƏLƏRİNİN TƏCRÜBİ YOLLA TƏYİN EDİLMƏSİ

Əsgərov Namik Rza oğlu
n.esgerov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Maye qida məhsullarının emalında xammal və yarımfabrikatlar müxtəlif proseslərə uğradılırlar. Həmin proseslərin yerinə yetirilməsində xüsusi təyinatlı maşın və aparatlardan istifadə olunur. Bu aparatların layihələndirilməsində məhsulun istilik-fiziki xassələrinin məlum olması çox vacibdir. Hər hansı məhsulun istilik-fiziki xassələri (sıxlıq, istilik tutumu, temperatur və istilik keçirmə əmsalları və s.) həm hesabat, həm də təcrübə (eksperiment) yolu ilə təyin edilir.

Təcrübə yolu ilə təyin edilən istilik-fiziki xassə daha dəqiq olur. Çünki, hesabat formulasına daxil olan kəmiyyətlərin hər biri eksperiment yolu ilə müəyyən xətalarla təyin edilmişlər ki, bu da hesabat yolu ilə təyin edilən fiziki xassənin qiymətinin dəqiqliyində xətanın çox olmasına gətirib çıxarır[1,3].

Bildiyimiz kimi maye-konsistensiyalı məhsullar üçün temperatur keçirmə əmsalı (a) belə bir formula ilə hesablanır.

$$a = \frac{\lambda}{\rho \cdot C_p}, \text{ burada}$$

$\lambda - istilik\ keçirmə\ əmsalı$

$\rho - sıxlıq$

$C_p - sabit\ təzyiqdə\ istilik\ tutumu$

Bu kəmiyyətlərin hər biri təcrübə yolu ilə təyin edildiyindən buraxıla bilən xətalar toplusu, $a - ölçülən$ hesabına xassənin qiymətində xəta böyük olur.

Hidrostatik çəkmə üsulu ilə "su-spirt-şəkər" qarışığının sıxlığının 299,1$\div$ 343,4 kelvin (K) temperatur diapazonunda ölçmənin nəticəsini cədvəl şəklində göstəririk.

Su-Şəkər-spirt məhlulunun səxlığı, r/sm^3

Spirt 9,66 % Şəkər 5,02 % Su 85,32 %		Spirt 9,66 % Şəkər 15,06 % Su 75,28 %		Spirt 19,39 % Şəkər 25,09 % Su 65,25 %		Spirt 19,39 % Şəkər 5,04 % Su 75,57 %		Spirt 19,36 % Şəkər 15,11 % Su 65,58 %		Spirt 19,39 % Şəkər 25,19 % Su 55,42 %	
T	ρ	T	ρ	T	ρ	T	ρ	T	ρ	T	ρ
299,1	1,0018	296,6	1,0437	299,0	1,0837	298,0	0,9915	298,6	1,0286	301	1,0595

303,9	1,0001	304,8	1,0399	305,4	1,0304	303,0	0,9864	395,2	1,0234	305,1	1,0557
313,7	0,0933	313,5	1,0377	313,4	1,0772	313,4	0,9796	313,5	1,0192	313,4	1,0531
324,5	0,9931	324,5	1,0332	323,4	1,0739	323,6	0,9760	323,7	1,0152	323,7	1,0483
334,3	0,9392	333,5	1,0292	333,6	1,0689	333,3	0,9693	334	1,0103	333,9	1,0402
343,4	0,9851	343,0	1,0257	344,0	1,0670	344,0	0,9653	344,4	1,0051	344,0	1,0361

Maye qida məhsullarının sıxlığını ölçmək üçün bir çox metodlardan (üsullardan) istifadə olunur: piknometr, densimetr, dilatometr, refraktometr, areometr, pyezometr (sabit və dəyişən həcmli), hidrostatik çəkmə, ultrasəs pyezometri və s. Bu metodların hər birinin üstün və çatışmayan cəhətləri var[2].

Hidrostatik çəkmə üsulu kifayət qədər dəqiqdir və təcrübəni aparmaq üçün sadədir. Azərbaycan üzümündən hazırlanan məhsullarının (şərab, şirə, sirop, bəhməz və s.) əsas tərkib hissəsini su, şəkər və spirt təşkil edir. Bu üç komponentin müxtəlif faizlərlə qarışığından ibarət məhlullar model məhlullardır. Ona görə bu məhlulların fiziki xassəsi olan sıxlığın (ρ) öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: Maye, istilik-fiziki xassələri, sıxlıq, istilik tutumu, temperatur və istilik keçirmə əmsalları.

ƏDƏBIYYAT

1. Базарнова Ю.Г. Методы исследования сырья иготовой продукции. – Санкт – Петербург.: Издательство Санкт – Петербургского Государственного Университета, -2013. – 76 с.
2. Клячко Ю.А. Методы анализа пищевых продуктов. – М.: Наука, 1988. – 270 с.
3. https://studfile.net/preview/8981051/page:19/

ЭКСПЕРИМЕНТАЛЬНОЕ ОПРЕДЕЛЕНИЕ НЕКОТОРЫХ ТЕПЛОФИЗИЧЕСКИХ СВОЙСТВ ЖИДКИХ ПИЩЕВЫХ ПРОДУКТОВ

Аскеров Намик Рза оглы
n.esgerov@atu.edu.az
Азербайджанский Технологический Университет

Статья посвящена экспериментальному определению некоторых теплофизических свойств жидких пищевых продуктов.

Ключевые слова: жидкость, теплофизические свойства, плотность, теплоемкость, температура и коэффициенты теплопроводности.

EXPERIMENTAL DETERMINATION OF SOME THERMAL PHYSICAL PROPERTIES OF LIQUID FOOD PRODUCTS

Namik Rza oglu Askerov
n.esgerov@atu.edu.az
Azerbaijan Technological University

The thesis is devoted to the experimental determination of some thermal physical properties of liquid food products.

Key words: Liquid, thermal-physical properties, density, heat capacity, temperature and coefficients of thermal conductivity.

ÜZÜM BİTKİSİNİN AQROEKOLOGİYASI

Mehman Telman oğlu İsmayılov
m.ismayilov@atu.edu.az
Hafiz Yusif oğlu Əsgərov
h.esgerov@atu.edu.az
Samir Həsən Mahmudov
s.mahmudov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Ampeloekologiya – üzüm bitkiləri ilə ətraf mühitin qarşılıqlı asılılığını, habelə onların yaşayış mühitinin təbii şəraitdə və aqrosenozda bitki örtüyünün və həyatın əsas proseslərinə təsirini öyrənən elmdir. Üzüm ekologiyasına dair keçirilən Beynəlxalq konfrans və simpoziumlarda üzümçülüyün inkişafının indiki mərhələsində təkcə böyümə şəraitinin təbii amillərini, biosferi deyil, həm də təşkilati amilləri özündə birləşdirən ekosistemin öyrənilməsinin mühüm əhəmiyyət kəsb etməsi dəfələrlə qeyd edilmişdir. Üzümün davamlılığı, böyüməsi və inkişafı, məhsulun miqdarı və keyfiyyəti ətraf mühit şəraitindəki dəyişikliklərdən böyük dərəcədə asılıdır desək yanılmarıq. Bu bitkiyə aid fərqli iqlim qurşaqlarında yetişdirilən eyni sort ölçü və keyfiyyət baxımından tamamilə fərqli məhsullar verəcəkdir. Çoxillik təcrübə və elmi tədqiqatlar göstərmişdir ki, üzümçülüyün ixtisaslaşması və sort rayonlaşdırılmasının əsasını ətraf mühit şəraiti və üzüm sortlarının genetik xüsusiyyətləri təşkil edir.

Üzüm bitkisinə eyni zamanda bir-biri ilə əlaqəli ekoloji amillər – iqlim, torpaq, məkan, geoloji, biotik və antropogen təsir göstərir. Başqa sözlə, bu amilləri aşağıdakı kimi xarakterizə etmək olar: - *iqlim amilləri* üzümün böyüdüyü, inkişaf etdiyi və meyvə verdiyi mühitin fiziki vəziyyətini xarakterizə edir və bu, əhəmiyyətinə görə ilkin (temperatur, işıq, rütubət) və ikinci dərəcəli (buludluluq, duman, quru küləklər, şaxta, külək, dolu və s.) amillərə bölünür; - istehsal istiqamətini, çeşidini və aqrotexniki tədbirlərin müəyyən edilməsində *torpaq amili* mühüm əhəmiyyət kəsb edir ki, buraya torpağın yaşı, qalınlığı, münbitliyi, rütubəti, tərkibində makro və mikroelementlərin olması və s.; -*biotik amillər* bəzi orqanizmlərin digərlərinə təsirinin məcmusudur. Onlar birbaşa (məsələn, arılar tərəfindən bitkilərin tozlanması) və ya dolayı (fotosintez zamanı yarpaq aparatının bakteriyaların və havanın fəaliyyətinin təsiri altında torpağın tərkibində dəyişikliklər) təsir göstərə bilər; -*məkan amilləri* dedikdə relyef, dəniz səviyyəsindən yüksəklik nəzərdə tutulur. Üzüm bağları üçün salınacaq əraziyə baxış keçirilərkən, həmçinin şaquli topoqrafik çəkilişlərin materiallarından və aerofotoşəkillərdən istifadə edilərkən relyef öyrənilir; -geoloji amillər – hava və su eroziyasının bitkilərə təsiri. Onlar ərazinin eroziya təhlükəsi xəritəsini tərtib edərkən və onunla mübarizə tədbirləri həyata keçirərkən nəzərə alınır; -nitropogen amillər insan fəaliyyətinin üzüm mədəniyyətinə, relyefin (süni oqrafik amillər) və torpağın (süni edafik amillər) formalaşmasına birbaşa və dolayı təsirlərinin məcmusudur. Üzüm üçün ən əlverişli iqlim mülayim və subtropik iqlimdir. Üzümün böyüməsinə və inkişafına təsir edən əsas amillər: havanın temperaturu (orta illik, orta gündəlik, ən isti ayın orta göstəricisi, şaxtasız dövrün müddəti, illik - minimum və maksimum); torpağın temperaturu (donma və istiləşmə dərəcəsi); günəş işığının intensivliyi və ildə günəşli günlərin sayı; küləyin gücü və istiqaməti; yağıntı; mütləq və nisbi hava rütubəti. Temperatur müxtəlif relyef və hündürlük şəraitində əkinlərin yerləşdirilməsinə, kolların formalaşmasına və idarə olunması sisteminə təsir edən müəyyənedici iqlim amillərindən biridir. Temperaturun üzümün inkişafına təsiri müxtəlif yollarla özünü göstərir. Belə ki, Vitis vinifera üzüm bitkilərinin aktiv həyatının yaranması və ya bioloji sıfır deyilən, fiziki olana yaxındır və bitkinin vegetativ hissələrinin müxtəlifliyindən asılı olaraq inkişafı 9-12 dərəcədən başlayır. Aktiv temperaturların təyinində bioloji sıfırın böyük əhəmiyyəti var. Selsi şkalası üzrə meteoroloji sıfır (suyun donma nöqtəsi) bitkilərin həyat proseslərinin başlamasının və ya zəifləməsinin göstəricisi

deyil, çünki onların əksəriyyətində daha yüksək temperaturda başlayır və dayanır. Avropa üzümlərinin dormansiyadan bitki örtüyünə keçdiyi temperatur orta gündəlik hava temperaturu 10°C hesab olunur. Artan mövsümdə temperaturun bioloji sıfırdan aşağı düşməsi (lakin 0° C-dən aşağı deyil) kolun ölümünə səbəb olmur, ancaq böyümə və inkişaf proseslərini dayandırır. Qönçələrin partlaması üzümün növündən və sortundan asılı olaraq sabit orta gündəlik hava temperaturu 10-12°C olduqda başlayır. Artdıqca aktiv hüceyrə bölünməsi və sürgünlərin sürətlə böyüməsi müşahidə olunur. Onların intensiv böyüməsi və qönçə əmələ gəlməsi üzümçülük üçün optimal temperaturda, 25-30°C-də baş verir. Çiçəklənmənin əvvəlində tumurcuqların sürətli böyüməsi yavaşlayır və böyümək mövsümünün sonuna qədər kol yavaş inkişaf edir. Bununla belə, tumurcuqların böyüməsi bərpa oluna bilər.

Dünya elmində üzüm bitkisinin müxtəlif xəstəliklərinə qarşı dayanıqlılığı təmin etmək üçün yüksək metabolitli üzüm sortlarının becərilməsi yayılmaq üzrədir. Bu baxımdan yeni üsul yaradılmış ki, burada toz kifinə davamlı bitkilərin yaradılması sürətləndirilir.

Hüceyrə toxunulmazlığını stimullaşdıran bir maddə olan xitosanın əlavə edilməsi ilə DNT və hüceyrələrin sağ qalma ehtimalı artırılır. Xitosan üzümün hüceyrə immun sistemini aktivləşdirir, DNT-ni xarici təsirlərdən qoruyan resveratrol kimi antioksidantların istehsalını azaldır. Bu kəşf qara üzümün genomunun redaktəsi ilə bağlı çətinlikləri aradan qaldırmağa imkan verir və göbələk infeksiyalarına davamlı sortların yaradılması istiqamətində mühüm addım hesab olunur.

Üzüm plantasiyalarının təbii ekoloji və enerji potensialının bərpası və sənaye istehsalının dayanıqlı inkişafının sabitləşdirilməsi üçün rasional aqrotexniki, təşkilati və texnoloji vasitələrdən istifadə edilməlidir. Torpağın və əldə edilən son məhsulun pestisid qalıqları ilə çirklənməsi baxımından üzüm bağlarının ekotoksikoloji nəzarəti və üzümlüklərin zərərli obyektlərdən qorunması texnologiyalarının tənzimlənməsi, şərab məhsullarının (dərman və sağlamlıq içkisi "Salvita") hazırlanması üçün yeni texnologiya, bütün vitamin kompleksinin qorunmasını təmin edən, şərabın məhsuldarlığını artıran, tərkibini azaldan və aradan qaldıran patentləşdirilmiş üsuldan istifadə etməklə şərab məhsullarında zəhərli maddələr, pestisidlərin fizioloji cəhətdən təhlükəli inhalyasiyasının aradan qaldırılması - üzümçülərin mühafizəsi üçün təklif olunan, orqanizmin iş qabiliyyətini saxlamaqla və əmək məhsuldarlığını 20%-ə qədər artırmaqla şəraitin gigiyenasını və əməyin təhlükəsizliyini artıran pnevmatik tənəffüs aparatının istifadəsi vacib şərtlərdir [1, 2].

Gələcəkdə alimlər şərabçılıq və məhsulun mühafizəsi üçün yeni perspektivlər açan toz küf və digər xəstəliklərə qarşı yüksək davamlılığa malik qara üzüm sortlarının yeni variasiyalarını uğurla yaratmağa ümid edirlər.

Açar sözlər: üzüm bitkisi, şərab, hüceyrə immuniteti, bitki, bitki örtüyü, iqlim şəraiti, torpaq.

ƏDƏBİYAT

1. Способ производства натурального виноградного эликсира / Положительное заключение предварительной экспертизы ФИПС РФпо заявке № 2003113162/13 (013927) от 05.05.2003 г. / Т.Н. Воробьева, Р.В. Фок, Н.А. Басий, А.Н. Макеева.

2. Воробьева Т.Н. Снижение влияния фосфор органических инсектицидов при переработке винограда / Т.Н. Воробьева, В.Я. Каклюгин, Н.А. Фок, Н.А. Басий // Виноделие и виноградар-ство. - 2003. -№ 1.- С. 25.

АГРОЭКОЛОГИЯ ВИНОГРАДА

Мехман Тельман Исмаилов
m.ismayilov@atu.edu.az
Хафиз Юсиф Аскеров
h.esgerov@atu.edu.az
Самир Махмудов
s.mahmudov@atu.edu.az
Азербайджанский Технологический Университет

В статье охарактеризованы агротехнические требования к выращиванию винограда, широко используемого в области виноделия, степень влияния факторов внешней среды на развитие растения, а также некоторые особенности генетического изменения на фоне болезней. На основе материала путем генетических изменений была повышена иммунная система растительных организмов, более устойчивых к плесневому грибу. Отмечается, что при добавлении хитозана – вещества, стимулирующего клеточный иммунитет, увеличивается вероятность выживания ДНК и клеток. Хитозан активирует клеточную иммунную систему винограда, снижая выработку антиоксидантов, таких как ресвератрол, которые защищают ДНК от внешних воздействий. Это открытие позволяет преодолеть трудности, связанные с редактированием генома черного винограда, и считается важным шагом на пути создания сортов, устойчивых к грибковым инфекциям.

Ключевые слова: виноградное растение, вино, клеточный иммунитет, растение, растительность, климатические условия, почва

AGROECOLOGY OF GRAPES

Mehman Telman Ismayilov
m.ismayilov@atu.edu.az
Hafiz Yusif Askerov
h.esgerov@atu.edu.az
Samir Hasan Mahmudov
s.mahmudov@atu.edu.az
Azerbaijan Technological University

The article describes the agrotechnical requirements for growing grapes, which are widely used in winemaking, the degree of influence of environmental factors on plant development, as well as some features of genetic changes against the background of diseases. Based on the material, the immune system of plant organisms was increased by genetic changes, making them more resistant to mold fungi. It is noted that with the addition of chitosan, a substance that stimulates cellular immunity, the likelihood of DNA and cell survival increases. Chitosan activates the cellular immune system of grapes, reducing the production of antioxidants such as resveratrol, which protect DNA from external influences. The discovery overcomes the difficulties associated with editing the genome of black grapes and is considered an important step towards creating varieties resistant to fungal infections.

Key words: grape plant, wine, cell immunity, plant, vegetation, climatic conditions, soil.

STUDY OF PROTEINS IN MORPHOGENIC AND NON-MORPHOGENIC WHEAT CALLUS

Vusale Jafarova
vusalejafarova@gmail.com
Mahira Mammadova
mmammadova2930@gmail.com
Gunay Ismayilova
biotech.gunay@gmail.com
Esmiralda Hasanzade
hsnzadesmiralda@gmail.com
Laboratory of Plant Biotechnology, Institute of Molecular Biology & Biotechnologies, Ministry of Science and Education of the Republic of Azerbaijan

Interest in using genetics for plant improvement has grown significantly in recent decades. One such means of increasing the productivity and tolerance of agricultural plants is the transfer of agronomically important genes into cells or tissues. However, the most important condition for the effective implementation of molecular genetic breeding programs is the development of tissue and cell culture systems of agricultural plants of interest. The development of in vitro technologies complements traditional wheat breeding methods in creating the genetic variation necessary to produce new varieties with desirable characteristics.

Callus has been obtained in *in vitro* culture from explants taken from many plant species. Valuable plants of particular interest in this field are cereals, but the process of obtaining callus from these plants *in vitro* culture is complex and fraught with difficulties. Overcoming these difficulties is important in terms of developing genetic resources of cereals and creating new varieties.

Callus formation in *in vitro* culture is based on the totipotency property of plant cells. Differentiated cells are reprogrammed and transformed into initial cells, and callus cells are obtained by controlling the composition of the nutrient medium. Specific antigenic proteins disappear in cells preparing for division, and special proteins appear for the division of cells and callus tissue. These observations indicate changes in the activity of genes and protein machinery of cells during dedifferentiation. In callus cells, specific and spare proteins appear, and the number of proteins characteristic of specialized cells decreases or disappears completely [1].

Callus mass is of two types, morphogenic and non-morphogenic. Morphogenic and non-morphogenic calluses differ both in terms of their biochemical composition and their structure [1].

Ozolina and colleagues found that the protein content of morphogenic and non-morphogenic calli differs significantly. The amount of proteins in morphogenic callus is 3-5 times higher than in non-morphogenic callus. A large number of protein bands characteristic for each type of callus have been observed [2].

The aim of our research was to detect the presence of proteins formed in the callus culture of the wheat plant we obtained, and to investigate the difference between these proteins in morphogenic and non-morphogenic calluses.

Immature embryos of wheat genotypes taken in the research process were isolated and used for the initiation of callus culture. The process of callus formation took place in dark conditions in viable immature embryos of the investigated genotypes. Intensive dedifferentiation and callus induction were observed within 5-12 days depending on the size of the immature embryo.

The search for the characteristic biochemical signs of morphogenesis was carried out by the study of water-soluble and storage proteins in two different: morphogenic and non-morphogenic types of callus obtained from the wheat genotype.

Hard Barakatli-95 and soft Deyirman wheat genotypes were taken in the experiment. The calli obtained in culture were visually divided into morphogenic and non-morphogenic types. Gel electrophoresis was used to identify proteins belonging to morphogenic and non-morphogenic callus types. Protein was determined by Fluorescence method [3].

During the study, it was determined that the protein spectrum of morphogenic and non-morphogenic calli differs significantly. Protein spectra specific to callus culture were detected in morphogenic type callus.

Different results were obtained in the protein spectrum of morphogenic callus in Barakatli-95 genotype than in non-morphogenic callus.

3 new polypeptides were discovered in the study conducted in the morphogenic type of callus culture of the Deyirman genotype.

The formation of new protein spectra in morphogenic callus cells is related to its high metabolic activity and ensures the ability of morphogenesis. Experiments on the search for the presence of reserve cells in callus culture are ongoing.

Key words: callus*, in vitro,* wheat, protein spectrum.

REFERENCES

1. Журавлев Ю.Н., Омелько А.М. Морфогенез у растений *in vitro* // Физиол. раст. 2008. Т. 55. № 5. С. 643–664
2. Озолина Н.В., Кузеванов В.Я., Котова Л.Г., Саляев Р.К. Электрофоретическое изучение белков в морфогенных и неморфогенных каллусах яровой пшеницы. Физиология и биохимия культурных растений. 1995. Т. 27. № 4. - С. 254–258
3. Zur H. et al. (2016) Complementary post transcriptional regulatory information is detected by punch-p and ribosome profiling. *Sci. Rep*., 6, 21635.

MORFOGEN VƏ QEYRİ-MORFOGEN BUĞDA KALLUSUNDA ZÜLALLARIN TƏDQİQİ

Vüsalə Cəfərova
vusalejafarova@gmail.com
Mahirə Məmmədova
mmammadova2930@gmail.com
Günay İsmayılova,
biotech.gunay@gmail.com
Esmiralda Həsənzadə
hsnzadesmiralda@gmail.com
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Molekulyar Biologiya və Biotexnika İnstitutu

Buğda bitkisinin Bərəkətli-95 və Dəyirman genotipləri kulturaya keçirilmişdir. Onların kallus kulturalarındakı morfogenetik xüsusiyyətləri öyrənilmişdir. İki tip kallus kütləsi ayrılmışdır, onlarda ehtiyat və suda həll olan zülalların araşdırılması işləri aparılmışdır.
Morfogen və qeyri-morfogen kallusların zülal spektrində əhəmiyyətli dərəcədə fərqlər müəyyən edilmişdir. Morfogen tipli kallusda kallus kulturasına xas zülal spektrləri aşkar edilmişdir.

Bərəkətli-95 genotipində morfogen kallusun zülal spektrində qeyri-morfogen kallusdan fərqli nəticələr alınmışdır. Dəyirman genotipinin kallus kulturasının morfogen

tipində aparılan araşdırmada yeni polipeptid spektrları aşkarlanmışdır. Kallus kulturasında ehtiyat zülallarının mövcudluğu ilə bağlı təcrübələr davam edir.

Açar sözlər: kallus, in vitro, buğda, zülal spektri.

ИССЛЕДОВАНИЕ БЕЛКОВ В МОРФОГЕННОМ И НЕМОРФОГЕННОМ КАЛЛУСЕ ПШЕНИЦЫ.

Вусала Джафарова,
vusalejafarova@gmail.com
Махира Маммадова,
mmammadova2930@gmail.com
Гюнай Исмайилова,
biotech.gunay@gmail.com
Эсмиральда Гасанзаде,
hsnzadesmiralda@gmail.com
Министерство Науки и Образования Азербайджанской Республики, Институт Молекулярной Биологии и Биотехнологии

В культуру in vitro пшеницы были введены: Баракатли-95 и Дейирман. Изучены их морфогенетические особенности в культуре. Было выделено два типа каллуса: морфогенный и неморфогенный. Было исследовано наличие запасных и водорастворимых белков в каллусной массе.

Установлено, что белковый спектр морфогенного и неморфогенного каллуса существенно различается. В каллусах морфогенного типа выявлены белковые спектры, специфичные для культуры каллуса.

Белковый спектр морфогенного каллуса генотипа Baraketli-95 отличался от неморфогенного каллуса наличием дополнительных белковых спектров.

Новые полипептидные спектры были также обнаружены в исследованиях, проведенных в морфогенном типе каллусной культуры генотипа Дейирман.

Эксперименты по наличию запасных белков в каллусной культуре продолжаются.

Ключевые слова: каллус, in vitro, пшеница, спектр белков.

YENİ NƏSİL QİDA QABLAŞDIRMA VƏ PAKETLƏMƏ TEXNOLOGİYALARI: DAVAMLILIQ VƏ İNNOVASİYALAR

Hicran Rəşid qızı İsmayılova[1]
hicran.ismayilova@teams.uteca.edu.az
Sona Üzeyir qızı Haciyeva[2]
sona.hajiyeva2@unibo.it
Azərbaycan Texnologiya Universiteti[1]
Boloniya Universiteti[2]

Qida sənayesi qlobal iqtisadiyyatın mühüm hissəsinə çevrilərək hər gün daha geniş auditoriyaya çatır. Ərzaq istehsalından istehlakçıya çatana qədər olan prosesdə təhlükəsizlik, keyfiyyət və təzəlik ən mühüm prioritetlərdəndir [2]. Bu məqsədlə istifadə edilən qablaşdırma sistemləri qida məhsullarının saxlanma müddətinin uzadılmasında, xarab olmasının qarşısının alınmasında və daşınma zamanı baş verə biləcək zədələnmələrin qarşısının alınmasında mühüm rol oynayır. Bununla belə, günümüzün ənənəvi qablaşdırma həlləri, xüsusilə də plastik əsaslı materiallar ətraf mühitin davamlılığı baxımından böyük problemlər yaradır [3].

Yeni nəsil qablaşdırma texnologiyaları yalnız qidanı qorumaq və fiziki funksiyaları yerinə yetirmək deyil, eyni zamanda qidanın təzə qalmasını, saxlama müddətinin

uzadılmasını və təhlükəsiz istehlakını təmin etməyə yönəlmişdir. Müxtəlif elmi tədqiqatlar, bu texnologiyaların qida sektorunda tətbiqinin böyük faydalar gətirdiyini göstərmişdir [5].

Müasir dünyada artan ekoloji problemlər və resursların daha səmərəli istifadəsi ehtiyacı, qablaşdırma texnologiyalarında innovasiyalara və ekoloji cəhətdən zərərsiz həllərə olan tələbi artırmışdır. Aşağıda verilmiş Cədvəl, bioloji parçalana bilən materiallardan başlayaraq nanotexnologiyalı və yeyilə bilən qablaşdırmaya qədər müxtəlif yanaşmaları müqayisə edir. Hər texnologiyanın özünəməxsus davamlılıq üstünlükləri və istifadədə gətirdiyi yeniliklər mövcuddur.

Son illərdə ekoloji problemlərin artması səbəbindən davamlı qablaşdırma texnologiyalarına olan tələbat artmaqdadır [6]. Buna baxmayaraq, plastik qablaşdırma bəzi ölkələrdə üstünlük təşkil edir. Hər bir ölkənin yerli bazar və istehlak vərdişlərinə uyğun olaraq fərqli qablaşdırma texnologiyalarına yönəlməsi diqqət çəkir [1]. Aşağıda verilən qrafikdə (Şəkil1) müxtəlif ölkələrdə istifadə edilən əsas qablaşdırma növlərinin populyarlığını göstərir.



Şəkil 1. Ölkələr arasında ən çox istifadə edilən qablaşdırma üsulları.

Araşdırmalar göstərir ki, gələcəkdə daha çox ekoloji dost qablaşdırma texnologiyalarının tətbiqi ilə qida sənayesində həm istehlakçı sağlamlığı, həm də ətraf mühitin qorunması baxımından müsbət irəliləyişlər olacaqdır.

Açar sözlər: Yeni nəsil qablaşdırma, nanotexnologiya əsaslı qablaşdırma, aktiv qablaşdırma, bioparçalanabilən materiallar, qida təhlükəsizliyi.

ƏDƏBİYYAT

1. Məmmədov S.M. Aktiv qablaşdırma texnologiyaları və qida təhlükəsizliyi. Star çap evi, Bak: -2020, -520 s.
2. Kumar S., Anandan C. Active Packaging: Applications and Advances in the Food Industry. Springer, Москва: -2018, -s.1265-1285.
3. Kerry J.P., O'Grady M.N., Hogan S.A. Past, Current and Potential Utilization of Active and Intelligent Packaging Systems for Meat and Muscle-Based Products: A Review. Elsevier, Москва: -2006, -s.113-130.
4. Ahvenainen R. Novel Food Packaging Techniques. Woodhead Publishing, London, -2003, -978 s.
5. Realini C.E., Marcos B. Active and Intelligent Packaging Systems for a Modern Society. Elsevier, Москва, -2014, -s.404-419.
6. Vu K.D., Hollingsworth R.G., Leroux E., Salmieri S., Lacroix M. Development of Edible Bioactive Coating Based on Modified Chitosan for Increasing the Shelf Life of Strawberries. Elsevier, Москва, -2011, -s.198-203.

НОВОЕ ПОКОЛЕНИЕ ТЕХНОЛОГИЙ УПАКОВКИ И ОБВЕРТЫВАНИЯ ПРОДУКТОВ ПИТАНИЯ: УСТОЙЧИВОСТЬ И ИННОВАЦИИ

Хиджран Рашид кызы Исмаилова[1]
hicran.ismayilova@teams.uteca.edu.az
Сона Узейир кызы Гаджиева[2]
sona.hajiyeva2@unibo.it
Азербайджанский Технологический Университет[1]
Университет Болоньи[2]

Технологии упаковки продуктов питания играют важную роль не только в транспортировке и хранении продуктов, но и в продлении срока их хранения, обеспечении безопасности и минимизации негативного воздействия на окружающую среду. В последние годы вред, который традиционная пластиковая упаковка наносит окружающей среде, и растущая осведомленность потребителей ускорили поиски устойчивых и инновационных решений. Новые технологии упаковки отвечают на эти потребности и предлагают инновационные решения, такие как умная и активная упаковка, биоразлагаемые и компостируемые материалы, упаковка, поддерживаемая нанотехнологиями, и упаковка с модифицированной атмосферой.

Ключевые слова: активная упаковка, биоразлагаемые материалы, безопасность пищевых продуктов.

NEW GENERATION FOOD PACKAGING AND WRAPPING TECHNOLOGIES: SUSTAINABILITY AND INNOVATIONS

Hijran Rashid gizi Ismayilova[1]
hicran.ismayilova@teams.uteca.edu.az
Sona Uzeyir gizi Hajiyeva[2]
sona.hajiyeva2@unibo.it
Azerbaijan Technological University[1]
University of Bologna[2]

Food packaging technologies play a crucial role not only in the transportation and storage of food products but also in extending shelf life, ensuring safety, and minimizing negative environmental impacts. In recent years, the damage caused by traditional plastic packaging to the environment, along with increased consumer awareness, has accelerated the search for sustainable and innovative solutions. New generation packaging technologies address these needs by offering innovative solutions such as smart and active packaging, biodegradable and compostable materials, nanotechnology-supported packaging, and Modified Atmosphere Packaging (MAP).

Key words: new generation packaging, nanotechnology-based packaging, active packaging, biodegradable materials, food safety.

EKOLOJİ VƏ İQLİM DƏYİŞİKLİKLƏRİN XURMA MEYVƏSİNİN QİDALILIQ DƏYƏRİNƏ TƏSİRİ

Aygün Arif qızı Hacıyeva
a.haciyeva@atu.edu.az
Xədicə Arif qızı Məmmədova
x.mammedova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Hazırda bəşəriyyətin qlobal problemlərdən biri olan ekoloji və iqlim dəyişikliyi planetin bütün regionlarında müşahidə olunur. Bu proses Azərbaycan respublikası ərazisində də hiss edilir. Belə ki, respublikamızın ərazisində iqlim dəyişiklikləri nəticəsində istiliklər, quraqlıqlar, güclü küləklər, daşqınlar, qasırğalar və s. kimi iqlim hadisələri baş verir. Ekoloji və iqlim dəyişikliyi ilə mübarizə aparmaq, orqanizmin ətraf mühitin mənfi təsirlərinə qarşı müqavimətini artırmaq məqsədilə Birləşmiş Millətlər Təşkilatının “İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelində” (İPCC) iqlim dəyişikliyinin azaldılması ilə bağlı hesabatda bitki mənşəli məhsullardan istifadə etməklə karbon emissiyalarının azaldılmasının, insan sağlamlığının qorunmasının və xəstəliklərin qarşısının alınmasının mümkün olduğu göstərilmişdir [2].

Bitki mənşəli məhsulların böyüməsində və keyfiyyətinin formalaşmasında ətraf mühitin şəraiti mühüm rol oynayır. Ekoloji və iqlim dəyişikliyinin hazırki vəziyyətində həddindən artıq quraqlığın və daşqınların yaranması nəticəsində meyvə və tərəvəzlərin məhsuldarlığı, qidalıq dəyəri və təhlükəsizliyi aşağı düşür, həmçinin bir sıra xəstəliklərin və çirkləndiricilərin artmasına səbəb olur [3].

Elmi ədəbiyyatların təhlili göstərmişdir ki, ölkəmizin əksər rayonlarında geniş yayılmış xurma meyvəsi ekoloji baxımdan təmiz qida məhsulu olub, zəngin qidalılıq dəyərinə malikdir. Xurma meyvəsinin tərkibində karbohidratlar, vitaminlər, fenol birləşmələri, azotlu maddələr və başqa qida əhəmiyyətli maddələr vardır. Bu meyvənin becərilməsində, yetişməsində və saxlanmasında heç bir kimyəvi dərman preparatından istifadə olunmur. Xurma meyvəsinin tərkibi antioksidant və antimikrob xassəyə malik bioloji fəal maddələrlə, əsasən də fenol birləşmələri ilə daha zəngin olduğu üçün o, başqa meyvələrdən fərqli olaraq mikrobioloji xəstəliyə tutulmur. Ona görə də insanların sağlamlığını təmin etmək məqsədilə ekoloji cəhətdən təmiz xurma meyvələri və onlardan hazırlanan qida məhsullarından il boyu istifadə edilməsi vacib hesab edilir [1].

Ekoloji və iqlim dəyişikliklərinin xurma meyvəsinin qidalılıq dəyərinə təsirini öyrənmək məqsədlə Azərbaycan Texnologiya Universitetinin (ATU) Qida mühəndisliyi və ekspertizası kafedrasının laboratoriyasında Samux rayonunda yetişdirilən xurma meyvəsinin yetişmə dərəcəsindən (yetişməmiş, tam yetişmiş və yetişib ötmüş) asılı olaraq mexaniki tərkibinin və kimyəvi tərkibinin müəyyən edilməsi istiqamətində tədqiqatlar aparılmışdır. Apardığımız tədqiqat işindən məlum olmuşdur ki, xurmanın tam yetişmiş meyvələri yüksək qidalılıq dəyərinə malik olub, heç bir xəstəliyə tutulmur. Onun tərkibində digər bitki mənşəli məhsullardan fərqli olaraq çoxlu miqdarda yod vardır ki, o da zob xəstəliyinin müalicəsi üçün təbii, ekoloji təmiz dərman preparatı hesab edilir.

Ədəbiyyat xülasəsindən və apardığımız tədqiqat işindən belə nəticəyə gəlmək olar ki, yetişmiş xurma meyvələrinin qidalılıq dəyəri tam yetişməmiş və yetişmə müddəti ötmüş meyvələrlə müqayisədə daha zəngin olub, ekoloji baxımdan təmiz qida məhsulu olan bu meyvələri və onlardan hazırlanan məhsulları gündəlik qida rasionuna daxil etmək məsləhət görülür.

Açar sözlər: iqlim dəyişikliyi, bitki mənşəli məhsullar, xurma meyvəsi, qidalılıq dəyəri, zob xəstəliyi.

ƏDƏBİYYAT:

1. Əhmədov Ə-C.İ., Əliyev N.T. Meyvə və tərəvəzin əmtəəşünaslığı. Dərslik.- Bakı.: 2009.- 437 s.
2. Ревич Б.А., Малеев В.В. Изменения климата и здоровье населения России: Анализ ситуации и прогнозные оценки. - М.: URSS., Изд. 2, доп. 2021. - 210 с. – ISBN 978-5-9710-8316-0.
3. Коробкин В.И. Экология и охрана окружающей среды: учебник для студ. вузов / В. И. Коробкин, Л. В. Передельский. - М.: КНОРУС, 2013. - 336 с. - (Бакалавриат).- ISBN 978-5-406-02033-3.

ВЛИЯНИЕ ЭКОЛОГИЧЕСКИХ И КЛИМАТИЧЕСКИХ ИЗМЕНЕНИЙ НА ПИЩЕВУЮ ЦЕННОСТЬ ПЛОДОВ ХУРМЫ

Айгюн Ариф кызы Гаджиева
a.haciyeva@atu.edu.az
Хадиджа Ариф кызы Мамедова
x.mammedova@atu.edu.az
Азербайджанский Технологический Университет

В настоящее время изменение окружающей среды и климата, являющееся одной из глобальных проблем человечества, наблюдается во всех регионах планеты. Этот процесс ощущается и на территории Азербайджанской Республики. Так, в результате изменения климата на территории нашей республики случаются такие климатические явления как жара, засухи, сильные ветры, наводнения, ураганы и т.д..

В данном тезисе исследованы проблемы окружающей среды и глобального изменения климата на территории Азербайджанской республики, а также изучены возможности использования хурмы, которые являются экологически чистым пищевым продуктом, для улучшения здоровья человека.

С целью изучения влияния эколого-климатических изменений на пищевую ценность плодов хурмы были проведены исследования по определению механического и химического состава плодов хурмы, выращенных в Самухском районе, в зависимости от степени зрелости (неспелые, спелые и перезрелые).

В результате наших исследований установлено, что полностью созревшие плоды хурмы имеют высокую пищевую ценность и не страдают никакими заболеваниями. В отличие от других растительных продуктов, он содержит большое количество йода, который считается натуральным, экологически чистым лекарством для лечения зоба.

Ключевые слова: изменение климата, продукты растительного происхождения, плоды хурмы, пищевая ценность, болезнь зоба

INFLUENCE OF ENVIRONMENTAL AND CLIMATIC CHANGES ON THE NUTRITIONAL VALUE OF PERSIMMON FRUITS

Aygun Arif gizi Hajiyeva
a.haciyeva@atu.edu.az
Khadija Arif gizi Mammadova
x.mammedova@atu.edu.az
Azerbaijan Technological University

Currently, environmental and climate change, which is one of the global problems of humanity, is observed in all regions of the planet. This process is also felt in the territory of the Republic of Azerbaijan. Thus, as a result of climate change, heat, drought, strong winds, floods, hurricanes, etc. occur in the territory of our republic. Such climatic phenomena occur.

In the presented thesis, environmental problems and global climate change are studied in the territory of the Republic of Azerbaijan, and the possibilities of using

persimmon, which is an environmentally friendly food product, to improve human health are studied.

In order to study the impact of ecological and climatic changes on the nutritional value of persimmon fruits, studies were conducted to determine the mechanical and chemical composition of persimmon fruits grown in the Samukh region, depending on the degree of ripeness (unripe, fully ripe and overripe).

As a result of our studies, it has been established that fully ripened persimmon fruits have high nutritional value and do not suffer from any diseases. Unlike other plant products, it contains a large amount of iodine, which is considered a natural, environmentally friendly medicine for the treatment of goiter.

Key words: climate change, herbal products, persimmon fruits, nutritional value, goitre disease.

ИСПОЛЬЗОВАНИЕ МЕТОДОВ МОЛЕКУЛЯРНОЙ КУЛИНАРИИ ПРИ ПРИГОТОВЛЕНИИ МОРОЖЕННОГО

Афет Касумова
a.qasimova@atu.edu.az
Азербайджанский Технологический Университет

Название молекулярная кухня или молекулярная гастрономия появилось в 1992 году и связана с именем английской преподавательницы Миссис Элизабет Коудри Томас, которая организовывала семинары, где профессиональные повара могли бы изучить физические и химические процессы, которые сопутсвуют приготовлению пищи. дело в том, что миссис Элизабет Коудри Томас была замужем за ученым физиком, и по сути, стала тем звеном, которое соединило кулинарию и науку. К ней присоединился французский специалист по физической химии Эрве Тис, темой исследований которого были трансформации, происходящие с продуктами во время их приготовления. Третьим создателем молекулярной кухни считается Николас Курти ученый, работавший в Оксфордском университете, который одновременно вел телевизионное шоу и написал книгу о научном подходе к кулинарии. Эрве Тис и Николас Кути фактически изобрели название «Молекулярная и физическая кулинария», которое позже сократилось до «молекулярной кулинарии», объединяющую в себе молекулярную кулинарию и физическую гастрономию.

Исследования показали, что физические процессы, происходящие при приготовлении пищи, определяют свойства конечного продукта. Приведем пример физической гастрономии. Если смесь для приготовления мороженого охладить не в холодильнике, где она остывает медленно, а мгновенно заморозить ее жидким азотом, то полученное мороженное будет самым мягким и нежным. Произойдет это потому, что в нем не успеют вырасти кристаллики льда, которые образуются при обычном приготовлении мороженного и делают его твердым, как камень. Мороженное, приготовленное с использованием физики, будет иметь консистенцию густой сметаны. Точно также можно сделать нежнейший шербет из фруктовых соков.

Еще один пример приведем из молекулярной кухни, и опять про мороженное, но уже про горячее. Как известно, есть пищевая добавка Е461, метил-целлюлоза, которое используется в качестве загустителя (стабилизатора) пищевых продуктов. Так вот, если добавить немного метил-целлюлозы в жидкую смесь для мороженного, а затем смесь нагреть, она загустеет, и превратится в горячее мороженое-гель, который будет таять при охлаждении.

Таким образом, с помощью методов молекулярной кулинарии можно придать привычным пищевым продуктам необычные вид и свойства.

Исследования по этой теме продолжаются, и в дальнейшем охарактеризуем такие явления как сферификация, желефикация, вспенивание и эмульсификация.

Ключевые слова: молекулярная кухня, мороженное, физические методы.

ЛИТЕРАТУРА

1. Скворцова Н.Н. Основы молекулярной биологии: Учеб. пособие. СПб.: Университет ИТМО; ИХиБТ, 2015, 74 с.
2. Сыч В.Ф. Основы молекулярной биологии: учеб. пособие. Ульяновск: УлГУ, 2008, 64 с.

DONDURMA İSTEHSALINDA MOLEKULYAR KULİNARİYA METODLAINDAN İSTİFADƏ

Afət Qasımova
a.qasimova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Molekulyar mətbəx və ya molekulyar qastronomiya adı 1992-ci ildə yaranıb və ingilis dili müəllimi xanım Elizabet Coudrey Thomasın adı ilə bağlıdır**.** Tədqiqatlar göstərmişdir ki, qidanın hazırlanması zamanı baş verən fiziki proseslər son məhsulun xüsusiyyətlərini müəyyən edir. Tədqiqatlar göstərdi ki, molekulyar kulinariya üsullarının köməyi ilə adi qida məhsullarına qeyri-adi görünüş və xüsusiyyətlər vermək mümkündür.

Açar sözlər: molekulyar mətbəx, dondurma, fiziki metodlar.

USE OF MOLECULAR COOKING METHODS IN ICE CREAM PRODUCTION

Afat Gasimova
a.qasimova@atu.edu.az
Azerbaijan Technological University

The name molecular cuisine or molecular gastronomy originated in 1992 and is associated with the name of English teacher Mrs. Elizabeth Cowdrey Thomas. Studies have shown that the physical processes that occur during food preparation determine the characteristics of the final product. Research has shown that with the help of molecular culinary methods, it is possible to give unusual appearance and properties to ordinary food products.

Keywords: molecular cuisine, ice cream, physical methods.

ŞƏRABÇILIQDA BLOKÇEYN TEXNOLOGİYASININ TƏTBİQİ: İNNOVATİV YANAŞMALAR, İMKANLAR VƏ PROBLEMLƏR

Mehman Telman oğlu İsmayılov
m.ismayilov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Blokçeyn texnologiyası, müxtəlif sənaye sahələrində olduğu kimi, qida və kənd təsərrüfatı sektorunda da daha çox yayılmaqda və innovativ həll yolları təklif etməkdədir. Şərabçılıq mürəkkəb təchizat zəncirinə və xüsusi məhsul keyfiyyətinə malik sektor olması bu texnologiyadan ən çox yararlanan istifadədən biri hesab edilir. Məhsulun keyfiyyəti, təmizliyi, mənşəyi və etibarlılığı ilə bağlı məsələlərin həlli üçün blokçeyn texnologiyası şəffaflıq və etibarlılıq təmin edir. Bu məqalədə blokçeyn texnologiyası şərabçılıq sektorunun tətbiqi sahələri, üstünlükləri, problemləri və gələcək perspektivləri ətraflı araşdırılıb[1].

Blokçeyn texnologiyasının ümumi mahiyyəti. Blokçeyn texnologiyası ilk dəfə kriptovalyutaların inkişafı ilə ortaya çıxdı və başqa sahələrə yayıldı. Bu texnologiya, ödənişli məlumat bazası prinsipi əsasında işləmə və məlumatların hər bir istifadəçi arasında paylanaraq şəbəkədə təhlükəsiz saxlanmasını təmin edir. Hər bir əməliyyat və

məlumat "blok" qeyd edilir və bloklarla aparılır. Əldə blokçeyn məlumatların dəyişdirilməsi, çətin və etibarlı şəkildə təminatı təmin edilir.

Blokçeyn texnologiyasının əsas üstünlükləri aşağıdakılardır:

- **Şəffaflıq:** Hər bir məlumatın tam şəkildə görünüşünü əldə edə bilir.
- **İzlənəbilmə:** Məhsulun haradan gəldiyini, hansı səbəbdən keçdiyini və nə zaman son istehlakçıya çatdığını izləmək mümkündür.
- **Təhlükəsizlik:** Şifrələnmiş və dəyişdirilməsi ilə bağlı olan məlumat, saxtakarlığın qarşısını almaq üçün böyük zərər.
- **Avtomatlaşdırma:** Smart müqavilələr vasitəsilə ticarət əməliyyatları avtomatlaşdırıla bilər ki, bu da daha sürətli və etibarlı ticarət əməliyyatlarını təmin edir.

Şərabçılıqda Blokçeyn texnologiyasının əsas tətbiq sahələri. Blokçeyn texnologiyasının şərabçılıqda müxtəlif tətbiq sahələri vardır və hər bir məhsulun keyfiyyəti, istehsal prosesi və ticarət əməliyyatlarına davamlılıq və etibarlılığın təmin edilməsinə xidmət edir[3].

1. Təchizat zəncirinin izlənməsi və şəffaflıq. Şərabçılıq sənayesi geniş təchizat zəncirinə malikdir. Bu zəncir üzümün yığılmasından sonra üzümün email, saxlanması, qablaşdırılması, daşınması və istehlakçıya çatdırılması kimi çıxışlar edilir. Blokçeyn texnologiyası çərçivəsində hər bir mərhələdə rəqəmsal olaraq qeyd edilir. Bu prosesə üzümün yığılması tarixi, emal üsulları, hansı məlumatda saxlanması və loqistik məlumatlar daxildir. Bu məlumatların blokçeyn şəbəkəsinə daxil edilməsi üzrə son istehlakçılar şərabın mənşəyi və keyfiyyəti haqqında tam məlumat əldə edə bilərsiniz. Bu, istehlakçının daha çox məlumatlı qərar verməsinə kömək edir və bazarda güvən yaradır.

2. Məhsulun orijinallığının təsdiqi və saxta məhsullarının qarşısının alınması. Saxta şərab məhsulları bazarda genişmiqyaslı şərabçılıq sənayesinin ən böyük problemlərindən biridir. Xüsusilə lüks brendlərin məhsulları tam qiymətə satıldığı üçün saxtakarlıq hallarına rast gəlinir. Blokçeyn texnologiyası məhsulun orijinallığının əks etdirilməsində əvəzsiz bir texnologiyadır. Hər bir şərab partiyasının yığılması, istehsalı və tədarükü ilə bağlı məlumatlar blokçeynə daxil edilir. İstehlakçılar məhsulun gücü ilə yerləşdirilmiş QR kodu skan edərək bu məlumatları dəqiq əldə edə bilirlər. Bununla da şərabın orijinallığı ilə bağlı bütün suallar aradan qalxır[2].

3. Loqistika və ticarət proseslərinin optimallaşdirilmasi. Blokçeyn texnologiyası ticarət əməliyyatlarının daha sürətli tədarükünü təmin edir. Şərab ixracı və istifadəsi zamanı blokçeyn vasitəsilə əməliyyatlar avtomatlaşdırılmış və ticarət müqavilələri rəqəmsal şəkildə həyata keçirilə bilir. Bu xüsusi "smart contract" adlanan rəqəmsal müqavilələrin yaradılması ilə təmin edilir. Bu müqavilələr avtomatik olaraq şərtlərin yerinə yetirilməsini yoxlayır və əməliyyatların icrasını tələb edir. Əsas əməliyyat sürətləndirilir, kömrük əməliyyatları asanlaşdırılır və potensial hüquqi inkişaf azalır.

4. Keyfiyyətə nəzarət və idarəetmə. Şərab istehsalında keyfiyyətə nəzarət. İstehsal proses zamanı istifadə olunan xammalın keyfiyyətli olması, saxlanma şəraiti məhsulun keyfiyyətinə təsir göstərir. Blokçeyn texnologiyası ilə bu prosesdə keyfiyyət göstəricilərinin izlənməsi və qeyd edilməsi mümkündür. Məsələn, şərabın saxlandığı vaxtda temperatur, rütubət və işıq kimi göstəricilər mövcud zamanla blokçeynə əlavə edilə bilər. Bu məlumat məhsulun keyfiyyətinin qorunmasını təmin etmək və istehlakçılara təhlükəsiz məhsul istehsal etməyə imkan yaradır.

5. Sertifikatlaşdirma və standartlara uyğunluq. Blokçeyn texnologiyası ilə əlaqədar şərabın sertifikatlaşdırılması prosesi də sadələşdirilə bilər. Müxtəlif beynəlxalq sertifikatlar (yəni mənşəli sertifikatlar və ya orqanik məhsul sertifikatları) blokçeyn tələblərinə malik ola bilər. Bu, məhsulun beynəlxalq standartlara uyğunluğunu və

keyfiyyətini təmin etmək üçün etibarlılıq yaradır. Sertifikatlaşdırma məlumatlarının blokçeyndə etibarlılığı istehlakçılar arasında ticarət əlaqələrində daha güclü inam yaradır.

Blokçeyn texnologiyasının şərabçılıqda üstünlükləri. Blokçeyn texnologiyasının şərabçılıqda tətbiqi bir sıra üstünlüklər təklif edir:

Şəffaflıq güvən: Şərabçılıq məhsulları və istehlakçıların təchizat zənciri haqqında məlumat əldə etməsinə imkan verir. Bu, məhsulların keyfiyyətinin itirməməsinə və istehlakçıların güvən qazanmasına kömək edir.

Məhsulun izlənməsi: Şərabın istehsalından satışına qədər hər bir mərhələdən rəqəmsal şəkildə izlənilməsi saxtakarlığın və keyfiyyət problemlərinin aradan qaldırılmasına səbəb olur.

Rəqəmsal müqavilələr və ticarət əməliyyatlarının sürətləndirilməsi: Smart müqavilələr vasitəsilə əməliyyatlar avtomatlaşdırılır və əməliyyatların həyata keçirilməsi asanlaşır.

Məhsulun təsdiqi: Saxta şərab məhsullarının bazarda bərpasının qarşısı alınır və məhsulun orijinallığı silinir.

Daha yaxşı loqistika: Məhsulun daşınma prosesi izlənir və loqistika potensialı optimallaşdırılır, məhsulun keyfiyyəti daha yaxşı qorunur.

Çətinliklər və məhdudiyyətlər. Blokçeyn texnologiyasının şərabçılıqda tətbiqi bir sıra çətinliklər yaradır. Bunlara daxildir:

Texnoloji struktur: Blokçeyn texnologiyasının tətbiqi texnoloji infrastrukturun yenilənməsini tələb edir ki, bu da maddi vəsait resurslarına ehtiyac duyur. Kiçik və orta sahibkarlar üçün bu proses çətin və baha başa gələ bilər.

Hüquqi və tənzimləyici çərçivə: Blokçeyn texnologiyasının tətbiqi ilə bağlı qanun pozuntuları, dövlət tənzimləmələri problemləri yarada bilər[4].

Təchizat zəncirində iştirakçıların hamısının texnologiyanı qəbul etməsi: Blokçeyn texnologiyasının effektivliyi, təchizat zəncirindəki bütün birləşmələrin texnologiyasını qəbul etməsinə bağlıdır. Bütün bu texnologiyanı qəbul etmək üçün təlim və resurslara ehtiyac var.

Gələcək perspektivlər. Blokçeyn texnologiyasının şərabçılıq sektorunda tətbiqi daha geniş yayılacağı gözlənilir. İstehlakçılar daha etibarlı məhsullar tələb etdikcə bu texnologiyanın rolu daha da artacaq. Təchizat zənciri elektrik enerjisi, ticarət əməliyyatlarının avtomatlaşdırılması və keyfiyyətli nəzarət sistemlərinin optimallaşdırılması şərabçılıq sənayesində innovativ dəyişikliklərə səbəb olacaq.

Nəticə. Blokçeyn texnologiyası şərabçılıq sektorunda istehsal, loqistika, ticarət və keyfiyyətli nəzarət proseslərinin daha sürətli və etibarlı şəkildə idarə edilməsinə imkan yaradır. Texnologiyanın tətbiqi məhsulun keyfiyyətinin, saxtakarlığın təmizlənməsinə və istehsal əməliyyatlarının sürətləndirilməsinə xidmət edir. Buna baxmayaraq, texnologiyanın tətbiqi ilə bağlı maliyyə, hüquqi və tənzimləyici vasitə mövcuddur. Gələcəkdə blokçeyn texnologiyasının şərabçılıq sənayesində daha geniş tətbiqi məhsulun keyfiyyətli təminatında əsas rol oynayacaq.

Açar sözlər: Blokçeyn texnologiyası, şərabçılıq, izlənəbilmə, şəffaflıq, smart müqavilə.

ƏDƏBİYYAT

1. Tapscott, D., & Tapscott, A. (2016). The Blockchain Revolution: How the Technology Behind Bitcoin and Other Cryptocurrencies is Changing the World. penguin.
2. Casino, F., Dasaklis, TK, & Patsakis, C. (2019). "A systematic literature review of blockchain-based applications: Current status, classification and open issues." Telematics and Informatics, 36, 55-81.

3. Zhao, G., Liu, S., Lopez, C., and Lu, H. (2021). "Applying Blockchain Technology in Sustainable Food Supply Chains: The Case of the Wine Industry." Sustainability, 13(1), 1-20.
4. Beck, R., Avital, M., Rossi, M., & Thatcher, JB (2017). "Blockchain technology in business and information systems research". Business and Information Systems Engineering, 59(6), 381-384.

ПРИМЕНЕНИЕ ТЕХНОЛОГИИ БЛОКЧЕЙН В ВИНОДЕЛИИ: ИННОВАЦИОННЫЕ ПОДХОДЫ, ВОЗМОЖНОСТИ И ПРОБЛЕМЫ

Мехман Тельман оглы Исмайлов
m.ismayilov@atu.edu.az
Азербайджанский Технологический Университет

Применение технологии блокчейн в сфере виноделия создает инновационные возможности в цепочке поставок, обеспечивая стабильность и надежность в этом секторе. Помимо отслеживания происхождения продукции, эта технология помогает исключить подделки и предложить продукцию потребителям. На основе технологии блокчейн данные о производстве и логистике каждой партии вина оцифровываются, и потребители имеют доступ к этим данным. В то же время «умные контракты» упрощают торговые операции и укрепляют правоспособность. Блокчейн также обеспечивает безопасность в логистике и контроле качества, а также позволяет отслеживать условия производства продукции в режиме реального времени. Однако внедрение технологии можно контролировать с помощью финансовых, правовых и нормативных средств. В будущем, возможно, технология блокчейна будет более широко использоваться в виноделии, а также в развитии и росте этого сектора.

Ключевые слова: технология блокчейн, винодельня, отслеживание, прозрачность, смарт-контракт.

APPLICATION OF BLOCKCHAIN TECHNOLOGY IN WINERY: INNOVATIVE APPROACHES, OPPORTUNITIES AND CHALLENGES

Mehman Telman oglu Ismayilov
m.ismayilov@atu.edu.az
Azerbaijan Technological University

The application of blockchain technology in the field of winemaking creates innovative opportunities in the supply chain with stability and reliability in the sector. In addition to tracking product origin, this technology helps eliminate counterfeiting and offer products to consumers. Based on blockchain technology, the production and logistics data of each batch of wine is digitized and consumers have access to this data. At the same time, "smart contracts" simplify trade transactions and strengthen legal capacity. Blockchain also provides security in logistics and quality control, and enables real-time monitoring of product production conditions. However, the implementation of the technology can be controlled through financial, legal and regulatory means. In the future, it is possible that blockchain technology will be more widely used in winemaking and the development and growth of this sector.

Key words: Blockchain technology, winery, traceability, transparency, smart contract.

AZƏRBAYCANIN ŞƏRAB MİKROZONALARININ ŞƏRAB TURİZMİNİN İNKİŞAFINA TƏSİRİNİN ARAŞDIRILMASI

Mərdan Məhərrəm oğlu Tağıyev
merdanaztu@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Ədəbiyyat araşdırmalarından məlum olur ki, Azərbaycan üzümün tarixi vətənlərindən biridir. Bunu bu gün də meşələrimizdə yabanı üzüm kollarının mövcud olması təsdiq edir. Tarixən xalq seleksiyaçıları cır üzümü mədəniləşdirmiş, müxtəlif məqsədlərlə istifadə edilməyə yararlı çoxsaylı yeni süfrə və texniki üzüm sortları yaratmışlar [6].

Hal-hazırda Azərbaycanda bir sıra yaşayış məntəqələrinin mövcudluğu da üzümçülüyün tarixinin ta qədimlərə gedib çıxdığını təsdiqləyir. Bu adlar həmin yaşayış məskənlərində insanların çox qədimdən üzümçülük və şərabçılıqla məşğul olunduğunu qeyd etməyə imkan verir. Buna misal Şamaxı yaxınlığında mövcud olan“Meysəri” kəndinin adını qeyd edə bilərik. Kəndin adı farsca “Mey” və “sər” sözlərinin birləşməsindən yaranıb. “Mey” farsca şərab, “sər” isə baş, yəni şərabların başı mənasını verir. “Sağıyan” kəndinin adı da şərabla birbaşa bağlıdır. “Saqi” fars dilində şərab paylayan mənasını ifadə edir [2].

Bununla yanaşı Azərbaycanın Göyçay, İmişli, Masallı rayonlarında “Çaxırlı” kəndlərinin olması qədimdən burada şərabçılığın populyar olmasından, Salyan, Ucar, Şərurda isə Xalac adlı kəndlərin olması isə burada qədimdən yerli Xalac üzüm sortunun becərilməsindən xəbər verir. Təbrizi, Bayanşirə, Şirvanşahı, Mərəndi, Beyləqani, Şabranı, Ordubadı, Dərbəndi, Tatlı, Mədrəsə, Şahtaxtı və s. bu kimi çoxsaylı üzüm sortlarımızın qədim şəhər və yaşayış məskənlərimizin adını özündə daşıması bir daha sübut edir ki, Azərbaycan üzümçülüyün ən qədim məskənlərindəndir.

XIX əsrin üçüncü on illiyindən başlayaraq Azərbaycan üzümçülüyün və şərabçılığın inkişafının yeni mərhələsinə qədəm qoyulmuşdur. Bu inkişafda Alman kolonistləri Xristofer Forer və Xristian Hummelin xidmətləri danılmazdır. Çünki, Azərbaycanda ilk şərab emalı zavodları onlar tərəfindən yaradılmışdır. Bu müəssisələrdə istehsal olunan Azərbaycan şərabları müxtəlif illərdə təşkil olunan sərgilərdə nümayiş etdirilmiş və geniş şöhrət qazanmışdır [3].

Qeyd edək ki, Azərbaycanın özünəməxsus torpaq-iqlim şəraitinə uyğun ərazilərində məhsuldarlığı, şərabda rəngi, xarakterik xoşagələn ətiri və dadı ilə fərqlənən üzüm sortlarından XIX-XX əsirlərdə xarici ölkələrdə şöhrət tapmış şərablar istehsal olunmuşdur. Məsələn, ölkəmizin ən yaxşı desert şərabı olan "Kürdəmir" Kürdəmir rayonu ərazisində becərilən "Şirvanşahı", "Ağ Mil" şərabı Beyləqan ərazisində becərilən “Sevabbas” indi "Rkasiteli"adlandırılan üzüm sortlarından hazırlnmışdır. Şamaxı rayonunda becərilən "Mədrəsə" üzüm sortundan keyfiyyətli "Azərbaycan Mirvarisi" oynaq şərabı, Qarabağda becərilən Xindoqnı üzüm sortundan keyfiyyətli süfrə və desert şərabları hazırlanmışdır. Cəlilabad rayonunda becərilən Həməşərə, Naxçıvanda yetişdirilən Mələyi üzüm sortundan fərqli xüsusiyyətlərə malik şərablar, Bayanşirə üzüm sortundan Gəncə ətrafı dağlıq ərazi yamaclarında zərif süfrə və şampan şərab materialı istehsal olunmuşdur [2].

XX əsrin 70-84-cü illərində Azərbaycanda üzümçülük və şərabçılığın inkişafının yeni bir inkişaf mərhələsi başlamışdır. 1984-cü ildə üzümlüklərin ümumi sahəsi 286 min hektara, məhsuldarlıq orta hesabla 100 sentnerə, üzüm istehsalı 2,12 milyon tona çatmışdır. İstehsal olunan texniki üzüm məhsullarınının emalı üçün çoxsaylı ilkin şərab emalı zavodları yaradılmışdır.1985-ci ildə aparılan yalnış siyasət nəticəsində, alkoqolizmə qarşı mübarizə adı altında uzüm bağları söküldüyündən şərab zavodları öz təyinatı üzrə fəaliyyətlərini dayandırdı. Nəticədə Azərbaycanda yeni-yeni inkişaf edən şərab turizminə, o cümlədən iqtisadiyyata xeyli ziyan vuruldu.

XX əsrin sonuncu iyirmi illiyində dünyada insanların şərabçılıq bölgələrinə səfərlərə meyl etməsi intensivləşdiyindən turizmin yeni inkişaf etmiş forması - şərab turizmi

populyarlıq qazanmağa başladı. Onu da qeyd edək ki, bu turizmin əsas məqsədini birbaşa şərab zavodları ilə tanışlıq, yerindəcə şərabın dequstasiya edilməsi və satın alınması təşkil edir. Şərab turizminin əsas konsepsiyası işlənib hazırlanarkən tədbirlər planına şərab zavodlarına, üzüm bağlarına, şərab muzeylərinə baş çəkmək, şərab festivallarında iştirak və digər maarifləndirici xüsusi təlim mövzuları daxil edilir. Son dövrlərdə bu turizmin daha aktiv formaları, üzüm bağlarında gəzinti, üzüm yığımında iştirak və s. inkişaf edir.

Bu baxımdan yanaşdıqda Azərbaycanda da şərab turizminin inkişaf etdirilməsinin geniş imkanlara malik olduğunu görmək olar. Belə ki, XXI əsrin başlanığıcında xüsusi aktuallıq kəsb edən şərab turizminin Azərbaycanda əsası Gəncədə qoyulmuşdur kimi qeyd edilməsi daha doğru olardı. Çünki, fransız ipəkçiləri Şəkidən barama toxumu alıb 1856-cı ildə geri qayıdarkən Gəncədə bir neçə günlük qonaq olduqları zaman Azərbaycan milli xörəkləri ilə yanaşı şərab da qəbul etmək arzusunda olmuşlar. Burada yaşayan əhali müsəlman etiqadlı olduğundan onlar şəhərdə şərab tapa bilməmişlər. Fransızlara yaxınlıqda yerləşən indiki Göygöl rayonuna getmək məsləhət görülmüşdür. Fransızlar Forerin evində qonaq olmuş, onların hazırladıqları şərabın dadına baxmış, "sizin şərabınız bizim Burqund şərabına bənzəyir" ifadəsi ilə qiymətləndirmiş və özlərinə bütün yol boyu kifayət edəcək qədər şərab almışlar [4,5].

Yuxarıda qeyd etdik ki, xarici ölkə vətandaşları öz səfərlərində yeni dadlarla tanış olmaq üçün yeni üzümçülük və şərabçılıq bölgələrinə səfərlər etməyə maraq göstərirlər. Bu baxımdan Azərbaycanın üzümçülük mikrozonzları şərab turizminin formalaşdırılmasına və inkişaf etdirilməsinə öz müsbət töhvəsini verə bilər. Çünki, Abşeron, Quba-Xaçmaz, Şirvan, Qarabağ, Lənkəran, Gəncə-Daşkəsən, Tovuz – Qazax, Şəki-Zaqatala və Naxçıvan üzümçülük mikrozonalarında [1] ta qədimdən yerli torpaq -iqlim şəraitinə uyğunlaşmış üzüm sortları əkilib becərilmiş və məhsullarından yerli brend şərablar istehsalı texnologiyası mənimsənilmişdir.

Lakin bu gün araşdırmalar onu qeyd etməyə imkan verir ki, hal-hazırda fəaliyyət göstərən şərab zavodlarının əksəriyyətinin üzüm bağlarında introduksiya olunmuş calaq əkin materialı əsasında "Saperavi", "Rkasiteli", "Kaberne Sovinyon", "Merlo", "Pino" kimi texniki sortlardan ibarət bağlar salınmışdır [2]. Bunlar isə gözlənilən nəticələrin əldə olunmasına öz mənfi təsirini göstərir.

Bu gün Azərbaycanda şərabçılığın və şərab turizminin inkişafına nail olmaq üçün qeyd olunan üzümçülük mikrozonalarında yerli şəraitdə yüksək keyfiyyət göstəriciləri ilə seçilən "Qara kişmiş", "Ağ kişmiş", "Cəhrayı tayfı", "Həməşərə", "Təbrizi", "Bayanşirə", "Şirvanşahı", "Mədrəsə", "Şamaxı Mərəndisi", "Ağ şanı", "Qara şanı", "Arna qırna", "Mələyi", "Ağadayı", "Xindoqnı" və s. süfrə və texniki üzüm sortlarından ibarət üzüm bağlarının salınması, gələcəkdə şərab turizminin inkişafına nəzərəçarpacaq dərəcədə mühüm təsir göstərə bilər. Buna görə də bu istiqamətdə görülən işlərə diqqət yetirilməlidir.

Açar sözlər: üzüm, üzüm sortları, şərab, şərab turizmi, mikrozonalar.

ƏDƏBİYYAT

1.Abdullayeva R, Mustafayeva Ş. Şərabçılıqla məşğul olan regionların mikrozonalara ayrılması və tanıdılması./ R .Abdullayeva, Ş. Mustafayeva/ Bakı, 2019, 22 s

2.Fətəliyev H.K. Şərab turizmi. Dərslik/ Fətəliyev H.K., Məmmədova A.R., Fətəliyeva Ş.H./ Bakı:"Elm" nəşriyyatı, 2021.-280 səh.

3.İbrahimov N.A. Azərbaycan şərablarının texnologiyası./ İbrahimov N.A. Bakı. Azərnəşr, 1998-320 səh.

4.Nəbiyev Ə.Ə. Azərbaycanin şərab turizmi potensialı // Ə.Ə.Nəbiyev, M. M. Tağıyev, U. Ə.Babayeva, A.İ.Baxşəliyeva //. Azərbaycan Texnologiya Universiteti Zəfər gününə həsr olunmuş "Elm və texnologiyaların müasir trendləri" Respublika elmi-praktik konfransın materialları. I his. Gəncə 2023.- səh. 48-50

5.Tağıyev M.M. Gəncə-Qazax bölgəsində şərab turizminin inkişaf perspektivləri // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Dördüncü sənaye inqilabı və innovativ texnologiyalar” Beynəlxalq elmi-praktik konfransın materialları. 4 hissə. Gəncə 2023.- səh.353-355
6.https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_%C3%BCz%C3%BCm%C3%A7%C3%BCl%C3%BCk

ИССЛЕДОВАНИЕ ВЛИЯНИЯ ВИННЫХ МИКРОЗОН АЗЕРБАЙДЖАНА НА РАЗВИТИЕ ВИННОГО ТУРИЗМА

Мардан Магеррам оглы Тагиев
merdanaztu@mail.ru
Азербайджанский Технологический Университет

Исследованы возможности развития винного туризма в микрозонах Азербайджана. Исследования показали, что хотя потенциал развития винного туризма в микрозонах существует, он до сих пор не используется эффективно. Для развития винного туризма в винодельческих зонах Азербайджана, создание садов, состоящих из столовых и технических сортов винограда, исторически созданных местными селекционерами, должно осуществляться фермерами и предпринимателями как важнейший вопрос дня. При таком подходе в кратчайшие сроки приток иностранных туристов в страну увеличится, что будет способствовать развитию винного туризма.

Ключевые слова: виноград, сорта винограда, вино, винный туризм, микрозоны.

IMPACT STUDY OF WINE REGIONS OF AZERBAIJAN ON THE DEVELOPMENT OF WINE TOURISM

Mardan Maharram oglu Tagiyev
merdanaztu@mail.ru
Azerbaijan Technological University

The possibilities of developing wine tourism in the regions of Azerbaijan have been investigated. Research has revealed that although there is a wide potential for the development of wine tourism in regions, it is still not being used effectively. For the development of wine tourism in the wine-growing zones of Azerbaijan, the planting of gardens consisting of table and technical grape varieties, created historically by local breeders, should be carried out by farmers and entrepreneurs as the most important issue of the day. In such a case, after a while, the influx of foreign tourists to our country, especially to the regions that interest them, may contribute.

Key words. grapes, grape varieties, wine, wine tourism, regions.

ƏT VƏ ƏT MƏHSULLARININ SOYUDULMA ÜSULLARININ TƏTQİQİ

Afiq Ələkbərov
alekberov.afiq@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və əhalinin ərzaq təminatının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən sahələrdən biri də ət və ət məhsullarının istehsalıdır.

Ət cəmdəyi hansı temperaturadək soyudulmasından (ən qalın yeri olan bud nahiyəsindəki temperatur) asılı olaraq soyumuş, soyudulmuş, azca dondurulmuş və dondurulmuş olur[1].

Soyumuş ət. Heyvan kəsildikdən sonra alınan ət cəmdəkləri (6 saatdan tez olmamaq şərtilə) soyuducu kamerada və yaxud təbii şəraitdə saxlanılmaqla temperaturu 5-15^{0}S-ə çatdırılan ətdir.

Soyudulmuş ət. Temperaturu 0-4^{0}S arasında olan ətdir.

Azca dondurulmuş və ya çox soyudulmuş ət. Temperaturu -1,2^{0}S-ə çatdırılmış ətdir.

Dondurulmuş ət. Temperaturu -6^{0}S-ə çatdırılmış ətdir.

Soyudulmuş ətin əmtəəlik göstəriciləri əsasən heyvan kəsildikdən sonra alınan ətin nə vaxt soyudulmasından asılıdır. Əzələlər keyləşmə mərhələsi başlamazdan əvvəl (Pre-rigor) 10^{0}S-dən aşağı temperaturadək soyudulduqda əzələ lifləri kalsium ionlarını saxlaya bilmədiyindən onlar yığılır. Bu hal elmdə «soyuqdan yığılma» adlanır. Əzələlərin pH-ı 6-ya çatanda liflər artıq həyəcanlanmır və soyudulma onların yığılmasına səbəb olmur. Quş və donuz ətlərində «soyuqdan yığılma» halı əhəmiyyət kəsb etmir. Qoyun və mal ətində soyuqdan yığılma əhəmiyyəti böyük olduğundan soyudulma sürəti nəzarət altında saxlanılmalıdır. Yüksək nəticə əldə etmək üçün heyvan kəsildikdən sonra alınan cəmdəyin temperaturu 10 saatdan tez 10^{0}S-dən aşağı salınmamalıdır. Əks halda konsistensiyası pisləşir (bərkliyi artar).

Ət cəmdəkləri kəsmə sexindən soyuducu kameraya tavana bərkidilmiş hava yolunun relsində hərəkət edən diyircəyin qarmağına asılmış halda verilir. Ət cəmdəkləri soyuducu kameraya yerləşdirilərkən çalışmaq lazımdır ki, iri və yağlı cəmdəklər soyuducu batareyaların yaxınlığına düşsün. Kamerada bir partiya ət soyudulub qurtarmamışsa, oraya yeni ət cəmdəkləri yerləşdirilməməlidir. Buna yol verildikdə ət cəmdəkləri «tərləyir», bu isə mikroorqanizmlərin inkişafı üçün şərait yaradır[2].

Ət və ət məhsulları soyudulma müddətindən asılı olaraq tez və yavaş soyudulur.

Yavaş soyudulma zamanı kamerada temperatur (ət yığılmazdan əvvəl) -2…-3^{0}S, havanın nisbi rütubəti 95-98%, dövretmə sürəti 0,1-0,3 m/san-yə çatdırılır. Soyudulmanın sonunda kameranın temperaturu -1-0^{0}S, havanın rütubəti 90-92%-ə enir. Bu şəratdə mal, camış və donuz yarımcəmdəkləri 24-36 saat, qoyun və keçi cəmdəkləri isə 14-18 saata 0-4^{0}S-ə kimi soyuyur.

Tez soyudulma zamanı kamerada temperatur -3…5^{0}S-ə, havanın nisbi rütubəti 95%-ə, dövretmə formalı kameralarda həyata keçirilir. Tunelin tavanından asılmış soyuqluq verən avadanlıqdan ət cəmdəklərinin üzərinə -5^{0}S temperaturlu soyuq hava üfürülür. Soyuq hava əvvəlcə cəmdəyin bud nahiyəsini, sonra isə digər nahiyələrini soyudur. Bu şəraitdə mal, camış və donuz yarımcəmdəklərinin soyudulma müddəti 10-14 saat, qoyun və keçi cəmdəklərininki isə 6-7 saat təşkil edir.

Soyudulma zamanı ətin digər fiziki göstəriciləri konsistensiyası, rəngi müəyyən dərəcədə dəyişilir. Ətin konsistensiyası bərkiyir. Səthinin rəngi tündləşir. Bunun səbəbi suyun buxarlanması ilə xarici təbəqədə piqment və duzların artmasıdır. Kamerada havanın temperaturu 0-1^{0}S, nisbi rütubəti 85-90%, havanın dövretmə sürəti 0,1-0,2 m/san olmalıdır. Bu mühitdə mal əti 20 gün, qoyun və donuz əti isə 10 gün saxlanıla bilər. Lakin saxlanma müddəti ətin ilkin keyfiyyəti, soyudulma üsulu, kameranın havasının parametrləri, onların saxlanma dövründəki sabitliyi, kameraya yığılma qaydası və s. amillərdən asılı olaraq müxtəlifdir.

Ət tənzif, parça və ya polimer örtüklərə bükülərək soyudulmuş halda saxlanması zamanı daha yaxşı nəticə əldə edilir. Soyudulmuş quş əti yeşikləri havasının temperaturu -0,5… 0,5^{0}S, nisbi rütubəti 80-90%, havanın dövr etmə sürəti 0,2…0,3 m/san olan kameralarda şahmatvarı qaydada yığılaraq saxlanılır. Bu şəraitdə yarım təmizlənmiş quş əti 10-12 gün, təmizlənib polimer torbalara yığılmış qu əti isə 5-10 gün saxlanıla bilər[3].

Ət içliyiinin məhsulları soyudulduqdan saxlanmır və tez satışa verilir. Ət və ət məhsulları soyudarkən və saxlayarkən rəngi tədricən tutqunlaşır və qaralır. Rəngin dəyişilmə intensivliyi ətdə mioqlobin piqmentinin miqdarından və onun metmioqlobinə çevrilmə reaksiyasının sürətindən, temperaturdan, işıq şüasının təsirindən, mikroorqanizmlərin miqdarından və tərkibindən asılıdır. Odur ki, əti işıq şüasının təsirindən qorumaq lazımdır. Soyudulma zamanı ətin xarici səthində mioqlabin parlaq-qırmızı rəngli oksimioqlobinə çevrilirsə, saxlanma zamanı daha dərin qatlarda olan mioqlobin oksimioqlobinə, bu isə havanın, oksigenin təsiri ilə ətin qaralmasına səbəb olan metmioqlobinə oksidləşir.

Soyudulmuş ətin saxlanma rejiminə əməl edilmədikdə boz, yaşıl və s. rənglər də alına bilər. Saxlanılma zamanı əvvəlcə ətin dadı, qoxusu, konsistensiyası yaxşılaşır (yetişmə prosesinin ikinci mərhələsi), lakin saxlanmanın 10-12 –ci günündən sonra ətin orqanoleptik göstəriciləri pisləşir. Kütləsi azalır [4].

Ət məhsullarının daşınması və saxlanması. Standart qaydada qablaşdırılmış duzlanıb-hislənmiş ət məhsullarının, kolbasa məmulatlarının, ət yarım fabrikatlarının daşınma və saxlanma şəraiti, müddəti bir çox amillərdən asılıdır. Ət məhsulları, onların keyfiyyətli qalmasını təmin edən soyuduculu avtomobil, dəmiryolu, su yolu nəqliyyatı ilə daşına bilər. Məhsulun üst-üstə yığılmasına (tarasız), həmçinin üstü açıq nəqliyyatla nəql edilməsinə yol verilmir.

Bişirilmiş, hislənib-bişirilmiş, hislənib-qızardılmış və hislənib-qovrulmuş ət məhsulları 8^0S-dən yüksək olmayan temperaturda 5 gündən artıq saxlanılmamalıdır. Çiy hislənmiş ət məhsullarını 12^0S temperaturda, 75% nisbi rütubətli şəraitdə 15 günədək, 4^0S temperaturda isə 30 günədək saxlamaq olar. Çiy hislənmiş ət məhsulları -7 – 9^0S-də 9 ay saxlanıla bilər.

Respublikamızın əksər rayonlarında kolbasa məmulatının daşınması üçün ən əlverişli avtonəqliyyat banında 8^0S temperatur yaradıla bilən avtoreferijator sayılır. Bu nəqliyyatla bişmiş kolbasalar 250 km məsafəyə qədər daşınıla bilər.

Bişmiş kolbasalar, sosiska və sardelkalar, ət çörəkləri, zelslər, qan kolbasaları, paştetlər dəmiryolu ilə daşınıla bilməz. Dəmiryolu ilə yarımhislənmiş və hislənmiş kolbasalar 10-20 gün müddətinə daşına bilər.

Açar sözlər: dondurulmuş, soyumuş, ət, soyudulma, saxlanma, kamera, temperatur, parametrlər.

ƏDƏBİYYAT

1. İsfəndiyarov C.H. Yeyinti məhsullarının soyuduculuq texnikası və texnologiyası. – Bakı: Maarif, 1998.-201s.
2. Аверин Г.Д. и др. Физико-технические основы холодильной обработки пищевых продуктов. - М.: Агропромиздат, 1985.- 380с
3. Аверин Г.Д., Журавская Н.К. Физико-технические основы холодильной обработки пищевых продуктов.-М.: Агропромиздат, 1985.-255с.
4. Воробьева Н.Н. Холодильная техника и технология. – Кемерово: КТИПП, 2006.-268 с

ИССЛЕДОВАНИЕ СПОСОБОВ ОХЛАЖДЕНИЯ МЯСА И МЯСНЫХ ПРОДУКТОВ

Афик Алекперов
alekberov.afiq@mail.ru
Азербайджанский Технологический Университет

В статье показано, что соблюдение правил ведения технологических операций при производстве мяса и мясных продуктов имеет особое значение. До попадания на обработку мясо должно соответствовать требованиям стандарта. При соблюдении этих правил получается высокий выход. В производстве, в результате обработки мяса, получаются высокие сорта мяса и мясных продуктов. При обработке мяса получаются питательные мясные продукты. Поэтому, чтобы получить хороший технологический результат, надо соблюдать правила ведения технологических операций.

Ключевые слова: замороженное, охлажденное, мясо, охлаждение хранение, перевозка, параметры, температура, камера

STUDY OF COOLING METHODS FOR MEAT AND MEAT PRODUCTS

Afig Alakbarov
alekberov.afiq@mail.ru
Azerbaijan Technological University

The article shows that compliance with the rules of technological operations in the production of meat and meat products is of particular importance. Before being processed, meat must meet the requirements of the standard. If these rules are followed, a high yield is obtained. In production, as a result of meat processing, high grades of meat and meat products are obtained. When processing meat, nutritious meat products are obtained. Therefore, in order to obtain a good technological result, it is necessary to comply with the rules of technological operations.

Key words: frozen, chilled, meat, cooling, storage, transportation, parameters, temperature, chamber

II BÖLMƏ. SÜNİ İNTELLEKT, ELEKTRONİKA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI

TRANSFORMING NEURAL NETWORKS ON MANIFOLD AND RENORMALIZATION

Guman B. Garayev
guman.garayev@gmail.com
Azar. M. Alili
azar.alili@owasp.org
Pasha Development, Institute of Molecular Biology and Biotechnologies AR MSE

Recent years, neural networks have driven significant advances in machine learning, particularly in processing and interpreting large, complex datasets. However, traditional fully connected neural networks (FCNNs) typically assume that the input data resides in a flat, Euclidean space, which limits their effectiveness when dealing with data that lies on curved manifolds. This limitation becomes particularly problematic in domains such as medical imaging, autonomous driving, and complex systems simulations, where the data is inherently non-Euclidean [1]. To overcome these challenges, the paper proposes an enhanced FCNN framework that incorporates concepts from differential geometry and Renormalization Group (RG) methods. By integrating Christoffel symbols, the model adapts to the curvature of the underlying data manifold, improving its ability to learn from geometrically complex data [2]. The proposed model is designed to improve the performance of neural networks in handling data with intricate geometric and hierarchical structures [3].

In practical terms, this approach addresses two significant limitations of standard FCNNs: their inability to respect the geometry of the data and their difficulty in processing multi-scale patterns. Applications such as medical imaging—where the curvature and structure of anatomical shapes are crucial [4]—or environmental modeling—where large-scale and fine-scale patterns coexist—stand to benefit from the proposed framework. This paper demonstrates the effectiveness of the approach through experiments on both synthetic and real-world datasets.

Mathematical Background A manifold is a space that locally resembles Euclidean space but may have a more complex global structure. In the context of neural networks, data often resides on a manifold, meaning the relationships between data points are influenced by the curvature and topology of this space [1]. To account for this, the paper introduces Christoffel symbols into the FCNN framework. These symbols describe how the coordinates on a curved manifold change as one moves across the space, allowing the neural network to adjust its operations to respect the manifold's geometry [2]. In a standard FCNN, the transformation at each layer is typically represented as:

$$z = Wx + b$$

where W is the weight matrix, x is the input, and b is the bias term. To adapt this to a curved manifold, the equation is modified to incorporate Christoffel symbols:

$$z^k = W_i^k x^i + b^k + \Gamma_{ij}^k x^i x^j$$

This modification allows the neural network to account for the curvature of the manifold, improving its ability to learn from data with complex geometric structures [3]. The backpropagation algorithm is also adjusted to accommodate the Christoffel symbols, modifying the gradient calculations. The gradient of the loss function with respect to the weights now includes terms that account for the manifold structure [2]. This ensures that the model's weight updates respect the curvature of the data space. From other hand Renormalization Group (RG) methods are a set of techniques originally developed in physics to study systems across different scales [5]. This multi-scale approach is particularly useful in domains where the same patterns appear at various scales, such as in climate modeling or document analysis [3]. The Q-values across different scales are

aggregated to produce the final output, ensuring that the network captures both local and global patterns in the data [5]. Therefore, final multi-scale loss function is formulated as a weighted sum of the losses at each scale:

$$L = \sum_{k=0}^{n} w_k L_k$$

Where, w_k are the weights assigned to each scale, ensuring that both fine and coarse features are considered during training [3].

Experimental simulation. The effectiveness of the proposed manifold-enhanced FCNN was tested through experiments on both synthetic and real-world datasets. A key synthetic test was conducted using the Swiss Roll dataset, a widely used benchmark for testing manifold learning techniques due to its complex, non-linear structure [3]. The Swiss Roll dataset consists of 3D data points that form a spiral, representing a classic example of data that lies on a curved manifold. The dataset was normalized, and a binary classification task was defined based on one of the data dimensions. This provided a challenging test for the ability of the network to capture the manifold structure of the data [3]. Then the model was trained using PyTorch on 80% of the data, with the remaining 20% reserved for validation. Two models were compared: The training involved 10 epochs for both models. The network architectures were kept consistent, with both models having two hidden layers of 512 and 128 neurons, respectively. ReLU activations were used for both hidden layers.

Conclusion and Results. The results demonstrated a clear improvement in performance for the enhanced model compared to the standard FCNN. Specifically, the accuracy of the enhanced model on the Swiss Roll dataset was 99.67%, compared to 99.0% for the standard model. This improvement is attributed to the enhanced model's ability to capture the underlying geometric structure of the data, as well as its capacity to process information across multiple scales

Keywords: Renormalization, FCNN, Swiss Rol

REFERENCES

1. Lee, J. M. (2013) Introduction to Smooth Manifolds. Springer, pp. 120-125.
2. Wilson, K. G., & Kogut, J. (1974) The renormalization group and the epsilon expansion. Physics Reports, 12(2), 75-199.
3. Tenenbaum, J. B., de Silva, V., & Langford, J. C. (2000) A global geometric framework for nonlinear dimensionality reduction. Science, 290(5500), 2319-2323.
4. itjens, G., Kooi, T., Bejnordi, B. E., Setio, A. A. A., Ciompi, F., Ghafoorian, M., ... & van Ginneken, B. (2017) A survey on deep learning in medical image analysis. Medical Image Analysis, 42, 60-88.
5. Belkin, M., Niyogi, P., & Sindhwani, V. (2006) Manifold regularization: A geometric framework for learning from labeled and unlabeled examples. Journal of Machine Learning Research, 7, 2399-2434.

MANIFOLD VƏ RENORMALIZASIYADA NEYRON ŞƏBƏKƏLƏRIN TRANSFORMASIYASI

Güman B. Qarayev
guman.garayev@gmail.com
Azər M. Əlili
azar.alili@owasp.org
Paşa Holdinq, AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu,

Məqalədə tam bağlı sinir şəbəkələri (FCNN) differensial həndəsə və renormalizasiya qrup metodları ilə təkmilləşdirilir və ənənəvi şəbəkələr, tibb təsvirləri və avtonom idarəetmə kimi sahələrdəki nəticələri əyrixətli çoxobrazlı müstəvi üzərində modifikasiya

edilir. İtmiş məlumatların nəzərə alınması üçün həndəsi intellektual baza yaradılır. Bunun üçün Kristoffel simvollarını istifadə edərək, model çoxobrazlı əyriliyinə uyğunlaşır və öyrənməni yaxşılaşdırır. Swiss Roll verilənlər bazası üzərində aparılan təcrübələrdə təkmilləşdirilmiş modelin 99,67% dəqiqliklə standart FCNN-ləri üstələdiyi göstərilir.

Açar sözlər: renormalizasiya, FCNN, Swiss Roll

ПРЕОБРАЗОВАНИЕ НЕЙРОННЫХ СЕТЕЙ НА МНОГООБРАЗИИ И ПЕРЕНОРМИРОВКА

Гуман Б. Гараев
guman.garayev@gmail.com
Азар М. Алили
azar.alili@owasp.org
Институт молекулярной биологии и биотехнологий АР МНО

В статье улучшены полностью связанные нейронные сети (FCNN) с использованием дифференциальной геометрии и методов ренормализационной группы. Традиционные сети модифицированы для работы на криволинейных многообразиях в таких областях, как медицинская визуализация и автономное вождение. Для учета потерянных данных создается геометрическая интеллектуальная база. Для этого используются символы Кристоффеля, которые позволяют модели адаптироваться к кривизне многообразий и улучшать обучение. Эксперименты, проведенные на наборе данных Swiss Roll, показали, что улучшенная модель превзошла стандартные FCNN с точностью 99,67%.

Ключевые слова: перенормировка, FCNN, швейцарский рулет.

ARP-SPOOFING ŞƏBƏKƏ HÜCUMUNUN AŞKARLANMASI ÜSULLARI

Zakir Nəsib oğlu Hüseynov
huseynov.z.n@mail.ru
Mahil İsa oğlu Məmmədov
mahil.adau.infotex@gmail.com
Zaman Həbib oğlu Zeynalov
zeynalov.zaman@mail.ru
Bahariyyə Rəşid qızı Məmmədova
bahar1959@mail.ru
Azərbaycan Dövlət Aqrar Univetsiteti

XXI əsrin son onilliklərində informasiya əldə etmək və zəruri informasiyaları qorunmaq üçün şəbəkə hücumlarının təsirləri mövzusuna həsr olunmuş kifayət qədər elmi-tədqiqat işləri aparılmış və məqalələr nəşr olunmuşdur. Müxtəlif standartlar və ən yaxşı mühafizə metodları, məlumat ötürmə prosesləri və təhlükəsizlik siyasətləri, əsas təhlükəsizlik nəzarət vasitələri nəzərdən keçirilmişdir. Ancaq buna baxmayaraq informasiya təhlükəsizliyi, mühafizə vasitələri və metodlarının tədqiqi bu gün də cox aktualdır [1].

Positive Technologies beynəlxalq şirkətinin məlumatına görə, 2024-cü ilin I rübündə əvvəlki rüblə müqayisədə insidentlərin sayı 7% artmışdır. Uğurlu kiberhücumların əhəmiyyətli hissəsi məxfi məlumatların sızması olmuşdur ki, onun payı fərdi istifadəçilər üçün 72%, təşkilatlar üçün 54% təşkil etmişdir. ARP-spoofinq hücumlarının sayı da əhəmiyyətli dərəcədə artmışdır [6].

3. Wide Area Network (WAN): WAN, coğrafi baxımdan geniş əraziləri əhatə edən şəbəkə növüdür. Məsələn, müxtəlif şəhərlərdəki ofisləri birləşdirən şəbəkələr WAN-ın nümunəsidir. WAN-lar, internet üzərindən birləşərək uzun məsafəli əlaqələri təmin edir.

4. Metropolitan Area Network (MAN): MAN, bir şəhərin və ya bir bölgənin əhatə etdiyi şəbəkə növüdür. LAN ilə WAN arasında bir yerə sahib olan bu şəbəkələr, şəhər daxilindəki müştərilər arasında əlaqə yaradır. MAN-lar, adətən yüksək sürət və geniş bant genişliyi ilə xarakterizə olunur. Bu şəbəkələr, müəssisələr arasında effektiv məlumat mübadiləsini təmin edir. Bununla yanaşı, şəhər xidmətləri üçün də mühüm rol oynayır [2].

Şəbəkə arxitekturasının tərkibi:

1. Cihazlar: Şəbəkə arxitekturasının tərkibində router, switch və hub kimi cihazlar mühüm rol oynayır. Router, şəbəkələr arasında məlumatların yönləndirilməsini təmin edir, Switch isə lokal şəbəkə içindəki cihazların əlaqəsini təşkil edir. Hub, daha sadə bir cihazdır, lakin müasir şəbəkələrdə daha az istifadə olunur. Bu cihazlar, məlumatların səmərəli şəkildə paylanmasını və alınmasını mümkün edir. Hər bir cihazın öz spesifik funksiyası var, bu da şəbəkənin ümumi effektivliyini artırır.

2. Kabelləşmə: Şəbəkənin düzgün işləməsi üçün kabelləşmə çox önəmlidir. Ethernet kabelləri, şəbəkə əlaqələrini təmin etmək üçün geniş şəkildə istifadə olunur. Fiber-optik kabellər isə daha uzun məsafələrdə sürətli və etibarlı məlumat ötürülməsi üçün ideal seçimdir. Kabellərin növü və keyfiyyəti, şəbəkənin sürətini və performansını birbaşa təsir edir. Yaxşı bir kabelləşmə sistemi, şəbəkənin dayanıqlığını artırır [3].

3. Şəbəkə İnfrastrukturunun İdarəedilməsi: Şəbəkə infrastrukturu, səmərəli idarəetmə tələb edir. Monitorinq alətləri, şəbəkənin performansını izləməyə və potensial problemləri aşkar etməyə kömək edir. İdarəetmə metodları, şəbəkənin təhlükəsizliyini təmin etmək üçün də vacibdir. Müasir şəbəkələrdə, avtomatlaşdırma və analiz alətləri istifadə olunur. Bu, istifadəçilərə daha səmərəli bir mühit təqdim edir.

Şəbəkə arxitekturasının layihələndirilməsi:

1. Dizayn Prinsipləri: Şəbəkə arxitekturasının layihələndirilməsi, müəyyən prinsiplər əsasında həyata keçirilir. Skalabilite, şəbəkənin gələcəkdə genişlənə biləcəyini təmin edir. Etibarlılıq, şəbəkənin hər zaman əlçatan olmasını və məlumat itkisinin minimumda saxlanmasını təmin edir.

2. Topologiya Seçimi: Şəbəkə topologiyası, cihazların necə birləşdiyini müəyyən edir. Ulduz topologiyası, mərkəzi bir cihazın ətrafında yerləşən cihazları ehtiva edir, bu da idarəetməni asanlaşdırır. Halqa topologiyası, cihazların bir-birinə bağlandığı dövrü bir struktur yaradır [1].

Şəbəkə arxitekturası, müasir cəmiyyətin informasiyaya olan tələblərinə cavab verən kritik bir komponentdir. Müxtəlif şəbəkə növləri, istifadəçilərə resurslara daha asan çıxış imkanı tanıyır. Həmçinin, şəbəkənin düzgün dizaynı və idarə edilməsi, təhlükəsiz və etibarlı məlumat mübadiləsi üçün vacibdir. Gələcəkdə şəbəkə arxitekturası, yeni texnologiyaların inkişafı ilə daha da müasir və mürəkkəb hala gələcək. Araşdırmaların bu sahədə davam etməsi, müasir dünya üçün əhəmiyyətli olacaqdır.

Açar sözlər: arxitektura, resurs, router, switch, hub, Ethernet kabellər, fiber-optik kabellər.

ƏDƏBİYYAT

1. Abbasov Ə.M., Əlizadə M.N., Seyidzadə E.V. "İnformatika və kompüterləşmənin əsasları" Dərslik, Yeni işlənmiş nəşri, RS "Poliqal" nəşriyyatı, 2012, 932 s.
2. Əlizadə M,N, Bayramov H,M, Məmmədov Ə,S. "İnformasiya təhlükəsizliyi" Bakı. 2016 – 397 s.
3. Rüstəmov Ə.M. " İnformatika – izahlı terminlər lüğəti" (Azərbaycanca, rusca və ingiliscə izahlı lüğət), Bakı 2011, 568 s.

СЕТЕВАЯ АРХИТЕКТУРА

Рагимов Мамед Ибрагим
raqimov-raqimov@mail.ru
Лимон Аббас Исрафилова
l.israfılova@atu.edu.az
Расима Фираддин Кулиева
r.guliyeva@atu.edu.az
Азербайджанский Технологический Университет

Сетевая архитектура-важнейший компонент, отвечающий информационным требованиям современного общества. Различные типы сетей признают более легкий доступ пользователей к ресурсам. Кроме того, правильное проектирование и управление сетью необходимы для безопасного и надежного обмена информацией. В будущем сетевая архитектура станет еще более современной и сложной с развитием новых технологий. Продолжение исследований в этой области будет иметь важное значение для современного мира.

Ключевые слова: архитектура, ресурс, маршрутизатор, коммутатор, концентратор, кабели Ethernet, оптоволоконные кабели

NETWORK ARCHITECTURE

Mammad Ibrahim Rahimov
raqimov-raqimov@mail.ru
Limon Abbas Israfilova
l.israfılova@atu.edu.az
Rasima Firaddin Guliyeva
r.guliyeva@atu.edu.az
Azerbaijan Technological University

Network architecture is a critical component that meets the requirements of modern society for information. It recognizes different network types, allowing users easier access to resources. Also, proper design and management of the network is essential for safe and reliable data exchange. In the future, network architecture, with the development of new technologies, will become even more modern and complex. The continuation of research in this area will be important for the modern world.

Keywords: architecture, resource, router, switch, hub, Ethernet cables, fiber-optic cables.

ИНТЕРНЕТ ВЕЩЕЙ (IOT) И ИХ ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ.

Айида Магомедия Мамедова
a.memmedova@atu.edu.az
Арзу Натиг Мамедова
a.mammedova@atu.edu.az
Азербайджанский Технологический Университет

Интернет вещей (IoT) представляет собой сеть физических устройств, подключенных к интернету, которые собирают и обмениваются данными. С каждым годом количество таких устройств растет, что делает вопрос их безопасности все более актуальным.

Об Интернете вещей говорят многие, и так же много существуют определения интернета вещей. Вот определения, взятые из разных источников, каждый из которых определяет его немного по-разному.

Множество физических объектов, подключенных к Интернету и обменивающихся данными.

Инфраструктура взаимосвязанных сущностей, систем и информационных ресурсов, а также служб, позволяющих обрабатывать информацию о физическом и виртуальном мире и реагировать на нее.

Совокупность сетей межмашинных коммуникаций и систем хранения и обработки больших данных, в которых за счет подключения датчиков и актуаторов к сети реализуется цифровизация различных процессов и объектов.

Направления и перспективы развития IoT.

Перспективами развития Интернета вещей исследователи считают увеличение количества устройств, развитие интеллекта и социализацию устройств.

Чем больше датчиков – тем более точную цифровую модель реального мира можно построить.

Но увеличение количества датчиков требует развития интеллекта Интернета вещей. Как минимум – для оптимизации и самоорганизации сетей: когда датчиков мало, их можно настроить руками, но когда их становится много – удобнее, если они настраиваются сами. Ещё развитие интеллекта Интернета вещей будет полезно для обеспечения большей децентрализации [1].

Обычный «Интернет вещей» управляется неким главным узлом, который решает, как передавать и хранить информацию. В будущем предполагается большая децентрализация и миграция архитектуры к виду ячеистой сети с равноправными узлами.

Интернет вещей сейчас пассивен – он был разработан для выполнения заранее известных функций специальными устройствами, и он выполняет эту функцию. Исследователи предполагают, что в будущем появится социальный Интернет вещей. **Социальный Интернет вещей активен**, **управляется искусственным интеллектом** и может меняться, максимизируя выигрыш для конечного пользователя. Другое **преимущество социального Интернета вещей** – предполагаемая простота в настройке. Устройство, появляясь в сети, сможет самоопределиться и понять, что ему нужно делать, чтобы выигрыш всей сети в целом был больше [2].

Способы обеспечения информационной безопасности интернета вещей.

В соответствии с многоуровневой архитектурой IoT-систем, можно выделить следующие 3 главы, на которых необходимо обеспечить информационную безопасность:

1. smart-устройства – «умные» датчики, сенсоры и другими приборы, которые собирают информацию с оборудования и отправляют ее в облако, передавая обратно управляющие сигналы по изменению состояния вещей;

2. сетевые шлюзы и каналы передачи данных (проводные и беспроводные протоколы);

3. программные IoT-платформы – облачные Big Data сервисы хранения и обработки информации [4].

Для всех этих компонентов в частности и в целом для IoT-системы актуальны следующие меры обеспечения кибербезопасности:

1.Организационные мероприятия.

1.1. создание и внедрение единой политики информационной безопасности предприятия с учетом всех приложений и систем Industrial Internet of Things;

1.2. разработка правил безопасного использования IoT-приборов и сетей;

1.3. совершенствование законодательного обеспечения неприкосновенности частной жизни и промышленной тайны;

2.Технические инструменты защиты данных от утечек, потерь и перехвата управления.

2.1. шифрование и другие криптографические методы, в т.ч. персонализация IoT-устройств с использованием уникальных идентификаторов ID, MAC-адресов, ключей и сертификатов, обеспечивающих достаточно высокий уровень кибербезопасности без дополнительных затрат.

Безопасность интернета вещей является критически важной задачей в современном мире. Применение вышеописанных методов поможет значительно снизить риски и защитить устройства от потенциальных угроз.

Ключевые слова: программное обеспечение, шифрование, аутентификация, пароли, безопасность, Интернет вещей.

Литература

1. Зараменских Е.П., «Интернет вещей : исследования и область применения.» Москва: ИНФРА-М, 2022,187с

2. Əlizadə M.N., Bayramov H.M., Məmmədov Ə.S. “İnformasiya təhlükəsizliyi” Bakı. 2016 – 397 s.

3. Əliquliyev R.M., Abdullayeva F.C., “Bulud texnologiyalarının təhlükəsizlik problemlərinin tədqiqi və analizi,” İnformasiya Texnologiyaları Problemləri, Bakı. 2013, 568 s.

4. Баланов А.Н., «IoT-решения: принципы, примеры, перспективы» Москва: Издательство Лань 2024, 342с.

ƏŞYALARIN İNTERNETİ (IOT) VƏ ONLARIN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ.

Ayidə Məhəmmədiyə Məmmədova

a.memmedova@atu.edu.az

Arzu Natiq Məmmədova

a.mammedova@atu.edu.az

Azərbaycan Texnologiya Universiteti

Əşyaların İnterneti (IoT) məlumat toplayan və mübadilə edən İnternetə qoşulmuş fiziki cihazlar şəbəkəsidir. Hər il bu cür cihazların sayı artır ki, bu da onların təhlükəsizliyi məsələsini daha da aktual edir.

Açar sözlər: proqram təminatı, şifrələmə, autentifikasiya, parollar, təhlükəsizlik, Əşyaların interneti.

INTERNET OF THINGS (IOT) AND THEIR INFORMATION SECURITY.

Ayida Maqomediya Mamedova

a.memmedova@atu.edu.az

Arzu Natiq Mamedova

a.mammedova@atu.edu.az

Azerbaijan Technological University

The Internet of Things (IoT) is a network of physical devices connected to the Internet that collect and exchange data. Every year the number of such devices is growing, which makes the issue of their safety more and more relevant.

Keywords: software, encryption, authentication, passwords, security, Internet of things.

VEB TEXNOLOGİYASININ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ. VEB 4.0 TEXNOLOGİYASI.

Vəfa Mustafa
mustafavefa5@gmail.com
Fidan Musayeva
fidan.musayeva@outlook.com
BDU-nun Qazax filialı

Müasir dünyada insanların fəaliyyətini Veb texnologiyalarsız təsəvvür etmək mümkün deyildir. Virtual mühitdə toplanan informasiyanın tez-tez dəyişdirilməsi, tipinə, formatına, strukturuna və s. parametrlərə görə müxtəlif verilənlərdən təşkil olunması veb texnologiyaların üzərinə əlavə vəzifələr qoyur.

Veb texnologiyalar müasir dünyada insanların fəaliyyətində mühüm rol oynayan vasitəyə çevrilmişdir. Veb layihələr tədrisdə, biznesdə, marketinqdə və s. sahələrdə vacib olmuşdur.

Virtual mühitdə toplanan informasiyanın tez-tez dəyişdirilməsi, tipinə, formatına, strukturuna və s. parametrlərə görə müxtəlif verilənlərdən təşkil olunması veb texnologiyaların üzərinə əlavə vəzifələr qoyur. Məsələn, minlərlə veb-səhifəyə malik hər hansı bir internet-layihədə səhifələrin, səhifədəki sözlərin, hiperistinadların, mediafaylların sayı tez-tez dəyişir. Belə bir şəraitdə müasir web texnologiyaların tədqiqatlarında təhlükəsizlik, zaman faktoru, tranzaksiya sürəti, verilənlərin tipi mühüm rol oynayır.

Veb — dünyadakı kompüterlərə milyonlarla məlumatı birləşdirən, bütün səviyyələrdə istifadəçilər tərəfindən asanlıqla istifadə edilə bilən, vaxt və yerdən asılı olaraq fəaliyyət göstərən, mətn, qrafika və video kimi multimedia variantları təklif edən, davamlı inkişafda olan internet xidmətinə verilən addır. Web texnologiyaları uzun tarixi inkişaf yolu keçmişdir.

Veb 1.0, 2.0, 3.0, 4.0 WWW(World Wide Web)-in inkişafında fərqlənən tarixi mərhələlərdir.

Veb 1.0 əsasən oxumaq, məlumat əldə etmək üçün nəzərdə tutulmuşdur . Multimedia, istifadəçilərlə dialoq aparmaq, fayl mübadiləsi aparmaq və s. imkanlardan istifadə etmək mümkün deyildi.

Veb 2.0 yeni web xidmətlərinin ortaya çıxması, web proqramlaşdırmanın inkişafı, saytların dizaynının və istifadəsinin yaxşılaşdırılması və istifadəçinin anonimlik qabiliyyətinin azalması ilə qeyd olunur. Bu gün təhsildə tətbiq olunan web

2.0 alətləri müxtəlif kateqoriyalara bölünür: video hazırlamaq və redaktə etmək, anket hazırlamaq, tapmaca və bilik kartı hazırlamaq, animasiya hazırlamaq,

təqdimat hazırlamaq, web sayt və e-portfolio hazırlamaq, onlayn test hazırlamaq, və s.

Veb 3-ün əsas xüsusiyyətləri blokçeyn və digər paylanmış kitab texnologiyalarından istifadə etməsi, etibar, məxfilik və təhlükəsizliyə diqqət yetirməsidir.

Veb 3-ün əsas üstünlükləri əməkdaşlıq və idarəetmənin yeni formalarına imkan yaratmaq, istifadəçi məxfiliyini və təhlükəsizliyini qorumaq potensialıdır. Veb 3 şəffaflığı, hesabatlılığı və möhkəmliyi artırarkən vasitəçiləri aradan qaldıra və əməliyyat xərclərini azalda bilər.

Veb texnologiyası	İllər	Əsas istiqamət
web 1.0 (monolog)	1995-2000	Sənədyönlü
web 2.0 (interactive web)	2000-2010	İnsanyönlü
web 3.0 (semantic web)	2010-2020	Bilikyönlü
web 4.0 (intelligent web)	2020-2030	Virtual reallıq yönlü

Veb 4.0 insanlar və maşınlar arasındakı sərhədləri aradan qaldıran bir şəbəkədir. Veb 4.0 kompüterlər və insanlar arasında əlaqə təmin edərək gündəlik həyatımızı dəyişdirmək potensialına malikdir.

Veb 4.0-ın üstünlükləri: İnternet digər nəsillərdəki internet sürətindən daha yüksək sürətə malikdir.Bu dördüncü nəsil internet vasitəsilə informasiya dünyanın hər yerindən ötürülə bilər. Veb 4.0 ilə internet daha şəffaf və izlənilə bilən olur. İnternet işin keyfiyyətini yaxşılaşdıran süni intellektdən istifadə edəcək.

Hazırda bir çox veb texnologiyalar var ki, onların üzərinə düşən əsas vəzifələr kontentin təhlükəsizliyi, istifadəçilərin rahatlığı, dizayn və rahat interfeys kimi tələblərə cavab verməkdir.

İnternetimiz sürətlə inkişaf edir. Əgər Veb 1.0 və Veb 4.0-ü müqayisə etsək, görə bilərik ki, süni intellektin köməyi ilə sürət və fərdiləşdirmələr baxımından böyük boşluğu aradan qaldırırıq. İndi bizim 50 ildən sonra olduğundan daha çox fərdiləşdirilmiş sistemlərimiz var.

Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində qlobal iqtisadiyyatda cərəyan edən trendləri diktə edən, rəqabət qaydalarını dəyişən Dördüncü Sənaye İnqilabında Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr sırasında yer almasının təmin edilməsi məqsədilə “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” yaradılmışdır. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

Açar sözlər: müasir web texnologiyaları, web saytlar, virtual mühit, virtual reallıq, interaktiv elementlər, dördüncü sənaye inqilabı

ƏDƏBİYYAT

1. Cəfərov N., Rəhimova N. “İnformatika” Bakı-2013.s 360
2. Mahmudov N. “Fərdi kompüterdə proqramlaşdırma” Bakı – 1995.s 256
3. https://medium.com/@edelcoin/the-difference-between-web-1-0-web-2-0-and- web-3-0

ИСТОРИЧЕСКИЕ ЭТАПЫ РАЗВИТИЯ ВЕБ-ТЕХНОЛОГИЙ. ТЕХНОЛОГИЯ ВЕБ 4.0.

Вафа Мустафа
mustafavefa5@gmail.com
Фидан Мусаева
fidan.musayeva@outlook.com
Казахского филиал БГУ

В современном мире невозможно представить деятельность людей без веб-технологий.Частое изменение информации, собираемой в виртуальной среде, организация различных данных по типу, формату, структуре и по параметрам накладывает дополнительные задачи на веб- технологии.

Ключевые слова: современные веб-технологии, веб-сайты, виртуальная среда, виртуальная реальность, интерактивные элементы, четвертая промышленная революция.

HISTORICAL DEVELOPMENT STAGES OF WEB TECHNOLOGY. WEB 4.0 TECHNOLOGY

Mustafa Vafa
mustafavefa5@gmail.com
Musaeva Fidan
fidan.musayeva@outlook.com
The Kazakh branch of BSU

In the modern world it is impossible to imagine human activity without web technologies.The frequent change of information collected in the virtual environment, organization of different data according to its type, format, structure and parameters imposes additional tasks on web technologies.

Keywords: modern web technologies, websites, virtual environment, virtual reality, interactive elements, fourth industrial revolution.

FİBER OPTİK KABELLƏRDƏ BİRLƏŞMƏ ZAMANI YARANAN NASAZLIQLAR VƏ İTKİLƏRƏ QARŞI TƏSİR ÜSULLARI

Emin Mahmud oğlu Namazov
e.namazov@atu.edu.az
Tamaşa Şahəddin qızı Əliyeva
tamashaaliyeva1@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Dünyada texnologiyanın inkişafı ilə bərabər, məlumatların ötürülməsinə də ehtiyac eyni sürətlə artır. Günümüzdə yüksək sürət ehtiyacını və daha çox məlumat ötürülməsini təmin edən ən vacib rabitə vasitəsi fiber rabitədir. 1970-ci ildən sonra fiber optik kommunikasiya daha sürətlə inkişaf etməyə başlamışdır. Təşkilatlar, universitetlər və dövlət müəssisələri proqramların qoşulmasını ilə bərabər şəbəkə infrastrukturunda da fiber optik qoşulmalara üstünlük verirlər. Fiber optik rabitə etibarlı rabitə olmaqla yanaşı, qeyri-keçirici, asan quraşdırma, uzun məsafəyə siqnal ötürülməsi, aşağı məlumat itkisi ilə bu sistemi daha üstün edir. Aşağı məlumat itkisi xüsusiyyətinə malik olsa da, FO rabitə vasitələrindədə itkilər baş verir.

Bu tezisdə FO kabellər vasitəsi ilə istənilən ünvana məlumat ötürülməsi zamanı yaranan nasazlıqlar araşdırılaraq, baş verə biləcək əlavə itkilərlə yanaşı makro əyilmə itkilərinə eksperimental baxılmışdır. FO kabel izolyasiya edilmiş korpusda olan şüşə liflərdən ibarətdir. FO sistemlərinin işi kabel daxilində işığın əks olunması prinsipinə əsaslanır. İşıq kabel daxilində əks olunarkən müxtəlif itkilərə rast gəlinir ki, buna da dispersiya və işıq itkiləri daxildir [1].

Dispersiya işıq siqnalının FO xətti boyunca təhrif edilməsi və yayılmasıdır. Zəifləmə giriş və çıxış arasında işıq siqnalının gücünün azalmasıdır. Zəifləmə həm xətt boyunca, həm də qovşaqlarda baş verən udma və səpilmə itkiləri ilə əlaqədardır. Xətt boyunca baş verən mikro və makro əyilmə itkilərə səbəb olur. Mikro əyilmələr istehsal səhvlərindən, makro əyilmələr isə FO kabellərinin quraşdırılması proseslərinin səbəb olduğu səhvlərdən qaynaqlanır. Bundan əlavə, əlaqə nöqtələrində baş verən itkilər də zəifləməyə səbəb olur.

Makro əyilmələr fiber üzərində kəskin əyilmələrin əmələ gəlməsi kimi makroskopik təsirlərə görə optik nüvədə işığın itirilməsi və onun siqnalının zəifləməsidir. Birləşmə itkiləri isə FO birləşmə nöqtələrində birləşdirmə zamanı iki ucun birləşmə nöqtəsində baş verən itkilərdir. Bu itkilərə boşluqların uyğunsuzluğu, bucaq uyğunsuzluğu və qeyri-sabit səth kimi təsnif edilə bilər

Kilometrlərlə uzunluqda olan xətlərdə onlarla birləşmə ola bilər. Bu zaman hər bir birləşmə nöqtəsində baş verən itkilər birləşdirilir və xəttin ümumi itki dəyərini yaradır. Bu

səbəbdən xəttin birləşmə itkiləri əlavə itkilərdə mühüm yer tutur. FO kabellərində itki dəyərləri və təhlükəsizlik payı cəmi ümumi gücdən aşağı olmalıdır, əks halda bu sistem təhlükəsiz işləməyə bilər və səmərəliliyin itirilməsinə gətirib çıxarar. İtki dəyərlərini müəyyən etmək üçün işıq siqnalını ötürmə xətti boyunca müxtəlif nöqtələrdə ölçmək və optik güc, polarizasiya və spektral məzmun kimi üç əsas sahə ilə xarakterizə etmək lazımdır. FO rabitə xəttində bu cür ölçmələri yerinə yetirmək üçün tələb olunan sınaq qurğusunun əsas hissələri optik güc ölçmə cihazı, attenuator, tunellə edilə bilən lazer mənbələri, spektr analizatoru və OTDR-dir. OTDR-lər FO sistemlərində ən çox ölçü vahidlərinə malik cihazlardır. Bu cihazlar optik sistemlərdə birləşmə xətalarına əlavə olaraq, ötürmə xəttində zəifləməni, xəttin uzunluğunu, əks etdirmə qabiliyyəti səviyyəsini, birləşmə və birləşmə itkiləri kimi parametr dəyərlərini və nasazlıq yerini göstərir.

Müxtəlif şərtlər səbəbindən FO kabellərinin quraşdırılması və təmiri üçün çoxlu sayda texnika və qurğular hazırlanmışdır. Texnikalar ümumiyyətlə üç qrupa bölünür: bitirmə, mexaniki birləşmə və qövs (qaynaq) birləşmə. FO kabellərin birləşdirilməsi qövs birləşmə cihazı ilə həyata keçirilir. Qövs birləşmə cihazı dəqiq tənzimləmə ilə iki ötürmə xəttini bir-birinə yaxınlaşdırır və qövs boşaldılması və birləşdirilməsi prosesini həyata keçirir. Birləşmə itkisi dəyərləri cihazın ekranında görünür və itki dəyəri 0,05 dB-dən çox olmamalıdır [2]. Qövs birləşməsi cihazı qüsurlu səth itkiləri ilə yanaşı digər səhvləri də aşkar edir və xəbərdarlıq edərək səhvin düzəldilməsini tələb edir. Bəzən qüsursuz olmayan səth halında cihaz həmişə xəbərdarlıq etməyə bilər. Operator bu vəziyyətlərdə diqqətli olmalı, keyfiyyətli şəkil-də birləşdirmə prosesini aparılmalıdır. Ancaq operator səhvləri və təbii səbəblərə görə yüksək dərəcədə əlavə itkilər baş verə bilər.

Birləşmə əməliyyatların əksəriyyəti açıq havada və ya ərazi şəraitinə görə tozlu mühitlərdə həyata keçirilir. Əgər FO birləşmələri hazırlayarkən istifadə olunan alətlər və qurğular təmiz deyilsə və ya birləşdirmə prosesi küləkli bir mühitdə aparılırsa, onlar birləşmə edilərkən FO liflərində toz ola bilər. Bu hallarda bir-birinə yapışdırılmamalı və liflər təmizlənməlidir sonra isə bir-birinə yapışdırılmalıdır. Amma bəzən tozlu olan halda da birləşmə aparılır.

Tozlu havada FO kabellərin birləşməsi. Birləşmə təmizlənməmiş, tozlu liflərlə aparılıb, ölçmə və yapışdırma işləri aparılıb və şəkil 1 göstərilmişdir.

Şəkil 1. Tozlu havada FO kabel birləşməsi. (Dusty cable joint)

Şəkil 1-də Operator ekranda yazılanları itki dəyərinə görə qərar verərək bu birləşməni düzgün birləşmə kimi qəbul etsə səhv edər, cünki OTDR ilə etdiyimiz ölç-mə nəticəsindədə birləşmə nöqtəsində itki dəyəri ekranda oxunandan daha çoxdur.

ƏDƏBİYYAT

1. Aydemir G., Ferikoğlu A. Odabaş C., "Optik Fiber Iletişim Sistemlərinin Özellikleri".9 (2), (2003). 168-194.,

2. Elliot B.J, və Gilmore M. "Fiber Optic Cabling". Newnes., (2002). s.256

3. Hocaoğlu S., Yücel M. "FTTH Ağlarda Performans Analizi" 10(1), (2017). 79.,

4. Singh M. "A review of the development in the field of fiber optic communication systems". 3(5), (2013). 113-119.

ОТ СБОЕВ И ПОТЕРЬ ПРИ СВАРКЕ ОПТОВОЛОКОНОНЫХ КАБЕЛЕЙ МЕТОДЫ ВОЗДЕЙСТВИЯ

Емин Махмуд оглу Намазов
e.namazov@atu.edu.az
Тамаша Шахаддин кызы Алиева
tamashaaliyeva1@gmail.com
Азербайджанский Технологический Университет

Вместе с развитием технологий в мире такими же темпами растет потребность в передаче данных. Сегодня оптоволоконная связь является важнейшим средством связи, обеспечивающим необходимость высокой скорости и большего объема передачи данных. После 1970 года волоконно-оптическая связь стала развиваться более быстрыми темпами. Организации, университеты и государственные предприятия предпочитают оптоволоконные соединения в сетевой инфраструктуре, а также для подключения приложений.

Ключевые слова: Оптоволокно, неисправностъ кабелъного соединения, потери в линии.

AGAINST FAILURES AND LOSSES DURING SPLICING IN FIBER OPTIC CABLES METHODS OF INFLUENCE

Emin Mahmud Namazov
e.namazov@atu.edu.az
Tamasha Shahaddin Aliyeva
tamashaaliyeva1@gmail.com
Azerbaijan Technological University

Along with the development of technology in the world, the need for data transmission is growing at the same rate. Today, fiber communication is the most important means of communication that provides the need for high speed and more data transmission. After 1970, fiber optic communication began to develop more rapidly. Organizations, universities and government enterprises prefer fiber optic connections in network infrastructure as well as application connectivity.

Key words: Fiber optic, Cable joint fault, line losses

ELEKTRON İMZA VASİTƏSİLƏ KİBER TƏHLÜKƏSİZLİYİN TƏMİNİ

Tamara Şakir qızı Ələkbərova
t.elekberova@atu.edu.az
Amalya Emil qızı Rzayeva
rzayevaae.1987@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Texnologiyanın sürətli inkişafı və rəqəmsal xidmətlərin genişlənməsi ilə elektron imzanın (e-imza) istifadə sahələrini artmışdır. Elektron imza, məlumatların məxfilik, dürüstlük və mövcudluq prinsipləri əsasında qorunmasını təmin edən kibertəhlükəsizlik mexanizmlərindən biridir. Kibertəhlükəsizlik, yəni informasiyanın təhlükəsizliyinin təmin edilməsi müasir rəqamsallaşa erada aktual məsələdir. Bunun üçün də Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması üzrə yetərli qanunvericilik bazası formalaşdırılır. İnformasiya mühafizəsinin ön planda olmasına səbəb isə kibercinayətkarlıq və ya daha aydın şəkildə ifadə edilərsə kiber təhdidlərdir. Elektron imza anlayışı kifayət qədər geniş yayılmış bir informasiya resursudur və kibertəhlükəsizlikdə də əsas rola sahibdir. Bu tezisdə, elektron imzanın kibertəhlükəsizlikdəki rolu, onun texnoloji əsası, təhlükəsizlik üstünlükləri və istifadəsi zamanı qarşıya çıxan risklər araşdırılacaqdır.

Elektron imza elektron dünyada şəxsiyyətin tanınması üçün istifadə edilən rəqəmsal vasitədir bir növ şəxsiyyəti təsdiq edən sənəddir. Tədqiqatlara görə kibertəhdidlərə və

onların inkişafına nəzər salsaq, hər il bunların sayı 30% artır və bu da kibertəhlükəsizliyin vacibliyini daha da artırır. Nümunə olaraq rəsmi təşkilatlar ilə müxtəlif əməliyyatlar həyata keçirərkən vətəndaşlara mənsub məlumatların üçüncü tərəfin ələ keçirməməsi üçün təhlükəsiz şəbəkələrə getdikcə daha çox ehtiyac duyulur. E-imza da məlumatların toplanıldığı, yadda saxlanıldığı və bu məlumatlara əsaslanaraq təsdiq olunmuş və ya olunması vacib olan sənədləri özündə əks etdirə bilən təhlükəsiz informasiya şəbəkələrindən biridir [1]. Elektron imza, əsasən, kriptoqrafik texnologiyalar vasitəsilə reallaşdırılır. Onun əsasını açar cütlüyü ictimai(public) və şəxsi(private) açarlar təşkil edir. Elektron imza rəqəmsal sənədlərin imzalanması üçün şəxsi açardan istifadə edir və imzanın doğruluğu üçün ictimai açardan faydalanır. Bu proses simmetrik və asimmetrik kriptoqrafiyanın birgə istifadəsi ilə həyata keçirilir. Elektron imzanın düzgün işləməsi və təhlükəsizliyi üçün açarların qorunması olduqca vacibdir, çünki şəxsi açarın sızdırılması imzanın etibarlılığını zədələyə bilər. Təhlükəsizliyin təmini üçün bir neçə baza prinsipi vardır ki, bunlar gizliliyin təmin edilməsi, tamlığın təmin edilməsi, icazəli girişin təmin edilməsidir. Tamlığın təmin edilməsi onun təhrif olunmaması deməkdir, icazəli girişin təmin edilməsi isə informasiyaya əlyetərliliyin təmin edilməsi kimi başa düşülə bilər. Bu 3 aspektdən ən əsası gizliliklə bağlı olandır, çünki gizlilik təmin olunmadığı təqdirdə digərlərinin əsası yoxdur. Gizlilik müdaxilə olunmanın qarşısını almaq, üçüncü bir tərəfin icazəsiz girişinin qarşısını alaraq informasiyaya giriş hüququ olan şəxsləri müəyyən etmək kimi bir rola sahibdir. Bu aspektlər elektron imza şəbəkələrində də öz əksini tapmışdır. Bu da onu göstərir ki, həqiqətən də e-imza kibertəhlükəsizliyi özlüyündə yetərincə təmin edə bilmə potensialına malikdir. [2].

Elektron imzaların təhlükəsizliyinin təmin edildiyini göstərən 2 fərqli məqam vardır. Bunlardan biri açarlarla şifrələmənin e-imzada öz əksini tapmasıdır. E-imzada daha təhlükəsiz olan asimmetrik açarlarla şifrələmə üsulundan istifadə olunur.[3]. Bunlardan bir digəri biometrik formada təhlükəsizliyin təminidir. Məsələn səslə tanınma, barmaq izinin skan edilməsi, üz tanıma və s.Biometrik məlumatlar bütün dünyada e-pasportlara daxil edilir. E-imza da bir elektron şəxsiyyət tanıtma vasitəsidir. Buna görə orda da biometrik məlumatlardan isdtifadə olunur. [4]

Kibertəhlükəsizlik virtual təhlükəsizliyin idarə edilməsi, kibercinayətkarlıq isə virtual hücumların idarə edilməsi mənasına malik terminlərdir [5]. Kibercinayət deyildikdə kompüter və onunla əlaqəli olan və daxilindəki informasiyalara qarşı törədilən ziyanverici hadisələr başa düşülür. Azərbaycan Respublikasının Milli Məclisi "Kibercinayətkarlıq haqqında" Konvensiyaya əsasən kibercinayətkarlığa qarşı mübarizə məqsədilə DTX qurumunu təyin etmişdir. Cinayət məcəlləsində qeyd olunan: kompüter sisteminə qanunsuz daxil olma, ələ keçirmə, müdaxilə, saxtalaşdırma kimi hallarda cinayətkar cinayət məsuliyyətinə cəlb olunur [6]. Kibercinayətlərə aid olan ən aktual mövzulardan biri də insanların şəxsi məlumatlarının ələ keçirilməsidir. Bu hadisə hər hansı bir sosial şəbəkədə, veb-saytda məlumatların yadda saxlanılması nəticəsində baş tuta bilər. Bu da məlumatlardan cinayətkarların bədniyyətli istifadəsi üçün daha geniş bir yol açmış olur. Hücumların qarşısını almağın bir yolu da e-imza rəqəmsal texnologiyasından istifadədir. E-imza texnologiyasında məlumatların yadda saxlanılması ələ keçirilmə ehtimalının faizini ən aşağıya endirir. Bu da sosial şəbəkə hesablarımızın, kart məlumatlarımızın təhlükəsizliyini təmin edir.

Açar sözlər – kibertəhlükəsizlik; qanunvericilik bazası; kibercinayətkarlıq; elektron imza.

ƏDƏBİYYAT

1. Qafarbəyli Toğrul "Elektron imza və kibertəhlükəsizlik" İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı, 2015"
2. Qasımov V.Ə. "İnformasiya təhlükəsizliyinin əsasları" dərslik 2009. -340 s

3. Qasımov V.Ə. “İnformasiya təhlükəsizliyi: kompüter cinayətkarlığı və kiberterrorçuluq” 2007. -192 s
4. Imamverdiyev Yadigar N., and Hebib H. Abbasov. "National e-signature infrastructure: current problems of scientific research." Problems of Information Technology (2021): 33-45.
5. https://az.wikipedia.org/wiki/Kriptografiya
6. https://www.kaspersky.com/resource-center/definitions/biometrics

ОБЕСПЕЧЕНИЕ КИБЕРБЕЗОПАСНОСТИ ПОСРЕДСТВОМ ЭЛЕКТРОННЫХ ПОДПИСЕЙ

Тамара Шакир Алекперова
t.elekberova@atu.edu.az
Амалия Эмиль Рзаева
rzayevaae.1987@gmail.com
Азербайджанский Технологический Университет

С быстрым развитием технологий и расширением цифровых услуг сферы использования электронной подписи (электронной подписи) расширились. Электронная подпись — один из механизмов кибербезопасности, обеспечивающий защиту данных на основе принципов конфиденциальности, целостности и доступности. Кибербезопасность, то есть обеспечение безопасности информации, является актуальной проблемой в эпоху современной цифровизации. С этой целью в Азербайджане формируется достаточная правовая база для обеспечения информационной безопасности. Причина, по которой защита информации выходит на первый план, — это киберпреступность, или, говоря более ясно, киберугрозы. Понятие электронной подписи является достаточно распространенным информационным ресурсом и играет ключевую роль в обеспечении кибербезопасности. В этой диссертации будет рассмотрена роль электронной подписи в кибербезопасности, ее технологическая основа, преимущества безопасности и риски, возникающие при ее использовании.

Ключевые слова: кибербезопасность; законодательная база; киберпреступность; электронная подпись.

ENSURING CYBER SECURITY THROUGH ELECTRONIC SIGNATURES

Tamara Shakir Alakbarova
t.elekberova@atu.edu.az
Amalya Emil Rzayeva
rzayevaae.1987@gmail.com
Azerbaijan Technological University

With the rapid development of technology and the expansion of digital services, the fields of use of electronic signature (e-signature) have increased. An electronic signature is one of the cyber security mechanisms that ensure the protection of data based on the principles of confidentiality, integrity and availability. Cyber security, i.e. ensuring the security of information, is an urgent issue in the era of modern digitalization. For this purpose, a sufficient legal basis for ensuring information security is being formed in Azerbaijan. The reason why information protection is at the forefront is cybercrime, or to put it more clearly, cyber threats. The concept of electronic signature is a fairly widespread information resource and has a key role in cyber security. In this thesis, the role of electronic signature in cyber security, its technological basis, security advantages and risks encountered during its use will be examined.

Keywords – cyber security; legislative framework; cybercrime; electronic signature.

MÜASİR PROQRAMLAŞDIRMA DİLLƏRİNDƏ MÜHƏNDİSLİK MƏSƏLƏLƏRİNİN HƏLLİ

Səyyad Yaşar oğlu Quliyev
syyadsrfov@gmail.com
Emin Mahmud oğlu Namazov
e.namazov@uteca.edu.az
Azərbaycan Texnologiya Universiteti

Rəqəmsal texnologiyalar bu gün təkcə ünsiyyətdə deyil, həm də bir çox sosial, mədəni, təhsil, istehsalat, fərdi fəaliyyət növləri və insan həyatında vasitəçilik edir (Rozin, V. M., 2020). Proqramlaşdırma dilləri müasir rəqəmsal dövrün əsasını təşkil edir. Proqramlaşdırma dillərini öyrənməzdən əvvəl proqram təminatının nə olduğunu başa düşməliyik.[3]

Sadəliyi və hərtərəfli ilə tanınan Python kimi dillər sürətli inkişafa və maşın öyrənməsi və ya məlumat təhlili alətləri ilə inteqrasiyaya imkan verir. C++ və Java yaddaş və emal üzərində ciddi nəzarəti təmin edən performansa həssas tətbiqlər üçün geniş istifadə olunur. Genişmiqyaslı, paralel sistemlərin idarə edilməsində effektivliyinə görə Go-ya üstünlük verilir.

Müasir proqramlaşdırma dilləri müxtəlif platformalarda təhlükəsizlik, etibarlılıq və istifadəçi dostu təcrübələri qoruyarkən tərtibatçılara alqoritmləri icra etməyə, sistemin səmərəliliyini artırmağa və miqyaslılığı təmin etməyə imkan verən qabaqcıl vasitələr, həmçinin alətlər təqdim edir.[1] Hər proqramlaşdırma dilinin özünəməxsus xüsusiyyətləri, güclü və zəif tərəfləri mövcuddur. Ən populyar proqramlaşdırma dillərindən bəziləri Java, Python, C++, JavaScript və Ruby-dir. Hər bir proqramlaşdırma dilinin öz sintaksisi, qrammatikası, funksional və effektiv kod yaratmaq üçün tərtibatçıların əməl etməli olduğu qaydalar var.

Son illərdə proqramlaşdırma dilləri həmişəkindən daha kritik hala gəldi. Onlar mobil proqramlardan tutmuş iri miqyaslı korporativ sistemlərə qədər hər sahə də müəyyən vasitələri inkişaf etdirmək üçün istifadə olunur. Mühəndis sahəsində proqram təminatı tətbiqləri və alətləri idarəetmə bacarığı olan şəxslərə tələbat durmadan artmaqdadır [2]

Bu tezisdə tipik mühəndislik problemlərinin həlli üçün kompüter proqramlaşdırmasının istifadəsinin səmərəlilik göstəriciləri təqdim edildi. Kompüter proqramlaşdırmasının mühəndislər üçün faydaları və kompüter proqramlaşdırma dillərinin növləri haqqında əsas məlumatlar verilmişdir.

Açar sözlər: Mühəndis həlləri, müasir inteqrasiya, proqramlaşdırma dilləri, nəzəri çərçivə,müasir aspekt.

ƏDƏBİYYAT

1. Landau, R. H., Páez, M. J., & Bordeianu, C. C. “Computational physics: Problem solving with Python”. (2024). John Wiley & Sons.
2. Rozin, V. M. “Reflection of the foundations of interdisciplinary study of sociality. Voprosy Filosofii”, (1), (2020). 64–73. https://doi.org/10.21146/0042-8744-2020-1-64-73
3. Sharopova, M. “Java programming in the language flowing input and release”. Solution of social problems in management and economy, (2024). 3(1), 84-93.

РЕШЕНИЕ ИНЖЕНЕРНЫХ ЗАДАЧ НА СОВРЕМЕННЫХ ЯЗЫКАХ ПРОГРАММИРОВАНИЯ

Сайяд Яшар оглы Гулиев
syyadsrfov@gmail.com
Эмин Махмуд оглы Намазов
e.namazov@uteca.edu.az
Азербайджанский Технологический Университет

В данной дипломной работе были представлены показатели эффективности использования компьютерного программирования для решения типовых инженерных задач. Предоставляется основная информация о преимуществах компьютерного программирования для инженеров и типах языков программирования.

Ключевые слова: Инженерные решения, современная интеграция, языки программирования, теоретические основы, современный аспект

SOLVING ENGINEERING PROBLEMS IN MODERN PROGRAMMING LANGUAGES

Sayyad Yashar oglu Guliyev
syyadsrfov@gmail.com
Emin Mahmud oglu Namazov
e.namazov@uteca.edu.az
Azerbaijan Technological University

This thesis presented the performance indicators of computer programming for solving typical engineering problems. It provides basic information about the benefits of computer programming for engineers and types of programming languages.

Keywords: Engineering solutions, modern integration, programming languages, theoretical foundations, modern aspect.

PSEVDO-TƏSADÜFI ƏDƏDLƏR GENERATORLARI

Aqil Məmmədzadə
memmedzadenaqeel@gmail.com
Elçin Həsənov
Azərbaycan Universiteti

Psevdo-təsadüfi ədədlər generatorları başlanğıc dəyəri olan (seed) bir alqoritmə əsaslanaraq təsadüfi görünən ədədlər ardıcıllığı yaradır. Həqiqi təsadüfi ədədlərdən fərqli olaraq, Psevdo-Təsadüfi Ədədlər Generatorları tamamilə deterministikdir, yəni onlar təkrarlanabilir və səmərəlidirlər, bu da müxtəlif tətbiqlərdə vacibdir.

Psevdo-Təsadüfi Ədədlər Generatorları Necə İşləyir?

Psevdo-Təsadüfi Ədədlər Generatorları əvvəlki ədədə əsaslanaraq yeni ədəd yaradan riyazi funksiyalara əsaslanır. Sadə bir nümunəXətti Konqruensiya Generatoru (LCG)-dir:

$$X_{n+1} = (aX_n + c) \mod m$$

Burada (a), (c) və (m) konstantlardır və modulyar operatoru ədədlərin müəyyən diapazonda qalmasını təmin edir. LCG-lər sürətli olsa da, müəyyən səhvlər yarada bilər və təhlükəsizlik məqsədləri üçün uyğun deyil.

Niyə bizə Psevdo-Təsadüfi Ədədlər Generatorları lazımdır?

Kompüterlərin yaranması ilə proqramçılar kompüter proqramlarına təsadüfilik gətirmək ehtiyacını anladılar. Lakin gözlənilməz görünsə də, kompüterin təsadüfi bir şey etməsi çətindir, çünki kompüter ona verilmiş təlimatları kor-koranə izləyir və buna görə

tamamilə proqnozlaşdırıla bilər. Deterministik bir maşın olan kompüterdən həqiqi təsadüfi ədədlər yaratmaq mümkün deyil. Buna görə, kompüterdən istifadə edərək təsadüfi ədədlər yaratmaq üçün **psevdo-təsadüfi ədədlər generator** adlı bir texnika yaradılmışdır.

Psevdo-Təsadüfi Ədədlər GeneratorlarınTətbiq Sahələri[1]

Psevdo-Təsadüfi Ədədlər Generatorları geniş sahələrdə istifadə olunur:

1. Kriptoqrafiya: Təhlükəsiz açarların yaradılması üçün
2. Simulyasiyalar: Elmi modellərdə təsadüfi hadisələrin təkrarlanması üçün.
3. Maşın Öyrənməsi: Təsadüfi başlanğıc və məlumatın seçilməsi.

Fibonacci Metodu

Fibonacci metodu psevdo-təsadüfi ədədləri yaratmaq üçün klassik Fibonacci ardıcıllığının dəyişdirilmiş formasıdır:

$$F(n) = (F(n-1) + F(n-2)) \mod m$$

Bu üsul sadədir, lakin daha mürəkkəb üsullarla müqayisədə o qədər də təsirli deyil.

Təkmilləşdirilmiş PTƏG-lər[2]

Mersenne Twister yüksək keyfiyyətli təsadüfi ədədlər yaradan məşhur bir generatorudur, simulyasiya və oyunlar üçün idealdır. Kriptoqrafik olaraq təhlükəsiz Psevdo-Təsadüfi Ədədlər Generatorlarıisə təhlükəsizlik üçün vacib olan proqnozlaşdırıla bilməyən nəticələr verir və şifrələmə üçün istifadə olunur.

Psevdo-Təsadüfi Ədədlər Generatorların məhdudiyyətləri[3]

- Deterministikdir: Seed və alqoritm məlumdursa, ardıcıllıq proqnozlaşdırıla bilər.
- Məhdud Dövr: Hər bir Psevdo-Təsadüfi Ədədlər Generatoru müəyyən müddətdən sonra özünü təkrarlayır.
- Statistik Keyfiyyət: Bəzi generatorlar ardıcıllıqda səhvlər və ya qərəzlər yarada bilər, bu da təsadüfiliyi azalda bilər.

Psevdo-Təsadüfi Ədədlər Generatorları simulyasiyalar, oyunlar və kriptoqrafiya üçün vacibdir və səmərəlilik ilə təsadüfiliyi balanslaşdırır.

Açar sözlər. Psevdo-Təsadüfi Ədədlər Generatorları,Deterministik,Kriptoqrafiya

ƏDƏBİYYAT

1.https://en.wikipedia.org/wiki/Pseudorandom_number_generator
2.https://www.geeksforgeeks.org/pseudo-random-number-generator-prng/
3.https://www.calculatorsoup.com/calculators/statistics/random-number-generator.php

ГЕНЕРАТОРЫ ПСЕВДОСЛУЧАЙНЫХ ЧИСЕЛ

Агиль Мамедзаде
memmedzadenageel@gmail.com
Эльчин Гасанов
Азербайджанский Университет

Генераторы псевдослучайных чисел генерируют, казалось бы, случайные числа на основе алгоритма с начальным числом. В отличие от настоящих случайных чисел, генераторы псевдослучайных чисел полностью детерминированы, то есть они повторяемы и эффективны, что важно в различных приложениях.

Ключевые слова: Генераторы псевдослучайных чисел, детерминированные, криптография

PSEUDO-RANDOM NUMBER GENERATORS

Agil Mammadzade
memmedzadenaqeel@gmail.com
Elchin Hasanov
Azerbaijan University

Pseudorandom number generators generate seemingly random numbers based on a seed algorithm. Unlike true random numbers, pseudorandom number generators are completely deterministic, meaning they are repeatable and efficient, which is important in a variety of applications.

Key words: Pseudo-Random Number Generators, Deterministic, Cryptography

NEFT ÇIXARMA SƏNAYESİNDƏ ENERJİ İTKİSİNİN AZALDILMASI

İspəndiyar Hüseyn oğlu Hümbətov
humbetovisfendiyar@gmail.com
Ramil Nazim oğlu Vəliyev
veliyevramin1977@gmail.com
Arzu Natiq qızı Məmmədova
arzu.mamedova45@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Təbii güc əmsalını yüksəltmək üçün ilk növbədə neft-mədən elektrik təsərrüfatını qaydaya salmaq lazımdır. Bu məqsədlə elektrik təhcizatının səmərıləşdirilməsi və mövcud asinxron mühərriklərindən, transformatorlardan səmərəli istifadə edilməsi tədbirləri yerinə yetirilməlidir.

Neft mədənlərinin və sənaye müəssisələrinin təbii güc əmsalına tələbetmə əmsalı böyük təsir göstərir.

$$K_e = \frac{P_{mak}}{\sum P_{qur}};$$

burada, P_{mak} – bütün işlədicilərin tələb etdiyi uzunmüddətli maksimal güc

$\sum P_{qur}$ – cərəyan işlədicilərinin ümumi quruluş gücüdür.

Tələbetmə əmsalı nə qədər böyükdürsə, güc əmsalı bir o qədər yüksək olur. Tələbetmə əmsalının yüksəldilməsi mühərriklərin yükünün artırılması və icra mexanizmlərinin tətbiqinin yaxşılaşdırılması ilə əldə edilə bilər.

Beləliklə, tələbetmə əmsalının artırılması, yəni elektrik tələbatçılarının qurulmuş gücündən yaxşı istifadə olunması müəssisənin güc əmsalının artmasına səbəb olur.

Elektrik mühərriklərinin gücü istehsal avadanlığının rejiminə müvafiq seçilməklə, artıq ehtiyatlara yol verilməməlidir.

Asinxron elektrik mühərriki gücün 0,75 – dən nominola qədər qiymətlərinə müvafiq yüklərdə daha yüksək F.İ.Ə. və $\cos\varphi$ ilə işləyir.

Bundan əlavə, qeyd edilməlidir ki, eyni şəraitdə qısa qapanmış rotorlu asinxron mühərrikləri, faza rotorlu mühərriklərə nisbətən daha yüksək $\cos\varphi$ - ə və F.İ.Ə. – a malikdir. Odur ki, neft mədənlərində mümkün qədər qısa qapanmış rotorlu mühərriklərdən istifadə edilməsi məsləhət görülür. Ətraf mühitin şəraitinə görə açıq və ya müfizəli tipli elektrik mühərriklərinin tətbiqi mümkündürsə, daha pis energetik göstəricilərə malik olan qapalı tipli elektrik mühərriklərindən imtina edilməlidir.

Nəzərə alınmalıdır ki, hər hansı müəssisənin tələb etdiyi reaktiv gücün 65÷ 70%-i adətən, asinxron mühərriklərin payına düşür, odur ki, bunların gücünün və tipinin seçilməsinə xüsusi diqqət yetirilməlidir. 100kVt və daha artıq güclü mühərrikləri olan qurğularda istehsal şəraiti imkan verirsə, reaktiv gücü daha səmərəli və əlverişli surətdə kompensasiya etmək üçün sinxron mühərriklərin tətbiqi daha məqsədəuyğundur. Sinxron

mühərrikin gücü elə seçilməlidir ki, normal iş zamanı (istehsal avadanlığı tam yükləndikdə) mühərrik ifrat təsirlənmə ilə işləsin, yəni 0,8÷ 0,9 qiymətli $\cos\varphi$ –i ilə işləsin. Bu zaman mühərrik kompensasiyaedici quruluşun işini də görmüş olur. Asinxron mühərriklərin artıq gücünün ləğv edilməsi o halda aparılır ki, yaxın zamanlarda işçi maşının faydalı yükünün artırılması nəzərdə tutulmur. Əgər qurğunun mövcud elektrik mühərriki ikiqat və daha artıq ehtiyata malikdirsə, asinxron mühərrikin daha kiçik güclü mühərriklə əvəz edilməsi məqəsədəuyğundur. Bu halda köhnə və yeni intiqal şəraitində aktiv və reaktiv güc itgiləri müqayisə edilməlidir. Tutaq ki, valdakı həqiqi yük P_B zamanı böyük (az yüklənmiş) elektrik mühərrikinin şəbəkədən tələb etdiyi P_1 –dir; bu gücə η_1 faydalı iş əmsalı və $\cos\varphi_1$ güc əmsalı uyğun gəlir.

P_1-i ölçməklə, η_1 və $\cos\varphi_1$-ni isə əyrilərdən mühərrikin müəyyən yükləri üçün təyin etmək olur. Verilmiş mühərriklərin tələb etdiyi reaktiv güc

$$Q_1 = P_1 tg\varphi_1$$

Valdakı həqiqi yükün (P_B) həmin qiymətində kiçik mühərrikin şəbəkədən tələb etdiyi güc P_2-dir, belə ki,

$$P_2 = \frac{P_B}{\eta_2} \cdot \eta_2 \cdot \text{f.i.ə və } \cos\varphi_2 \text{ güc əmsalı}$$

Yəni seçilmiş mühərrikin xarakteristikalarından götürülür. İkinci mühərrikin tələb etdiyi güc

$$Q_2 = P_2 tg\varphi_2$$

Reaktiv gücün iqtisadi ekvivalenti şəbəkənin verilmiş nöqtəsində K_e olduğunu qəbul edək. Mühərrikləri əvəz etdikdə: tələb olunan reaktiv gücün azalması nəticəsində şəbəkədə aktiv güc itgisinin azalması baş verir.

$$\Delta P' = K_e(Q_1 - Q_2)$$

F.İ.Ə-nin artması nəticəsində elektrik mühərriklərində aktiv güc itgisinin azalması

$$\Delta P'' = P_1 - P_2 = \frac{P_B}{\eta_1} - \frac{P_B}{\eta_2} = P_B \frac{\eta_2 - \eta_1}{\eta_1 \cdot \eta_2}$$

aktiv güc itgisinin tam azalması

$$\Delta P = K_e(Q_1 - Q_2) + P_B \frac{\eta_2 - \eta_1}{\eta_1 \cdot \eta_2}$$

Göstərilən hesabat "Az yüklənmiş asinxron mühərriklərinin əvəz edilməsi qaydaları" na əsasən aparılmalıdır. Transformatorun tələb etdiyi reaktiv gücün nisbətən az olmasına baxmayaraq, neft mədənlərində qurulmuş çoxlu sayda transformatorlarda ümumi reaktiv gücün qiyməti kifayət qədər böyükdür. Bu isə mədənin ümumi güc əmsalını azaldır. Odur ki, transformatorların işini səmərələşdirmək lazım gəlir, yəni az yüklənmiş transformatorlar dəyişdirilir və qruplaşdırılır. Yüksüz iş zamanı şəbəkədən açılır. Hesablamalar göstərir ki, transformatorların yüklənmə əmsalının 9,6 qədər artırılması güc əmsalının nəzərə çarpacaq dərəcədə yüksəlməsinə səbəb olur. Təbii güc əmsalına asinxron mühərriklərinin təmir keyfiyyəti də ciddi təsir göstərir. Təmir zamanı avadanlığın nominal göstəriciləri mühafizə edilməlidir. Əks halda mühərrikin tələb etdiyi reaktiv güc və yüksüz iş cərəyanı artmaqla, ayrı-ayrı fazaların qeyri-bərabər yüklənməsi də baş verə bilir. Nəticədə mühərriklərdə aktiv güc itkiləri artmaqla şəbəkənin təbii güc əmsalının aşağı düşməsinə səbəb olur.

Mühərrikin rotoru ilə statoru arasındakı hava məsafəsinə xüsusi diqqət yetirilməlidir, çünki bunun artması ilə mühərrikin tələb etdiyi reaktiv güc yüksəlir və güc əmsalını aşağı salır. Mühərrikin tələb etdiyi ümumi reaktiv gücün 25%-i hava məsafəsinin payına düşür.

Açar sözlər: mühərrik, transformator, elektrik, güc

ƏDƏBİYYAT

1. Z.T. Kazımzadə, H.M. Quliyev "Xətti elektrik dövrələri" Bakı, 1981.s180
2. Polivanov K.M. "Teorestiçeskie osnovı elektrotexniki" 1965.c 260
3. Z.T.Kazımzadə "Elektrotexnika, elektrik avadanlığı və sənaye elektronikası" maarif nəşriyyatı Bakı,1977. s.159

СНИЖЕНИЕ ЭНЕРГЕТИЧЕСКИХ ПОТЕРЬ В НЕФТЕДОБЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ

Испандияр Гусейн оглы Гумбатов
humbetovisfendiyar@gmail.com
Рамиль Назим оглы Велиев
veliyevramin1977@gmail.com
Арзу Натиг гызы Мамедова
arzu.mamedova45@gmail.com
Азербайджанский Технологический Университет

Для повышения естественного коэффициента мощности, прежде всего, необходимо регулирование электроэнергетики нефтяных месторождений. Для этого следует провести мероприятия по повышению эффективности электрооборудования и эффективному использованию существующих асинхронных двигателей и трансформаторов. Эти методы показаны в этой статье. Эти методы полезно использовать в электроустановках, работающих на нефтяных месторождениях.

Ключевые слова: двигатель, трансформатор, электричество, мощность

REDUCTION OF ENERGY LOSS IN THE OIL EXTRACTION INDUSTRY

Ispandiyar Huseyn oglu Humbatov
humbetovisfendiyar@gmail.com
Ramil Nazim oglu Valiyev
veliyevramin1977@gmail.com
Arzu Natig gizi Mammadova
arzu.mamedova45@gmail.com
Azerbaijan Technological University

In order to increase the natural power factor, first of all, it is necessary to regulate the oil field electricity industry. For this purpose, the measures of efficiency of electrical equipment and efficient use of existing asynchronous motors and transformers should be carried out. Those methods are shown in this article. It is useful to use these methods in electrical installations working in oil fields.

Keywords: engine, transformer, electricity, power

DEVELOPING EXPLAINABLE AI (XAI) METHODS FOR DEEP REINFORCEMENT LEARNING AGENTS IN SAFETY-CRITICAL APPLICATIONS

Vahid Arif oglu Seyidov
seyidovahid@gmail.com
Bayram Muhammad oglu Bagirov
bayram-bagirov@rambler.ru
Azerbaijan Technological University

DRL has great potential in several industries, especially in safety-critical domains involving self-driving cars and medical treatment. However, "black box" nature prevents more general applications of DRL agents due to the lack of transparency and trust in their decisions. Explainable AI or XAI is one of the possible solutions for alleviating this problem by explaining the agent's behavior [1, 2, 4]. It covers the current state-of-the-art in XAI techniques for DRL agents, applied to safety-critical domains, and reassesses various issues and opportunities within the development of effective XAI techniques for DRL having taken into consideration specific needs pertinent to safety-critical systems [3]. We

also identify additional research to be performed with a view to narrowing the gap between the capabilities of DRL and the requirements for explainability towards more trustworthy and reliable AI-driven systems.

1. Overview.

ИСПОЛЬЗОВАНИЕ И ПРИМЕНЕНИЕ МЕХАНИЗМА ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В КОМПЬЮТЕРНОЙ СЕТИ.

Мантиг Бахадур оглы Джафаров
mantiq.ceferov@atu.edu.az
Мирзы Буньяд оглы Талыбов
mirzetalibov7@gmail.com
Азербайджанский Технологический Университет

Компьютерные сети являются одним из основных средств обмена информацией между организациями и отдельными пользователями в современное время. Однако с ростом использования этих сетей информационная безопасность также приобретает решающее значение. Механизмы информационной безопасности важны для защиты данных, конфиденциальности и защиты сетевой инфраструктуры. Разработка механизмов информационной безопасности в компьютерной сети включает в себя многоэтапный процесс: оценку рисков, разработку политики, применение технических механизмов, обучение и индивидуальное информирование, мониторинг и. обзор.

Ключевые слова: Компьютерная сеть, Механизм безопасности.

USE AND APPLICATION OF INFORMATION SECURITY MECHANISM IN COMPUTER NETWORK.

Mantig Bahadur oglu Jafarov
mantiq.ceferov@atu.edu.az
Mirza Bunyad oglu Talibov
mirzetalibov7@gmail.com
Azerbaijan Technological University

Computer networks are one of the main means of information exchange between organizations and individual users in modern times. However, with the increasing use of these networks, information security is also critical. Information security mechanisms are important for data protection, privacy and network infrastructure protection. The development of information security mechanisms in a computer network involves a multi-stage process: risk assessment, policy development, application of technical mechanisms, training and individual awareness, monitoring and review.

Keywords: Computer network, Security mechanism

İOT CİHAZLARININ TƏHLÜKƏSİZLİK RİSKLƏRİ VƏ HƏLL YOLLARI

PƏRVIN ƏLI ABBASOVA
p.abbasova@atu.edu.az
İdayəddin Anar Hüseynov
huseynovidayddin@gmail.com
Azərbaycan Texnologiya Universiteti

İnternetə qoşulan obyektlər (IoT) müasir dövrün ayrılmaz bir hissəsinə çevrilmişdir. Ağıllı ev sistemlərindən tibbi cihazlara, sənaye avadanlıqlarından nəqliyyat vasitələrinə qədər geniş bir tətbiq sahəsinə sahib olan bu texnologiyalar, həyatımızı asanlaşdırmaqla yanaşı, yeni təhlükəsizlik risklərini də ortaya çıxarır. Araşdırmalar göstərir ki, IoT qurğularının artması ilə birlikdə kiber hücumların sayı da artır. İstifadəçilərin və istehsalçıların IoT təhlükəsizliyinə daha ciddi yanaşması zəruridir. Güclü şifrələmə, proqram təminatının müntəzəm yenilənməsi, istifadəçi təhsili və yeni texnologiyaların tətbiqi IoT cihazlarının təhlükəsizliyini artırmaq üçün atılmalı olan addımlardır.

Son illərdə IoT qurğularının sayı sürətlə artmışdır. Bu cihazlar, gündəlik həyatımızı asanlaşdırmaqla yanaşı, müxtəlif sahələrdə də inqilabi dəyişikliklərə səbəb olub. Məsələn, ağıllı ev sistemləri, enerji istehsalını optimallaşdırmaqla yanaşı, istifadəçilərə rahatlıq da təmin edir. Tibbi cihazlar isə xəstələrin sağlamlığını izləməyə imkan tanıyır, bu da tibbin inkişafına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat sahəsində avtonom avtomobillər,

insan sürücüsü olmadan maneələrdən qaçmağı və təhlükəsiz idarəni təmin edir. Lakin, bu geniş yayım, ciddi təhlükəsizlik risklərini də özündə daşıyır. [2].

IoT cihazlarının təhlükəsizlik riskləri bir neçə aspektdən ibarətdir:

- Zəif Şifrələr: Bir çox IoT cihazı, istifadəçilərin asanlıqla unutduğu zəif parollarla qorunur. Bu, hakerlərin cihazlara daxil olmasını asanlaşdırır.
- Proqram təminatı boşluqları: Bəzi cihazların proqram təminatında zəifliklər var. Bu boşluqlar, hakerlərin cihazları ələ keçirməsi və məlumatları oğurlaması üçün istismar edilə bilər.
- Şəxsi Məlumatların Qorunması: Bir çox IoT cihazı, istifadəçilərin şəxsi məlumatlarını toplayır. Bu məlumatların qorunmaması, istifadəçilərin şəxsi məlumatlarının təhlükəyə girməsi deməkdir.

IoT cihazların təhlükəsizliyini təmin etmək üçün bir sıra həll yolları mövcuddur.

1. Güclü Şifrələmə
2. Protokol İdarəetməsi
3. Daimi Yeniləmələr
4. Giriş İdarəsi
5. Şəxsi Məlumatların Mühafizəsi
6. Təhlükəsizlik Monitorinqi
7. Şəbəkə İzolyasiyası
8. İstifadəçi Təhsili

İoT cihazlarının təhlükəsizlik risklərinin idarə edilməsi, bu cihazların daha geniş istifadə edilməsinə imkan tanıyır. Bu həll yolları, istifadəçilərin məlumatlarının qorunmasına kömək edir və cihazların funksionallığını artırır. Kibertəhlükəsizliyin tətbiqi, həm istehsalçılar, həm də istifadəçilər üçün vacibdir.

Kibertəhlükəsizlik və IoT arasındakı qarşılıqlı əlaqə, yalnız mütəxəssislər üçün deyil, bütün istifadəçilər üçün vacibdir. İstifadəçilərin məlumatları necə qoruyacağına dair məlumatlılığı artırmaq IoT texnologiyalarının təhlükəsiz istifadəsini təmin edəcək. Yalnız bu yolla, gələcəyin texnologiyalarını daha təhlükəsiz və etibarlı bir şəkildə istifadə edə bilərik.

Son illərdə texnologiyanın sürətli inkişafı, gündəlik həyatımızda köklü dəyişikliklərə səbəb olub. İnternetin yayılması və ağıllı cihazların artması, həyatımızı daha rahat və səmərəli hala gətirmişdir. İnternetə Qoşulan Obyektlər (IoT), bu transformasiyanın mərkəzində dayanır. IoT cihazlarının artması ilə birlikdə yeni təhlükələr də ortaya çıxır. Kibertəhlükəsizlik, bu riskləri azaltmaq üçün kritik bir rol oynayır. Kibertəhlükəsizlik, məlumatların və sistemlərin qorunması üçün tətbiq olunan strategiyalar, texnologiyalar və proseslərdən ibarətdir. IoT cihazları, zəif şifrələr, proqram təminatındakı boşluqlar və istifadəçi məlumatlarının qorunmaması kimi risklərlə qarşılaşır. İstifadəçilərin, cihazlarını təhlükəsiz saxlamaq üçün müvafiq tədbirlər görmələri zəruridir. Eyni zamanda, istehsalçılar da cihazların dizaynında təhlükəsizlik standartlarını nəzərə almalıdırlar. Kibertəhlükəsizlik sahəsindəki bu çağırışlar, yalnız istehsalçılar və mütəxəssislər üçün deyil, eyni zamanda gündəlik istifadəçilər üçün də önəmlidir.Bu tezisdə, IoT qurğularının təhlükəsizlik riskləri, real hadisələr və müasir həll yolları araşdırılacaqdır.

Açar sözlər: kiberfiziki sistem; İoT; kiberhücum; kibertəhlükəsizlik.

ƏDƏBİYYAT

1. Əliquliyev R., İmamverdiyev Y. "İnformasiya təhlükəsizliyi insidentləri", 2012
2. Abdullayev E., "Kibertəhlükəsizlik və məlumatların mühafizəsi", 2021.
3. Alashoor, A. R., "IoT Security: Advances in Authentication", 2021
4. Smith, J. W., "Cybersecurity for IoT: An Overview", 2023.

РИСКИ БЕЗОПАСНОСТИ УСТРОЙСТВ ИНТЕРНЕТА ВЕЩЕЙ И РЕШЕНИЯ

Парвин Али Аббасова
p.abbasova@atu.edu.az
Идаеддин Анар Гусейнов
huseynovidayddin@gmail.com
Азербайджанский Технологический Университет

В последние годы стремительное развитие технологий привело к радикальным изменениям в нашей повседневной жизни. Распространение Интернета и рост числа интеллектуальных устройств сделали нашу жизнь более удобной и эффективной. Интернет вещей (IoT) находится в центре этой трансформации. С ростом числа устройств IoT появляются новые угрозы. Кибербезопасность играет важнейшую роль в смягчении этих рисков. Кибербезопасность состоит из стратегий, технологий и процессов, применяемых для защиты данных и систем. Устройства IoT сталкиваются с такими рисками, как слабые пароли, уязвимости программного обеспечения и отсутствие защиты пользовательских данных. Крайне важно, чтобы пользователи принимали соответствующие меры предосторожности для обеспечения безопасности своих устройств. В то же время производители должны учитывать стандарты безопасности при проектировании устройств. Эти проблемы в области кибербезопасности важны не только для производителей и специалистов, но и для обычных пользователей. В этой диссертации будут исследованы риски безопасности устройств IoT, реальные события и современные решения.

Ключевые слова: киберфизическая система; Интернет вещей; кибератака; кибербезопасность.

IOT DEVICES SECURITY RISKS AND SOLUTIONS

Parvin Ali Abbasova
p.abbasova@atu.edu.az
Idayeddin Anar Huseynov
huseynovidayddin@gmail.com
Azerbaijan Technological University

In recent years, the rapid development of technology has led to radical changes in our daily life. The spread of the Internet and the rise of smart devices have made our lives more convenient and efficient. Internet of Things (IoT) is at the heart of this transformation. With the rise of IoT devices comes new threats. Cybersecurity plays a critical role in mitigating these risks. Cyber security consists of the strategies, technologies and processes applied to protect data and systems. IoT devices face risks such as weak passwords, software vulnerabilities, and lack of protection of user data. It is imperative that users take appropriate precautions to keep their devices secure. At the same time, manufacturers must consider safety standards in the design of devices. These challenges in the field of cyber security are important not only for manufacturers and specialists, but also for everyday users. In this thesis, the security risks of IoT devices, real events and modern solutions will be investigated.

Keywords: cyber physical system; IoT; cyber attack; cyber security.

KORPORATİV ŞƏBƏKƏLƏRİN PROQRAM KONFİQURASİYASININ İDARƏ OLUNMASI

Sakit Qambay oğlu Verdiyev
s.verdiyev@uteca.edu.az
Növrəstə Xaliq qızı Gurzalıyeva
gurzaliyevanovrst@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Yeni yaradılan korporativ şəbəkələr istifadəçilərə çoxsaylılar xidmət eyni zamanda xüsusi xidmətlər göstərir. Bununla yanaşı yeni ikt avadanlıqları ilə kompüter və mobil resurslarla təmsil edilir. Korporativ şəbəkələr video trafikin çoxsaylı kombinasiyalarını, yeni multiplatforma tətbiqlərini, sosial media inteqrasiya texnologiyalarını və s. öz üzərində saxlayır. Korporativ şəbəkələrin inkişafına bir çox amillər təkan vermişdir. Bunlara göstərə bilərik: bulud texnologiyaları, hərəkətliliyin yüksəlməsini, trafikin daima yenilənən irəlləyişini və onun formalaşması, xüsusi informasiya mənbələrinin istifadəsinin vacibliyini rahat etmişdir. Korporativ şəbəkədə şəbəkə mənbələrindən istifadənin sürətini yüksəldən çoxsaylı trafikin prioritetlərinin diversifikasiyasını, yekun cihazların məhdudiyyəti keçərək daha çox yüklənməsi, fiziki informasiyaların göndərilməsi vasitəsində bant yerləşməsinin məhdud edilməsi kimi amilləri də söyləmək vacibdir.[1]

Bəzən bu şəbəkələrdən istifadə zamanı belə paylanmış sistemin müxtəlif hissələri arasında səmərəli qarşılıqlı əlaqənin reallaşdırılması ilə əlaqəli olan vacib problemlər meydana gəlir. Əməliyyat sisteminin proqram təminatında eyni zamanda proqramlarında nasazlıqlar formalaşa bilər.

Nəzərə alsaq ki, bölüşdürülmüş sistemlərdə proqramlaşdırma mərkəzləşmiş sistemlərdən önəmli dərəcədə fərqlənir. Şəbəkə əməliyyat sistemi, lokal rmənbələrin idarə olunması ilə əlaqəli funksiyaları tətbiq edərək, şəbəkə xidmətlərinin göstərilməsi ilə əlaqəli məsələlərida həll olunmasını təşkil etməlidir. Şəbəkə proqramlarının qurulmasının asan olmayan cəhəti ondan ibarətdir ki, eyni olmayan qurğularla işləyən proqramların eyni zamanda birlikdə işini təmin olunması vacibdir. Problemlər eyni olmayan şəbəkə düyünlərində qurulmuş proqram təminatı ilə əlavə olunur.[2]

Korporativ şəbəkənin proqram konfiqurasiyası onun icra etdiyi daha çoxda şəbəkə platforması tərəfindən müəyyənləşdirilir. Korporativ şəbəkənin şəbəkə platformasının vacib funksiyaları içərisində qurulması önəmli olan məqamlar;

– vacib şəbəkə hissələrinin ikitərəfli əlaqəsi üçün şəbəkə protokolları və mexanizmlərinə dayanaraq qurulan korporativ şəbəkənin şəbəkə topologiyasına kömək etməsi eyni zamanda qurulmasi

– fayl həmçinin çap xidmətləri, klient-server proqramlarının işinin qurulması kimi şəbəkə mənbələrinə daxil olmanın olunması

– korporativ şəbəkənin idarəolunması üçün cəld mexanizmlərin qurulması. Bura daxil edilir bir neçə xidməti və təhlükəsizlik sistemi.

Açar sözlər: korporativ şəbəkə,informasiya təhlükəsizliyi, proqram konfiqurasiyası

ƏDƏBİYYAT

1. X. Wang, S. Zhang., "Research about Optimization of Campus Network Security System", Procedia Engineering, CEIS 2011, Vol. 15, 1802-1806.
2. M. Bishop, "Introduction to Computer Security", Addison-Wesley Professional, 2004.784 pages

ИССЛЕДОВАНИЕ И ПРАКТИКА ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ КРИПТОГРАФИЧЕСКИМИ МЕТОДАМИ

Сакит Гамбай оглы Вердиев
s.verdiev@uteca.edu.az
Халиг гызы Гурзалиева в Новрасте
gurzaliyevanovrst@gmail.com
Азербайджанский Технологический Университет

Вновь созданные корпоративные сети предоставляют пользователям множество услуг и специальных услуг. Кроме того, они представлены компьютерами и мобильными ресурсами с новым ИКТ-оборудованием. Корпоративные сети предоставляют многочисленные комбинации видеотрафика, новые мультиплатформенные приложения, технологии интеграции социальных сетей и т. д. Многие факторы дали толчок развитию корпоративных сетей. Можно указать на них: облачные технологии, повышение мобильности, постоянное обновление трафика и его формирования, облегчение важности использования специальных источников информации. многочисленный трафик, что увеличивает скорость использования сетевых ресурсов в корпоративной сети. Также важно упомянуть такие факторы, как перегрузка конечных устройств, превышение лимита и ограничение пропускной способности в средствах отправки физической информации.

Ключевые слова: корпоративная сеть, информационная безопасность, настройка программного обеспечения

SOFTWARE CONFIGURATION MANAGEMENT OF CORPORATE NETWORKS

Sakit Gambay Verdiyev
s.verdiyev@uteca.edu.az
Novrasta Xalig Gurzalıyeva
gurzaliyevanovrst@gmail.com
Azerbaijan Technological University

Newly created corporate networks provide multiple services and special services to users. In addition, they are represented by computers and mobile resources with new ICT equipment. Corporate networks provide multiple combinations of video traffic, new multiplatform applications, social media integration technologies, etc. keeps on itself. Many factors have given impetus to the development of corporate networks. We can point to them: cloud technologies, increased mobility, constantly updated progress of traffic and its formation, eased the importance of using special information sources. Diversification of priorities of numerous traffic, which increases the speed of using network resources in a corporate network It is also important to mention factors such as overloading of end devices, exceeding the limit, and limiting bandwidth in the means of sending physical information.

Sometimes, during the use of these networks, important problems arise related to the implementation of efficient interaction between different parts of the distributed system. Malfunctions can occur in the software of the operating system at the same time.

Key words: corporate network, information security, software configuration

İNTELLEKTUAL SİSTEMLƏRİN MÜASİR METOD VƏ MODELLƏRİNİN TƏDQİQİ

Sakit Qambay oğlu Verdiyev
s.verdiyev@uteca.edu.az
Nərmin Vasif qızı Kazımova
kazimovanermin2022@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Süni intellektin əsasını özünüidarə, insanın minimal iştirak etdiyi təlim prinsipləri təşkil edir. Kompüter texnikasının inkişafının ilk vaxtlarında süni intellekt yaratma cəhdləri başlamışdır. O dövrlərdə kompüter paradiqması hökmranlıq edirdi. Turing maşınının beyinin teoretik modeli olması paradiqmanın əsas tezislərində təsdiq edilirdi. Kompüter universal maşının reallaşdırılmasıdır və müxtəlif informasiya prosesləri kompüterdə icra edilə bilər. Bir müddət sonra süni intellektin yaradılmasının kompüter paradiqması iflasa uğradı.

Süni intellekt 4 paradiqma ilə yerinə yetirilir: təkamül, məntiqi, imitasiya və struktur. Bu 4 paradiqma paralel inkişaf edir.

Məntiqi yanaşmanın əsasları məntiq operatoruna və Bul cəbrinə xidmət edir. Bu yanaşma, sistemin müəyyən məlumatlar əsasında qərar verməyə imkan tanıyır.

Təkamül yanaşması, sistemin makroəziyyətdə qurulmasını planlaşdırır. Bu metod, təbiətdəki təkamül prosesini simulyasiya edərək optimal həll yollarını tapmağa çalışır.

İmitasiya yanaşması, ən çox istifadə olunan yanaşmalardan biridir. Bu yanaşmada giriş və çıxış siqnalları məlum olur, lakin sistemin daxili strukturu tam olaraq bilinmir. İmitasiya, real dünya hadisələrinin modelləşdirilməsi üçün effektiv bir alət təqdim edir.

Struktur yanaşma, insan beyninin strukturunun modelləşdirilməsini nəzərdə tutur. Burada neyron şəbəkələrdən istifadə olunur. Hər bir neyronu sadə funksiyalar vasitəsilə modelləşdirmək neyron şəbəkənin ideyasının əsasıdır. Neyron şəbəkələri qeyri-xətti təbiətə malik olmaqla çox mürəkkəb asılılıqları bərpa etməyə imkan verir. Neyron şəbəkələri öyrənmək üçün iki növ alqoritmdən istifadə olunur: idarə olunan və idarə olunmayan.

Bu yanaşmaların bir-biri ilə əlaqəli şəkildə işləməsi, süni intellektin daha effektiv və çevik sistemlər halına gəlməsinə imkan tanıyır. Bu, onun real dünya problemlərini daha müasir və innovativ üsullarla həll etməsinə şərait yaradır.

Süni intellekt, özünüidarə və insanın minimal iştirakı ilə təlim prinsiplərinə əsaslanaraq sürətlə inkişaf edir. Onun yaradılması üçün kompüter paradiqması kifayət etməmiş, dörd əsas yanaşma – məntiqi, təkamül, imitasiya və struktur – mühüm rol oynamışdır. Hər bir yanaşma, özünəməxsus metodlarla sistemlərin effektivliyini artırır və müxtəlif sahələrdə tətbiq olunma imkanlarını genişləndirir. Bu yanaşmaların birgə fəaliyyəti, süni intellektin real dünya problemlərini daha müasir, innovativ və çevik üsullarla həll etməsinə şərait yaradır. Beləliklə, süni intellektin inkişafı, elmi və texnoloji irəliləyişlərin yeni mərhələsinə qapı açır. Ulvi müəllimin hatırasına ehtiramla, bu sahədəki irəliləyişlərin insan cəmiyyətinin gələcəyinə müsbət təsir göstərəcəyinə inanırıq.

Açar sözlər: süni intellekt,Tyurinq maşını,intellektual system

ƏDƏBİYYAT

1. Balayev R.Ə., Əlizadə M.N., Musayev İ.K. “İntellektual sistemlər və texnologiyalar” Bakı 2016- 256 s.
2. https://en.wikipedia.org/wiki/Artificial_intelligence

ИССЛЕДОВАНИЕ СОВРЕМЕННЫХ МЕТОДОВ И МОДЕЛЕЙ ИНТЕЛЛЕКТУАЛЬНЫХ СИСТЕМ

Сакит Гамбай оглы Вердиев
s.verdiyev@uteca.edu.az
Нармина Васиф Казимова
kazimovanermin2022@gmail.com
Азербайджанский Технологический Университет

Искусственный интеллект (ИИ) основывается на принципах самоуправления и минимального участия человека в процессе обучения. Первые попытки создания ИИ начались с развитием компьютерной техники, но вскоре стало очевидно, что компьютерная парадигма недостаточна. Существуют четыре основные парадигмы ИИ: логическая, эволюционная, имитационная и структурная. Каждая из них играет важную роль в повышении эффективности систем и расширении возможностей их применения в различных областях. Интеграция этих подходов позволяет ИИ решать реальные проблемы современного мира более современными и инновационными способами.

Ключевые слова: искусственный интеллект, машина Тьюринга, интеллектуальная система

STUDY OF MODERN METHODS AND MEDELS PF INTELLIGENT SYSTEMS

Sakit Gambay Verdiyev
s.verdiyev@uteca.edu.az
Narmin Vasif Kazimova
Kazimovanermin2022@gmail.com
Azerbaijan Technological University

Artificial intelligence (AI) is based on the principles of self-management and minimal human involvement in the learning process. The first attempts to create AI began with the development of computer technology, but it soon became clear that the computer paradigm was insufficient. There are four main paradigms of AI: logical, evolutionary, imitative, and structural. Each of these plays a significant role in enhancing the efficiency of systems and expanding their applicability across various fields. The integration of these approaches enables AI to tackle real-world problems in more modern and innovative ways.

Key Words:artificial intelligence,Turing machine,intelligent system

İNFORMASİYA AXININ TƏHLÜKƏSİZLİYİ ARXİTEKTURASININ OPTİMALLAŞDIRILMASI YOLLARININ TƏDQİQİ

Emin Mahmud oğlu Namazov
e.namazov@uteca.edu.az
Aytən Mübariz qızı Musayeva
musayevaayten975@gmail.com
Azərbaycan Texnologiya Univeristeti

İnformasiya təhlükəsizliyi dedikdə informasiyanın və informasiya mühitinin təsadüfi və ya düşünülmüş təbii və suni xarakterə malik təsirlərdən qorunma vəziyyəti başa düşülür. Bu formada olan təsirlər informasiyaya və ya informasiya obyektlərinə, eyni zamanda informasiya istifadəçilərinə ciddi ziyanlar vura bilər. İnformasiyanım qorunması informasiya təhlükəsizliyinin təmin olunması üçün həyata keçirilən tədbirlərdir. Hazırki dövrdə informasiyanın təhlükəsizliyi informasiyanın ən çox yayılmış üç vacib xüsusiyyətinə əsaslanır. Konfidensiallıq, tamlıq və əlçatanlıq. İnformasiya təhlükəsizliyi texniki vasitələrlə yanaşı insan amilindəndə asılıdır.[1]

İnformasiya axınları müəyyən səviyyəli logistik sistemlərin çərçivələri daxilində bu və ya digər logistik əməliyyatların yerinə yetirilməsi zamanı yaranır.İnformasiya axınları müxtəlif parametrlərlə xarakterizə olunur. Yaranma mənbəyi, hərəkət istiqaməti, informasiyanın ötürülməsi surəti və.s.[2]

Elektron təhlükəsizlik mövzusu müasir dövrdə eyni zamanda dünyada əsas məsələ kimi diqqət mərkəzindədir. Hal-hazırki, dövrə kimi onun həll edilməsi üçün çoxlu sayda metodlar irəli sürülmüşdür. Lokal təhlükəsizlik siyasəti informasiyanın müdafiə yollarını özündə saxlayan, informasiya xidmətlərinin təmin olunması üçün istifadə edilən bilən, eyni zamanda cari qurğunun birləşdirilməsinə icazə verən qaydaların tam toplusudur.

Şəbəkədə lokal təhlükəsizlik siyasəti ilə qlobal təhlükəsizlik siyasəti arasında müəyyən fərqlər vardır.Bu fərq şəbəkə hüdudlarınada obyektlərin paylanması ilə bağlıdır.

Token qurğusuda bunlardan biridir. Token qurğusu istifadəçinin informasiya təhlükəsizliyini təmin etmək üçün istifadə edilir. Hazırkı tokenlər kriptoqrafik açarların (məsələn, Elektron imzaların, biometrik verilənlərin) özündə saxlanılmasına imkan verir. Tokenlərin xarici görünüşü müxtəlif formada ola bilir: Bəzilərində ancaq ekran, bəzilərində, bəzilərində xırda düymələrdə vardır. Tokenləri istifadə edərkən iki problem yarana bilər. Ya istifadəçi onu itirə bilər ya da oğurlada bilər. Token qurğusu parolun yerinədə istifadə oluna bilər. Token böyük ölçüyə malik deyil, bu qurğular asanlıqla cibdə gəzdirilə bilər.

İnformasiya arxitekturasına nəzər salsaq onun əhəmiyyəti ondan ibarətdirki, istifadəçinin təcrübəsi daha da inkişaf edir. Məlumatın tapılması asanlaşır və bununlada istifadəçilər hədəflərinə daha tez və asan çatmağa nail olurlar.[3]

Açar sözlər: İnformasiya təhlükəsizliyi, informasiya arxitekturası, informasiya axını, konfidensiallıq, elektron təhlükəsizlik.

ƏDƏBİYYAT

1.“İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ”, Dərslik, Bakı, “İQTİSAD UNİVERSİTETİ“ nəşriyyatı, şəkilli, 2016 – 384 səh.
2.“İnformasiya axtarışı üsulları və sistemləri”.Dərslik. Bakı: MTN-in Maddi-texniki Təminat Baş İdarəsinin Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2015, 288 s.

ИЗУЧЕНИЕ ПУТЕЙ ОПТИМИЗАЦИИ АРХИТЕКТУРЫ БЕЗОПАСНОСТИ ИНФОРМАЦИОННЫХ ПОТОКОВ

Эмина Махмуд Намазов
e.namazov@uteca.edu.az
Айтен Мубариз Мусаева
musayevaayten975@gmail.com
Азербайджанский Технологический Университет

Информационная безопасность означает состояние защищенности информации и информационной среды от случайных или преднамеренных природных и искусственных воздействий. Эти воздействия могут нанести серьезный ущерб информации или информационным объектам, а также пользователям информации. Безопасность базируется на трех наиболее общих важных характеристиках информации: конфиденциальность, полнота и доступность. Информационная безопасность зависит от человеческого фактора наряду с техническими средствами.

Информационные потоки создаются при выполнении тех или иных логистических операций в рамках определенного уровня логистических систем. Информационные потоки характеризуются различными параметрами.

Ключевые слова: Информационная безопасность, информационная архитектура, информационный поток, конфиденциальность,электронная безопасность.

THE STUDY OF WAYS TO OPTİMİZE İFORMATİON FLOW SECURİTY ARCHİTECTURE

Emin Mahmud Namazov
e.namazov@uteca.edu.az
Ayten Mubariz Musayeva
musayevaayten975@gmail.com
Azerbaijan Technological University

Information security means the state of protection of information and the information environment from random or deliberate natural and artificial effects. These effects can cause serious damage to information or information objects, as well as to information users. Are measures. In the current period, information security is based on the three most common important characteristics of information. Confidentiality, completeness and accessibility. Information security depends on the human factor along with technical means.

Information flows are created during the performance of one or another logistics operation within the framework of a certain level of logistics systems. Information flows are characterized by various parameters. Source of origin, direction of movement, copy of information transfer, etc.

Key words: Information security, information architecture, information flow, confidentiality,electronic security.

AI TEXNOLOGİYASI, SÜNİ İNTELLEKT ANLAYIŞI VƏ İNKİŞAFI

Afiq Qəzənfər oğlu Məsimov
afiqmasimov04@gmail.com
Toğrul Nemət oğlu Məmmədhəsənov
mhesenovtogrul7@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Süni intellekt yarandığı ərəfədən etibarən müxtəlif kütlələrə xitab edərək,demək olar ki, həyatımıza tam şəkildə inteqrasiya olunur. Yanlızca gündəlik istifadə ilə sərhədlərini bitirməyən bu vasitə həmçinin elmi kəşflərə, tədqiqatlara, yeni eksperimentlərə, bununla yanaşı ənənəvi elmi metodlardan daha fərqli üsullar yaradaraq yeni fikirlərin kəşfində də rol oynayır. Son illərdə süni intellekt vasitəsilə elmi fənlərə, həmçinin digər fərqli sahələrədə verilən töhfə Aİ texnologiyasının düzgün istifadə nəticəsində nə qədər kritik və çoxyönümlü olduğunu sübut etdi.[2]

Süni intellekt son onillikdə formalaşmış olsa belə süni intellekt anlayış olaraq daha keçmiş zamana dayanır. Belə ki, ilkin süni intellekt anlayışının formalaşması R.Descartes və G.W.Leibnitz kimi filosoflara dayanır. Bəhsi keçən filosoflar özü qərar verməyi bacaran və ideya təklif edə bilən ilk belə maşınları xəyal edirdilər.

Süni intellektə dair ilk örnəklərdən biri olaraq “Pascaline” adlanan hesab maşınını örnək göstərmək olar. 1642-ci ildə B.Pascal tərəfindən icad edilən bu maşın bu kateqoriyaya dair ilk örnək idi. Bu maşın toplama və çıxma əməliyyatlarını yerinə yetirirdi.[1]

Süni intellektin inkişafına aid nöqtələrdən biridə 1950-lərdə yayımlanan “Turing” testi idi. Alan Turing tərəfindən yaradılan bu oyun verilən ifadəylə istifadəçisinin yamsılamaq, oxşatmaq qabiliyyətinə əsaslanırdı. Bəhsi keçən bu oyun ilk dəfə “Mind” adlı fəlsəfə jurnalında dərc olunmuşdur. Bu isə ilk süni intellekt bazlı oyun idi, hansı ki, kommunikasiya və insan beyninin verdiyi reaksiyalara dayalı idi.

Bu və bənzəri tərzdə bir neçə kəşflər edilsə belə süni intellektin inkişafı 20-ci əsr üçün yarımçıq qaldı desək yəqin ki,yalan demiş olmarıq. Bunun isə bəlirli səbəbləri var. Öncəliklə insanoğlu öz ehtiyacları daxilində çalışır və inkişaf etdirir. Digər bir ana səbəb

isə günümüzə nəzərən 20-ci əsr texnologiyasının geridə qalmasıdır ki, özəlliklə Süni intellekt kimi böyük bir projekt üçün limitli texnologiyalara sahib idilər. Öncəliklə süni intellekt sürətli, bir o qədərdə güclü ola biləcək işləmciyə (ana karta) sahib olmalıdır, digər ana səbəb olaraq isə böyük miqdarda verilənlər bazasına sahib olmalıdır. Verilənlər bizə axtardığımız hər məlumat, hər elmi sahə barədə məlumat almağımıza kömək edən və süni intellekt alqoritmasının təməlində duran əsas faktordur. Bəs nə oldu da son zamanlarda süni intellekt öz parlaqlığını geri qazandı? Bunun əsas vasitəsi əbəttə hər birimizin düşündüyü kimi internet faktorudur. İnternetin günü-gündən inkişafı verilənlər bazası üçün həm ödənişli, həm ödənişsiz halda məlumat əldə etməyə şərait yaratdı. Bununla yanaşı ilk sosial media platformlarının da qurulması ilə şəkil, video, hər-hansı bir səsli fayllara da əlçatımının çətinliyi minimuma endirildi. Günü-gündən bənzəri platformların istifadəçi sayının artması böyük rəqəmlərdə verilənlər partlamasına yol açtı. Digər ana prinsip olan işləmcilər (ana kart) öz inkişafının əsas təməli olan “Moore” qanununa uyğun olaraq inkişafına dəvam edir. Əsasında açıq bazarda olan ən yaxşı ana kart ünvanı isə Core i9 13900k sayılır.[3]

Bugün Aİ (süni intellekt) gəldiyi nöqtəni yuxarıda qeyd etdiyim bu insanlara və illərlə bu sahənin təməlini atan bir çox insana borcludur. Günümüzdə süni intellekt histoloji, tarixi, kimyəvi, hətta iqtisadi və biznes yönümlü analizlərdə apara bilir və bu analizlər nəticəsində qərar verə bilir. İnsanlar kimi risk etmə qabiliyyətinə sahib olmasa belə bəzi şeylərdə insanlardan çox daha yaxşı qərar verə bilir. Bu da bizə süni intellektin nə qədər günümüzdə bizlərə kömək etmiş olsa belə ,onun mükəmməllikdən uzaq və daha da çoxyönümlü bir şəkildə inkişaf etdirilə biləcəyini göstərir.

Açar sözlər: suni intellekt, anakart, internet

ƏDƏBİYYAT

1. https://www.learntechlib.org/p/126993
2. https://www.nature.com/articles/s41586-023-06559-7
3. https://phdservices.org/artificial-intelligence-dissertation-topics/

ТЕХНОЛОГИЯ ИИ, ПОНЯТИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА И ЕГО РАЗВИТИЕ

Афик Газанфар оглу Масимов
afiqmasimov04@gmail.com
Тогрул Немат оглу Мамедгасанов
mhesenovtogrul7@gmail.com
Азербайджанский Технологический Университет

С момента своего появления искусственный интеллект был интегрирован в нашу жизнь различными способами, охватывая разные аудитории. Этот инструмент выходит за рамки повседневного использования, также способствуя научным открытиям, исследованиям и новым экспериментам. Кроме того, он создает новые подходы, отличающиеся от традиционных научных методов, играя роль в исследовании новых идей. В последние годы вклад ИИ в научные области и другие сферы доказал, насколько критически важна и многофункциональна технология ИИ при эффективном использовании.

Ключевые слова: искусственный интеллект, материнская плата, интернет.

AI TECHNOLOGY, THE CONCEPT OF ARTIFICIAL INTELLIGENCE, AND ITS DEVELOPMENT

Afiq Gazanfar oghlu Masimov
afiqmasimov04@gmail.com
Togrul Nemat oglu Mammadhasanov
mhesenovtogrul7@gmail.com
Azerbaijan Technological University

Since the emergence of artificial intelligence, it has been integrated into our lives in various ways, addressing diverse audiences. This tool goes beyond daily use; it also contributes to scientific discoveries, research, and new experiments. Additionally, it creates new approaches that differ from traditional scientific methods, playing a role in the exploration of novel ideas. In recent years, the contributions of AI to scientific fields and other different areas have proven how critical and versatile AI technology can be when used effectively.

Keywords: artificial intelligence, motherboard, internet

MÜƏYYƏN MÖVZU SAHƏSİ ÜZRƏ ELEKTRON TƏHSİL RESURSLARININ VƏ KURSLARIN YARADILMASI TEXNOLOGİYASININ İŞLƏNİB HAZIRLANMASI

Ümid Üzdənov
uzdanov38@gmail.com
Rövşən Qasımov
r.qasimov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə texnologiyanın inkişafı təhsil prosesinə də mühüm təsir göstərmişdir. Ənənəvi tədris metodlarının yerini elektron təhsil resursları almaqda davam edir. Bu resurslar interaktiv öyrənmə, dərslərin asan əldə olunması, tələbə-müəllim arasındakı əlaqələrin gücləndirilməsi və fərdiləşdirilmiş öyrənmə imkanlarını artırmaq kimi üstünlüklərə malikdir. Elektron təhsil resurslarının yaradılması texnologiyası, müxtəlif fənlərin məzmununun rəqəmsal şəkildə təşkili və təqdim edilməsi prosesini əhatə edir. Bu tezisdə müəyyən mövzu sahəsi üzrə elektron təhsil resurslarının və kursların yaradılması texnologiyasının işlənib hazırlanması prosesinə diqqət yetiriləcək.[1]

Mövzu və Problemin Təsviri

Müəyyən mövzu sahəsi üzrə elektron təhsil resurslarının yaradılması bir neçə əsas mərhələni əhatə edir. İlk olaraq, mövzu sahəsinin təyin edilməsi vacibdir. Elektron tədris resurslarının yaradılması üçün konkret tədris planları və məzmun hazırlanmalıdır. Ənənəvi təlim proqramlarına uyğun gələn, lakin eyni zamanda rəqəmsal platformalar üçün optimallaşdırılmış məzmun, tələbələrin daha asan başa düşməsini və öyrənmə prosesində daha fəal iştirakını təmin edir.

İkincisi, hədəf auditoriyanın ehtiyacları və səviyyələri müəyyən olunmalıdır. Fərqli yaş qruplarının və təhsil səviyyələrinin nəzərə alınması, uyğun təhsil metodları və texnologiyalarının seçilməsi üçün əsasdır. Bu proses tələbələrin fərqli öyrənmə tərzlərini nəzərə alaraq, onları ən uyğun metodlarla təhsildə irəliləmək məqsədini güdür.

Elektron Təhsil Resurslarının Yaradılması Texnologiyası[2]

Elektron təhsil resurslarının yaradılması və kursların işlənib hazırlanması bir neçə əsas texnologiya və platformaların inteqrasiyasını tələb edir. Bu texnologiyalar tədrisin keyfiyyətini artırmaq və tələbələrin marağını çəkmək üçün vacibdir. Elektron təhsil resurslarının hazırlanmasında aşağıdakı texnologiyalardan istifadə olunur:

- **LMS (Learning Management Systems)**: Distant təhsil platformalarının istifadəsi geniş yayılmışdır. Moodle, Blackboard, Google Classroom kimi sistemlər müəllim və tələbələr

arasında əlaqə yaratmaqla yanaşı, dərs məzmunlarının idarə olunmasını və dəyərləndirilməsini təmin edir.

- **Multimedia Elementləri**: Elektron kurslar video dərslər, interaktiv təqdimatlar, testlər və simulyasiyalar vasitəsilə tələbələrin materialları daha yaxşı mənimsəməsinə kömək edir.
- **Mobil Uyğunluq**: Tələbələrin müxtəlif cihazlar vasitəsilə kurslara daxil ola bilməsi üçün təhsil resurslarının mobil uyğunluğu təmin edilməlidir.

İnkişaf və Qiymətləndirmə Mərhələsi[3

Təhsil resurslarının hazırlanması prosesində təkcə məzmunun yaradılması kifayət deyil. Resursların effektivliyini yoxlamaq və tələbələr üçün dəyərli olduğunu təmin etmək üçün sınaq mərhələləri həyata keçirilir. Bu mərhələ aşağıdakı addımları əhatə edir:

- **Pilot Testlər**: Resurslar hazırlanıb bitdikdən sonra kiçik bir qrup üzərində test edilməli və nəticələr qiymətləndirilməlidir. Bu testlər vasitəsilə məzmunun asan başa düşülməsi, interaktivliyinin səviyyəsi və istifadəçilərin kursdan məmnuniyyət səviyyəsi ölçülür.
- **Geri Bildirim və Dəyişikliklər**: Pilot testlərdən sonra əldə olunan geri bildirimlər əsasında kurslarda düzəlişlər edilir. Bu, kursların daha səmərəli və effektiv olmasını təmin edir.[4]

Elektron təhsil resurslarının hazırlanması və tədris prosesinə inteqrasiyası müasir təhsil sisteminin ayrılmaz hissəsidir. Bu proses, ənənəvi tədris metodlarından fərqli olaraq daha çevik, fərdiləşdirilmiş və texnoloji əsaslara söykənən yanaşma tələb edir. Elektron təhsil resurslarının yaradılması texnologiyasının düzgün işlənib hazırlanması, təhsil müəssisələrinə yüksək keyfiyyətli təhsil imkanları yaratmağa və tələbələrin fərdi inkişafını təmin etməyə kömək edəcəkdir.

Açar sözlər: Elektron təhsil resursları, Rəqəmsal təhsil, E-learning texnologiyaları, Kursların hazırlanması, LMS (Learning Management Systems), Təhsil resurslarının yaradılması

ƏDƏBİYYAT

1. Əliyev, S. Müasir təhsil texnologiyaları və elektron təhsil resursları. Bakı: Təhsil Nəşriyyatı. [2012].
2. Rzayeva, ARəqəmsal təhsilin Azərbaycan təhsil sisteminə inteqrasiyası. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı. . [2017].
3. Abbasova, G. Elektron tədris və onun üstünlükləri. Azərbaycan Pedaqoji Universitetinin Elmi xəbərləri, 14[2], [2019]. 45-55.
4. Clark, R. C., & Mayer, R. E. [2016]. *E-learning and the science of instruction: Proven guidelines for consumers and designers of multimedia learning* [4th ed.]. San Francisco: Pfeiffer.

РАЗРАБОТКА ТЕХНОЛОГИИ СОЗДАНИЯ ЭЛЕКТРОННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ РЕСУРСОВ И КУРСОВ ДЛЯ ОПРЕДЕЛЕННОЙ ПРЕДМЕТНОЙ ОБЛАСТИ

Умид Узданов
uzdanov38@gmail.com
Ровшан Гасымов
r.gasimov@atu.edu.az
Азербайджанский Технологический Университет

В современном мире развитие технологий оказало значительное влияние на образовательный процесс. Традиционные методы обучения все чаще заменяются электронными образовательными ресурсами. Эти ресурсы предлагают несколько преимуществ, включая интерактивное обучение, легкий доступ к занятиям, укрепление взаимодействия между студентами и преподавателями, а также расширенные возможности для персонализированного обучения. Технология создания электронных образовательных ресурсов охватывает процесс организации и представления содержания различных предметов в цифровом формате. В данной

работе рассматривается разработка технологии создания электронных образовательных ресурсов и курсов для определенной предметной области.

Ключевые слова: Электронные образовательные ресурсы, Цифровое обучение, Технологии электронного обучения, Разработка курсов, Системы управления обучением (LMS), Создание образовательных ресурсов.

DEVELOPMENT OF TECHNOLOGY FOR CREATING ELECTRONIC EDUCATIONAL RESOURCES AND COURSES FOR A SPECIFIC SUBJECT AREA

Umid Uzdanov
uzdanov38@gmail.com
Rovshan Gasimov
r.qasimov@atu.edu.az
Azerbaijan Technological University

In today's world, the development of technology has had a significant impact on the educational process. Traditional teaching methods are increasingly being replaced by electronic educational resources. These resources offer several advantages, including interactive learning, easy access to lessons, strengthened student-teacher interactions, and enhanced opportunities for personalized learning. The technology behind creating electronic educational resources encompasses the process of organizing and presenting the content of various subjects in a digital format. This thesis focuses on the development of the technology for creating electronic educational resources and courses for a specific subject area.

Keywords: Electronic educational resources, Digital education, E-learning technologies, Course development, Learning Management Systems (LMS), Educational resource creation.

KOMPÜTERLƏRİN KORPORATİV ŞƏBƏKƏLƏRİNDƏ İNFORMASİYA EHTİYATLARININ OPTİMAL ÇATDIRILMA MÜDDƏTİNİN TƏHLİLİ VƏ SİNTEZİ

Akif Səməndər oğlu Qələndərov
Gülnaz Məhərrəm qızı Hüseynova
gulnaz.huseynova@atu.edu.az
Vüsalə Nuru qızı Bayramova
Azərbaycan Texnologiya Universiteti

Məqalədə informasiya müharibəsi texnologiyalarının yaranma səbəbləri və bununla əlaqədar meydana çıxan problemlər araşdırılmış, “informasiya müharibəsi” terminina münasibətləri təhlil edilmişdir.

İnformasiya müharibəsi texnologiyalarının təsnifatı verilmiş, informasiya təsiri problemləri analiz edilmişdir. İnformasiya müharibəsinin istiqamətləri və hədəfləri göstərilmişdir. Yeni informasiya texnologiyalarının tətbiqi müəssisə və təşkilatların rəqabət qabiliyyətini, səmərəliliyini və gələcək inkişafını təmin etmək üçün hərtərəfli sistemin vacib elementlərindən birinə çevrildi. Bununla belə, hər il bazarda təklif olunan müxtəlif müasir texnologiyalar, avadanlıq və proqram təminatı arasında naviqasiya etmək getdikcə çətinləşir.

Qərb ölkələri arasında texnoloji fərqin azaldılması zərurəti ilə əlaqədar olaraq, yeni informasiya texnologiyalarından səmərəli istifadə aktuallaşır. İnformasiya biznesi biznesin tərkib hissəsi olmaqla iqtisadiyyatın inkişafına ümumi sürət verir. İnformasiya texnologiyalarının inkişafı və təsvirində bir sıra çətinliklər var. Ən mühüm problemlərdən biri əqli mülkiyyətin müəllif hüquqlarının pozulmasıdır, əksər proqramlar lisenziyasız surətdə kopyalanır və yayılır.

İnformasiya texnologiyalarının inkişafı və yayılması sənayenin müxtəlif sahələrində baş verir və milli iqtisadiyyata böyük təsir göstərir. İnformasiya

texnologiyalarının inkişafı, tətbiqi və istifadəsi istehsalın xarakterini dəyişir. İnformasiya texnologiyaları rəqabət üstünlüyünü təmin edən strateji resursa çevrilib. İnformasiya sistemləri artıq şirkət daxilində departamentlər və son istifadəçilər üçün sadəcə məlumatların işlənməsini və saxlanmasını təmin edən bir alət deyil, onlar indi şirkətə bazarda rəqabət üstünlüyü təmin edən informasiyaya əsaslanan məhsul və xidmətlər yaradır.

YUNESKO-nun qəbul etdiyi tərifə görə, informasiya texnologiyaları (İT) bir-biri ilə əlaqəli, elmi, texnoloji, mühəndislik fənlərinin məcmusudur:

- informasiyanın emalı və saxlanması ilə məşğul olan insanların əməyinin səmərəli təşkili üsullarını;
- kompüter texnologiyası, insanların, istehsal avadanlıqlarının təşkili və qarşılıqlı əlaqə üsulları;
- onların praktik tətbiqləri, eləcə də bütün bunlarla bağlı sosial, iqtisadi və mədəni problemlər.

İnformasiya texnologiyaları texniki, proqram təminatı, informasiya, metodiki və təşkilati dəstəyə əsaslanır. Əgər informasiya texnologiyasının tətbiqi müəssisənin fəaliyyətinin müxtəlif tərəflərinə təsir göstərirsə, bütovlükdə müəssisənin işinin texniki-iqtisadi və maliyyə göstəricilərini dəyişə bilərsə belə vəziyyət birləşdirilmiş korporativ idarə sistemlərinin tətbiqi vaxtı yarana bilər.

Məqalənin məqsədi korporativ şəbəkənin layihələndirilməsi və qurulmasında nəzərə alınmalı məsələlərin araşdırılmasıdır. Bu texnologiyalardan müxtəlif tipli müəssisələrin korporativ şəbəkələrinin layihələndirilməsində istifadə etmək olar.

Açar sözlər: Korporativ şəbəkələr, informasiya texnologiyaları, informasiya müharibəsi, kopyalama.

АНАЛИЗ И СИНТЕЗ ОПТИМАЛЬНОГО СРОКА ДОСТАВКИ ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В КОРПОРАТИВНЫХ КОМПЬЮТЕРНЫХ СЕТЯХ

Акиф Самандар оглы Галандаров
Гульназ Мухаррам кызы Гусейнова
gulnaz.huseynova@atu.edu.az
Вусала Нуру кызы Байрамова
Азербайджанский технологический университет

В статье исследованы причины появления технологий информационной войны и проблемы, возникающие в связи с ними, а также проанализировано их соотношение с термином «информационная война».

Ключевые слова: Корпоративные сети, информационные технологии, информационная война, копирование.

ANALYSIS AND SYNTHESIS OF THE OPTIMAL DELIVERY TIME OF INFORMATION RESOURCES IN CORPORATE COMPUTER NETWORKS

Akif Samander oglu Galandarov
Gulnaz Muharram gizi Huseynova
gulnaz.huseynova@atu.edu.az
Vusala Nuru gizi Bayramova
Azerbaijan Technological University

In the article, the reasons for the emergence of information war technologies and the problems arising in connection with them were investigated, and their relationship to the term "information war" was analyzed.

Keywords: Corporate networks, information technologies, information warfare, copying

BİLİK, İNFORMASİYA, VERİLƏNLƏR ANLAYIŞLARI ARASINDAKI ƏLAQƏ

Nəhayət Aqranom Sadıxova
nehayet_2000@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Məqalədə informasiya, bilik və məlumat anlayışları və mahiyyəti araşdırılır. Məlumatın həcmi, strukturu və sürəti baxımından insana olan digər tələblərlə müqayisədə informasiya ehtiyacının ölçüyəgəlməz dərəcədə daha yüksək dəyişmə sürətinin olduğu vurğulanır. İnformasiya və bilik arasındakı qarşılıqlı əlaqə izlənilir. Yeni bilik əldə etmə prosesi açıqlanır.

Fəlsəfi baxımdan təbiətin əsas qanunlarından biri ümumi qarşılıqlı əlaqədir. Bu, materiyanın ümumi hərəkət formasıdır və cisimlərdə baş verən bütün dəyişikliklərin və çevrilmələrin son səbəbidir. Bu müddət ərzində cisimlər və təbiət hadisələri bir birinə qarşılıqlı təsir edir, bu təsir izlərini özündə saxlaya bilir və bir-birini əks etdirir. Bütün bu əlamətlər, xassələr onların təkrar istehsalında və münasibətlərində özünü göstərir. İnsanın cansız və canlı təbiətlə davamlı qarşılıqlı əlaqəsi fiziki və əqli təfəkkürünün inkişafının nəticəsidir. Və insan düşüncə və fəaliyyətlərinin nəticəsində aldığı biliklərin və informasiyanın köməyi ilə təbiətlə qarşılıqlı əlaqəyə girir.

Məhz bu anlayışlar ətrafında XX əsrin ikinci yarısından bu günə qədər qızğın elmi müzakirələr səngimir. İT sahəsi üzrə məşhur rusiyalı mütəxəssis L.Çernyakın qeyd etdiyi kimi, "ilk növbədə ona görə ki, Klod Şenon dövründən mühəndislik səviyyəsində informasiya və verilənlər və ya bu informasiyanı kodlayan siqnallar anlayışları haqqındakı fikirlər eyniləşib".

İlk işə başlayanlar informasiyanı mahiyyət etibarilə verilənlər yığımı adlandırılmağa başladılar. Son vaxtlara qədər sistemlər nisbətən sadə olduğu üçün, informasiya və verilən arasında aydın bir fərqin olmaması praktiki əhəmiyyət kəsb etmirdi.

Lakin funksiyaların insan və maşın arasında paylanıldığı, insanın aktiv bir komponent olduğu mürəkkəb informasiya sistemlərinin yaranması ilə, eləcə də "Biliklərin idarə edilməsi" kimi fənlərin inkişafı "verilən", "informasiya" və "bilik". anlayışlarının daha dəqiq tərifinin tələbi yarandı.

Gəlin, müasir dövrümüzün tələbi olan bu qarşılıqlı əlaqəni nəzərdən keçirək.

İnformasiya. Bu fenomenin yüzlərlə tərifi var və hər bir elm sahəsində tədqiqatçılar onu öz tədqiqat tələblərinə yaxınlaşdırmaq üçün öz mülahizələrini verməyə çalışırlar. Məsələn, fəlsəfədə deyilir ki, informasiya qarşılıqlı təsirin əksidir.Yəni informasiya əldə etmək və istifadə etmək prosesi bizim xarici mühit və bu mühitdəki fəaliyyətlərimizin təsadüflərə uyğunlaşma prosesidir.

İnformatikada deyilir ki, informasiya öyrənilən obyekt, proses, hadisələr haqqında topladığımız məlumatdır.

Verilənlər. Verilən - qeyri-mütəşəkkil və xam, heç bir xüsusi məna daşımayan, kontekst və şərhə malik olmadığı üçün heç bir dəyəri olmayan faktlar və ya müşahidələrdir.

Verilən - "bilik piramidasının" əsasını təşkil edir; o, həmçinin informasiyanı, bilik və müdrikliyi özündə əks etdirir [1].

Bilik - öyrənmə, təcrübə nəticəsində, həyat prosesində alınan, əldə edilən, toplanan məlumatların, anlayışların, bir şey haqqında təsəvvürlərin məcmusudur və adətən fəaliyyətlər nəticəsində həyata keçirilir.

İnsanlar dəqiq alqoritmlərdən istifadə etmədən də topladığı bilik təcrübəsindən istifadə edərək çətin və maraqlı problemləri həll edib. İnsan öz təcrübəsinin bir hissəsini kitab,məqalə, cədvəl şəklində şərh edir.

Biliklər verilənlərdən nə ilə fərqlənir?

Verilənlər – obyekt üzərindəki müşahidənin nəticəsidir və ya yadda saxlanılanlardır (məs. ad günü, hava temperaturunun qeyd edilməsi)

Verilənlər – maddi daşıyıcılarda cədvəl, qrafik şəkildə (məs. hava temperaturu haqqında gündəlik müşahidə cədvəli).

Biliklər verilənlərə nisbətən mürəkkəb struktura malik olurlar. Adətən deyirlər ki, Bilik – yaxşı strukturlaşdırılmış veriləndir və ya verilənlər haqqında veriləndir.

İnsanın istifadə etdiyi istənilən anlayışın iki tərəfi var: ekstensional və intensional[2]:

Bilik–insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında öyrəndiklərimizdir.

Biliklər bu günkü sistemlərin əsas elementlərindən biridir və başa düşülmə vasitəsi olaraq bu sistemlərin intellektual funksiyasını təmin edir. Ümumiyyətlə, bilik - öyrənmək vasitəsi kimi qəbul olunur.

"İnformasiya", "verilən", "bilik"anlayışları ən aydın şəkildə R. Burkhard tərəfindən verilmişdir. Onun fikrincə, verilən - faktdır, informasiya - faktların şərhidir, bilik - fərdiləşdirilmiş informasiyadır.

Verilənlər dəyər əlavə etməklə informasiyaya çevrilə bilər. İnformasiya sadəcə bir fakt haqqında olan məlumatdır.

Bilik, alınan informasiyanın çevrilməsinin məhsuludur, ona məna və qiymət verir. Buna görə, informasiya və bilik arasında əsas fərqlər aşağıdakı kimidir. Birincisi, informasiya öz təbiətinə görə obyektivdir və insandan asılı olmayaraq mövcuddur. Bilik, informasiya kimi, ötürülə bilməz; Bu, bilik və informasiya arasında ikinci fərqə gətirib çıxarır: bilik insanın öz təcrübəsini dərk etməsinin nəticəsidir.



Açar sözlər: bilik, informasiya, məlumat, informasiya ehtiyacı, yeni biliklər, tələbatlar iyerarxiyası, motivasiya.

ƏDƏBİYYAT

1. "İntellektual sistemlər və texnologiyalar", B.: "MSV NƏŞR", 2016. – 256 s.
2. Кононюк А. Е. «Представление знаний в искусственном интеллекте», Киев.:, Освіта України, 2018. – 470с.

СООТНОШЕНИЕ ПОНЯТИЙ ЗНАНИЯ, ИНФОРМАЦИЯ, ДАННЫЕ

Нахаят Аграном Садыхова
nehayet_2000@mail.ru
Азербайджанский Технологический Университет

В статье рассматриваются понятия и сущность информации, знаний и данных. Отмечается закономерность неизмеримо более высокой скорости изменения потребности в информации по объему, структуре итемпам по сравнению с другими запросами человека. Прослеживается взаимодействие информации и знаний. Раскрывается процесс получения нового знания.

Ключевые слова: знания, информация, данные, потребность в информации, новые знания, иерархия потребностей, мотивация.

CORRELATION OF THE CONCEPTS OF KNOWLEDGE, INFORMATION, DATA

Nahayat Agranom Sadikhova
nehayet_2000@mail.ru
Azerbaijan Technological University

Concepts and essence of information, knowledge and data are discussed in the article. The regularity of immeasurably higher speed of changes in the need for information in terms of volume, structure and pace is noted compared to other human requests. The interaction of information and knowledge is traced. The process of obtaining new knowledge is revealed. It is emphasized that the fewer obstacles there are to the movement of information between a person and the environment and within his inner world, the more favorable the conditions for the development and self-improvement of the individual, collective, social community and society as a whole.

Keywords: knowledge, information, data, need for information, new knowledge, hierarchy of needs, motivation.

BULUD TEXNOLOGİYALARINDA TƏHLÜKƏSİZLİYİN TƏMİNİ

Zeynəb Ulubəy Həsənli
hzeyneb21@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Bulud texnologiyaları sürətlə inkişaf edən və məlumatların saxlanması, işlənməsi və paylanması üçün geniş istifadə olunan müasir həllərdən biridir. Bu texnologiyalar şirkətlərə və fərdi istifadəçilərə daha cəld, effektiv və qənaətcil xidmətlər təqdim etməklə yanaşı, ciddi təhlükəsizlik çağırışları da yaradır. Bulud texnologiyalarının əsas üstünlükləri elastiklik, miqyaslanma və xərclərin azaldılması olsa belə, təhlükəsizlik məsələləri bu texnologiyanın geniş yayılmasında əsas narahatlıq olan mənbələrindən biridir. İstifadəçilər öz məlumatlarını üçüncü tərəf bulud xidmət təminatçılarına etibar etdikləri üçün məxfilik, məxfiliyin pozulması, məlumat sızmaları və təhlükəsizlik insidentləri riskləri artır.

Buludda təhlükəsizlik təminatı aşağıdakı əsas 3 komponentlərə əsaslanır:[1]

- **Məlumatların məxfiliyi və məxfilik siyasətləri:** İstifadəçilərin məlumatlarının icazəsiz şəxslər tərəfindən əldə olunmasının qarşısını almaq üçün güclü şifrələmə və məxfiliyə nəzarət siyasətləri tətbiq edilməlidir.
- **Məlumat bütövlüyü və qorunması:** Saxlanılan və ötürülən məlumatların dəyişdirilməsinin və ya zərər görməsinin qarşısını almaq üçün güclü texnoloji həllər, o cümlədən hash funksiyaları burada geniş istifadə edilir.
- **İstifadəçi autentifikasiyası və icazələrin idarə olunması:** Güclü autentifikasiya sistemləri və rola əsaslanan icazə nəzarəti mexanizmləri məlumatların təhlükəsiz şəkildə idarə edilməsini təmin edir.

Təhlükəsizlik Hücumları və Risklər- Bulud sistemləri bir çox müxtəlif təhdidlərlə qarşılaşır. Ən çox rast gəlinən təhlükəsizlik hücumları bunlardır:[2]

- **Xarici müdaxilə və məlumat oğurluğu:** Buludda saxlanılan həssas məlumatların üçüncü tərəflər tərəfindən oğurlanması riskləri.
- **DoS və DDoS hücumları:** Bulud sistemlərinin əlçatanlığını zədələmək üçün xidmətin dayandırılması hücumlarının icrası.
- **Məlumatların qanunsuz şəkildə dəyişdirilməsi və silinməsi:** Buludda saxlanılan məlumatların manipulyasiyası və ya məhv edilməsi riskləri.

Bulud təhlükəsizliyinin təmin edilməsi üsulları- Bulud texnologiyalarında təhlükəsizliyi təmin etmək üçün müxtəlif texnoloji və təşkilati tədbirlər həyata keçirilir:[1]

- **Məlumatların şifrələnməsi:** Məlumatların saxlanılması və ötürülməsi zamanı şifrələmə istifadə edilməsi təhlükəsizlik üçün əsas tələblərdən biridir.

● **Güclü autentifikasiya və səlahiyyətlərin idarə olunması:** İstifadəçilərin və cihazların giriş hüquqlarının mütəmadi yoxlanılması, iki faktorlu autentifikasiyanın tətbiqi.
● **Təhlükəsizlik insidentlərinə cavab sistemləri:** Təhlükəsizlik insidentlərini aşkarlamaq və cavab vermək üçün inkişaf etmiş monitorinq sistemlərinin qurulması.
DDoS hücumlarına qarşı müdafiə- Bulud sistemləri DDoS hücumlarına qarşı xüsusilə həssasdır. Bu hücumların qarşısını almaq üçün bulud xidmət təminatçıları yüksək səviyyəli DDoS qorunma mexanizmləri istifadə etməlidir. Bu sistemlər hücumları aşkar edərək və hücum trafikini yönləndirərək xidmətin davamlılığını təmin edirlər.[2]
Təşkilati tədbirlər və uyğunluq- Bulud təhlükəsizliyinin təmin edilməsi yalnız texnoloji tədbirlərlə məhdudlaşmır. Bulud xidmət təminatçılarının beynəlxalq standartlara (ISO/IEC 27001) uyğun sertifikatlaşdırılması və qanunvericiliyə riayət etməsi vacibdir. Eyni zamanda məlumatların hansı ölkədə saxlanması da ciddi təhlükəsizlik tələbləri yaradır.
Nəticə- Bulud texnologiyalarında təhlükəsizliyin təmin edilməsi bu sahənin uğurlu inkişafı üçün əsasdır. Texnoloji həllər və təşkilati tədbirlər birlikdə işləyərək məlumatların məxfiliyini, bütövlüyünü və əlçatanlığını qorumağa kömək edir. Təhlükəsizlik zəifliklərinin qarşısının alınması və risklərin azaldılması üçün bulud xidmətləri göstərən şirkətlər mütəmadi olaraq təhlükəsizlik strategiyalarını yeniləməli və qabaqcıl texnologiyalar tətbiq etməlidirlər

Bulud texnologiyaları məlumatların uzaq serverlərdə saxlanılması və emalı ilə şirkətlərə və fərdi istifadəçilərə cəld və səmərəli xidmətləri təqdim edir. Ancaq bu texnologiyanın sürətli yayılması təhlükəsizlik baxımından bir sıra problemlər yaradır. Bulud təhlükəsizliyi əsasən məlumatların gizliliyi, bütövlüyü, əlçatanlığı, istifadəçi autentifikasiyası və icazələrin idarə edilməsi ilə bağlıdır. Bu tezisdə mövcud təhlükələr və təmini üsulları araşdırılmışdır.

Açar sözlər- Bulud texnologiyası; təhlükəsizlik; Ddos hücumlar; 2 faktorlu hücumlar.

ƏDƏBİYYAT

1. Singh, Ashish, and Kakali Chatterjee. "Cloud security issues and challenges: A survey." Journal of Network and Computer Applications 79 (2017): 88-115.
2. Kumar, S., Dwivedi, M., Kumar, M., & Gill, S. S. (2024). A comprehensive review of vulnerabilities and AI-enabled defense against DDoS attacks for securing cloud services. Computer Science Review, 53, 100661.

ОБЕСПЕЧЕНИЕ БЕЗОПАСНОСТИ В ОБЛАЧНЫХ ТЕХНОЛОГИЯХ

Зейнаб Улубей Гасанлы
hzeyneb21@gmail.com
Азербайджанский технологический университет

Облачные технологии предоставляют быстрые и эффективные услуги компаниям и отдельным пользователям путем хранения и обработки данных на удаленных серверах. Однако быстрое распространение этой технологии создает ряд проблем с точки зрения безопасности. Облачная безопасность в основном связана с конфиденциальностью, целостностью, доступностью данных, аутентификацией пользователей и управлением разрешениями. В данной дипломной работе исследуются существующие угрозы и методы защиты.

Ключевые слова- Облачные технологии; Безопасность; Ддос-атаки; 2 факторные атаки.

ENSURING SECURITY IN CLOUD TECHNOLOGIES

Zeynab Ulubey Hasanli
hzeyneb21@gmail.com
Azerbaijan Technological University

Cloud technologies provide fast and efficient services to companies and individual users by storing and processing data on remote servers. However, the rapid spread of this technology creates a number of problems in terms of security. Cloud security is mainly concerned with data privacy, integrity, availability, user authentication and permission management. In this thesis, the existing threats and methods of protection are investigated

Keywords-Cloud technology;security;Ddos attacks;2-factor attacks.

MİNİMAL AĞAC GÖVDƏSİ VƏ ONUN TƏTBİQİ

Rövşən Fazil Qasımov
6292710@mail.ru
Kamran Rövşən Qasımov
kamran@deirvlon.com
Azərbaycan Texnologiya Universiteti

Minimal ağac gövdəsi (MAG) bütün təpələri özündə cəmləşdirən və dövrlər yaratmadan onları birləşdirən minimum mümkün sayda tilləri ehtiva edən əlaqəli qrafın alt qrafıdır. MAG şəbəkələrin optimallaşdırılması (elektrik, kompüter və s.) kimi bir çox praktiki məsələlərdə, həmçinin nəqliyyat problemlərinin həllində istifadə olunur [2].

Əsas anlayışlar.

- **Qraf** – tillərlə birləşdirilmiş təpələr toplusudur, başqa sözlə bu G={V,E} cütüdür, burada V – təpələr və E – tillər çoxluğudur. Çəkili qrafın tillərinin çəkiləri vardır (qiymət, məsafə, zaman və s.).
- **Gövdəli ağac**, qrafın bütün təpələrini dövrlər yaratmadan birləşdirən alt qrafdır.
- **Minimal gövdəli ağac**, tillərin çəkilərinin minimum cəminə malik olan budaqlanan ağacdır [2].

Misal. Aşağıdakı şəkildəki kimi 5 təpəsi olan bir qrafı nəzərdən keçirək (Şəkil 1):

Burada :

- Təpələr: A, B, C, D, E.
- Tillərin çəkiləri: AB = 1, AC = 3, BC = 4, BD = 2, CD = 5, CE = 6.

MAG tapılması üçün alqoritmlər. Minimal ağac gövdəsini tapmaq üçün bir neçə alqoritmdən istifadə olunur. Onlardan ən məhşurları: Prim və Kraskal alqoritmləridir.**Prim alqoritmi.** Bu alqoritm ixtiyari təpədən başlayaraq gövdəyə gövdənin cari hissəsini yeni təpə ilə birləşdirən minimal tili əlavə edərək MAG-ı addım-addım qurur [1, 3].



Şəkil 1.

Prim alqoritminin addımları aşağıdakı kimidir:

1. İxtiyari bir təpə seçilir və onu ağacın gövdəsinə əlavə edirik.
2. Hər bir addımda biz ağacın cari gövdəsində istənilən təpəni hələ bura daxil edilməyən təpə ilə birləşdirən minimal tili seçirik.
3. Bu prosesi ağacın gövdəsinə bütün təpələrin daxil olmasına qədər təkrarlayırıq.

Misal göstərdiyimiz qraf üçün:

1. A təpəsindən başlayaq. Çəkisi 1 olan minimal AB tilini seçirik.
2. A və B təpələrindən minimal tili tapırıq. Bu, çəkisi 2 olan BD tilidir.
3. İndi bizdə A, B və D təpələri var. Çəkisi 3 (minimum) olan AC tilini seçirik.
4. Son addım çəkisi 6 olan kənar CE-ni əlavə etməkdir.

Minimal ağac gövdəsinin görünüşü şəkil 2 verilmişdir.

Tillərin çəkilərinin cəmi: T={(A,B),(B,D),(A,C),(C,D)}, yəni,

1 + 2 + 3 + 6 = 12.

Kraskal alqoritmi. Bu alqoritm bütün tilləri çəkiyə görə artan qaydada çeşidləyir və dövrə əmələ gətirmirsə, onları ağacın gövdəsinə əlavə edir [1, 3].

Kraskal alqoritminin addımları:

1. Çəkiləri artırmaqla bütün tilləri çeşidləyirik: AB (1), BD (2), AC (3), BC (4), CD (5), CE (6).
2. Ağacın gövdəsinə tilləri əlavə etməyə başlayırıq: əvvəlcə AB, sonra BD və s.
3. Tilin əlavə edilməsi dövr yaradırsa, onu atlayırıq.

Yuxarıda göstərilmiş misal üçün, Kraskal alqoritmi üzrə də çəkisi 12, və eyni, şəkil 2-də göstərildiyi ağac gövdəsini verəcəkdir.



Şəkil 2.

Minimal ağac gövdəsinin xüsusiyyətləri:

1. **Bütün tillərin unikal çəkiləri varsa, MAG yekdir.** Əks halda, eyni çəkilər cəminə malik bir neçə minimal ağac gövdəsi ola bilər.
2. **MAG-da tillərin sayı həmişə təpələrin sayından bir azdır.** (n) təpələri olan qraf üçün minimal ağac gövdəsində (n-1) til olacaqdır.
3. **MAG həmişə asiklik qrafdır.** İstənilən dövr çəkilərin ümumi cəmini artıracaq, bu da minimum şərti pozacaqdır.
4. **MAG** tillərin çəkilərinin cəmi belə yazıla bilər:

$$W(T) = \sum_{e \in T} w(e),$$

burada T – minimal gövdəli ağacdır, w(e) – e tillərin çəkisidir [1].

Minimal ağac gövdəsi alqoritminin tətbiqi. Minimal ağac gövdəsi alqoritmindən şəbəkə qurarkən xərcləri minimuma endirmək lazım olan problemlərdə geniş istifadə olunur. Bəzi istifadə sahələri:

- **Kabel şəbəkələrinin çəkilməsi.** Bir neçə obyekti birləşdirən kabelin uzunluğunu və ya dəyərini minimuma endirmək lazım olduqda.
- **Elektrik və boru şəbəkələrinin layihələndirilməsi.** Naqil və ya borular üçün minimum xərclərlə şəbəkə qurmaq tələb olunduqda.
- **Verilənlərin klasterləşdirilməsi.** MAG maşın öyrənmə tapşırıqlarında verilənlərin nöqtələrini toplamaq üçün istifadə edilə bilər.

Nəticə. Minimal ağac gövdəsi – qraflar nəzəriyyəsində bir sıra problemlərdə tətbiqi olan vacib bir anlayışdır. Prim və Kraskalın alqoritmləri müxtəlif ölçülü və mürəkkəbliyi olan qraflar üçün minimal ağac gövdəsinin tapılmasında effektiv alətdir və bir çox optimallaşdırma məsələlərində tətbiq edilir.

Açar sözlər: qrafik nəzəriyyəsi, minimum yayılma ağacı, Prim alqoritmi, Kruskal alqoritmi.

ƏDƏBİYYAT

1. **Кормен Т. Х., Лейзерсон Ч. Э., Ривест Р. Л., Штайн К.** "Алгоритмы: построение и анализ". -М.: Вильямс, 2005. - 1296 с.
2. **Чжан С., Ли Д.** "Теория графов и её приложения". -М.: Физматлит, 2008. - 620 с.

3. **Tarjan, R.** "Data Structures and Network Algorithms". - Society for Industrial and Applied Mathematics, 1983.

МИНИМАЛЬНОЕ ОСТОВНОЕ ДЕРЕВО И ЕГО ПРИМЕНЕНИЕ

Ровшан Фазил Касумов
6292710@mail.ru
Камран Ровшан Касумов
kamran@deirvlon.com
Азербайджанский Технологический Университет

Минимальные остовные деревья представляют собой мощный инструмент для решения задач оптимизации в различных областях, от прокладки сетей до анализа данных. Алгоритмы Прима и Краскала являются эффективными методами поиска минимального остовного дерева и могут быть применены для больших графов благодаря их высокой производительности.

Ключевые слова: теория графов, минимальное остовное дерево, алгоритм Прима, алгоритм Краскала.

MINIMUM SPANNING TREE AND ITS APPLICATION

Rovshan Fazil Gasimov
6292710@mail.ru
Kamran Rovshan Gasimov
kamran@deirvlon.com
Azerbaijan Technological University

Minimum spanning trees are a powerful tool for solving optimization problems in various fields, from network design to data analysis. Prim's and Kruskal's algorithms are efficient methods for finding the minimum spanning tree and can be applied to large graphs due to their high performance.

Keywords: graph theory, minimum spanning tree, Prim's algorithm, Kruskal's algorihm.

STEQANOQRAFİYA VƏ KRİPTOQRAFİYA: ƏLAQƏLƏR VƏ İNTEQRASİYA

Kənan Rövşən Abdullayev
kenan.abdulllayev98@gmail.com
Sakit Qambay Verdiyev
info_tel@inbox.ru

Müasir dövrdə məlumatların qorunması və təhlükəsizliyi, informasiyanın sürətlə yayıldığı bir mühitdə kritik əhəmiyyət kəsb edir. Steqanoqrafiya və kriptologiya, məlumatların gizli saxlanması və qorunması üçün iki əsas sahədir. Hər ikisi öz spesifik metodları və yanaşmaları ilə məlumatların təhlükəsizliyini təmin edir, lakin bunların inteqrasiyası daha effektiv nəticələr əldə etməyə imkan tanıyır.

Steqanoqrafiyanın Tərifi və Əsas Prinsipləri

Steqanoqrafiya, məlumatın gizli şəkildə bir digər məlumatın içində yerləşdirilməsi prosesidir. Bu, məsələn, bir şəkil, audio fayl və ya digər media formatlarında gizli məlumatların saxlanması ilə həyata keçirilə bilər. Steqanoqrafiyanın əsas məqsədi, gizli məlumatın kənar gözlərdən qorunmasıdır. Bu sahə, xüsusilə media sənayesində, mühafizə sistemlərində və kiber təhlükəsizlikdə geniş istifadə olunur.[1]

Kriptologiyanın Tərifi və Əsas Prinsipləri

Kriptologiya, məlumatların şifrələnməsi və deşifrələnməsi ilə bağlı bir elm sahəsidir. İki əsas komponenti var: kriptografiya, yəni məlumatların şifrələnməsi; və kriptoanaliz, yəni şifrlərin pozulması.[2] Kriptologiyanın məqsədi, məlumatın gizliliyini, bütövlüyünü və etibarlılığını təmin etməkdir. Müasir kriptografiya metodları, simmetrik və asimmetrik şifrələmə üsullarını əhatə edir və bu metodların güclü olması, məlumatların təhlükəsizliyini artırır.

Steqanoqrafiya və Kriptologiya Arasındakı Əlaqələr

Steqanoqrafiya və kriptologiya arasındakı əlaqə, məlumatların gizliliyini artırmaq üçün bir-birini tamamlayıcı rol oynayır. Məsələn, steqanoqrafiya istifadə edərək məlumatlar gizlədildikdə, bu məlumatların şifrələnməsi də əlavə bir təhlükəsizlik qatını təmin edir. Beləliklə, bir informasiya steqanoqrafik üsul ilə gizlədildikdə, yalnız bu məlumatın varlığını bilməyən birinin onu aşkar etməsi çətinləşir. Eyni zamanda, məlumat şifrələndikdə, onun başqaları tərəfindən anlaşıla bilməsi daha da çətinləşir.[2]

İnteqrasiya Nümunələri

Müasir texnologiyalar, steqanoqrafiya və kriptologiyanın inteqrasiyasını asanlaşdırır. Məsələn, rəqəmsal imzalar və mühafizə sistemləri, hər iki sahənin prinsiplərini birləşdirir. Rəqəmsal imzalar, məlumatların dəyişdirilmədiyini təmin edərkən, steqanoqrafiya məlumatın gizli saxlanmasını təmin edir. Həmçinin, kiber təhlükəsizlik mühitində, steqanoqrafik metodların kriptoloji üsullarla birgə istifadəsi, sistemlərin müdafiəsini daha da gücləndirir.[1]

Tədqiqatlar və Gələcək Perspektivlər

Son dövrlərdə steqanoqrafiya və kriptologiya sahələrində bir çox tədqiqatlar aparılmışdır. Yeni yanaşmalar, süni intellekt və maşın öyrənməsi kimi texnologiyaların inteqrasiyası ilə daha effektiv və mükəmməl sistemlərin yaradılmasına imkan tanıyır. Gələcəkdə, bu sahələrin birgə inkişafı, məlumatların qorunmasında daha yeni və güclü metodların ortaya çıxmasına səbəb ola bilər.

Nəticə

Steqanoqrafiya və kriptologiya, müasir informasiyanın təhlükəsizliyi üçün vazgeçilmazdır. Bu iki sahənin birgə istifadəsi, məlumatların qorunmasında daha təsirli və etibarlı yanaşmalar təqdim edir. Gələcəkdə bu sahələrin daha da inkişaf edərək, kiber təhlükəsizliyin artırılmasına töhfə verəcəyinə inanılır.

Açar sözləri: kriptoqrafiya, steqanoqrafiya, şifr, gizli şəkil.

ƏDƏBIYYAT

1. Khalil Challita,Hikmat Farhat. International Journal on New Computer Architectures and Their Applications (IJNCAA) 1(1): 199-208. The Society of Digital Information and Wireless Communications, 2011. Combining Steganography and Cryptography: New Directions

2. Pria Bharti, Roopali Soni. International Journal of Computer Applications (0975 – 8887) Volume 58– No.18, November 2012.A New Approach of Data Hiding in Images using Cryptography and Steganography

СТЕГПНОГРАФИЯ И КРИПТОГРАФИЯ: СВЯЗИ И ИНТЕГРАЦИИ

Кянан Ровшан оглу Абдуллаев

kenan.abdulllayev98@gmail.com

Сакит Гамбай оглы Вердиев

Info_tel@inbox.ru

Азербайджанский Технологический Университет

В современную эпоху защита и безопасность данных имеют решающее значение в среде, где информация распространяется быстро. Стеганография и криптология — две основные области шифрования и защиты данных. Оба обеспечивают безопасность данных своими специфическими методами и подходами, но их интеграция позволяет добиться более эффективных результатов.

Ключевые слова: криптография, стеганография, шифр, скрытое изображение.

STEGANOGRAPHY AND CRYPTOGRAPHY: CONNECTION AND INTEGRATION

Kanan Rovshan Abdullayev
kenan.abdulllayev98@gmail.com
Sakit Qambay Verdiyev
info_tel@inbox.ru
Azerbaijan Technological University

In today's era, data protection and security are of critical importance in an environment where information spreads rapidly. Steganography and cryptology are the two main areas of data encryption and protection. Both ensure data security in their own specific methods and approaches, but their integration allows for more effective results.

Keywords: cryptography, steganography, cipher, hidden image.

BULUD TEXNOLOGİYALARININ ÜSTÜNLÜKLƏRİ VƏ İŞ PROSESLƏRİNİN OPTİMALLAŞDIRILMASI ÜÇÜN BULUD HƏLLƏRİ

Ayşən Əli qızı Aslanova
aysheneli14@gmail.com
Aysel Mahir qızı Vəliyeva
ayselvaliyeva.1822@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Son illərdə texnologiyanın sürətlə inkişaf etməsi və rəqəmsallaşmanın artması ilə bağlı olaraq bulud texnologiyası (cloud computing) həm fərdi istifadəçilər, həm də şirkətlər üçün geniş miqyasda populyarlaşmışdır. Ənənəvi İT infrastrukturuna alternativ olaraq, bulud texnologiyası məlumatların saxlanılması və emalı üçün daha cəld, səmərəli və iqtisadi həllər təklif edir. Bu texnologiyanın üstünlükləri müxtəlif sahələrdə iş proseslərini sadələşdirir. Bu isə rəqabət qabiliyyətini artırır. Bu məqalədə bulud texnologiyasının əsas üstünlüklərini nəzərdən keçirəcəyik.

Bulud texnologiyası (Cloud Computing) son illərdə sürətlə inkişaf edən və informasiya texnologiyaları sahəsində əsaslı dəyişikliklərə səbəb olan yeni baxış bucağıdır. Bu texnologiya, ənənəvi İT infrastrukturuna nisbətən daha qənaətcil və çevik həllər təklif edir, çünki istifadəçilər avadanlıq, proqram təminatı və saxlama imkanlarını fiziki olaraq idarə etməyə ehtiyac duymur.

Bulud xidmətləri fərqli sahələrdə geniş tətbiq olunur. Onlayn saxlama, uzaqdan iş imkanları, qlobal şəbəkələrdə məlumatların paylaşılması və hətta süni intellekt tətbiqləri üçün mühüm baza rolunu oynayır. Bu xidmətlərin avtomatik yenilənməsi və texniki dəstək imkanları istifadəçilərə daima ən son texnologiyalardan faydalanma şansı yaradır. Bu xüsusiyyətlərə görə bulud texnologiyası həm fərdi, həm də korporativ səviyyədə İT həlləri üçün yenilikçi, cəld və effektiv yanaşma kimi qəbul edilir.

Müasir bizneslər və fərdi istifadəçilər bulud texnologiyasının üstünlüklərindən geniş şəkildə faydalanırlar. Bu texnologiyanın aşağıdakı kimi üstünlükləri var[**Ошибка! Источник ссылки не найден.**].

1. **Maliyyə səmərəliliyi:** Bulud texnologiyaları, müəssisələrə infrastruktur, proqram təminatı və texniki xidmət xərclərini əhəmiyyətli dərəcədə azaltmağa şərait yaradır və yalnız istifadə etdikləri baza üçün ödəniş edirlər. SaaS (Software as a Service), PaaS (Platform as a Service) və IaaS (Infrastructure as a Service) kimi paylaşılan xidmətlər, daha aşağı qiymətlərlə yüksək keyfiyyətli həllər təqdim edir, buda model, resursların səmərəli paylaşılmasını təmin edərək xərcləri azaldır.
2. **Limitsiz Saxlama İmkanları**: Bulud tətbiqi, məlumatların saxlanması üçün geniş imkanlar təqdim edir. İstifadəçilər istədikləri zaman asanlıqla məlumatlardan istifadə edə bilərlər.

3. **Əlçatanlıq** :Bulud texnologiyaları, istifadəçilərə hər yerdən və istənilən vaxt internet olduğu halda məlumatlardan istifadə etməyə imkan verir.
4. **Təhlükəsizlik** :Bulud xidmətləri, müasir təhlükəsizlik tələblərinə cavab verərək məlumatların qorunmasını təmin edir. Bulud xidmətləri təqdim edən şirkətlər, məlumatların sızması və oğurlanmasına qarşı müxtəlif təhlükəsizlik tədbirləri həyata keçirir.
5. **Əməkdaşlıq və İnteqrasiya**: Bu xidmət ayrı-ayrı komanda üzvləri arasında real vaxtda əməkdaşlıq etməyə şərait yaradır ki, bu da layihələrin daha səmərəli və sürətli bir şəkildə yerinə yetirilməsinə köməklik edir.
6. **Avtomatik Yeniləmələr**: Bulud xidmətləri, proqram təminatının daimi olaraq yenilənməsini təmin edərək müəssisələri uzun müddət sistem yeniləmələri üçün gözləməkdən azad edir.
7. **İnnovasiya və Rəqabət Üstünlüyü**: Bulud texnologiyalardan stifadə müəssisələrə yeni xidmətlər və məhsullar təqdim etməyə şərait yaradır, bu da onları rəqabət mühitində daha güclü edir.

Bulud texnologiyası bizneslərin fəaliyyətini inqilabi şəkildə dəyişdirərək, effektivlik, maliyyə qənaəti və innovasiyanı təşviq edən geniş çeşidli üstünlüklər təklif edir. Maliyyə səmərəliliyi, təhlükəsizlik və əməkdaşlığın güclənməsinə qədər bulud texnologiyasının üstünlükləri geniş və əhəmiyyətlidir. Yeni yaranan bizneslərin minimal ilkin sərmayə ilə sürətlə genişlənməsi, uzaqdan işləyən komandaların problemsiz əməkdaşlıq etməsi və müəssisələrin fəlakətlər zamanı məlumat bərpasını təmin etməsi kimi real nümunələr bu texnologiyanın praktiki üstünlüklərini göstərir.

Açar sözlər: bulud texnologiyası, bulud xidmətləri, xərclərin azaldılması, məlumatların qorunması.

ƏDƏBİYYAT

1. Erl, T., Puttini, R., & Mahmood, Z. - Cloud Computing: Concepts, Technology & Architecture (2013).
2. Armbrust, M., Fox, A., Griffith, R., et al. - "A View of Cloud Computing" - Communications of the ACM, (2010).

ПРЕИМУЩЕСТВА ОБЛАЧНЫХ ТЕХНОЛОГИЙ И ОБЛАЧНЫЕ РЕШЕНИЯ ДЛЯ ОПТИМИЗАЦИИ БИЗНЕС-ПРОЦЕССОВ.

Айшен Али гызы Асланова
aysheneli14@gmail.com
Айсель Махир кызы Валиева
ayselvaliyeva.1822@gmail.com
Азербайджанский Технологический Университет

В последние годы в связи с быстрым развитием технологий и ростом цифровизации облачные вычисления стали широко популярны как среди отдельных пользователей, так и среди компаний. В качестве альтернативы традиционной ИТ-инфраструктуре облачные технологии предлагают более быстрые, эффективные и экономичные решения для хранения и обработки данных. Преимущества этой технологии упрощают рабочие процессы в различных сферах. Это повышает конкурентоспособность. В этой статье мы рассмотрим основные преимущества облачных технологий.

Ключевые слова: облачные технологии, облачные сервисы, снижение затрат, защита данных.

THE BENEFITS OF CLOUD TECHNOLOGIES AND CLOUD SOLUTIONS FOR OPTIMIZING BUSINESS PROCESSES.

Ayşen Ali gizi Aslanova
aysheneli14@gmail.com
Aysel Mahir gizi Valiyeva
ayselvaliyeva.1822@gmail.com
Azerbaijan Technological University

In recent years, due to the rapid development of technology and increasing digitalization, cloud computing has become widely popular among both individuals and companies. As an alternative to traditional IT infrastructure, cloud technologies offer faster, more efficient and cost-effective solutions for storing and processing data. The benefits of this technology simplify work processes in various fields. This increases competitiveness. In this article we will look at the main advantages of cloud technologies.

Key words: cloud technologies, cloud services, cost reduction, data protection.

İNTERNET ŞƏBƏKƏSİNİN AZƏRBAYCAN SEQMENTİNDƏ VEB SAYTLARIN OPTİMAL AXTARIŞ METODLARI

Nizaməddin Əhmədağa oğlu Əliyev
nizamaddin.aliyev@au.edu.az
Şölə Rafiq qızı Əsgərli
shola.mamiyeva@student.au.edu.az
Azərbaycan Universiteti

İnternet şəbəkəsi bütün dünyada insanları, məlumatları və xidmətləri birləşdirən mürəkkəb və dinamik sistemdir. Rəqəmsal əsrdə naviqasiya üçün onun komponentlərini və necə işlədiyini başa düşmək vacibdir. Texnologiya inkişaf etməyə davam etdikcə, şübhəsiz ki, internet gələcəyimizin formalaşmasında daha da əhəmiyyətli rol oynayacaqdır.

İnternet şəbəkəsi bütün dünyada insanları, məlumatları və xidmətləri birləşdirən mürəkkəb və dinamik sistemdir. Rəqəmsal əsrdə naviqasiya üçün onun komponentlərini və necə işlədiyini başa düşmək vacibdir. Texnologiya inkişaf etməyə davam etdikcə, şübhəsiz ki, internet gələcəyimizin formalaşmasında daha da əhəmiyyətli rol oynayacaqdır.İnternet şəbəkəsi bütün dünyada milyonlarla kompüter və cihazları birləşdirən, kommunikasiya, məlumat mübadiləsi və ticarəti təmin edən geniş və mürəkkəb sistemdir. Onun memarlığı bu qlobal şəbəkənin necə işlədiyini və gündəlik həyatımıza necə təsir etdiyini başa düşmək üçün əsasdır. İnternet şəbəkəsi məlumatların böyük məsafələrə ötürülməsini asanlaşdıran bir-birinə bağlı cihazlardan, serverlərdən, marşrutlaşdırıcılardan və məlumat mərkəzlərindən ibarətdir. O, standartlaşdırılmış protokollar, xüsusilə də məlumat paketlərinin bir cihazdan digərinə necə ötürülməsini tənzimləyən İnternet Protokolu (IP) üzərində işləyir. İnternet şəbəkəsi müasir həyatın demək olar ki, bütün sahələrini dəyişdirdi:

Ünsiyyət:Ani mesajlaşma, video zənglər və sosial media platformaları insanlara bütün dünyada əlaqə saxlamağa imkan verir.

Təhsil: Onlayn təlim platformaları və resursları bilik və bacarıqların inkişafına çıxışı təmin edir.

Biznes: Elektron ticarət və onlayn marketinq şirkətlərin fəaliyyətini yenidən formalaşdıraraq onlara daha geniş auditoriyaya çatmağa imkan verib.[2,3]

Axtarış motorları (ing. Search Engine Optimization (SEO)) Google, Yahoo və s. kimi axtarış sistemlərində veb-saytın görünürlüğünü artırmağa yönəlmiş rəqəmsal marketinqin mühüm aspektidir. Məzmunu və veb-sayt strukturunu optimallaşdırmaqla, müəssisələr

daha çox üzvi trafik cəlb edə bilər ki, bu da daha yüksək nişan və dönüşümlərə səbəb olur. Axtarış motorları veb səhifələri indeksləşdirən və onları uyğunluq və keyfiyyətə görə sıralayan alqoritmlər vasitəsilə fəaliyyət göstərir. İstifadəçilər sorğu daxil etdikdə, axtarış sistemi ən uyğun hesab etdiyi nəticələri qaytarır. Bu alqoritmlərin necə işlədiyini başa düşmək effektiv SEO üçün vacibdir. Azərbaycanda internetə nüfuzun artması və istehlakçı davranışının dəyişməsi nəticəsində internet saytlarının axtarışı inkişaf edir. Qarşıdan çıxması lazım olan çətinliklər olsa da, bizneslərin auditoriyası ilə onlayn əlaqə qurmaq imkanları böyükdür. Yerli SEO-ya, keyfiyyətli məzmuna və istifadəçi təcrübəsinə diqqət yetirməklə şirkətlər Azərbaycanın rəqəmsal landşaftında öz görünürlüklərini artıra və inkişaf edə bilərlər.

Azərbaycanda Sayt Axtarışının Vəziyyəti Son illər Azərbaycanda internetdən istifadə və rəqəmsal mövcudluq baxımından əhəmiyyətli artım müşahidə olunub. Müəssisələr və fərdlər onlayn mövcudluğun vacibliyini getdikcə daha çox dərk etdikcə, veb-saytların axtarışı inkişaf etdi. Bu məqalə tendensiyalar, problemlər və gələcək perspektivlərə diqqət yetirərək Azərbaycanda veb-sayt axtarışının cari mənzərəsini araşdırır. Azərbaycanlılar daha çox yerli axtarış sistemlərinə və veb-saytları tapmaq üçün platformalara üstünlük verirlər. Google qlobal miqyasda dominant axtarış sistemi olaraq qalmasına baxmayaraq, yerli alternativlər də cəlbedicilik qazanır. İstifadəçilər tez-tez elektron ticarət, xidmətlər və ya informasiya sahəsində Azərbaycanın ehtiyaclarına cavab verən veb-saytlar axtarırlar. Azərbaycandakı bizneslər üçün yerli axtarışın optimallaşdırılması çox vacibdir. Azərbaycan dilində açar sözlərdən istifadə, Google My Business siyahılarına iddia etmək və mobil uyğunluğu təmin etmək kimi yerli SEO təcrübələri görmə qabiliyyətini əhəmiyyətli dərəcədə artıra bilər. Yerli bazarı və istehlakçı davranışını anlayan şirkətlər onlayn trafiki cəlb etməkdə rəqabət üstünlüyünə malikdirlər.[1]

Açar sözlər :İnternet şəbəkəsi, axtarış sistemlərinin mahiyyəti, Azərbaycanda veb saytların axtarışı

ƏDƏBİYYAT

1. **Məmmədova, N.** "İnformasiya texnologiyaları və axtarış sistemləri: Azərbaycanın müasir reallıqları". Bakı: Elm və təhsil. (2020).
2. **Кузнецов, А.** "Поисковые системы: Технологии и тенденции развития". Москва: Издательство "Наука".(2020).
3. **Bar-Ilan, J.** "Web Search Engine Research: An Overview." Journal of Information Science, 47(2), **(2021).** 123-135.

ОПТИМАЛЬНЫЕ МЕТОДЫ ПОИСКА ВЕБ-САЙТОВ В АЗЕРБАЙДЖАНСКОМ СЕГМЕНТЕ ИНТЕРНЕТ-СЕТИ

Низамеддин Ахмадага оглы Алиев
nizamaddin.aliyev@au.edu.az
Шола Рафик кызы Аскерлы
shola.mamiyeva@student.au.edu.az
Азербайджанский Университет

В заключение можно сказать, что рынок поисковых систем в Азербайджане представляет собой сочетание глобальных гигантов и местных альтернатив. Появление местных поисковых систем и платформ позволяет удовлетворить специфические культурные и языковые потребности, улучшая доступность информации для азербайджанских пользователей. Кроме того, рост социальных медиа как источника информации влияет на способы, которыми люди ищут и потребляют контент. С увеличением проникновения интернета и использования смартфонов ожидается, что спрос на разнообразные и локализованные поисковые возможности будет расти. Эта динамичная обстановка открывает новые возможности для инноваций и развития, побуждая как местных, так и

международных игроков улучшать свои предложения для лучшего обслуживания азербайджанского населения. Будущее поисковых систем в Азербайджане обещает быть интересным, отражая уникальные характеристики и потребности пользователей.

Ключевые слова: сеть Интернет, природа поисковых систем, поиск веб-сайтов в Азербайджане.

OPTİMAL SERARCH METHODS FOR WEBSITES ON THE AZERBAIJAN SEGMENT OF THE INTERNET NETWORK

Nizamaddin Ahmadaga oglu Aliyev
nizamaddin.aliyev@au.edu.az
Shola Rafiq gizi Asgarli
shola.mamiyeva@student.au.edu.az
Azerbaijan University

In summary, the search engine landscape in Azerbaijan is characterized by a blend of global giants and local alternatives.Local search engines and platforms have emerged to meet specific cultural and linguistic needs, enhancing the accessibility of information relevant to Azerbaijani users. Additionally, the rise of social media as a means of information discovery further shapes the way individuals search for and consume content.As internet penetration and smartphone usage continue to grow, the demand for diverse and localized search capabilities will likely increase. This evolving landscape presents opportunities for innovation and development, encouraging both local and international players to enhance their offerings to better serve the Azerbaijani population. The future of search in Azerbaijan promises to be dynamic, reflecting the unique characteristics and needs of its users.

Keywords: Internet network, nature of search systems, search of websites in Azerbaijan

ROBOTOTEXNİKANIN NAİLİYYƏTLƏRİ VƏ AZƏRBAYCANDA ONUN BƏZİ TƏTBİQ SAHƏLƏRİ

Natella Əliyeva
natella.92a@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Robototexnika–elmin və texnologiyanın çox mühüm sahələrindən biri olmaqla insanın müdaxiləsini tələb edən məsələlərdə onu əvəz edən ağıllı maşınların yaradılmasını təmin edir. Süni intellektin tətbiqi robototexnikanln imkanlarını keyfiyyət baxımından xeyli artırmışdır.

Robototexnikanın əhəmiyyəti ölkə iqtisadiyyatının müxtəlif sahələrində görülən işlərin səmərəlilik və təhlükəsizlik nöqteyi nəzərindən keyfiyyətinin dəfələrlə artması ilə birbaşa bağlıdır. Tikinti sektoru, təbii fəlakətlərin nəticələrinin likvidasiyası insan həyatı üçün xüsusi riskli olduğundan bu sahələrdə robototexnikanın tətbiqi insan həyatını mümkün risklərdən mühafizə edir. Robototexnikadan xəsətələr üzərində aparılan əməliyyatlarda geniş istifadə olunur ki, bu da xəstəliklərin yüksək keyfiyyətlə müalicəsində mühüm rol oynayır. Robototexnikada suni intellektin tətbiqi ətraf mühitə daha yaxşı uyğunlaşan, müstəqil şəkildə bacarıqlara yiyələnmək qabiliyyətinə malik, mürəkkəb quruluşlu maşınların yaranmasına səbəb olur. Bunların sırasına həmçinin məişətdə insanın gündəlik qayğılarını əvəz edən maşınlar da aiddir. Digər tərəfdən bu cür maşınlar insanın imkanlarını artırmaqla insanın həyatını daha rəngarəng edir, yeni iş yerlərinin açılmasına səbəb olur.

2024-cü ildən başlayaraq robototexnika sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur. Bunlara misal olaraq qeyri reallıqla reallıq arasında fərqin arardan götürülməsinə dair yeni texnologiyaları misal göstərmək olar. Google kimi şirkətlər süni

intellektin fiziki mövcudluğunu təmin etmək sahəsində bir sıra nailiyyətlər əldə etmişlər ki, bunun tətbiqi nəticəsində insanın yerinə yetirdiyi işlərin səmərəliliyi xeyli artmış olur. Hesab olunur ki, ağıllı maşınların bacarıqlarının artması nəticəsində gələcəkdə onların yerinə yetirdiyi işlər insanla müqayisədə həm kəmiyyət, həm də keyfiyyət baxımından daha üstün olacaq. Bir sözlə ağıllı maşınların tətbiqi insan əməyini yüngülləşdirməklə onun daha çox yaradıcılıqla məşğul olmasına səbəb olacaqdır.

Qeyd etmək lazımdır ki, ağıllı maşınların insanın ehtiyaclarının ödənilməinə dair tədqiqatlar durmadan davam etdirilir. Zhanjing Zeng və başqaları [1] göstərirlər ki, COVİD 19 pandemiyası dövründə süni intellektin və ağıllı maşınların tətbiqi xəstəliyin yayılmasının qarşısını xeyli almışdır.

Süni intellekt və ağıllı maşınların ətraf mühit sensorları, idarəetmə sensorları, yeni materiallar və s. sahələrdə tətbiqinin uğurları bu sahələrdə əldə olunmuş elmi nailiyyətlərlə birbaşa bağlıdır [2].

Robototexnikanın nailiyyətlərinin tətbiq edildiyi mühüm sahələrdən biri də kənd təsərrüfatıdır[3]. Robotların kənd təsərrüfatında istifadə imkanlarına dair tədqiqatlar aparmışlar. Alimlər öz tədqiqatlarında robotlardan istifadənin səmərəliliyini artırmaq məqsədilə kənd təsərrüfatına dair əməliyyatların yerinə yetirilməsi prosesində adekvat lokalizasiya və tanınma ilə əlaqədar əlavə sensorlardan istifadə etməklə yanaşı kənd təsərrüfat maşınlarının marşrutlarının planlaşdırılması alqoritmlərini də işləmişlər. Azərbaycanda da süni intellekt və robototexnikanın nailiyyətlərinin tətbiqinə dair mühüm işlər yerinə yetirilmiş, elmi tədqiqatlar aparılmışdır [4]. Bununla əlaqədar neftqas sahəsində robototexnikanın və avtomatlaşdırmanın tətbiqinə xüsusi diqqət yetirilir [5]. Son illər isə ölkədə ümumi vahid məhdudiyyətli, aşağı sinif robot manipulyatorların struktur sintezinə dair mühüm tədqiqatlar aparılmışdır [6].

Beləliklə, Azərbaycanda iqtisadiyyatın kənd təsərrüfatı, səhiyyə, neftqaz və s. kimi sahələrində robototexnikanın nailiyyətlərindən geniş istifadə olunur.

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, həm dünya miqyasında, həm Azərbaycanda robototexnikanın nailiyyətlərinin tətbiqi iqtisadiyyatın səmərəliliyinin artmasına səbəb olmaqla həmçinin təhlükəsizliyə təminat verir, ölkədə həyatı daha rəngarəng edir ki, bu da gələcək üçün yeni çağırışlar və imkanlar açır.

ƏDƏBİYYAT

1.Zhanjing Zeng, Po-juChen, & Alan A. Lew. From high-touch to high-tech: COVID-19 drives robotics adoption, Tourism geographies, 2020, p724-734.

2.Guang-Zhong Yang and Marcia Mcnutt, Robotics takes off. Science, 2016, vol. 352, No.6291, p.1255

3.Avital Bechar, Clément Vigneault, Agricultural robots for field operations: Concepts and components. Biosystems Engineering, Vol. 149, 2016, p.94-111.

4.Kifayat Mammadova and Aytan Aliyeva, Intelligent Control System of Multi-motion Mobile Robot. Proceedings of Azerbaijan High Technical Educational Institutions Journal, Forthcoming 2023, 11p.

5.Bahadur Ibrahimov and Manafaddin Namazov, Robotics in petroleum and safety requirements forcing Open Innovation to be embraced.IFAC-PapersOnLine, 2018,vol. 51, Issue 30, p.688-692.

6.Rasim Alizade, Suleyman Soltanov, Abusalat Hamidov, Structural Synthesis of Lower-Class Robot Manipulators with General Constraint One, Robotics, 2021. 10, 14, 19p.

ЗНАЧЕНИЯ И НЕКОТОРЫЕ ОБЛАСТИ ПРИМЕНЕНИЯ ДОСТИЖЕНИЯ РОБОТОТЕХНИКИ В АЗЕРБАЙДЖАНЕ

Нателла Алиева
natella.92a@gmail.com
Азербайджанский Технологический Университет

Современные достижения в области робототехники направлены не только на замену человеческого труда; они также направлены на расширение возможностей человека, что приводит к появлению новых рабочих мест и повышению качества жизни. В статье кратко изложены последние достижения науки и техники в области робототехники как в мировом масштабе так и в условиях Азербайджана. Человекоподобные роботы, автономные транспортные средства, беспилотные летательные аппараты и другие интеллектуальные роботы используются в таких отраслях экономики как сельское хозяйство, медицина, нефтегазовый сектор и сельское хозяйство и т.д.

Ключевые слова: робототехника, искусственный интеллект, автоматизация, датчики управления, датчики окружающей среды

THE VALUES AND SOME AREAS OF APPLICATION OF THE ACHIEVEMENTS OF ROBOTICS IN AZERBAIJAN

Natella Aliyeva
natella.92a@gmail.com
Azerbaijan Technological University

Modern advances in robotics are not only aimed at replacing human labor; they are also aimed at expanding human capabilities, which leads to new jobs and an improved quality of life.The article summarizes the latest achievements of science and technology in the field of robotics both in the global scale and in the conditions of Azerbaijan. Humanoid robots, autonomous vehicles, unmanned aerial vehicles and other intelligent robots are used in such sectors of the economy as agriculture, medicine, the oil and gas sector and agriculture, etc.

Keywords: robotics, artificial intelligence, automation, control sensors, environmental sensors

YAŞIL DÜNYA ÜÇÜN İNFORMASİYA TEXNOLOGİYASININ ROLU

Səbuhi Vaqif oğlu Quliyev
sebuhivaqif1998@gmail.com
ADPU-nun Agcabədi filialı

Bu günümüzdə qarşılaşdığımız ən böyük problemlərdən biri iqlim dəyişikliyidir. Artan globallaşma, sənayeləşmə və əhali artımı kimi amillər, atmosferə karbon qazı və digər istixana qazlarının yayılmasına səbəb olmaqla iqlim sistemini dəyişdirmişdir. Bu dəyişikliklər nəticəsində, qlobal temperaturun artması, dəniz səviyyəsinin yüksəlməsi, hava şəraitinin qeyri-sabitləşməsi və biomüxtəlifliyin azalması kimi ciddi təsirlər ortaya çıxır.

İqlim dəyişikliyi ilə mübarizənin effektiv yanaşmalarından biri, yeni texnologiyaların inkşafıdır. Son illərdə ətraf mühitin qorunması, enerjidən səmərəli istifadə və alternativ enerji mənbələrinin inkişafı sahəsində müxtəlif innovasiyalar yaranmışdır. Bu texnologiyalar, yalnız ekoloji yükü azaltmaqla kifayətlənməyib, eyni zamanda sosial və iqtisadi inkişaf üçün də yeni imkanlar təqdim edir.

Bu məqalədə, iqlim dəyişikliyi ilə mübarizədə texnologiyanın rolu, xüsusilə də yenilənə bilən enerji mənbələri, enerji effektivliyi, karbon tutma və saxlama texnologiyaları, həmçinin ağıllı şəhər konsepsiyaları üzərində dayanılacaq. Uğurlu bir gələcək üçün bu texnologiyaların inteqrasiyası, daha yaşıl və davamlı bir dünya üçün vacibdir. Beləliklə, iqlim dəyişikliyinin qarşısının alınmasında texnologiyanın rolunu anlamaq, qlobal miqyasda dayanıqlı inkişafın təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.[1]

1. Enerji Səmərəliliyi

İnformasiya texnologiyaları, enerjidən istifadəni optimallaşdıraraq, enerji səmərəliliyini artırmağa kömək edir. Məsələn, ağıllı enerji idarəetmə sistemləri, evlərdə və müəssisələrdə enerji istehlakını real vaxtda izləməyə imkan təqdim edir. Bu sistemlər, istifadəçilərə enerji xərclərini azalmağa kömək edir.

2. Uzaqdan İş və İstifadəçi İnterfeysi

COVID-19 pandemiyası ilə birlikdə, uzaqdan iş modeli dünya miqyasında yayılmağa başladı. Bu, nəqliyyatın azalması və karbondioksid emissiyalarının azalması ilə nəticələnir. Eyni zamanda, onlayn təhsil platformaları və virtual görüşlər, insanları fiziki toplantılar təşkil etməkdən xilas edir, bu da ekoloji fayda təmin edir.

3. İqlim Dəyişikliyi və Məlumat Analizi

Məlumat analizi və böyük verilər (big data) texnologiyaları, iqlim dəyişikliyi ilə bağlı proqnozların dəqiqliyini artırır. Şirkətlər və tədqiqatçılar, iqlim dəyişikliklərini izləmək və buna uyğun strategiyalar inkişaf etdirmək üçün bu texnologiyalardan istifadə edirlər. Məsələn, kənd təsərrüfatında hava şəraiti proqnozları, məhsuldarlığı artırmağa və resursların israfını azaltmağa kömək edə bilər.[2]

4. Eko-İnovasiyalar

İnformasiya texnologiyaları, yaşıl innovasiyaların formalaşmasına təkan verir. İstehsal proseslərinin digitalizasiyası, tullantıların azaldılması üçün yeni yollar təqdim edir. Məsələn, 3D çap texnologiyaları, məhsul istehsalını zəruri olan materiallarla minimuma endirərək, tullantıları azaldır.

5. Ağıllı Şəhərlər

İnformasiya texnologiyaları, ağıllı şəhər konsepsiyalarının inkişafında da mühüm rol oynayır. Ağıllı nəqliyyat sistemləri, tıxacları azaltmağa, hava keyfiyyətini yaxşılaşdırmağa və enerji istehlakını azaltmağa kömək edir. Məsələn, sensorlar və analitik sistemlər, nəqliyyatın axınını izləmək və optimallaşdırmaq üçün istifadə olunur.

İqlim dəyişikliyinin təsirlərini azaltmaq və buna nəzarət etmək üçün informasiya texnologiyaları (IT) müxtəlif sahələrdə istifadə edilir. Bu texnologiyalar bütün dünyada karbon emissiyalarını azaltmağa, məlumatları toplamağa, analiz etməyə və strategiyalar hazırlamağa kömək edir. Aşağıda iqlim dəyişikliyinə nəzarət üçün istifadə olunan bəzi IT tətbiqləri qeyd olunur:

1. Məlumat Toplama və Analiz: Sensorlar, dronlar və peyk sistemləri iqlim dəyişikliyi ilə bağlı məlumatların toplanmasında mühüm rol oynayır. Bu vasitələr temperatursuzluq, yağış, hava keyfiyyəti və digər iqlim göstəriciləri haqqında dəqiq məlumatlar verir.

2. Bölgələr arası Monitorinq: Yer üzərindəki dəyişiklikləri izləmək üçün GIS (Coğrafi İnformasiya Sistemləri) və uzaqdan monitoring sistemləri istifadə edilir. Bu sistemlər, meşələrin, su resurslarının və əkin sahələrinin monitorinqini asanlaşdırır.

3. Simulyasiya və Proqnozlaşdırma:İqlim modelləri və simulyasiya proqramları, müxtəlif ssenarilərdə iqlim dəyişikliklərinin nəticələrini proqnozlaşdırmağa kömək edir. Bu, siyasətçilərin və planlaşdırıcıların müvafiq tədbirlər görməsi üçün məlumat verir.

4. Data Analizi və Ağıllı Algoritmlər:Verilənlərin analizi üçün süni intellekt və maşın öyrənmə texnologiyaları istifadə olunur. Bu metodlar, iqlim dəyişikliyinin səbəblərini anlamağa və daha təsirli həll yolları tapmağa kömək edə bilər.

5. Enerji İdarəetmə Sistemləri: İnformasiya texnologiyaları, enerji istehsalını və istehlakını daha səmərəli idarə etməyə imkan tanıyır. Ağıllı ev və ağıllı şəhər sistemləri, enerji istehlakını azaldaraq təbii resursların qorunmasına yardım edir.

6. İctimai Şüur və Təhsil: İnformasiya texnologiyaları vasitəsilə ictimaiyyətə iqlim dəyişikliyi ilə bağlı məlumat və resursların çatdırılması mümkündür. Sosial media, veb saytlar və mobil tətbiqlər bu məqsədlər üçün istifadə olunur.

7. Maliyyə və İqtisadiyyat: İqlim dəyişikliyi ilə mübarizə üçün investisiya və maliyyə modelləri yaradan proqramlar, müvafiq sahələrə kapital cəmləşdirmək baxımından əhəmiyyətlidir.

Bu yollarla, informasiya texnologiyaları iqlim dəyişikliyi ilə mübarizədə vacib bir rol oynayır, həm də insanların bu problemi anlamağa və strategiyalar hazırlamağa kömək edir.

İnformasiya texnologiyalarının yaşıl dünyaya keçid üçün rolu danılmazdır. Enerji səmərəliliyinin artırılması, uzaqdan iş modellərinin yayılması, iqlim dəyişikliyi ilə mübarizədə məlumat analitikası, eko-innovasiyalar və ağıllı şəhər tətbiqləri, ekoloji izləri azaltmaq və dayanıqlı inkişafı təşviq etmək üçün əhəmiyyətli imkanlar təqdim edir. Gələcəkdə bu texnologiyaların daha geniş şəkildə istifadəsi, daha yaşıl bir planet üçün ümidverici bir perspektiv yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Kitabxanası, Yaşıl dünya naminə məqalələr toplusu
2. https://ebooks.lpude.in/library_and_info_sciences/MLIS/year_1/DLIS408_INFORMATION_TECHNOLOGY-APPLICATIONS.pdf

РОЛЬ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ ДЛЯ ЗЕЛЕНОГО МИРА.

Сабухи Вагиф оглы Гулиев
sebuhivaqif1998@gmail.com
Агджабединский филиал АДПУ

В эпоху быстрого развития информации информационные технологии (ИТ) играют важную роль в решении экологических проблем. Перед лицом таких проблем, как глобальное потепление, изменение климата и истощение природных ресурсов, ИТ-инновации могут ускорить переход к более экологичному и устойчивому миру.

Ключевые слова: Зеленый мир, умный город, информационные технологии, умная энергетика

THE ROLE OF INFORMATION TECHNOLOGIES FOR A GREEN WORLD.

Sabuhi Vagif oglu Guliyev
sebuhivaqif1998@gmail.com
ADPU Agjabadi branch

In this era of rapid information development, information technology (IT) plays an important role in solving environmental problems. In the face of challenges such as global warming, climate change, and depletion of natural resources, IT innovations can accelerate the transition to a greener and more sustainable world.

Keywords: Green world, smart city, information technologies, smart energy

İNFORMASIYA TEXNOLOGIYALARI VƏ SÜNİ İNTELLEKT

Səbuhi Vaqif oğlu Quliyev
sebuhivaqif1998@gmail.com
ADPU-nun Agcabədi filialı

Süni intellekt, proqramların və sistemlərin insanların zəka qabiliyyətlərini təqlid etməsinə imkan verən bir texnologiyadır. Bu sahə aşağıdakı bölmələrə ayrılır:

1. Maşın öyrənməsi: Kompüterlərin verilənləri analiz edərək və təcrübəyə əsaslanaraq öyrənməsi.
2. Dərin öyrənmə: Neyron şəbəkələrinin istifadə edildiyi bir alt sahədir. Görüntü tanıma, səs tanıma kimi tətbiqlərdə geniş istifadə olunur.
3. Təbii dilin işlənməsi: İnsan dilini anlamaq və istifadə etmək bacarıqları. Məsələn, chatbotlar və səsli köməkçilər.
4. Robototexnika: Avtomatlaşdırılmış sistemlərin, robotların yaradılması və idarə olunması.

İnformasiya texnologiyaları, məlumatların toplanması, saxlanması, işlənməsi və paylaşılması üçün istifadə olunan avadanlıqlar, proqramlar və proseslərdir. İT infrastrukturu Sİ-nin tətbiqi üçün əsas mühitdir. Məlumat bazaları, bulud hesablamaları və şəbəkə texnologiyaları Sİ-nin səmərəli işləməsi üçün zəruridir.[1]

Bu sahə aşağıdakıları əhatə edir:

1. Kompüter sistemləri: Hardware (avadanlıq) və Software (proqram təminatı) daxil olmaqla.
2. Məlumat bazaları: Verilənlərin saxlanması və idarə edilməsi üçün sistemlər.
3. Şəbəkə texnologiyaları: İnternet və digər şəbəkələrin qurulması və idarə olunması.
4. Kiber təhlükəsizlik: Məlumatların qorunması və sistemlərin təhlükəsizliyinin təmin edilməsi.

Süni İntellektin Tətbiq Sahələri

1. Səhiyyə:Sİ, xəstəliklərin diaqnostikası, müalicə planlarının hazırlanması və xəstə məlumatlarının analizi üçün istifadə olunur. Məsələn, görüntü analizində Sİ sistemləri tibbi şəkilləri daha sürətli və dəqiq qiymətləndirir.
2. Maliyyə:Bankların risk analizində, müştəri davranışının proqnozlaşdırılmasında və fırıldaqçılıq aşkarlanmasında Sİ-nin rolu önəmlidir. Maşın öyrənmə alqoritmləri, maliyyə məlumatlarını analiz edərək daha dəqiq qərarların qəbuluna imkan tanıyır.
3. Ticarət: Müştəri xidməti sahəsində Sİ chatbot-lar vasitəsilə müştəri sorğularına cavab verir. E-ticarət platformaları müştəri seçimlərini analiz edərək fərdi təkliflər təqdim edir.
4. Nəqliyyat:Öz-özünə idarə olunan avtomobillər, marşrut planlaşdırma sistemləri və trafikin idarə olunmasında Sİ-nin təsiri böyüyür. Bu sahələrdə Sİ, təhlükəsizliyi artırmaq və resurslardan səmərəli istifadə etməkdə kömək edir.

Süni intellekt informasiya texnologiyalarının inkişafı ilə sıx bağlıdır. İT sahəsindəki irəliləyişlər (məsələn, daha güclü prosessorlar, geniş məlumat bazaları) Sİ-nin inkişafını sürətləndirir. Eyni zamanda, Sİ-nin tətbiqi İT sahəsində yeni imkanlar açır, məsələn, daha ağıllı proqramların yaradılması, avtomatlaşdırma, məlumat analizi və s. Bu iki sahənin birləşməsi, müxtəlif sahələrdə — səhiyyə, maliyyə, istehsal, ticarət və gündəlik həyatda geniş tətbiqlərə yol açır. Məsələn, tibbi diaqnostikatlarda Sİ sistemləri, müştəri xidmətlərində chatbotlar, istehsalatda robotlar və s. istifadə olunur.[2]

Gələcəkdə Sİ və İT-nin daha da inkişaf edərək həyatımızın daha çox sahələrini əhatə edəcəyini gözləmək olar. Bu sahələrdəki inkişafa uyğun olaraq, etik məsələlər, kiber təhlükəsizlik riskləri və sosial təsirlər haqqında düşünmək də vacibdir.[3]

Süni intellektin tətbiqi bir sıra çətinliklər və etik problemlərlə üzləşir. Məlumatların qorunması, şəffaflıq, ədalətlilik və diskriminasiya qarşısında Sİ sistemlərinin ədalətli olması

müzakirə olunur. Həmçinin, iş yerlərinin avtomatlaşdırılması səbəbindən işsizlik riski də narahatlıq doğurur.

Süni intellekt və informasiya texnologiyaları birgə fəaliyyət edərək müasir dünyanın inkişafını sürətləndirir. Onların tətbiq olunduğu sahələr genişlənməkdədir, lakin etik və sosial problemlərin çözülməsi də vacibdir. Gələcəkdə Sİ-nin daha da inteqrasiya olunduğu bir dünyada yaşayacağımızdan, bu məsələlərə diqqət yetirmək hər kəs üçün önəmli olacaq. Süni intellekt (Sİ) və informasiya texnologiyaları (İT) müasir cəmiyyətin inkişafında mühüm rol oynayan iki sahədir. Bu iki sahə arasında qarşılıqlı əlaqələr geniş vüsət almışdır.

Açar sözlər: süni intellekt, informasiya texnologiyaları, avtomatlaşdırma,

ƏDƏBİYYAT

1. “İntellektual Sistemlər Və Texnologiyalar”, Bakı 2016, “MSV NƏŞR“ nəşriyyatı, Dərs vəsaiti, şəkilli, 256 səhifə.
2. Yildiz O., Bal A., Gulsecen S. “Improved Fuzzy Modelling to Predict the Academic Performance of Distance Education Students”, J. The International Review of Research in Open and Distributed Learning
3. Kərimov S.Q., Habibullayev S.B., İbrahimzadə T.İ. “İnformatika”. Dərslik. S.Q.Kərimovun redaktorluğu ilə. - Bakı, 2011. - 434s

ИНФОРМАЦИОННЫЕ ТЕХНОЛОГИИ И ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ

Сабухи Вагиф оглы Гулиев
sebuhivaqif1998@gmail.com
Агджабединский филиал АДПУ

Искусственный интеллект (ИИ) и информационные технологии (ИТ) играют важную роль в развитии современного общества. Они дополняют друг друга и приводят к революционным изменениям в нашей повседневной жизни и деловом мире. В этой статье мы обсудим взаимосвязь между SI и ИТ, области их применения и проблемы, с которыми они сталкиваются.

Ключевые слова: искусственный интеллект, информационные технологии, автоматизация,

INFORMATION TECHNOLOGIES AND ARTIFICIAL INTELLIGENCE

Sabuhi Vagif oglu Guliyev
sebuhivaqif1998@gmail.com
ADPU Agjabadi branch

Artificial intelligence (AI) and information technology (IT) play an important role in the development of modern society. They complement each other and lead to revolutionary changes in our daily life and business world. In this article, we will discuss the relationship between SI and IT, its application areas and the challenges it faces.

Keywords: artificial intelligence, information technology, automation.

III BÖLMƏ. TEKSTİL VƏ YÜNGÜL SƏNAYE

QADIN TRİKOTAJ MƏMULATLARININ BƏDƏNDƏN ÇIXARILARKƏN ALDIĞI DEFORMASİYALARIN XÜSUSİYYƏTLƏRİ

Cahangir Əhməd oğlu Hacıyev
j.hajioglu@rambler.ru
Aysun Əfqan qızı Məmmədova
aysunmemmedova1808@gmail.com
Cavahir İsmayıl qızı Mustafayeva
cmustafaeva25@gmail.com
Səbinə Məmməd qızı Musayeva
sabina.mus77@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Trikotaj məmulatları əsasən alt, üst, corab və əlcək məmulatları olmaqla bir-birindən fərqlənirlər. Onları əsasən ayaqdan geyinilən, başdan geyinilən və qoldan geyinilən olaraq da təsnif etmək olar. Bunlardan başqa əlcək məmulatları ələ geyinilir, papaqlar isə başa qoyulur, şarflar da boyuna sarılır.

Geyimlər öz istismar şəraitinə görə rahat olmalı, insanın hərəkətlərini məhdudlaşdırmamalı, sanitariya-gigiyena və estetik tələblərə cavab verməlidir. Geyimlərin növləri və çeşidləri həddindən artıq müxtəlifdir.

Ayaqdan geyinilən məmulatlara aiddir: qadın və qız uşaqları üçün ətək (bunlar başdan da geyinilə bilər), kalqotka; kişi, qadın və uşaq üçün şalvar, reytuz, gödək şalvar (şortlar) və s.

Başdan geyinilən məmulatlara aiddir: qadın və uşaq donu, qadın və qız uşaqları üçün ətək (bunlar ayaqdan da geyinilə bilər), sarafan, köynəklər (kofta, boğazlı və boğazsız), cemper (qısa və uzun buğazlı (sviter)), pulover (boğazı V-vari və qollu), jilet (boğazı V-vari, aşağısı bağlı və qolsuz) və s.

Qoldan geyinilən məmulatlara aiddir: jaket, jilet (qabağı sonuna qədər kəsik (düyməli və ya düyməsiz) və qolsuz), köynək (qabağı düymələnən), palto, kostyum, pencək, gödəkçə və s.

Qadınlarda başdan geyinilən məmulatların çıxarılması zamanı məmulatın daha çox deformasiyaya uğrayan hissələrini və deformasiyanın xarakterini ayrı-ayrılıqda araşdıraq. Araşdırmalarımız üçün seçilən trikotaj məmulatlarının bədənə kip oturan və bədənə sərbəst (boş) oturan çeşidləri nəzərə alınmışdır. Onlardan istifadə edənlərin yaşları müxtəlif olmuşdur.

a) b) c) d)

Şəkil 1. 4–9 yaşlı qızların trikotaj köynəyini baş tərəfdən çıxartmalarının görünüşü

Bu işlə bağlı apardığımız müşahidələrdən görünür ki, 4 yaşlı qız uşağı köynəyi (koftanı) boğaz hissəsinin ön tərəfindən iki əli ilə tutaraq arxaya tərəf çıxarır (şəkil 1, a, b), daha sonra isə arxa tərəfdən qolları dartaraq çıxarır. Bu zaman koftanın həm boğaz hissəsində, həm də qollarında deformasiya müşahidə olunur.

9 yaşlı qız uşağında bu hal fərqlənir. O, məmulatı boyun hissəsinin iki kənarından tutaraq birbaşa çıxarır (şəkil 1, c, d). Bu halda trikotajın dartılması zamanı aldığı deformasiya barmağın təsiri ilə onun toxunduğu yerlərdə baş verir. Baş barmaqların və digər barmaqların köynəyin boyun-boğaz nahiyəsində toxunma sahəsi çiyinin tikiş xəttinə düşür. Çiyinlərin tikiş xəttinin dartılma nəticəsində ölçüsünü dəyişməsi, trikotaj məmulatını təşkil edən materialın dartılma zamanı aldığı deformasiyadan qat-qat azdır. Bunun səbəbi tikiş xəttinin və trikotaj materialının quruluşunun fərqli olmasıdır. Çiyinlər tikilərkən oraya xüsusi ensiz şərid (tesma) qoyulur. Tesma quruluşca parça materialıdır. Bilindiyi kimi parça trikotaj materialla müqayisədə demək olar ki, deformasiyaya uğramır (sapların uzanmaması şərtində). Bu halda əsa deformasiya trikotaj materialının çiyinə yaxın olan hissəsində baş verir. Məmulatın boyun hissəsinin də azca genişləndirilməsi ilə onun çiyin hissəsindən tutulub dartılması yetərlidir ki, köynək bədəndən çıxarılması mümkün olsun. Məmulatın bu qaydada baş hissədən çıxarılması qəbul olunan sayıla bilər.

a) b)

Şəkil 2. 17–19 yaşlı qızların trikotaj köynəyinin baş tərəfdən çıxartmalarının görünüşü

Şəkil 2, a və b-də göründüyü kimi 17–19 yaşlı qızlar köynəyi (koftanı) çıxartmaq üçün əlləri ilə çarpaz şəkildə köynəyin aşağı kənarından tuturlar və yuxarıya doğru dartırlar. Bu halda köynəyin birbaşa çıxarılması mümkün olur. Bu qayda ilə qadın maykasını da, gecə köynəyini də və s. çıxarmaq asandır. Bu üsul məmulatın ilkin keyfiyyətini uzun müddət qorumağa xidmət edir. Qeyd edək ki, oğlanlar da (kişilər də) bu üsuldan istifadə etməklə, istismar etdikləri məmulatların istimar müddətini artıra bilərlər. Bu yolla yeni məmulat almaq müddəti gecikdirilmiş olar və insanların şəxsi büdcəsindən səmərəli istifadə edilməsi imkanı artar.

Başqa bir 17 yaşlı qızda aparılan müşahidə də onun koftanın ilk öncə qollarını dartaraq çıxartdığı daha sonra isə baş hissəsini çıxartdığı müşahidə olunur. 19 yaşlı qızın isə ilk öncə koftanı yarıya qədər yuxarı qaldırdığı daha sonra şəkil 2, a və b-də olduğu kimi ətək hissədən çarpaz tutaraq çıxardığı müşahidə olunur. 39 yaşlı qadında aparılan müşahidə də bu halla eynidir.

Məmulatın başdan çıxarılması, qadınlarda kişilərə nisbətən fərqli şərtlərdə icra olunur. Qadınlar üzlərindəki kosmetik vasitələri məmulata bulaşdırmamaq üçün onu yarıya qədər yuxarı qaldırmalı, daha sonra boğaz hissəsinin önündən tutub dartaraq baş hissəsini çıxarmalı, sonra da digər hallardakı kimi ətək hissədən çarpaz tutaraq çıxartmalıdır. Kosmetik vasitələrdən istifadə etməyən qızlar və xanımlar əlləri ilə məmulatın ətəyindən çarpaz şəkildə tutaraq yuxarıya doğru çəkib başlarından çıxara bilərlər.

Açar sözlər: qadın, trikotaj, məmulat, çıxarma, baş

ОСОБЕННОСТИ ДЕФОРМАЦИЙ ЖЕНСКИХ ТРИКОТАЖНЫХ ИЗДЕЛИЙ ПРИ СНЯТИИ С ТЕЛА

Джахангир Ахмед оглу Гаджиев
j.hajioglu@rambler.ru,
Айсун Афган гызы Мамедова
aysunmemmedova1808@gmail.com,
Джавахир Исмаил гызы Мустафаева
cmustafaeva25@gmail.com,
Сабина Мамед гызы Мусаева
sabina.mus77@gmail.com
Азербайджанский Технологический Университет

В данной работе изучено особенности деформации женских трикотажных изделий при снятии с тела. Получено, что каждый носитель изделия снимает одежду по своему. При этом установлено, что, например, правила снятия изделий верхнего и бельевого трикотажа, например, джемперов, свитеров, маек, ночных сорочек и т.д.

Ключевые слова: женский, трикотаж, изделие, снятие, голова

FEATURES OF DEFORMATION OF WOMEN'S KNITTED GOODS WHEN REMOVED FROM THE BODY

Jahangir Ahmed oglu Hajiyev
j.hajioglu@rambler.ru
Aysun Afghan gizi Mammadova
aysunmemmedova1808@gmail.com,
Javakhir Ismayil gizi Mustafayeva
cmustafaeva25@gmail.com,
Sabina Mammad gizi Musayeva
sabina.mus77@gmail.com
Azerbaijan Technological University

In this work, the features of deformation of women's knitwear when removed from the body are studied. It turns out that each wearer of the product takes off his clothes in his own way. It has been established that, for example, the rules for removing outerwear and underwear, such as jumpers, sweaters, T-shirts, nightgowns, etc.

Keywords: women, knitwear, product, removal, head

XALQ BOYAMA ÜSULLARINA MÜASİR ELMİ YANAŞMA

İmran Qasım oğlu Qasımov
Vüsalə Mübariz Abbasova
Elnarə Əkbər İsayeva
Lətifə İsgəndər Atakişiyeva
abbassovavusale030@gmail.com
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Gəncə)

Xalqımızın mədəni sərvətlərindən biri də boyaqçılıq sənətidir. Elm və mədəniyyətin inkişaf etməsi ilə əlaqədar olaraq insanlar müxtəlif kətan və parça nümunələrinin hazırlanması, alınmış məmulatların müxtəlif rənglərə boyanmasında təbii boyaq bitkilərindən istifadə etmişlər.

Boyaqçılıq sənəti Azərbaycanda çox qədim bir tarixə maliki olub xalçaçılığın inkişafında əsas amillərdəndir. Xalq boyama üsullarına əsaslanaraq boyadılmış toxuculuq məmulatları hec bir vaxt rəngini dəyişmir, solmur və insan sağlamlığına mənfi təsiri yoxdur. Əsasən xalq boyama üsulu bir-birilə bağlı olan üç mürəkkəb texnoloji prosesin birləşməsindən ibarətdir.

1. Boyama prosesinə hazırlıq birinci olaraq boyadılacaq xammalın yunun tədarük olunması, mexaniki qatışıqlardan təmizlənməsi.

2. Boya bitkilərinin toplanması, boya məhlulunun hazırlanması, boyanacaq ipin aşqarlanması.
3. Son mərhələdə boyama prosesi və boyağın möhkəmləndirilməsi aparılır.

Lifli materiallar boyaqla həm fiziki, həm də kimyəvi əlaqədə olur. Belə demək olar ki, liflə boyaq bir-birilə fiziki və kimyəvi qarşılıqlı qüvvələri ilə tutulur. Bu isə materialın növü və boyağın hansı bitkidən və necə alınmasından asılı olur [2].

Cənab Prezidentimizin 2024-cü ili "Yaşıl Dünya Naminə Həmrəylik ili" elan etməsi ilə əlaqədar olaraq ekologiyanın və insan sağlamlığının qorunmasını nəzərə alaraq təbii boyağın alınması, həm ekoloji problemlərin həll edilməsinə, həm də yüngül sənayedə keyfiyyətli, heç zaman rəngini dəyişməyən materialların əldə olunmasına xidmət edir.

Boyaqçılıqda geniş sürətdə istifadəsi mümkün olan bitkilərdən qoz, nar, murdarça, boyaqotu, tut, yabanı zəfəran, indiqo, adi birgöz, kəndəlaş, üzüm cecəsi, soğan qabığı, yemişan, heyva, sürvə, mahmız çiçəyi, yovşan və s. alınan təbii boya ilə müxtəlif liflərin boyadılması öyrənilmiş və tədqiq olunmuşdur.

Təbii liflər heyvan, bitki və mineral mənşəli olurlar. Bu liflərə təbii yun, ipək, pambıq, kənaf, kətan aid edilir. Bütün bu liflərin əsasını sellüloza adlanan yüksək molekullu maddə təşkil edir. Pambıq lifin tərkibində 98%-ə qədər sellüloza vardır. Təmizlənmiş pambıq sellülozanın ən saf nümunəsidir. Boyama ilə bağlı hər hansı məsələni həll edərkən boyaq və lifli materialın fiziki və kimyəvi xüsusiyyətlərini, boyamanın kinetik prosesini, boyağın lifli materiala adsorbsiyasını bilmək lazımdır. Boyama prosesini əsasən aşağıdakı dörd faza ilə əlaqələndirmək olar:

1. Boyaq hissəciklərinin lifli material istiqamətində diffuziyası.
2. Boyağın lifin xarici səthi ilə adsorbsiyası.
3. Boyağın lifli materialın daxili səthinə diffuziyası.
4. Lifli materiallar boyaqla həm fiziki, həm də kimyəvi əlaqədə olur.

Belə demək olar ki, lif ilə boyaq bir-birilə fiziki və kimyəvi qarşılıqlı qüvvələri ilə tutulur. Boyama prosesində zülal tərkibli molekullar, amin turşular, hidrogen rabitəsi mühüm əhəmiyyət kəsb edir. Bu isə materialın növü və boyağın hansı bitkidən alınmasından asılı olur [2].

Boyama prosesi çox mürəkkəb iş olduğundan onun bir cox dəqiqlik tələb edən üsullarını nəzərə alaraq aparılması vacibdir. Göstərilən boyama üsullarını nəzərə alaraq laboratoriya əməkdaşları tərəfindən bir sıra boyaq bitkilərindən alınan, boya ilə yun lifin boyadılması prosesi laboratoriyada araşdırılmışdır.

Bu boyaq bitkilərindən biri də Yovşandır (Artemisia vulqaris L)-dır. Yovşanın aşı təbiətli, boyaq və bəzək üçün yararlı növləri əksər ölkələrdə mədəni hala keçirilib geniş sürətdə əkilib.

Yovşanın Azərbaycanın Qərb böolgəsində daha cox yayılmasını, tərkibinin boya maddələri ilə zəngin olmasını nəzərə alaraq yun lifin boyadılması prosesini araşdırmışıq.

200 qr qurudulmuş, xırdalanmış yovşan yarpaqlarının üzərinə 1000 ml su əlavə edilir və 15 saat saxlanılır. Sonra 90-95°C–də 60 dəq qızdırılır, qismən soyuduqdan sonra süzülür və boya ekstraktı alınır. Hazır olan ekstraktdan 200 ml götürüb 20 ml 5%-li sirkə turşusu əlavə edib 60 dəq müddətində 95°C–də, zəy ilə aşqarlanmış yun lifin boyadılması prosesi aparılır. Boyamadan sonra məhlul soyudulur, boyanmış lif 5% -li NaCl məhlulunda yaxalanır rəngin bərkidilməsi üçün sərilərək qurudulur. Nəhayət boyanmış yun lif təsərrüfat sabunu kimyəvi yuyucu vasitə ilə yuyulur, günəş işığı altında sərilir, rəngin möhkəmliyi yoxlanılır. Boyamadan sonra yun lif qəhvəyi rəngə boyadılır. Göstərdiyimiz boyama üsulu ilə yovşandan daha çox rəng və çalarlarının alınmasını tədqiq etmişik. Yovşandan alınmış boya ekstraktına alüminum zəyi, mis sulfat, kalium bixromat, dəmir qırıntıları əlavə etməklə yun lifin boyadılması tədqiq olunmuşdur. Tədqiqatın nəticəsi cədvəl 1-də göstərilmişdir. Yovşan bitkisindən alınan təbii boya məhlulunun kinetik parametrlərinin təyini

Cədvəl 1

Boyaq bitkisi	Boyadılan material	Xüsusi çəki nd^{20}	Şüasındırma əmsalı nd^{20}	pH	Optiki sıxlıq T%	ABS (absorbons ölçmə)	Dalğa uzunluğu λ, nm	Rənggab	Rəng çalarları
Yovşan yarpaqları	Yun lif	1,0955 q,sm	1,3349	4,60	2	1,699	420	$KAL(SO_4)_{2.}12H_2O$	Qəhvəyi
Yovşan yarpaqları	Yun lif	1,1015q	1,3391	2,91	2	1,699	460	$CuSO_4.5H_2O$	
Yovşan yarpaqları	Yun lif	1,1103q/sm	1,3382	3,50	2	1,699	600	Dəmir qırıntısı	Açıq qəhvəyi
Yovşan yarpaqları	Yun lif	1,1067q/sm	1,3354	6,42	2	1,699	600	$K_2Cr_2O_7$	Şablıdı

Cədvəldən aydın olur ki, yovşandan alınan qəhvəyi rəngdən başqa ona müxtəlif rəngablar əlavə etməklə daha çox rəng yaşılı qəhvəyi, açıq qəhvəyi, şabalıdı və s. rəng və çalarlar almaq mümkündür. Bu isə xalq boyama üsullarına istinad edərək elmi araşdırmanın nəticəsidir.

Xalq sənəti xalqın ruhunun, mənəvi varlığının, mədəni inkişafının habelə milli xüsusiyyətlərinin səciyyələndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Xalq boyama üsullarına əsaslanaraq müasir elmi araşdırmanın birgə tətbiq edilməsi nəticəsi olaraq yovşandan - (Artemisia vulqaris L) alınan təbii boya ilə yun lifin boyadılması, müxtəlif rəngab və rəngdəyişdiricilər əlavə etməklə rəng və çalarlar alınmışdır. Boyama prosesindən sonra yun lif qəhvəyi, açıq qəhvəyi, yaşılı qəhvəyi, şabalıdı rəngə boyanmışdır. Boyanın kimyəvi yuyucu vasitələrə, işığa qarşı davamlılığı Dövlət Standartları tələblərinə uyğunluğu müəyyən olunmuşdur.

Açar sözlər: yovşan, ekstrakt, boyama, yun lif, boyaq bitkisi, rəng çalarları, fiziki kimyəvi, davamlılıq, kinetik parametrlər.

ƏDƏBİYYAT

1. Əliyev F., Əliyev Ə., Qasımov M. "Azərbaycanın Qərb Bölgəsinin faydalı boyaq bitkiləri" Gəncə- 2016 s.21-23
2. Hüseynov R.İ., Kərimov H.Q.. "Toxuculuq materiallarının kimyəvi texnologiyası". Gəncə 2017 s. 82

СОВРЕМЕННЫЙ НАУЧНЫЙ ПОДХОД К НАРОДНЫМ МЕТОДАМ ОКРАШИВАНИЯ

Имран Гасим оглы Гасимов
Латифа Исгандер Атакишиева
Вусала Мубариз Аббасова
Эльнара Акбар Исаева
abbassovavusale030@gmail.com
Министерство Науки и Образования Азербайджанской Республики
Институт Биоресурсов

Народное искусство имеет чрезвычайно важное значение для характеристики духа, духовного существования, культурного развития, а также национальных особенностей народа. В результате совместного применения современных научных исследований, основанных на народных методах крашения, были получены окраска шерстяных волокон натуральным красителем, полученным из полыни (Artemisia vulgaris L), с добавлением различных красителей и красителей, цвета и оттенки. После процесса крашения шерстяное волокно окрашивают в коричневый, светло-

коричневый, зеленовато-коричневый, каштановый цвет. Установлено соответствие краски к химическим моющим средствам и светостойкость требованиям ГОСТов.

Ключевые слова: полынь, экстракт, крашение, шерстяное волокно, красящее растение, цветовые оттенки, физико-химические, долговечность, кинетические параметры

MODERN SCIENTIFIC APPROACH TO FOLK PAINTING METHODS

Imran Gasim oglu Gasimov
Latifa Isgander Atakishiyeva
Vusala Mubariz Abbasova
Elnara Akbar Isayeva
Sevinj Alakbar Mustafayeva
abbasovavusale030@gmail.com
Ministry of Science and Education of the Republic of Azerbaijan
Institute of Bioresources

Folk art is extremely important in characterizing the spirit, spiritual existence, cultural development, as well as national characteristics of the people. As a result of the joint application of modern scientific research based on folk dyeing methods, dyeing of wool fiber with natural dye obtained from wormwood (Artemisia vulgaris L), adding various dyes and dyes, colors and shades were obtained. After the dyeing process, the wool fiber is dyed in brown, light brown, greenish brown, chestnut color. The conformity of the paint to chemical detergents and light resistance to the requirements of the State Standards has been determined.

Key words: wormwood, extract, dyeing, wool fiber, dye plant, color shades, physicochemical, durability, kinetic parameters

AZƏRBAYCANIN MİLLİ KİŞİ VƏ QADIN GEYİMLƏRİNDƏ İSTİFADƏ OLUNAN BƏDİİ PARÇALARIN ÇEŞİDLƏRİNİN TARİXİ TƏDQİQATI

Tamam Əhməd qızı Tağıyeva
tamamtağıyeva@gmail.com.
Şəhla Ramiz qızı Musazadə
shaxla.musayeva.72@mail.ru
Azərbaycan Texnologiya Universiteti

1950-ci illərdə kütləvi istehsalın digər bədii sənət nümunələri içərisində parça istehsalı əsas yerlərdən birini tuturdu. Bakı, Gəncə, Şəki fabrik emalatxanalarında istehsal olunan müxtəlif çeşidli ipək, yun və kətan parçalar xalqın həyat və məişətində mühüm rol oynamağa başlamışdır. İstinad edilən mənbədə, parça istehsalı sahəsində Şəki İpək Kombinatı tərəfindən buraxılan bədii parçalar xüsusi yer tuturdu. O dövrdə kombinatın buraxdığı bədii parçalar nəinki respublikada, onun hüdudlarından uzaqlarda da məşhur idi.

Azərbaycanda Eneolitdən Tunc dövrünə keçid mərhələsində şaquli toxuculuq dəzgahlarından istifadə olunması arxeoloji materiallardan məlumdur. Sonralar eramızın III-VII əsrlərində üfüqi toxuculuq dəzgahı (Mingəçevirdə tapılmışdır) işlədilmişdir. Bu dəzgahların bəsit nümunəsi xana, nisbətən mürəkkəb növü isə şarbaf dəzgahı indiyə qədər qalmaqdadır. Xammalın növündən asılı olaraq Azərbaycanda parça toxuculuğunun müxtəlif istehsal sahələri yaranmışdır. Pambıq parça toxuculuğuna nisbətən şal və ipək toxuculuğu üstün mövqe tutmuşdur. Erkən orta əsrlərdən başlayaraq Culfa, Ordubad, Naxçıvanda bez istehsalı, Şamaxı, Basqal, Şəki və Gəncə şarbaflıq məmulatında cecim və kəlağayı sənəti geniş yayılmışdır. Müəyyən dövr ötdükdən sonra parçaların boyanması və naxışlanması üsulları meydana gəlir. Parçaların bəzədilməsində ilkin mərhələ boyaq işidir. Parçaların boyaq üsulu ilə bəzək vurulmasının müəyyən tarixi vardır.

Azərbaycanda ipəkçilik getdikcə inkişaf etdirilirdi. 1898-ci ildə Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabriki işə düşür. Bu fabrik sovet illərində genişləndirilir və müxtəlif növ pambıq parça istehsal edir. Daha sonralar Mingəçevirdə, Gəncədə toxuculuq kombinatları yaradılır və geniş çeşiddə parça və digər toxunma məmulatları istehsal edilir.

Eramızdan əvvəl V əsrdə yunan alimi Herodot (484-425) belə məlumat vermişdir: "Bu yerlərin meşələrində elə ağaclar bitir ki, yerli əhali onların yarpaqlarını əzib su ilə qarışdırır, alınmış məhlul ilə paltarlarına naxışlar vururlar. Bu naxışlar silinməyib, parça köhnələnə qədər qalır".

Azərbaycanda geniş parça istehsalı feodal münasibətlərinin inkişafı dövrünə, yəni III-V əsrlərə təsadüf edir. Ölkədə inkişaf etməkdə olan sənətkarlıq get-gedə əmtəə istehsalı dairəsinə daxil olurdu. Bu zaman Azərbaycanda çoxlu mahir usta çalışırdı, onların toxuyub və bəzədikləri parçalar ölkəmizdən çox-çox uzaqlarda məşhur idi.

Parça məmulatlarının üzərində milli ornamentlər. Azərbaycan dekorativ – tətbiqi sənətinin zəngin örnəklərindən biri parça və tikmə sənətidir.

Azərbaycan ərazisində müxtəlif dövrlərdə aparılmış arxeoloji qazıntılar göstərir ki, əcdadlarımız hələ Tunc dövründə əyirmə, hörmə və arxaik şəklində olsa da, tikmə işləri ilə məşğul olmuş, öz həyat və məişəti üçün əməli əhəmiyyətə malik bir çox sənəd nümunəsi yaratmışdır.

Dövrümüzə qədər gəlib çatmış ən qədim parça nümunələri təxminən eramızdan əvvəl II minilliyin sonu və I minilliyin əvvəllərinə aiddir. Mingəçevirdən, Ağstafanın Qıraq Kəsəmən və s. yerlərdən tapılmış parça tikmələri nisbətən sadə üsulda icra olunmasına baxmayaraq, xalq toxuculuq sənətinin ən qədim nümunəsi kimi çox qiymətlidir.

Parça bəzəklərini metal məmulatı və s. sənət nümunələrindəki bəzəklərlə müqayisə etdikdə bir çox oxşar cəhətlər nəzərə çarpır. VIII-IX əsrlərdə parçalardakı ördək və quş təsvirlərinə rast gəlmək olar. Parça və qeyri-sənət nümunələrində xoruz, ördək, qartal, qoç və s. təsvirlərin dönə-dönə tətbiq olunması təsadüfi deyildir. Azərbaycan ərazisində yaşayan xalqlar arasında "Xoruz qəbiləsi", "Qoç qəbiləsi" və s. qəbilələr xüsusilə şöhrət tapmış və göstərilən heyvan və quşlar da həmin qəbilələrin totemi olmuşlar.

XI-XII əsrlərdə Azərbaycan şəhərlərində də parça istehsalı yüksək səviyyədə olmuşdur. Gəncədə zərlə işlənmiş atlas, diba ipək parçaları, habelə sadə ipək, Təbrizdə atlas, kişilər üçün əba, Beyləqanda ipək parça, Ərdəbildə qara rəngli zərif parça (camə), Səlmas və Xoyda diba, nazik kətandan paltar, Bərdədə ipək və s. istehsal olunurdu. Bu dövrdə Gəncə ipəyi öz gözəlliyi ilə başqa ölkələrin ipəklərindən xeyli fərqlənirdi.

1940-cı ildə Nizami Gəncəvinin qəbrində aparılmış qazıntı işləri zamanı aşkara çıxmış parça tikələri həmin dövrdə istehsal edilmiş parçaların keyfiyyəti haqqında az da olsa, təsəvvür yaradır. Zərif və öz dövrünə görə yüksək texniki səviyyədə toxunmuş bu ipək tikmələrdə dövrün başqa abidələrindəki bəzəkləri canlandıran həndəsi stilizə edilmiş nəbatat ornamentlərinə rast gəlirik. Parça üzərindəki ornamentlər keramika bəzəklərini xatırladır.

Şamaxı haqqında qeyd edilir ki, Şamaxı ipəyi bir çox Qərb və Şərq ölkəsində məşhur olmuş, hətta Venesiya və Genuya tacirləri buraya ipək almağa gəlmişlər. Şamaxıda ipək və pambıq parçalar toxuyan emalatxanalar və sənətkar var idi. Şirvanda da ipəkçilik yüksək dərəcədə inkişaf etmişdir.

Dekorativ-tətbiqi sənətimizin başqa örnəklərində olduğu kimi, bu dövrün parçalarında da Uzaq Şərq mədəniyyətinə xas olan bir çox bəzək nümunəsinin üstün tutulduğunu görürük.

IV əsrdə Azərbaycanda toxunmuş bu cür bəzi orijinal parça nümunələri dünyanın bir neçə məşhur muzeylərində saxlanmaqdadır. Bu parçalar yüksək texniki üsulda toxunaraq, quş, heyvan və stilizə edilmiş gül-çiçək rəsmləri ilə bəzədilmişdir. Bu parçalar yüksək texniki üsulda toxunaraq quş, heyvan ornamentləri ilə bəzədilmişdir. Birinci parça üzərində qızıl,

gümüş saplarla düzülmüş, bir-birinin ardınca təkrar olunan tovuzquşu rəsmləri təsvir olunmuşdur. Tovuzquşu rəsmləri horizontal vəziyyətdə, yəni bir cərgə yandan (profil), bir cərgə üzdən (anfas) qanadları açılmş bir tərzdə təsvir olunaraq, parça üzərindəki yeknəsəkliyi pozub, çox gözəl ritmik hərəkət yaradır.

Geyimlərin hazırlanmasında ustehsal edilən parçaların tarixi çox qədimdir. Parçalar mövsümə görə dəyişir. Parçaların üzərindəki naxışlarda milli ornamentimizə uyğunluğu var. Parçalar növlərinə görə pambıq, kətan, yun və ipək parçalara bölünür və onun hazırlanmasında bir neçə əməliyatlardan keçir. Hazır parçalardan milli geyimlərimizdə istifadə olunur. Qızılı və gümüşü saplardan ipək parçalara naxışlar vurulur.

Açar sözlər: Parçalar, boyaq işləri

ИСТОРИЧЕСКОЕ ИЗУЧЕНИЕ ТИПОВ ТКАНЕЙ, ИСПОЛЬЗУЕМЫХ В НАЦИОНАЛЬНОЙ МУЖСКОЙ И ЖЕНСКОЙ ОДЕЖДЕ АЗЕРБАЙДЖАНА

Тамам Ахмед кызы Тагиева
tamamtağıyeva@gmail.com.
Шахла Рамиз кызы Мусазаде
shaxla.musayeva.72@mail.ru
Азербайджанский Технологический Университет

История тканей, используемых для изготовления одежды, очень древняя. Ткани меняются в зависимости от сезона. Узоры на тканях соответствуют нашему национальному орнаменту. Растения, цветы и листья широко используются при крашении ниток, используемых в узорах.

По видам ткани делятся на хлопоковые, льняные, шерстяные и шелковые, и при их подготовке подвергаются нескольким операциям. В наших национальных костюмах используются готовые ткани. Золотые и серебряные нити используются для создания узоров на шелковых тканях. В настоящее время эти ткани широко используются и очень модны.

Ключевые слова: ткани, красочное покрытие

HISTORICAL STUDY OF THE TYPES OF ARTISTIC FABRICS USED IN NATIONAL MEN'S AND WOMEN'S CLOTHING OF AZERBAIJAN

Tamam Ehmed Tagıyeva
tamamtağıyeva@gmail.com
Shahla Ramiz Musazade
shaxla.musayeva.72@mail.ru
Azerbaijan Technological University

The history of fabrics used to make clothing is very ancient. Parts change depending on the season. The patterns on the products correspond to our national ornament. Plants, flowers and leaves are widely used in dyeing the threads used in the designs.

According to the types of fabrics, cotton, linen, wool and silk are divided into fabrics and undergo several operations during their preparation. Our national costumes use ready-made fabrics. Gold and silver threads are used to create patterns on silk fabrics. Nowadays these fabrics are widely used and very fashionable.

Key words: fabrics, paintwork

BİTKİ MƏNŞƏLİ BOYALARIN İNSAN SAĞLAMLIĞINDA ƏHƏMİYYƏTİ

İmran Qasım oğlu Qasımov
Naimə Ceyhun qızı Məhərrəmova
naime.meherremova@bk.ru
Günel Anar qızı Tomuyeva
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Gəncə)

Qədim dövrlərdən başlayaraq insanlar təbii nemətlərdən geniş istifadə etmiş bu günlərimizdə də elmi əsaslara söykənən müxtəlif təbii sərvətlərdən-minerallar, filizlər, faydalı qazıntılar və biomüxtəliflikdən geniş istifadə etməkdədirlər.

Xüsusən müxtəlif bitkilərdən boya, dərman maddələri, əldə etmək istiqamətində işləri davam etdirmiş insan həyatı, fəaliyyətinin ayrılmaz hissəsinə çevrilmişdir.

Müxtəlif sadə əmək vərdişləri ilə bitkilərdən boyalar alınması tarixi çox qədim dövrlərə təsadüf edib 4000 il tarixə malikdir.

Azərbaycanda bitki boyalarından xalçaçılıq, ipəkçilik, dekorativ-incəsənət, dulusçuluq və.s sahələr ilə yanaşı, müalicəvi dərman bitkilərindən də geniş istifadə edilmişdir.

Boyaq bitkiləri daha çox tekstil və qida sənayesində istifadə olunur. Dünyada isə boyaq bitkiləri kimi 2000-dən çox bitki növü məlumdur. Lakin sırf boya almaq məqsədi ilə bunlardan yalnız 130-u tətbiq edilir. Azərbaycanda boyaq bitkiləri haqqında, onların arealı, potensial ehtiyatları və tətbiq sahələri haqqında mərhum proffesor b.e.d. prof. Mayıs Qasımovun apardığı elmi araşdırmalar xüsusi qeyd olunmalıdır. Mərhum professorun Azərbaycanda ilk dəfə boyaq bitkilərinin sistematikasını yaratmış, yayılması, ehtiyatlarının təsnifatını apararaq boyama xassələrini tədqiq etmiş, 55 növün tekstil məhsulları, 30 növün isə qida məhsullarının boyadılmasında istifadə olunmasını müəyyən etmişdir. [4].

Cəmiyyət inkişaf etdikcə boyalara tələbat ilbəil artmış, bitki mənşəli boyalarla tələbatı ödəmək qeyri-mümkün olmuşdur.

Nəticə etibarı ilə müxtəlif rəngarəng çalarlarına malik boyaların alınması məqsədilə indiqo və alizarin kimi kimyəvi tərkibə və quruluşa malik boyaq bitkilərini əvəz edə bilən sintetik boyalar istehsal olunmasına başlanmışdır (1876-cı il). [2].

Əldə olunan sintetik boyalar ilk olaraq toxuculuqda, dekorativ incəsənət, məişət, xüsusən xalçaçılıq və ipəkçilikdə geniş istifadə edilmişdir. Məlum olduğu kimi son onilliklərdə yaranmış ekoloji durumun ilbəil pisləşməsi qida təhlükəsizliyi kimi aktual bir problemi də ortaya çıxarmışdır.

Yeyinti sənayesində istifadəyə gəlincə sintetik boyaların burada istifadəsi müəyyən çətinliklər yaratmışdır. Beləki bir çox hallarda sintetik boyaların alınmasında kimyəvi maddələrdən istifadə edilir. Bəzi hallarda sintetik boya alınması üçün 20-yə qədər müxtəlif kimyəvi çevrilmələr aparılır. Nəticədə boyada toksikilik yaranır ki, bu da orqanizm üçün təhlükəyə çevrilir.

Deyilənləri nəzərə alaraq qida sənayesində bitki mənşəli boyalardan istifadəyə üstünlük verilir. Alınmış boyaların orqanoleptik xassələri, digər fiziki-kimyəvi parametrləri, rəng indeksi (RGB) müəyyən edilir.

Sintetik boyalardan fərqli olaraq bitki mənşəli boyalar müxtəlif qida məhsullarına yalnız rəng və rəng çalarları, estetik görüntü verməyib çoxatomlu fenollardan olan antosianlar (antosianinlər), karotinoidlər, xlorofillər kimi mürəkkəb üzvi birləşmələr olaraq bioloji aktiv maddələr, vitaminlər, üzvi turşular, mikro və makro elementlərə malik qidalılıq keyfiyətini artırırlar. [3].

İqlim dəyişmələri bir sıra xəstəliklərin fəsadlaşmasına ciddi təsir göstərir. Xüsusən xroniki xəstəliklərdə bu özünü daha kəskin biruzə verir. Burada qan təzyiqi, ürək-damar, şəkər, tənəffüs yolları xəstəlikləri ayrıca qeyd olunmalıdır.

Artıq qlobal xarakter almış ekoloji katalizimlərdə günəşdə baş verən partlayışlar, geomaqnit qasırğalarının nəticəsi olaraq insanların psixalogiyasında zəlzələlərin, sunami daşqınlarının, tufanların, vulkan püskürmələri kimi təbii hadisələrin də get-gedə daha geniş baş verməsidir.

Son elmi araşdırmalardan məlum olmuşdur ki, bitki mənşəli boyalar antioksidant, sərbəst radikallara ingibitor təsir göstərmək kimi xassələrə də malikdirlər. Bu xassələrinə görə bitki boyalarından funksional qida məhsulları alınması məqsədi ilə də istifadə edilir. [1].

ARETN Bioresurslar İnstitutu (Gəncə) "Boyaq emalı texnologiyası" və "Yağlar və məlhəmlər" laboratoriyalarında Azərbaycanın qərb bölgəsinin biomüxtəlifliyi ondan səmərəli istifadə məqsədilə elmi araşdırmalar aparılır. Bitki boyaları, bioloji aktiv maddələrə malik bitkilərdən yağlar, efir yağları alınması istiqamətində, həmin boyalarla müxtəlif liflər, kosmetik vasitələr, dekorativ incəsənət və s. materialların boyadılmasında da istifadə olunur.

Qida təhlükəsizliyində müxtəlif qida məhsullarına rəng verməsi və qidalılıq keyfiyyətini yüksəltmək üçün Azərbaycanın qərb bölgəsinə daxil olan bitki və aqrosənaye tullantılarında boya, piqment, konsentrat, pektin kimi maddələr alınması və tətbiqi işlənmişdir.

Tezisdə bitki xammallarından boya alınması, boyanın fiziki-kimyəvi parametrlərinin, orqanoleptik xassələrinin tədqiqi qeyd olunur. Həmin boyaların sintetik boyaları əvəz etməklə insan sağlamlığına müsbət təsiri və üstünlükləri əsaslandırılmışdır. Bitki mənşəli boyaların digər tətbiq sahələrinə də geniş yer verilir.

Açar sözlər: bitki mənşəli, boya, rəng çalarları, orqanoleptik, antosian, funksional qida, kompleks emal

ƏDƏBİYYAT

1. Ghosh D., Konishi T. "Antocyanis and anhocyanin-rich extracts: role in diabetes and eye function". Asia Rac. I.Clin. Nutr 2007. 16(2); s.200-208.
2. Hichri I., Barrieu F., Bogs J., Kappel "Recent advancls in the transcriptional regulation of the flovonoids biosynthetic pathway" J.Exp. Bot. 2011:62(8):DOI2465-10. |093| Jxb| erg 442.
3. Qasımov M. "Azərbaycanın boyaq bitkiləri". Bakı 1982. s.215
4. Макарова Н.В, Еремеева Н.Б., Игнатова Д.Ф. "Влияние технологии экстракции на антиоксидантную активность черноплодной рябины" (ARONA MELANOSARPA). 2019. s.350

ЗНАЧЕНИЕ РАСТИТЕЛЬНЫХ КРАСИТЕЛЕЙ ДЛЯ ЗДОРОВЬЯ ЧЕЛОВЕКА

Имран Гасим оглы Гасимов
qasimov.imran49@mail.ru
Гюнель Анар кызы Томуева
Наима Джейхун кызы Магеррамова
naime.meherremova@bk.ru
Институт Биоресурсов Министерства Науки и Образования Азербайджанской Республики (Гянджа)

В статье рассматривается получение красителей из растительного сырья, изучены органолептические и физико-химические свойства. Обоснованно положительное влияние и преимущества красителей на здоровье человека при замене их синтетическими красителями. Красители растительного происхождения широко используются и в других областях применения.

Ключевые слова: растительное происхождение, краситель, цветовые оттенки, органолептические свойства, антоциан, функциональное питание, комплексная переработка

IMPORTANCE OF PLANT DYES FOR HUMAN HEALTH

Imran Gasim oglu Gasimov
qasimov.imran49@mail.ru
Gunel Anar gizi Tomuyeva
Naima Jeyhun gizi Maharramova
naime.meherremova@bk.ru
Ministry of Science and Education of the Republic of Azerbaijan
Institute of Bioresources (Ganja)

The thesis mentions the acquisition of dye from plant raw materials, the study of the physico-chemical parameters and organoleptic properties of the dye. The positive effect and advantages of these dyes on human health by replacing synthetic dyes have been substantiated. Plant-based dyes are widely used in other areas of application.

Key words: plant origin, dye, color shades, organoleptic, anthocyanin, functional food, complex processing

DÜNYA AYAQQABI SEKTORUNDA AYAQQABI İSTEHSALININ TARİXİ

Tarıverdi Qurban oğlu Kərimov
Hüseyn Rövşən oğlu İmanov
imanovhuseyn118@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Hələ qədim zamanlarda insanlar ayağı qorumaq və gözəl görünmək üçün ayaqqabılardan istifadə etmişlər. Bu ayaqqabılar içərisində qadın ayaqqabıları çeşid mürəkkəbliyinə, xarici görünüşünə, formasına, fasonuna, konstruksiyasına, bəzəndirilməsinə, biçiminə, furnitura elementlərinin zənginliyinə və s. əlamətlərinə görə xüsusi yer tutur. Ayaqqabı həm ayaqların xarici amillərdən qorunmasında, həm də insanlar üçün mühüm əhəmiyyət kəsb edən formasının müxtəlifliyi ilə fərqlənən, yüngül sənaye tərəfindən istehsal olunan ən vacib geyim vasitəsidir. Cari dövrdə ölkəmizdə yaranan iqtisadiyyatdakı müxtəlif dəyişikliklər ayaqqabı sənayesinə də təsir etdi. Bazarda bu vəziyyətin və onun dəyişdirilməsinin imkanlarının hərtərəfli və tam araşdırılması, ayaqqabı sənayesinin inkişafının əsas şərtlərindən birini göstərir.

Digər geyimlər kimi ayaqqabıların insanların mövqeyi və şəxsiyyətləri ilə eyniləşdirərkən, formanın funksiyadan daha vacib olduğunu görürük. Vaxt keçdikcə ayaqqabı insanın ayağını xarici təsirlərdən qorumaq üçün olan vasitə ilə yanaşı dizayn obyektinə yəni insanın gözəl görünməsini təmin edə bilən bir geyim əşyasına çevrilmişdir. Eyni zamanda, ayaqqabılarda forma, funksiya və xüsusilə estetik keyfiyyətlərə rast gəlinir, ayaqqabı insanların geyimlərini tamamlayaraq, dəbdə olan, xüsusilə vacib olan mütləq aksessuardan birinə çevrilmişdir.[3]

Aparılan araşdırmalar göstərir ki, qədim dövrlərdə ayaqqabıların ilk dizaynı bunu hazırlayan insanın hansı mühitdə və iqlim şəraitində yaşadığı ilə sıx əlaqəlidir. Ehtimal edilir ki, insanlar tərəfindən istifadə edilən ayaqqabıların ən qədim formaları sandaletlər və çarıxlardır. Bu ayaqqabı növlərindən hər ikisi də daş alətlərdən istifadə edən ilk insanların hazırladığı sadə və primitiv təbii materiallar əsasında hazırlanmış üst geyim paltarları kimi Paleolit dövrünə əsaslanır. Bu dövrlərdə soyuq bölgələrdə yaşayan insanlar tərəfindən hazırlanmış ilk ayaqqabılar ayaqlara sarılmış və tikilmiş heyvan dərilərindən ibarət idi. Tədqiqatçılar tərəfindən aparılan təhlillər nəticəsində insanlara məlum olan ən qədim ayaqqabı cütü Oreqonda tapılan ot və adaçayı qabığından hazırlanmış 10.000 illik qədim tarixə malik sandalet və bitki mənşəli materialdan hazırlanmış 9000 illik tarixə malik olan bir cüt sandaletdir. Aparılan təhlillər göstərir ki, hal-hazırki dövrə qədər ən yaxşı formada saxlanmış çəkmələr Alp dağlarındakı buzlaqlarda aşkarlanan "Ovçu" Otzi Buz adamına aiddir. Heyvan dərisindən hazırlanan ən qədim ayaqqabı "Buz Adamı" ilə birlikdə 5300 illik

bir yaşı olan "Tirol Alp Bunlar" ayaqqabısıdır. Bu ayaqqabılarda ayağın isinməsi üçün onun içərisi saman və yosunlarla doldurulmuşdur. Məhz bu ehtiyac insanlara dərinin daha səmərəli və effektli emal üsullarını öyrədib. Tarixçilər tərəfindən aparılan araşdırmalar qədim zamanlarda ayaqqabıların tikilməsi və ayağın mühafizə edilməsi üçün müxtəlif yollar tapdıqları düşünülür.[1,2]

Hələ 1760-cı ildə primitiv əl əməyindən istifadə edilən ilk ayaqqabı fabriki quruldu, lakin sürətli və ucuz ayaqqabı istehsalı sonrakı dövrlərdə tikiş maşınları kimi ayaqqabı istehsalında texnoloji avadanlıqların inkişaf etdiyi XIX əsrə qədər reallaşdırılmamışdır. 1875-ci ildə ayaqqabı istehsal edən maşınların fərqli modelləri icad edildi. Goodyear brendi altında təqdim olunan yeni bir maşın ayaqqabının 10 üz hissəsini altına tikmək üçün istifadə edilməyə başlandı. Ayaqqabı istehsalı tarixində tikiş və pres maşınlarında axtarılan bir marka halına gələn Goodyear günümüzdə goodyear tikiş texnikası olaraq ayaqqabıcılıq terminologiyasına daxil olmuşdur. Həmin dövrlərdə digər sənaye sahələrində olduğu kimi, ənənəvi istehsaldan sənayeləşməyə keçid dünya ayaqqabı sənayesində də heç də asan olmamışdır. Bunun bir nümunəsinə "Amerika"da rast gəlinmişdir. Vətəndaş müharibəsindən sonra ABŞda bir çox sektorlar, o cümlədən ayaqqabı istehsalı sənayeləşməyə başladı.[4]

Deməli, ən ibtidai ayaqqabı insan əcdadının ayağını bükdüyü və ya ayağın alt (plantar) hissəsinə yapışdırdığı bitki və heyvan mənşəli materialdan idi. Cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı zamanı, texniki imkanların böyüməsi və insan ehtiyaclarının artması ilə ayaqqabı konstruksiyası və onun istehsal üsulları getdikcə daha da təkmilləşdirildi. Uzun bir inkişaf dövründən sonra dəri sənayesi elmin, mühəndisliyin və texnologiyanın qabaqcıl nailiyyətlərindən istifadə edərək, müasir inkişaf etmiş sənayeyə çevrildi.

Açar sözlər: ayaqqabı, sandalet, təbii material, bitki və heyvan mənşəli

ƏDƏBİYYAT

1. Həsənov Ə.P və başqaları. “Ayaqqabı mallarının ekspertizasına aid metodik göstəriş”, 2010; s.215
2. Həsənov Ə.P və başqaları.“Gön ayaqqabı və xəz malları əmtəəşünaslığı” Bakı-1999; s.320
3. Həsənov Ə.P. və başqaları. “Gön-ayaqqabı və xəz malları əmtəəşünaslığı” Bakı, Maarif, 1999. s.120
4. Семененко С.В. “Экспертиза качества кожаной обуви” Учебное пособие для вузов Белгород, 2000 с.235

ИСТОРИЯ ПРОИЗВОДСТВА ОБУВИ В МИРОВОМ ОБУВНОМ СЕКТОРЕ

Тариверди Гурбан оглы Каримов
Гусейн Ровшан оглы Иманов
imanovhuseyn118@gmail.com
Азербайджанский Технологический Университет

С древних времен люди использовали обувь, чтобы защитить ноги и выглядеть красиво. Среди этой обуви женская обувь отличается разнообразием сложности, внешнего вида, формы, стиля, конструкции, отделки, формы, богатства элементов фурнитуры и т. д.. Благодаря своим характеристикам он занимает особое место. Обувь—важнейшее средство одежды, выпускаемое легкой промышленностью, отличающееся как защитой ног от внешних факторов, так и разнообразием ее формы, что важно для человека. Различные изменения в экономике нашей страны коснулись и обувной промышленности. Тщательное и полное исследование этой ситуации на рынке и возможностей ее изменения показывает одно из главных условий развития обувной промышленности.

Ключевые слова: обувь, сандалии, натуральный материал, растительного и животного происхождения.

HISTORY OF FOOTWEAR PRODUCTION IN THE WORLD FOOTWEAR SECTOR

Tariverdi Gurban oghlu Karimov
Huseyn Rovshan oghlu Imanov
Imanovhuseyn118@gmail.com
Azerbaijan Technological University

Since ancient times, people have used shoes to protect their feet and look beautiful. Among these shoes, women's shoes are characterized by variety complexity, appearance, shape, style, construction, decoration, shape, richness of fittings elements, etc. It occupies a special place due to its characteristics. Shoes are the most important means of clothing produced by the light industry, which is distinguished both by the protection of the feet from external factors and by the diversity of its form, which is important for people. Various changes in the economy in our country have also affected the shoe industry.

Key words: shoes, sandals, natural material, vegetable and animal origin

MÜASİR DÖVRDƏ QADIN AYAQQABILARINDA İSTİFADƏ EDİLƏN ORNAMENTLƏRİN NÖVLƏRİ (ÇİÇƏK, HƏNDƏSİ, ABSTRAKT, BİTKİ MOTİVLƏRİ VƏ S.).

Tarıverdi Qurban oğlu Kərimov
Hüseyn Rövşən oğlu İmanov
imanovhuseyn118@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə qadın ayaqqabılarında istifadə edilən ornamentlər estetik görünüşü zənginləşdirərək fərqli zövqlərə və modaya uyğun dizaynlar yaradır. Bu ornamentlərin müxtəlif növləri aşağıdakılardır: Çiçək Naxışları: Ən çox yayılmış ornament növlərindən biridir. Çiçək motivləri incə və zərif təsir bağışlayaraq qadın ayaqqabılarını daha cazibədar edir. Çiçəklərin rəngləri və formaları müxtəlif ola bilər, bu da onları klassik və ya müasir dizaynlarda istifadəyə yararlı edir. Əl işi Tikmə Çiçəklər: Bəzi ayaqqabı modellərində çiçəklər əl ilə tikilərək və ya toxunaraq tətbiq edilir ki, bu da onları daha unikal və qiymətli edir. Simmetrik və Asimmetrik Formlar: Həndəsi naxışlar zolaqlar, dairələr, üçbucaqlar və digər formalardan ibarət olur. Bu cür dizaynlar minimalistik və modern stil yaradır. Abstrakt Həndəsi Dizaynlar: Qırıq xətlər, dalğalar və ya təkrar formalarla yaradılan bu ornamentlər müasir dövrdə moda trendi kimi qəbul olunur və ayaqqabılara dinamik bir təsir verir. Fərqli Formalı və Rəngli Dizaynlar: Müəyyən bir motivə uyğun olmayan, lakin rəng və formaların harmoniyası ilə seçilən abstrakt naxışlar. Bu ornamentlər daha müasir və avantgarde stil yaratmaq üçün istifadə olunur. Graffiti və Pop-Art Naxışları: Parlaq rənglər və qeyri-adi formalarla abstrakt elementlər, xüsusən cəsarətli və fərqli dizaynlar üçün uyğun gəlir.Yarpaqlar və Ağac Dizaynları: Təbii bitki motivləri ayaqqabı dizaynına orqanik və təbii bir hava qatır. Bu ornamentlərdə əsasən yarpaqlar, budaqlar və üzüm tənələri təsvir olunur. Ekoloji və Biomorfik Dizaynlar: Təbii mühitin əks etdirilməsi üçün bəzən biomorfik formalar istifadə edilir, bu da ekoloji mövzularda hazırlanmış kolleksiyalar üçün ideal olur. Ənənəvi Milli Naxışlar: Bəzi brendlər mədəni motivlərdən ilhamlanaraq, milli naxışları müasir dizaynlarla birləşdirirlər. Bu motivlər xalça, batika, və ya xalqların ənənəvi sənət formalarından götürülə bilər. Bohem və Etnik Stil: Müxtəlif xalqların mədəniyyətindən ilhamlanan bu motivlər ayaqqabılarda fərqli mədəniyyətlərin simvolikasını əks etdirir. Heyvan Dəri Naxışları: Leopar, zebra və ilan dərisi kimi heyvan dəri naxışları da çox populyardır və ayaqqabılara cazibədar, vəhşi bir görünüş verir. Dəniz Motivləri: Dəniz ulduzları, balıqlar və digər dəniz canlıları, xüsusən yaz və yay mövsümlərində populyar motivlərdən hesab olunur. Bu ornamentlərin kombinasiyası və tətbiqi üsulları qadın ayaqqabılarını daha cəlbedici və estetik hala gətirir. Müasir dizaynlar ənənəvi motivləri yeni texnologiyalarla birləşdirərək müxtəlif zövqlərə uyğun geniş seçim imkanı təqdim edir. Müasir dövrdə qadın ayaqqabılarında ornamentlərin tətbiqi üçün müxtəlif texnologiyalar və

materiallar istifadə olunur. Bu üsullar dizaynerlərə zəngin və estetik görünüşlər yaratmağa imkan verir. Aşağıda əsas tətbiq üsulları və onların xüsusiyyətləri haqqında məlumat verilib: Əl İşi Tikmə: Ənənəvi tikmə üsulu ilə müxtəlif naxışlar, çiçək motivləri və ya abstrakt dizaynlar ayaqqabının üzərinə əl ilə tikilir. Bu üsul xüsusi detallar və incəlik tələb edir, nəticədə çox zərif və incə bəzək əldə olunur. Maşın Tikməsi: Müasir texnologiyaların tətbiqi ilə naxışlar daha sürətli və mükəmməl şəkildə həyata keçirilir. Maşın tikməsi ilə mürəkkəb dizaynlar, həndəsi formalar və təkrarlanan motivlər yaradıla bilər. Lazer Naqışları: Lazer kəsmə texnologiyası ilə ayaqqabı üzərinə dəqiq naxışlar tətbiq olunur. Bu metod çox detallı və mükəmməl formalı ornamentlərin yaradılmasına imkan verir. Metal Əlavələr və Aksesuarlar Metal Sancaq və Naxışlar: Ayaqqabı üzərinə metal elementlər (sancaq, düymələr, tırnaklar) əlavə olunaraq onu daha parlaq və cəsarətli göstərir. Bu üsul xüsusən həndəsi və abstrakt motivlər üçün istifadə olunur. Qızıl və Gümüş Detallar: Metal əlavələr ayaqqabılarda zəriflik və dəbdəbə yaradır. Qızıl və ya gümüş rəngli metallar bu məqsədlə geniş istifadə olunur. Zəncir və Halqalar: Ayaqqabıların kənarına və ya bağlanma hissələrinə zəncir və halqa kimi metal detallar əlavə edilir ki, bu da müasir və ya punk stilini vurğulaya bilər.

Açar sözlər : qadın ayaqqabıları, ornamentlər, dizayn, naxış, elementlər

ВИДЫ ОРНАМЕНТОВ, ИСПОЛЬЗУЕМЫХ В ЖЕНСКОЙ ОБУВИ В СОВРЕМЕННОЕ ВРЕМЯ (ЦВЕТОЧНЫЕ, ГЕОМЕТРИЧЕСКИЕ, АБСТРАКТНЫЕ, РАСТИТЕЛЬНЫЕ МОТИВЫ И Т.Д.).

Тариверди Гурбан оглы Каримов
Гусейн Ровшан оглы Иманов
imanovhuseyn118@gmail.com
Азербайджанский Технологический Университет

Орнаменты, используемые в женской обуви в наше время, обогащают эстетический вид и создают дизайны, соответствующие разным вкусам и моде. Различают следующие виды этих украшений: цветочные узоры - один из самых распространенных видов орнамента. Цветочные мотивы делают женскую обувь более привлекательной, придавая ей тонкий и элегантный эффект. Цветы могут быть самых разных цветов и форм, что делает их подходящими для использования в классическом или современном дизайне.

Ключевые слова: женская обувь, орнаменты, дизайн, узор, элементы

TYPES OF ORNAMENTS USED IN WOMEN'S SHOES IN MODERN TIMES (FLORAL, GEOMETRIC, ABSTRACT, PLANT MOTIVES, ETC.).

Tariverdi Gurban oghlu Karimov
Huseyn Rovshan oghlu Imanov
imanovhuseyn118@gmail.com
Azerbaijan Technological University

Ornaments used in women's shoes in modern times enrich the aesthetic appearance and create designs suitable for different tastes and fashions. The different types of these ornaments are as follows: Floral Patterns: One of the most common types of ornamentation. Floral motives make women's shoes more attractive by giving a subtle and elegant effect. Flowers can come in a variety of colors and shapes, making them suitable for use in classic or modern designs. Hand-embroidered Flowers: Some shoe models have hand-embroidered or woven flowers, which makes them more unique and valuable.

Key words: women's shoes, ornaments, design, pattern, elements

UŞAQ ORTOPEDİK AYAQQABILARININ BƏDİİ LAYİHƏLƏNDİRİLMƏSİ ÜSULLARININ ANALİZİ

Aygün Vüqar qızı Hüseynquliyeva
h.aygun.v@gmail.com
Tarıverdi Qurban oğlu Kərimov
Azərbaycan Texnologiya Universiteti

Ortopedik ayaqqabı xəstənin patologiyalarından asılı olaraq hazırlanmış tibbi ayaqqabılardır. Bu kateqoriyaya əzaların funksiyalarını kompensasiya etmək üçün deformasiya olunmuş ayaqları olan əlillər üçün nəzərdə tutulmuş xüsusi formalı çəkmələr daxildir. Belə ayaqqabılar patoloji dəyişikliklər və problemlər nəzərə alınmaqla fərdi olaraq hazırlanır. Həkimin təyin etdiyi kimi sifarişlə hazırlanır. Ortopedik ayaqqabıları adi və ya ortopedik mağazalarda almaq olmaz.

Çıxarıla bilən ortopedik altlıq ayaqqabıya ayaqların tağlarını dəstəkləməyə və təzyiqi yenidən bölüşdürməyə imkan verir. Daban sürüşmür, tamamilə sabitdir və yaxşı yastıqlıdır. Daban sayğacı dabanı sabitləşdirir və düzgün vəziyyətdə saxlayır və daban sayğacının yumşaq kənarı Axilles vətərinə təzyiqi aradan qaldırır. Daban açıq olduqda, ayaqqabıda dabanı sabitləşdirmək üçün girinti və ya dəstək kəməri var. Təxminən 4 sm fərq var, bu, gəzinti üçün optimal hündürlükdür. Ortopedik modellər ayağa sıx şəkildə oturur, ayaqqabıda ayağın optimal uyğunlaşmasını və sabitləşməsini təmin edir[1].

Düz ayaqlar, yerimə biomexanikasını pozan ayaq qövsünün sümüklərinin anatomik cəhətdən düzgün əlaqələrində dəyişiklikdir. Xəstəlik uşaqda daimi diskomfort, yeriməkdə çətinlik və yerişdə dəyişiklik yaradır. Hər yaşda olan uşaqlarda düz ayaqlar xəstəliyin əlamətlərinin tam aradan qaldırılmasına qədər nəzərə çarpan nəticələr əldə edəcək fərdi yanaşma ilə diqqətli diaqnoz, hərtərəfli müalicə və ikincil profilaktika tələb edir. Uşaqlar çox tez-tez düz ayaqlardan əziyyət çəkirlər, buna 50% rast gəlinir. Bu, pediatrik praktikada ən çox rast gəlinən ortopedik problemdir. Əsas təzahür ayağın qövsünün düzləşməsidir. Ayağın iki qövsü var: uzununa və eninə, sümüklər, bağlar, qığırdaq və əzələlərdən əmələ gəlir. Tağlar sayəsində amortizator funksiyası yerinə yetirilir, tarazlıq qorunur, yeriş zamanı yük bərabər paylanır və eksenel yükə dözümlülük artır. Patologiyanın inkişafında kritik an körpənin ayaqları üzərində dayanmağa başladığı vaxtdır. Başlanğıcda, bağların və əzələlərin təbii zəifliyi səbəbindən ayaq düz ola bilər, lakin 5-6 yaşa qədər onun konfiqurasiyası düzəlir.

Tədqiqatçılar hesab edirlər ki, əsas səbəb irsi amildir - xəstəliyin qan qohumlarında olmasıdır. İlkin şərt birləşdirici toxuma displaziyası və ya birləşdirici toxumanın anadangəlmə zəifliyidir. İrsiyyətlə yanaşı, digər amillər də böyük əhəmiyyət kəsb edir:

raxit - sümüklər və əzələlər ilk növbədə təsirlənir;

ayağı meydana gətirən sümüklərin qırıqları - metatarsallar, ayaq biləyi, topuqlar və başqaları;

poliomielit - alt ayağın və ayağın əzələlərinin parezinə səbəb olur; ensefalopatiya - əzələ tonunu dəyişir;

ayaq barmaqlarının və dabanının xaricə çevrildiyi düz-valgus ayaq.

Zəif birləşdirici toxuma ilə dəyişikliklər əlverişsiz amillərlə təhrik edilir: uzun müddət dayanma, istirahət etmədən uzun müddət gəzinti və uyğun olmayan ayaqqabılar (qalın, sərt altlıq, yanlış ölçü), piylənmə, ayağın yükünü artırır[2].

Açar sözlər: ortopedik ayaqqabılar, düz ayaqlar, xüsusi ortopedik hissələr, texniki reabilitasiya vasitələri.

ƏDƏBİYYAT

1. N. Savina, N. Beck, M. Beck, T. Zakhozhaya, I. Klyueva "Uşaqlar və böyüklər üçün ortopedik ayaqqabıların modelləşdirilməsi, dizaynı və keyfiyyətinə nəzarət" Tədris bələdçisi. "İnfra-M" nəşriyyatı, 2016- s.96

2. Zaxarova İ.V., Kuşnikov E.İ. "Ayaq deformitələrinin profilaktikası və korreksiyası üzrə ortopediyaya müasir baxış" .Elmi icmal. Tibb Elmləri. – 2023. – No 2. – S.45-50;

АНАЛИЗ МЕТОДОВ ХУДОЖЕСТВЕННОГО ОФОРМЛЕНИЯ ДЕТСКОЙ ОРТОПЕДИЧЕСКОЙ ОБУВИ

Айгюн Вугар кызы Гусейнгулиева
h.aygun.v@gmail.com
Тариверди Гурбан оглы Каримов
Азербайджанский Технологический Университет

В результате исследований в данной статье было установлено, что ортопедическая обувь играет важную роль в профилактике и лечении заболеваний стопы. Она должна быть изготовлена с учетом анатомии стопы. Вот почему важно обратиться к квалифицированному ортопеду за советом по их использованию.

Ключевые слова: ортопедическая обувь, плоскостопие, специальные ортопедические детали, технические средства реабилитации

ANALYSIS OF ARTISTIC DESIGN METHODS FOR CHILDREN'S ORTHOPEDIC SHOES

Aygun Vugar gizi Huseynguliyeva
h.aygun.v@gmail.com
Tariverdi Gurban oglu Karimov
Azerbaijan Technological University

As a result of the research in this article, it was established that orthopedic footwear plays an important role in the prevention and treatment of foot diseases. It should be made taking into account the anatomy of the foot. That's why it's important to consult a qualified orthopedist for advice on their use.

Key words: orthopedic shoes, flat feet, special orthopedic details, technical means of rehabilitation.

AZƏRBACAN XALÇALARININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN MƏZMUNU

Raisa Xələf qızı Aslanova
raisaaslanova77@gmail.com
Sevil Cəmil qızı Məmmədova
s.memmedova@atu.edu.az
Tahirə Dilən qızı Həsənova
tahirehesenova562@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Azərbaycan xalçalarının tarixi inkişaf yolları və texniki xüsusiyyətləri ilə yanaşı onların bədii xüsusiyyətləri və məzmunu da xüsusi qeyd edilməlidir. Xalçalarımızın bədii xüsusiyyətləri və məzmunu ən əvvəl ornamentlərdən asılıdır. Məlum olduğu kimi ornament tətbiq olunduğu sənət nümunəsini bəzəməklə yanaşı, həm də onun məzmununun üzə çıxarılçasına xidmət edir. Elə buna görə də ornament öz məzmunu, forması və rəngi ilə sənət əsəri ilə sıx əlaqədə olur və onunla vəhdət təşkil edir.

Tədqiqatlar göstərir ki, keçmişdə sənət əsərlərinə vurulan ornamentlər heç vaxt sərbəst xarakter daşımamış və həmişə ənənəvi qanunlar əsasında icra edilmişdir.

Xalçalarda istifadə olunan ornamentlər çox müxtəlif olsa da, onları 5 qrupa bölmək olar:

1. Həndəsi ornamentlər
2. Nəbati ornamentlər
3. Stilizə olunmuş ornamentlər
4. Kalliqrafik ornamentlər.
5. Emblem və simvol mahiyyətli ornamentlər.

Azərbaycan ornamenti sahəsində aparılmış tədqiqat işləri göstərir ki, bir çox həndəsi ornamentlər (düz,qırıq, dalğavari xətlər,üçbucaq, dördbucaq, dairə, beş, altı, səkkiz guşəli ulduz və s) çox qədimdən inkişaf edərək , nisbətən arxaik formada olsa da bu günə qədər öz bədii ideya əhəmiyyətini itirməmişdir.(şəkil 1).



Şəkil 1.

Hazırda bəzək xarakteri daşıyan bu ornamentlərin çoxu uzaq keçmişdə xüsusi məna kəsb etmi, özü də həyat və məişətdə rast gəlinən bir çox real canlı və cansız əşyanı əks etdirmişdir.

Araşdırmalar göstərir ki,həndəsi naxışlar Azərbaycanda əvvəllər nisbətən sadə və bəsit olsa da, sonralar xüsusilə orta əsrlərdə (XI-XIV əsrlərdə) zənginləşmiş və çox mürəkkəb şəkil almışdır.

Dekorativ tətbiqi sənət əsərlərində tez-tez rast gəlinən həndəsi formalı ornamentlər nisbətən quru, statik üslubda, özü də əksər hallarda o biri bəzəklərlə əlaqəsiz şəkildə işlənsədə, öz orjinallığı da mənası ilə daim diqqəti cəlb edirdi.

Nəbati ornamentlər - Azərbaycanın parça xalça və tikmələrində xüsusilə geniş yayılmış, XV- XIX əsrlərdə yüksək inkişaf mərhələsinə çatmışdır. Nəbatat aləminin formalarından (yarpaq, çiçək, budaq,ağac) istifadə edilmiş bu ornamentlərdə Azərbaycan ustaları əsrlər boyu xalqın istək və arzusunu, zövqünü bədii şəkildə açıb göstərə bilmişlər.

Nəbati ornamentlərimiz içərisində ən çox yayılmışları aşağıdakılardır.

Güllərdən: lalə, qızılgül, qərənfil, nərgiz, zanbaq, süsən, nilufər və s.

Ağaclardan:sərv, nar, palıd və s.

Adətən, simmetriya əsasında qurulmuş nəbati ornamentlərdə budaqlar əsas ana xətti, onların üzərində yerləşən gül-çiçək və yarpaqlar isə əlavə ünsürləri təşkil edirdi, spirala bənzər budaqların təsvirləri bütünlüklə bəzədilən sahənin forması və ölçüsündən asılı olurdu. Ağacların təsvirləri isə, bir qayda olaraq, geniş sahədə, özü də kompozisiyanın mərkəzində verilirdi.

Nəbati ornamentlərimiz içərisində çox yayılmış kompozisiya quruluşlarından biri "İslimi" adı ilə geniş şöhrət tapmış naxış ünsüründən ibarətdir. Bu nəbati ornament təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərq xalqlarının ornamental sənətində də görkəmli yer tutur.

"İslimi" dalğavari xətt üzərində bir tərəfi yuxarı qalxan, o biri tərəfi aşağı sallanan və gül, çiçək, yarpaq bənd olunmuş rəsm formasına deyilir.

"İslimi" tipli bəzəklər adətən bəzədilən əşyanın kənarlarına haşiyə kimi vurulurdu, "İslimi" öz dinamik, elə bil ki, daim hərəkətdə olan rəsmi ilə dairəvi əşyaları (araqçın, şəbgülah, arxalıq, çəpkən, don ətəkləri və s. bəzəyərkən) xüsusilə gözəl və bədii görünürdü.

Stilizə olunmuş ornamentlər: Canlıların fiqurlarından quraşdırılmış ornamentlər ən geniş yayılanı heyvan rəsmləridir. Bu tipli rəsmlər adətən üç qrupa bölünür: ev heyvanı, vəhşi heyvan və fantastik heyvan rəsmləri. Keçmişdə ev heyvanları işərisində ən geniş yayılanı at, öküz, qoyun və dəvə var idi.

Şəkil 2.

Sənəd nümunələrində (xüsusi xalçalarda) bu rəsmlər həmişə tam halda deyil, bəzən hissə-hissə, məsələn, qoç buynuzu, keçi dabanı, pişik ayağı, dəvə ləpiri, qurd izi və s. şəkildə stilizə edilmiş halda da təsvir olunurdu.

Kalliqrafik ornamentlər: Azərbaycanın xalçalarında parça və tikmentlərində ta qədimdən tutmuş bu günədək müxtəlif səpkili yazılara rast gəlirik. Bu yazılara ideoloji (qurandan götürülmüş ayələr, dua və s.), ya bədii (görkəmli Şərq şairlərinin şerlərindən götürülmüş parçalar və ya xətttatlıq sənətinin gözəl bir nümunəsi və s).məna daşıyır, ya da məlum əsəri yaradan şəxsin adını, yaxud hər hansı tarixi günü, faktı əks etdirərək əməli əhəmiyyət kəsb edirdi.

Emblem və rəmzi mahiyyətli ornamentlər: Hazırda Azərbaycan xalçalarında bəzək xarakterli bir çox ornament motivi və rəsmi vardır ki, bunlar keçmişdə emblem və rəmzi məna kəsb etmiş və xalqın həyat və məişətində xüsusi rol oynamışdır. Emblem mahiyyətli bəzəklər (heyvan, quş, ağac, gül təsvirləri və s.) insanlarda təbiətin canlı və cansız əşyaları haqqında real təsəvvür yaratdığı halda simvollar (dairə, üçbucaq, svastika, xaç və s) bu əşyalar haqqında real təsəvvür yaratmayıb, ancaq onların şərti mənasını göstərir və subyektiv xarakter daşıyır.

Açar sözlər: xalça, bədii tərtibat, ornament

ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКИХ КОВРОВ И ИХ СОДЕРЖАНИЕ

Раиса Халаф Асланова
raisaaslanova77@gmail.com
Севиль Джамиль Мамедова
s.memmedova@atu.edu.az
Тахира Дилан Гасанова
tahirehesenova562@gmail.com
Азербайджанский Технологический Университет

Наряду с историей Азербайджанских ковров, путем развития и техническими особенностями, также следует особо отметить их художественные особенности и содержание.

Ключевые слова: ковер, художественное оформление, орнамент

ARTISTIC FEATURES OF AZERBAIJANI CARPETS AND THEIR CONTENT

Raisa Khalaf Aslanova
raisaaslanova77@gmail.com
Sevil Jamil Mammadova
s.memmedova@atu.edu.az
Tahira Dilan Hasanova
tahirehesenova562@gmail.com
Azerbaijan Technological University

Along with the history of Azerbaijani carpets, development paths and technical features, their artistic features and content should be noted.

Key words: carpet, decoration, ornament

DONLUQ PAMBIQ PARÇALARIN KEYFİYYƏTİNİN TOXUNMA PROSESİNDƏ FORMALAŞDIRILMASININ TƏDQİQİ

Firdovsi Əsgər oğlu Babayev
firdovsi.babayev1942@gmail.com
Əsgər Firdovsi oğlu Babazadə
asker_gih@mail.ru
Xəyalə Tahir qızı Babayeva
ferecova@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Donluq pambıq parçaların keyfiyyətinin formalaşdırılmasına təsir edən obyektiv amillər arasında texnoloji proses əhəmiyyətli yer tutur. Belə ki, hər bir növ parçanın istehsalında keyfiyyətli xammal və materiallarla yanaşı toxunma prosesində həlledici əhəmiyyəti vardır.

İstehlak üçün vacib sayılan yararlı xassələr əsasən toxunma prosesində formalaşdırılır.

Donluq pambıq parçaların toxunmasının özü hazırlıq əməliyyatına və toxunmanın özünə ayrılır. Ümumiyyətlə parça polotnosu 2 sistem sapların yəni əriş və arğac saplarının toxucu dəzgahlarda toxunması nəticəsində alınan material hesab olunur [1].

Hazırlıq əməliyyatı əriş və arğac saplarının toxunmaya hazırlanması kimi başa düşülür. Burada həm əriş saplarının və həm də arğac saplarının toxunmaya hazırlanmasını bir-birindən fərqləndirmək lazımdır. Əriş saplarının toxunmaya hazırlıq əməliyyatı sarınmadan, şlixtlənmədən və remizin gözlüyündən keçirməkdən ibarətdir [2].

Əriş saplarının sarınması prosesi sarıyıcı maşınların köməyi ilə babinlərə sarınmaqla başa çatır. Məqsəd isə sapların uzunluğunun artırılmasından ibarətdir. Sapların babinlərə sarınması zamanı müəyyən səviyyədə dartılmaya məruz qalır, düzləndirilir, bu isə onun quruluşunun formalaşmasına şərait yaradır. Sarınma zamanı üzərində lif qırıntıları, zibillər tökülür gözə çarpan nöqsanlar aradan qaldırılır. Daha sonra əriş sapları müəyyən qaydada çoxlu sayda kələfin sarıyıcı köməkliyi ilə əriş valikinə sarınır. Şlixtləmədə əriş saplarına yüksək hamarlıq, davamlılıq vermək üçün yapışqanlı və yumşaldıcı tərkibə malik maddə hopdurulur. Şlixtləmə prosesindən keçən əriş sapları toxucu navoyuna sarınır [3].

Toxucu dəzgahında navoydan açılan saplar remizlərin gözlüyündən keçirilir. Adətən remizlərin sayı toxunacaq parçanın naxışlarının sayından asılıdır.

Arğac sapının hazırlanması prosesi onun məkiyə sarınması və rütubətləndirilməsindən ibarətdir. Bu zaman arğac sapı zibillərdən təmizlənir, bir neçə əyrilmə nöqsanlarından kənar olunur, habelə sapın uzunluğu çoxaldılır. Arğac sapının rütubətləndirilməsində məqsəd qırılmanın azaldılmasından ibarətdir ki, bunu da ya buxara verməklə və yaxud da emulsiya iştirakı ilə emal edilməklə başa çatdırılır.

Parçanın quruluşu və xassələri əsasən toxunma prosesində formalaşdırılır. Toxunma xüsusi toxucu dəzgahlarında əriş və arğac saplarının bir-biri ilə növbəti qaydada çarpazlaşdırılması hesabına yaradılır [4].

Toxunma növündən asılı olaraq parçaların həm quruluşu və həm də xassələri əsaslı surətdə dəyişilir. Parçanın üzərindəki toxunma naxışların təkrarlanması rapport adlanır.

Müasir parça sənayesində sadə və ya baş toxunma, xırda naxışlı və iri naxışlı toxunmalardan istifadə olunur. Sadə toxunmalara polotno, sarja və atlas toxunmaları aiddir. Bu toxunma rapportda iştirak edən sapların sayı və addımın hündürlüyü ilə

xarakterizə olunur. Sadə toxunmalarda əriş sapı üzrə rapport arğac sapı üzrə olan rapporta bərabərdir. Çünki, hər bir sistemə daxil olan sap digər sistemə daxil olan bir dəfə toxunmada iştirak edir. Elə bu prinsipdən asılı olaraq sadə toxunmaya daxil olan polotno, sarja və atlas toxunmaları donluq pambıq parçalarda hər birinin özünə məxsus quruluşu və xassələri vardır. Polotno toxunuşlu donluq pambıq parçalarda bir əriş sapı bir arğac sapı ilə toxunmada iştirak etdiyinə görə parçanın cırılmaya, sürtünməyə, təkrar qatlamalara qarşı davamlığı atlas toxunuşlu parçalardan yüksəkdir.

Donluq pambıq parçaların bəzək əməliyyatı bir çox proseslərdən ibarətdir. Bu proseslərdən əsasların ağardılmasından, merserizə edilməsindən, boyanmasından və s. ibarətdir. Parçanın ağardılması qabaqca hazırlanan parçaların xüsusi ağardıcı məhlullardan qipoxloriddən keçirilməsi deməkdir.

Parçanın ağardılmağa hazırlanması üçün ütülərək nişastadan azad edilir və bişirilir. Parça ütülən zaman üzərində olan pambıq liflərin ucları parçanın üzərindən götürülür.

Merserizasiya əməliyyatı parçanın dartılma vəziyyətdə ən çox 20^{o} temperaturda natrium hidroksid məhlulundan keçirməkdən ibarətdir. Bu əməliyyat parçaya davamlılıq, yuyulandan sonra getməyən parıltı və yumşaqlıq verir. Boyaq götürmək qabiliyyətini artırır.

Donluq pambıq parçaların keyfiyyətinin toxunma prosesində formalaşdıran amillər müəyyən edilmişdir. Tədqiqat işində əsas məqsəd donluq pambıq parçaların istehsalında istifadə edilən toxunma növünü seçməklə geyim üçün donluq pambıq parçaları təyinatına uyğun seçmək və ondan tikiş sənayesi üçün donluq pambıq parçalar hazırlamaqdır.

Açar sözlər: don, pambıq, parça, keyfiyyət, toxunma, formalaşdırma, tədqiqat, nəticə.

ƏDƏBİYYAT

1. Həsənov Ə.P., Vəliməmmədov C.M. "Əmtəəşünaslığın nəzəri əsasları". Bakı. 2014.s.156
2. Гордеев В.А. "Ткацкие переплетения и анализ тканей". М.: 1969. с.259
3. Həsənov Ə.P. "Parçaların ekspertizasının aparılmasına dair metodik göstəriş" Bakı, 2006. S.260
4. Həsənov Ə.P. və b. "İstehlak mallarının ekspertizasının nəzəri əsasları" Bakı. 2006.s.230

ИССЛЕДОВАНИЕ ФОРМИРОВАНИЯ КАЧЕСТВА ПЛАТЬЕВЫХ ХЛОПКОВЫХ ТКАНЕЙ В ПРОЦЕССЕ ТКАЧЕСТВА

Фирдовси Аскер оглы Бабаев
firdovsi.babayev1942@gmail.com
Аскер Фирдовси оглы Бабазаде
asker_gih@mail.ru
Хаяала Тахир кызы Бабаева
ferecova@mail.ru
Азербайджанский Технологический Университет

Разработаны формирующие факторы качества хлопковых платьевых тканей в процессе ткачества. Основная цель работы - правильный выбор используемых видов ткачества для производства платьевых хлопковых тканей, выбор материала для одежды по назначению и исследования этих тканей в швейной промышленности.

Ключевые слова: платьевая, хлопок, ткань, качество, переплетение, формование, исследование, результат

THE STUDY OF THE FORMATION OF THE QUALITY OF COTTON FABRIC IN THE WEAVING PROCESS

Firdovsi Asker Babayev
firdovsi.babayev1942@gmail.com
Asker Firdovsi Babazade
asker_gih@mail.ru
Khayala Tahir Babayeva
g.abbasova@uteca.edu.az
Azerbaijan Technological University

The main peculiarities forming the quality of the dress saving textiles during process. The importance of the usage of the information given in this research paper. The aim of this article is to dyne the weaving. King during the formation of the dress fabric in order to choose its usage purpose and utilizing it in the fabric industry.

Key words: dress, cotton, cloth, weaving, quality, research, result.

BİRLAYLI VƏ ÇOXLAYLI UŞAQ GEYİMLƏRİNİN TERMOTƏNZİMLƏNMƏ TEXNOLOGİYASI

Tofiq Hacı oğlu Mirzəyev
Elnurə Əlixan qızı Xudiyeva
ealixanovna@bk.ru
Azərbaycan Texnologiya Universiteti

Uşaq geyimlərinin termotənzimlənmə texnologiyası, uşaqların bədən temperaturunu tənzimləmək və onları isti və soyuq hava temperaturlarında konfort şəraiti təmin etmək üçün nəzərdə tutulmuşdur. Birlaylı və çoxlaylı uşaq geyimlərinin üstünlükləri və istifadə imkanları fərqlidir. Hər iki növ materiallardan istifadə zamanı geyimin özünəməxsus xassələri olduğu üçün müxtəlif hava şəraitində optimal rahatlıq və soyuqdan qorumanı təmin edilməsi nəzərdə tutulmuşdur.

Cədvəl 1. Birlaylı və çoxlaylı geyimlərin xüsusiyyətləri

Xüsusiyyətlər	***Birlaylı geyimlər***	***Çoxlaylı geyimlər***
Dizayn	Sadə	Modulyar
Havakeçirmə	Yaxşı	Hər qatın məxsusi xasəsi vardır
Rahatlıq	Yüngül olması və hərəkət azadlığı təmin edir	Həm birqatlı. Həm də çoxqatlı geyimlərdə hərəkət sərbəstliyi təmin edilir.
İstilik tənzimlənməsi	Qeyri məhduddur	Effektiv və adapttiv istilik izolyasiyası
Hava şəraitinə uyğunluq	Isbi isti hava şəraitində optimal	Fərqli hava şəraitinə uyğun olaraq dəyişdirilə bilər.
Baxım	Asan	Nisbətən çətin

Geyim uşaqların rahatlığını və soyuqdan qorunmasını təmin etmək üçün hazırlanmalı və uşaqların ehtiyaclarına, hərəkətlərinə uyğun olaraq seçilidir. Termotənzimlənmə texnologiyaları birlaylı və çoxlaylı geyimlərdə hərəkətləri fəqli məhdudlaşdırır. Termotənzimlənmə texnologiyasının əsas prinsiplərini və istifadə üsullarını nəzərdən keçirək:

Birlaylı uşaq geyimləri adətən tək material qatından ibarət olur. Bu geyimlərdə termotəzimlənmə texnologiyası aşağıdakıları özündə ehtiva edir.

- havakeçirmə qabiliyyəti - materialın yaxşı havakeçirməsi uşaqların dərisinin nəmli qalmasının qarşısını alır və təri effektiv şəkildə buxarlandırır. Dərinin nəfəs almasına imkan yaradır.

- Hidroskopiklik qabiliyyəti - materialların nəmi udmaq və yenidən atmosferə qaytarmaq qabiliyyətidir ki, bu zaman uşağın dərisinin quru qalması təmin olinur. Bu xassə əsasən sintetik materiallarda çox aşağı göstərici (5 %-qədər) olduğu üçün belə materiallardan uşaq geyimləri istehsalı standart göstəricilərə cavab vermir.
- Cəm istilik keçirmə əmsalı - istilik izolyasiya edən materiallar (yunu, vatin, flezelin, sintatin və s.) soyuq havada uşaq bədəninin istilik itirməsinin qarşısını alır.
- Günəşin ultrobənövşəyi şüalarından qorunma - xüsusiyyətləri olan materiallar yayda uşağın dərisini zərərli ultrabənövşəyi şüalardan qoruyur.

Çoxlaylı geyimlər, müxtəlif materiallardan hazırlanmış bir neçə qatın kombinasiyasından ibarətdir. Bu geyimlər daha geniş temperatur diapazonunda istifadə oluna bilər və aşağıdakı texnologiyalardan istifadə olunur:

1.Əsas qat (Base Layer):

- Nəmi udma və üst qatlara keçirə bilmə - əsas qat nəmi dəridən uzaqlaşdıraraq uşağın dərisinin quru qalmasını təmin edir. Bu qat üçün adətən təbii materiallardan istifadə olunur.
- Havakeçirmə qabiliyyətli qat - dərinin tərləməsinin qarşısını alır və nəfəs almasını asanlaşdırır.

2.İsti araqatı (Insulation Layer):

- İsti araqatı - orta qat uşağın bədən istiliyini saxlamaq üçün nəzərdə tutulub. Bu qatın materialları adətən yüngül, lakin yüksək istilik mühafizə qabiliyyətinə malik olur
- Havalandırma qaı - istilik mühafizə qatı həm də müəyyən dərəcədə havalandırma xüsusiyyətinə malik ola bilər ki, bu da həddindən artıq istilənmənin qarşısını alar.

3.Xarici qat (Outer Layer):

- Su və küləyə müqavimət - xarici qat uşağı küləkdən və atmosfer çöküntlərindən qoruyur. Su keçirməyən materiallar bu qat üçün idealdır.
- Havakeçirmə qabiliyyəti - bu qat həm də nəfəsalma xüsusiyyətinə malik olmalıdır ki, alt qatların nəmi buxarlanaraq xaricə çıxa bilsi təmin olunsun.

Termotənzimlənmə texnologiyalarının tətbiqi:

- Geyimlərin kombinasiyası: Çoxlaylı geyimlərdə müxtəlif qatların kombinasiyası uşağın hər hansı hava şəraitində rahat olmasını təmin edir. Uşağın fəaliyyət növünə və hava şəraitinə uyğun olaraq laylar əlavə edilir və ya çıxarılır.
- İnnovativ materiallar - texnoloji inkişaf sayəsində, termorequlyasiya xüsusiyyətlərinə malik materiallar daha effektiv olur. Bu materiallar həm yüngül, həm də yüksək rahatlıqlı olmalıdırlar.

Açar sözlər: termotənzimləmə texnologiyası, geyimlərin kombinasiyası, materiallar, havakeçirmə qabiliyyəti

ТЕХНОЛОГИЯ ТЕРМОРЕГУЛЯЦИИ ОДНОСЛОЙНОЙ И МНОГОСЛОЙНОЙ ДЕТСКОЙ ОДЕЖДЫ

Тофиг Гаджи оглы Мирзоев
Елнура Алихан гызь Худийева
ealixanovna@bk.ru
Азербайджанский Технологический Университет

В терморегуляции детской одежды используются специальные технологии и материалы, позволяющие регулировать температуру тела детей и обеспечивать им комфорт в различных погодных условиях. Это особенно важно для активных детей и при меняющихся погодных условиях. Основные принципы и технологии, используемые при терморегуляции детской одежды, включают управление температурой, управление влажностью и защиту. Технологии, используемые в детской одежде:

1. Gore-Tex: Водонепроницаемый, ветрозащитный и дышащий материал. Используется для защиты детей от дождя и ветра.

2. Тинсулейт: Легкий материал, обеспечивающий высокую теплоизоляцию. Используется в зимней одежде.
3. Coolmax: Это материал с высокой воздухопроницаемостью и влагопоглощением. Подходит для активной деятельности.
4. Мериносовая шерсть: Это натуральный материал, обеспечивающий легкость, воздухопроницаемость и теплоизоляцию. Используется для базовых слоев.
Ключевые слова: технология терморегуляции, комбинация одежды, материалы, воздухопроницаемость

THERMOREGULATION TECHNOLOGY OF SINGLE-LAYER AND MULTI-LAYER CHILDREN'S CLOTHING

Tofig Haji oglu Mirzayev
Elnura Alixan gizi Khudiyeva
ealixanovna@bk.ru
Azerbaijan Technological University

Thermoregulation of children's clothing uses special technologies and materials to regulate children's body temperature and keep them comfortable in different weather conditions. This is especially important for active children and in changing weather conditions. The main principles and technologies used in thermoregulation of children's clothing include Thermal Management, Moisture Management and Protection. Technologies Used in Children's Clothing:
1. Gore-Tex: Waterproof, windproof and breathable material. It is used to protect children from rain and wind.
2. Thinsulate: It is a light material that provides high thermal insulation. It is used in winter clothes.
3. Coolmax: It is a material with high breathability and moisture absorption. Suitable for active activities.
4. Merino Wool: It is a natural material that provides light, breathable and thermal insulation. Used for base layers.
Key words: thermoregulation technology, clothing combination, materials, breathability

ƏYİRİCİLİK MƏQSƏDİ İLƏ EMAL EDİLƏN PAMBIQ LİFLƏRİNİN KEYFİYYƏTİNİN TƏCRÜBİ QİYMƏTLƏNDİRİLMƏSİ

Sayad qızı Məhərrəm Şükürova
Hüsnü Qədir oğlu Kərimov
kerimov_husnu@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Hazırda tekstil sənayesində müxtəlif xarakterli tekstil liflərindən isifadə edilir: kimyəvi, süni, sintetik, təbii liflər, bunlardan əsası isə bu sahənin əsas xammal bazasını təşkil edən pambıq lifləridir.Son illər ölkəmizdə rayonlaşdırılan xarici BA 440 (Türkiyə pambığı), Prime PRG 9811 (Yunanıstan pambığı), Namanqan 34 (Özbəkistan) pambıqları ilə yanaşı Gəncə 160, Gəncə 182 pambığının timsalında yerli perspektiv pambıq sortlarımız da yüksək texnoloji göstəriciləri ilə seçilir. Məqalədə, xarici introduksiya olunmuş və yerli pambıq sortlarının mahlıcının texnoloji göstəriciləri təcrübi qiymətləndirilmişdir.

Hazırda Respublikamızın Pambıq Emalı müəssisələrində emal olunan mahlıcın keyfiyyət göstəricilərini qiymətləndirmək üçün AX 2 analizatorundan istifadə olunur. Lakin bu analizatorla az sayda göstəricilər təyin edilir, həm da istənilən nəticəni almaq mümkün olmur. Əyiricilik məqsədi üçün pambıq liflərinin keyfiyyətinin təcrübi olaraq qiymətləndirilməsi müasir SİTC (HVİ) testi ilə yeni metodikaya uyğun aparıldığından mövzu aktualdır.

Respublikamızda bu sahədə görkəmli alimlər prof. M.H. Fərzəliyev, prof. C.Ə. Hacıyev, prof. F.Ə. Vəliyev, prof. V.N.Hüseynov, prof. M.N. Nuriyevin böyük xidmətləri vardır. Dünya alimlərindən isə prof. A.Q. Sevostyanov, prof. V.P. Şerbakov, prof., R.Z.Burnaşev, prof. R.V.Korabelnikov, prof.Solovyov A.N. kimi alimlərin xidmətlərini göstərmək olar.

Müəyyən olunmuşdur ki, ulyuk (inkişafdan qalmış toxum) və texnoloji prosesdə işçi orqanların pambıq kütləsinə mexaniki zərbəsi ilə əmələ gələn "lifli qabıq" qüsurları mahlıcın keyfiyyətini aşağı salan səbəblərdir. Xarici seleksiya sortlarının vegetasiya dövrü çox olduğundan onların tərkibində yetişməmiş çiyidin miqdarı normadan çox olur. Bu baxımdan tədqiqatlar xarici sortlarla yerli pambıq sortları üzərində aparılmışdır [1].

Əvvəlcə yerli pambıq sortlarının morfoloji, fiziki-mexaniki və texnoloji xüsusiyyətləri öyrənilmişdir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, mahlıcda "lifli qabıq" qüsurunun yaranma səbəblərindən biri də lif dəstəsinin çiyidin səthindən qoparılma qüvvəsidir (qq/mq). Bu qüvvə cinləmə prosesində məhsuldarlığa, cinin işçi kamerasında pambıq valikinin sıxlığına, enerji sərfinə təsir edən amildir. Belə ki, bu qüvvənin qiyməti azaldıqca cinləmə prosesi yaxşılaşır və "lifli qabıq" qüsurunun yaranması azalır.

Bildiyimiz kimi, liflərin keyfiyyətini qiymətləndirərkən qalınlıqlarını (nazikliyini), uzunluqlarını və uzunluğa görə qeyri-bərabərliyini bilmək lazımdırsa, saplar üçün isə təkcə qalınlığını (nazikliyini) bilmək yetərlidir [2].

Məlumdur ki, Pambıq Emalı müəssisələrində reqlamentli texnoloji prosesə uyğun olaraq cin maşınlarında çiyiddən ayrılan mahlıc qüsurlar cəmindən təmizlənməl üçün mahlıctəmizləyici maşınlara verilir. Sonra isə komdensorun vasitəsi ilə pres maşınına verilərək döyəclənir və kip halına salınır və bu kiplər əyiricilik istehsalatına göndərilir [3]. Bu zaman pambıq lifləri müəyyən zərbə qüvvələrinə məruz qalır. Ona görə də tədqiqat aparmaq üçün mahlıctəmizləyici maşınlardan nümunələr götürülmüş və Gəncədə BM və TBETİ-da yerli və introduksiya olunmuş pambıq sortlarının mahlıcının texnoloji göstəriciləri tədqiq olunmuşdur.

Cədvəl 1.Pambıq sortlarının mahlıcının texnoloji göstəriciləti

Sıra sayı	Sortlar	Xam pambıq	Mahlıc						Digər texnoloji xarakteristikalar		
		Ulyukluğu,%	Cəmi,%	Ulyuk,%	Çiyidin qırıqları,%	Lifli qabıq,%	Eşilmələr və birləşik eşilmələr,%	Düyünlər,%	Lifin uzunluğa görə bərabərliyi	Qısa liflərin tutumu,%	Lifin uzunluğuna görə variasiyası,%
1	BA − 440	0,43	2,40	0,40	0,42	0,48	0,30	0,02	888	9,5	23,0
2	Prime PRG 9811	0,55	2,72	0,48	0,37	0,57	0,42	0,03	867	9,0	21,0
3	Gəncə -160	0,36	2,20	0,29	0,33	0,42	0,18	0,01	880	9,0	20,4
4	Gəncə -182	0,35	2,34	0/30	0,40	0,41	0,26	0,01	820	9,5	20,8

Sonra isə pambıq mahlıcını lifin uzunluğuna, uzunluğa görə bərabərlik indeksinə, rəng və zibilliyinə sınaqdan keçirmək üçün "Standartizet instrumrntes for testinq of cotton" (SİTC) standartlaşdırılmış alətindən və xüsusi tətbiq metodlarından istifadə edərək Gəncə Tekstil Fabrikində, həmşinin Mingəçevir İplik Fabrikində laboratoriyada təcrübələr keçitilməsi nəzərdə tutulur [4].

Xüsusi tətbiq metodları – Pambıq mahlıcı nümunəsinin müxtəlif yerlərindən götürülmüş və çoxsaylı bölmələr aparılaraq, kütləsinin azaldılması yolu ilə alınmış kiçik nümunə üzərində aparılan instrumental sınaq metodudur. Baxmayaraq ki, bu metod böyük zəhmət, çox vaxt tələbi ilə seçilir və mahlıcın sertifikatlaşdırılmasında istifadə olunmur, lakin bu metoddan xam pambığın və mahlıcın keyfiyyətinin qiymətləndirilməsində,

seleksiya işində və pambıq zavodlarının, toxuculuq müəssisələrinin texnoloji prosesinə nəzarətdə istifadə olunur. Bu metoda əsaslanaraq təyin olunan göstəricilərin mahiyyəti aşağıdakılardan ibarətdir.

Açar sözlər: əyiricilik, pambıq lifi, keyfiyyət, metodika, qiymətləndirmə

ƏDƏBİYYAT

1. Hüseynov V.N. Pambığın ilkin emalının texnologiyası. Bakı – 2015. s.283
2. Hacıyev C,Ə, Yarımnizamlı məmulatların texnologiyası və hesablanması. Bakı – 2016. s.248
3. Севостьянов А.Г., Методы и средства исследования механико – технологических процессов текстильной промышленности М., 1980. с.312
4. AZS 151 – 2023 Pambıq mahlıcı. Texniki şərtlər

ЭКСПЕРИМЕНТАЛЬНАЯ ОЦЕНКА КАЧЕСТВА ХЛОПКОВОГО ВОЛОКНА ПЕРЕРАБОТАННОГО ДЛЯ ПРЯДЕНИЯ

Саяд Магеррам Шукюрова
Хусну Гадир оглы Керимов
kerimov_husnu@mail.ru
Азербайджанский Технологический Университет

Настоящее время в текстильной промышленности используются различные виды текстильных волокон: химические, искусственные, синтетические, натуральные, основными из которых являются хлопковые волокна, составляющую основную сырьевую базу данной отрасли.

В последние годы в стране наряду с зарубежными селекционными сортами, таких как BA – 440 (Турецкий хлопок), Prime PRG 9811 (Грецеский хлопок), Наманган 34 (Узбекский хлопок) выращиваются и местные перспективные сорта Гянджа 160, Гянджа 182 отличающиеся высокими технологическими показателями.

В статье, экспериментально оценены технологические показатели хлопкового волокна селекции зарубежных интродуцированных и местных сортов.

Ключевые слова: прядение, хлопковое волокно, качество, методика, оценка

EXPERIMENTAL ASSESSMENT OF THE COTTON FIBER QUALITY PROCESSED FOR SPINNING

Sayad Maharram Shukurova
Husnu Gadir Karimov
kerimov_husnu@mail.ru
Azerbaijan Technological University

Currently, the textile industry uses various types of textile fibers: chemical, artificial, synthetic, natural, the main of which are cotton fibers, which constitute the main raw material base of this industry.

In recent years, in the country, along with foreign breeding varieties such as BA - 440 (Turkish cotton), Prime PRG 9811 (Greek cotton), Namangan 34 (Uzbek cotton), local promising varieties Ganja 160, Ganja 182, characterized by high technological indicators, have been grown.

The article experimentally evaluates the technological indicators of cotton fiber selection of foreign introduced and local varieties.

Key words: spinning, cotton fiber, quality, methodology, assessment

PALTOLAR ÜÇÜN YUN PARÇALARIN İSTİSMAR VƏ GİGİYENİK TƏLƏBLƏRİNİN LABORATOR EKSPERTİZASI

Məryəm Eldəniz qızı Atakişiyeva
Hüsnü Qədir oğlu Kərimov
kerimov_husnu@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Yun parçaların istismar xassələri müxtəlif üsullarla ekspertizadan keçirilir. Bu üsullardan biri də laboratoriya üsuludur.

Yun parçaların istismar xassələrinin laboratoriya üsulu ilə ekspertizadan keçirilməsində müxtəlif cihazlardan istifadə edilir. Bu üsulun üstün cəhəti ondan ibarətdir ki, digər üsullardan fərqli olaraq təsadüfliyə yol verilmir, istehsalçılarla istehlakçılar arasında olan münaqişəyə son qoyulur. Labaratoriya üsulu ilə xassə göstəricilərinin ekspertizası zamanı nəzərdə tutulmuş otağın temperaturu və nisbi nəmliyi normaya uyğun olmalıdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq paltoluq yun parçasının istehlak xassələrinin laboratoriya üsulu ilə tədqiq olunması qarşıya qoyulmuşdur. İstismar xassələri tikili malların təyinatından asılı olaraq müəyyən edilir.

Labaratoriyla üsulu ilə istismar xassələrin ekspertizası üçün 100% yun art. 3650 "paltoluq ikiqat drap" parcası qəbul edilmişdir.

İstismar tələbatları məmulatın müxtəlif xarici təsirlərə qarşı dözümlüyünü (geyimin sərbəst daşınmasını) və mümkün təmirini, kimyəvi təmizlənməsinin asan olmasını müəyyən edən xüsusiyyətlərdən ibarətdir. Geyimin istismar tələbatlarının əsas göstəriciləri cədvəl 1-də verilmişdir.

Cədvəl. 1 Yun parçadan geymlərin əsas istismar göstəricilərinin laborator analiz nəticələri.

Məmulatın təyinatı və növü	Istismar xassələri üzrə göstəricilər							
	Möhkəmliyi (qırılma yükü), N	Qırılmada nisbi uzanma,%	Əyilmə sərtliyi, $mq.sm^2$	Həcmi qısalma, %	Sürtülmədən dağılma müqaviməti, $dəq^{-1}$	Temperaturaaqaşı davam- alılıq, °S	Şaxtaya qarşı davam – lılıq, °S	Yuyulmadan dağılma müqaviməti, (ədədlə)
Yarım yun 70% -yun; 30% - poliefir	800÷1100	18÷25	75000 ÷ 110000	2÷4	3000÷4500	150÷160	30÷45	10÷ 35
100% yun parça,art. 3650 paltoluq ikiqat drap	950÷1200	25÷35	50000 ÷ 100000	3÷6	2000÷3500	170÷200	30÷45	10÷ 35

Cədvəldə göstərilmiş istismar xassələri metodiki göstərişdə verilmiş çevrilmə əmsalının köməkliyi ilə hesablanmışdır. İstismar xassələrindən ;qırılma yükü, qırılmada nisbi uzanma, həcmi qısalma, temperatura qarşı davamlılıq ekspertizadan keçirilmiş, sınaq nəticələri riyazi sitatistikanın köməkliyi ilə hesablanmışdır.

100 % yundan 3650 paltoluq ikiqat drap parçanın gigienik və istismar xasslərinin 10 sayda sınaq nəticələri cədvəl 2-də verilmişdir.

Cədvəl 2.Ekspertizanın sınaq nəticələri

Xassələrin göstəriciləri	1	2	3	4	5	6	7	8	9	10	Orta hədd
Hava keçirmə əmsalı,dm^3/m^2.san	85	88	90	87	86	85	88	86	85	85	86,5
Nisbi buxar keçirmə,%	18	19	20	20	18	20	20	18	19	20	19,2
Nisbi toz keçirmə,%	0,3	0,35	0,38	0,4	0,36	0,34	0,34	0,38	0,35	0,4	3,6
Islanma ,%	35	37	34	36	38	39	40	38	35	38	37,0
Qırılma yükü,N	950	1000	1100	1100	1150	1200	1050	1100	1150	1200	1100,0

Qırılma nisbi uzanma,%	25	28	30	32	33	30	32	30	30	30	30,0
Həcmi qısalma,%	3,0	3,5	3,8	4,0	4,8	5,0	4,5	3,8	5,6	5,0	4,3
Temperatura qarşı davamlılıq,°S	170	180	190	170	180	200	190	190	180	180	183,0

Ekspertiza aparılmış sınaq nəticələrinin riyazi statistik yekunu cədvəl 3 –də göstərilmişdir.

Cədvəl 3.Sınaq nəticələrinin riyazi statistik yekun cədvəli

Xarakteristikaların adları	Orta qiymət	Orta ədədi əyinti	Orta kvadratik əyinti	Variyasiya əmsalı
Hava keçirmə əmsalı,dm^3/dm^2.san	86,5	1,4	1,7	1,96
Nisbi buxar keçirmə,%	19,2	0,8	0,9	4,68
Nisbi toz keçirmə,%	0,96	0,024	0,028	7,77
Islanma ,%	37,0	1,6	1,94	5,24
Qırılma yükü, N	1100	60	81,65	7,42
Qırılmada nisbi uzanma,%	30	1,4	2,26	7,5
Həcmi qısalma,%	4,3	0,68	0,736	17,1
Temperatura qarşı davamlılıq,°S	183	7,6	9,19	5,02

Paltoluq yun parçaların istehlak xassələrinin laboratoriya üsulu ilə aparılmış laboratoriya ekspertizasından aşağıdakı nəticəyə gəlmək olar:

1. Paltolar üçün yun parçaların istehlak xassələrinin laboratoriya üsulu ilə ekspertizasında digər üsullardan fərqli olaraq təsadüflüyə yol verilmir.
2. Laboratoriya üsulu ilə aparılmış ekspertizada digər üsullara nisbətən düzgün nəticə əldə edilir,mübahisəli məsələlər birdəfəlik həll olunur.

Açar sözlər: palto, yun parçalar, laboratoriya üsulu, ekspertiza

ЛАБОРАТОРНАЯ ЭКСПЕРТИЗА ЭКСПЛУАТАЦИОННЫХ И ГИГИЕНИЧЕСКИХ ТРЕБОВАНИЙ ШЕРСТЯНЫХ ТКАНЕЙ ДЛЯ ПАЛЬТО

Марьям Елданиз Атакишиева
Хусну Гадир оглы Керимов
kerimov_husnu@mail.ru
Азербайджанский Технологический Университет

Проведены лабораторные экспертизы гигиенических и эксплуатационных требований шерстяных и полушерстяных тканей для пальто. Полученные данные в результате экспертизы сравнивались со стандартными показателями. Установлено, что этот метод экспертизы дает более достоверные результаты.

Ключевые слова: пальто, шерстяные ткани, лабораторный метод, экспертиза

LABORATORY EXPERTISE OF OPERATIONAL AND HYGIENIC PROPERTIES OF WOOL FABRICS FOR COATS

Maryam Eldeniz gizi Atakishiyeva
Husnu Gadir oglu Karimov
kerimov_husnu@mail.ru
Azerbaijan Technological University

Laboratory examinations of the hygienic and operational properties of wool and semi-wool fabrics for coats were conducted. The data obtained as a result of the examination were compared with standard indicators. It was established that this method of examination gives more reliable results.

Key words: coat, wool fabrics, laboratory method, expertise

IV BÖLMƏ. DİZAYNDA İNNOVATİV TEXNOLOGİYALAR

QADIN QAREDEROBLARI ÜÇÜN BAZA GEYİMLƏRİNİN SEÇİLMƏSİNİN ÜMUMİ PRİNSİPLƏRİ

Tofiq Hacı oğlu Mirzəyev
mirzoev.tofiq@yandex.ru,
Xamzat Tahir oğlu Şəliyev
007xamzat007@gmail.ru
Azərbaycan Texnologiya Universiteti

Qadınlar üçün baza geyim qarderobunu yaradarkən, ilk öncə onun funksional və çox yönlü olmasına, əsas da zaman qıtlığını nəzərə almaq lazımdır. Məqsəd, hər bir elementin digərini tamamladığı, müxtəlif kombinasiyalar düzəltməyə imkan verən bir qarderob yaratmaqdır. Qadın qarderobu üçün baza geyimlərin seçilməsinin ümumi prinsipləri bunlardır:

1. Kəmiyyətdən çox keyfiyyət:

Əlbətdə ki geyim nə qədər bahalı olsa, o qədərdə daha yüksək keyfiyyətə sahib olacaq. Uzun müddət geyinə biləcəyiniz yüksək keyfiyyətli geyimlərə investisiya etmək məqsədə uyğun sayılır. Davamlı yuyulmaya tab gətirə bilən materiallardan hazırlanmış geyimlər qarderobun əsasını təşkil edə bilər. Burada, zamanla strukturunu saxlayan pambıq, yun, kətan kimi təbii parçalara və ya yüksək keyfiyyətli sintetik parçalara nəzər salmaq olar.

2. Neytral rənglər:

Neytral tonlar (qara, ağ, boz, sürməyi və s.) çox yönlü qarderobun əsasını təşkil edir. Həmin rənglərdə olan geyimləri, bir-birinlə dəstələyib uyğun kombinasiyalar hazırlamaq olar. Aksessuarlar və başqa cəzb edən şeylər ilə, kombinasiyanıza digər rənglər əlavə edə bilərsiniz, lakin baza geyimlərin neytral rənglərdə saxlanılması daha məqsədə uyğundur.

3. Klassik geyimlər:

Zamanından asılı olmayaraq, heç vaxt dəbdən düşməyən klassik geyimlərdə qarderobun əsas hissəsini təşkil edə bilər. Əsasda yaşlı qadınların üstünlük verdiyi zərif parçalardan, çox vaxtı sadə xəttlərdən və neytral rənglərdən ibarət olan klassik geyimlərdir. Bu o demək deyilki qarderob ancaq klassik geyimlərdən ibarət olsun. Dəbli geyimləri və trenddə olan kombinasiyaları klassik geyimlər ilə balanslaşdırmaq mümkündür. Qarderoba zamanına uyğun olan aktual geyimləri və aksesuarları əlavə etmək lazımdır. Sadəcə, trendlərin qarderobunuza hakim olmasına imkan vermək lazım deyil.

4. Həyat fəaliyyətinin qarderoba təsiri:

Qarderobda həm gündəlik, həm də rəsmi hallar üçün uyğun olan geyimləri daxil etmək lazımdır. Həyat tərzi insana müəyyən təsir göstərməklə onun qarderobunu formalaşdlrlr. Rəsmi işdə işləyən qadınlar öz qarderobunu həyat tərzi üstündə qurmalıdır. İş, qala-konsertlər, toylar və ya işgüzar tədbirlər kimi yüksək zəriflik tələb edən hallar üçün rəsmi qadın geyimləri nəzərdə tutulub. Bu geyimlər adətən mürəkkəb struktura malik və ipək, atlaz, məxmər, şifon kimi dəbdəbəli parçalardan hazırlanır.

5. Geyimin oturuşu və rahatlığı

Geyimlər qadının bədən fiquruna yaxşı uyğunlaşmalı və onu sevindirməlidir, lakin eyni zamanda müntəzəm geyinmək üçün kifayət qədər rahat olmalıdır. Paltarın tikilməsi onun necə göründüyünə və bədəndə necə hiss olunmasına əhəmiyyətli təsir göstərə bilər. Bədən tipinə uyğun olanı tapmaq üçün müxtəlif siluetləri sınaqdan keçirmək olar, lakin dəb üçün rahatlığı qurban vermək lazım deyil.

6. Ayaqqabı və aksesuar seçimi:

Baza geyimlərini seçdikdən sonra, qarderobu tamamlayacaq ayaqqabılar seçilməlidir. Əlbətdəki ayaqqabılarıda qarderoba uyğun olaraq kombinizə etmək məqsədə

uyğundur. Ayaqqabı seçimi asan olduğu qədər, bir o qədərdə çətindir, onlar qarderobun stilinə, dəbə, trendə və mövsümə görə seçilir.

Aksesuarlarda həmçinin qarderobun ayrılmaz hissəsi olaraq, hər zaman dəbə uyğun dəyişkən olaraq qalır. Aksesuarların qadın obrazını tam olaraq təşkil etməsədə, onun yaranmasında böyük əhəmiyyəti var. Beləki hər hansı bir saat, papaq, baş örtüyü, qızıl-zinət əşyaları və s. qadının tam obrazını təkminləşməsində böyük rol oynayır.

Ümumiləşdirsək, qadın qarderobu onun şəxsi zövqünü və həyat tərzini əks etdirməlidir. Qarderob, universal baza geyimlərindən ibarət olsada, həmən kolleksiya qadını rahat və güvənli hiss etdirməli, gündəlik fəaliyyəti əsasında qurulmalıdır.

Yuxarıda göstərilən prinsiplərə əməl etməklə qadın vaxta qənaət edəcək, rahat şəkildə qərar qəbul edə biləcək, yorğunluğunu azaldacaq və hər zaman özünü çox yaxşı hiss etməyə imkan verəcək vahid və praktik qarderob yarada bilər.

Açar sözlər: geyim, qarderob, aksessuar, kolleksiya

ОБЩИЕ ПРИНЦИПЫ ПОДБОРА БАЗОВОЙ ОДЕЖДЫ ДЛЯ ЖЕНСКОГО ГАРДЕРОБА

Тофик Гаджи оглы Мирзоев
mirzoev.tofig@yandex.ru
Хамзат Тахир оглы Шалиев
007xamzat007@gmail.ru
Азербайджанский Технологический Университет

Подводя итог, можно сказать, что женский гардероб должен отражать ее личный вкус и образ жизни. Хотя гардероб состоит из универсальной базовой одежды, её коллекция должна позволять чувствовать себя комфортно и уверенно, а также отражать повседневную деятельность.

Следуя вышеперечисленным принципам, она сможет создать единый и практичный гардероб, который сэкономит ей время, позволит комфортно принимать решения, снизить утомляемость и всегда позволит чувствовать себя на высоте.

Ключевые слова: одежда, гардероб, аксессуар, коллекция.

GENERAL PRINCIPLES OF CHOOSING BASE CLOTHES FOR WOMEN'S WARDROBE

Tofig Haji oglu Mirzayev
mirzoev.tofig@yandex.ru,
Khamzat Tahir oglu Shaliyev
007xamzat007@gmail.ru
Azerbaijan Technological University

In conclusion, a woman's wardrobe should reflect her personal taste and lifestyle. Although your wardrobe consists of universal base clothes, base your collection on what makes you feel comfortable and confident, and your daily activities.

By following the above principles, you can create a unified and practical wardrobe that will save you time, make decisions comfortably, reduce your fatigue and always make you feel your best

Keywords: clothes, wardrobe, accessory, collection

EKODİZAYNDA EKOTEXNİKİ PROBLEMLƏR

İmaş Adişirin oğlu Haciyev
imash.hajiyev@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Ekodizayn müasir dövrdə dizayn yaradıcılıq fəaliyyətində xüsusi istiqamət kimi əhəmiyyət kəsb edir. Adından göründüyü kimi ekodizayn *insan - əşya - maşın - mühit* sistemlərinin təşkilində estetik amillərlə yanaşı, ekoloji yararlılığı – gigiyenik (gigiyena – yunanca hyhieinos – sağlamlıq) məsələlərin effektiv həllini nəzərdə tutur. Başqa sözlə, ekodizayn məhsulun yaradılması (istehsalı) prosesində bütün ekoloji aspektləri nəzərə almaqla onun istifadə dövrü ərzində ətraf mühitə və istifadəçilərə mənfi təsir göstərməməsi üçün ekotexniki tələblər zəminində bu və ya digər problemləri həll edir. Bu istiqamət üzrə ilk addımlar 80-ci illərin sonlarına doğru ABŞ və Avropada atılmağa başlanmışdı. 90-cı illərin əvvəllərində mebel, avtomobil və s. fərqli sənaye sahələri üzrə aparılan araşdırmalardan sonra Niderland Krallığının ən böyük və qədim dövlət universitetlərindən olan, Delft Texnologiya Universiteti "Pro-mise" adlı ilk ekodizayn bələdçisini nəşr etdi. (Qeyd edək ki, Nobel mükafatı laureatları (Yakob vant Hoff – kimya üzrə; Simon van der Meer – fizika üzrə) ilə yanaşı, tanınmış avtomobil dizayneri, Renualt Korporativ Dizayn şirkətinin vitse-prezidenti Lourens van der Asker; maşınqayırma sənayesi üzrə məhşur avtomobil dizaynerlərindən – "BMW" avtomobilinin dizayn rəhbəri Adrian van Hooydonk; "Porsche" avtomobilinin sabiq baş konstruktoru Harm Laqaay və "ZEBRA" kompüterinin dizayneri Villem van der Poel məhz həmin universitetin məzunu olmuşlar). Bu prosesdə tullantıların idarə olunmasından tutmuş suyun çirklənməsinə, karbon emissiyalarından tutmuş yanacağın səmərəliliyinə qədər bir sıra qaydalar ortaya çıxdı. 2000-ci illərdə iqlim dəyişikliyi ilə mübarizə problemi enerji səmərəliliyinin vacibliyini ön plana çıxardı. 2009-cu ildə enerji ilə əlaqəli CO2 emissiyalarını azaltmaq, davamlı inkişafa töhfə vermək və artan qlobal tələbata cavab vermək üçün enerji səmərəliliyi məqsədlərinə nail olmaq istiqamətində Eko Dizayn Direktivi nəşr edildi. Növbəti mərhələlərdə bu səyləri dəstəkləmək üçün Avropa Birliyi Şurası məhsulların müxtəlif cəhətdən istifadəyə yararlı olması barədə xüsusi CE markasını müəyyənləşdirdi.

Məhsulda CE markası istehsalçının bəyannaməsi hesab olunur. Bu bəyanat məhsulun müxtəlif təyinatlar üzrə müvafiq şərtlərə uyğun olduğunu və Avropa Birliyinin sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyində nəzərdə tutulmuş əsas meyarlara uyğun olduğunu göstərir. Avropa ölkələrində istehsal olunan malların üzərində bu cür nəzarətin olması, məhsulların bir çox aspektlərdən keyfiyyət göstəricilərini təmin edərək onların rəqabətə davamlılığını, bir sözlə, istehsalçı imicinin qorunub saxlanmasını təmin etmiş olur. Qeyd edək ki, biz bu göstəriciləri istifadə etdiyimiz Avropa ölkələrinin istehsalına məxsus olan müxtəlif geyim nümunələrdə və digər qəbildən olan məhsullarda müşahidə edə bilərik.

Beləliklə, ekodizayn inkişaf edərək dizayn sahəsi üzrə təsnifatda prioritet istiqamətlərdən birinə çevrildi.

Ekodizayn üzrə fəaliyyət sahəsinə əsasən aşağıdakı məsələlər daxildir:

Yaşayış və əmək fəaliyyəti üçün mikro və makromühitin – mənzillərin, müəssisə, təşkilat və digər fəaliyyət obyektlərinin təşkilində səs-küy, rütubətlik, radiasiya, vibrasiya, tozlanma, səs dalğaları, havalandırma və s. bu kimi problemlərin minimum səviyyədə olması;

Yaradılan məmulatın – əşya və avadanlıqların, geyim nümunələrinin, həmçinin digər qəbildən olan tekstil və gön-dəri əsaslı malların material tərkibinin, dekor-boyaq işlərinin ekoloji standartlara uyğunluğu, məhsuldan sağlamlığa zərər verilmədən təhlükəsiz istifadə imkanları;

Qida və digər, o cümlədən maye xarakterli məhsulların qablaşdırılması üçün nəzərdə tutulan müxtəlif növ qutu və qabların hazırlanmasında zərərsiz tərkibli materiallardan maksimum istifadə edilməsi;

Təkrar emal (materialların təkrar emalı Braziliya dizaynerləri arasında çox praktik və populyardır) və təkrar istehsal zamanı məhsulun ekoloji göstəricilərinin standartlarla tənzimlənməsi;

İri sənaye müəssisələrin fəaliyyəti zamanı ətraf mühitin, atmosferin çirklənməsinin qarşısının alınması və ya minimum səviyyədə olmasının təmin edilməsi üçün istehsal mühitinin və texniki vasitələrin ekotexniki cəhətdən daim təkmilləşdirilməsi, zəruri hallarda isə yeniləri ilə əvəz olunması;

Park və xiyabanların salınması və yenidən təşkilində dekorativ bitkilərin, o cümlədən ağac və kolların, həmçinin gül - çiçək növlərinin ekoloji baxımdan daha münasib olanlarına üstünlük verilməsi və s.

Bütün bu aspektləri hərtərəfli təhlil etməyə və dizayn - layihələndirmə prosesində əvvəlcədən nəzərə almağa imkan verən xüsusi metodların işlənib hazırlanması diqqət mərkəzində olmalıdır.

Bazar iqtisadiyyatı şəraitinin nəzərə alındığı müasir dövrdə istehsal fəaliyyəti ilə məşğul olan hər bir müəssisənin əsas məqsədlərindən biri istehsal etdiyi məhsulun, məmulatın dünya bazarlarına çıxarılmasına və onun rəqabətə davam gətirə bilməsinə nail olmaqdan ibarətdir. Bu mənada dizayn - layihələndirmədə yuxarıda təhlil edilən məsələlərin nəzərə alınması istehsal olunmuş məhsulların dünya bazarlarına çıxarılmasına, həmçinin onun realizə edilmə imkanlarına təminat yaratmış olur. Çünki beynəlxalq standartlara kompleks şəkildə (erqonomik, estetik, ekoloji) cavab verməyən məhsulun geniş məkanda realizə imkanları məhduddur. Təbii ki, həmin malların dünya bazarlarına çıxışı aidiyyəti qurumlar tərəfindən məhdudlaşdırılacaq və son məqamda dayandırılacaqdır.

Qeyd edək ki, qloballaşma şəraitində müxtəlif ölkələrə məxsus müvafiq məhsulların, o cümlədən Azərbaycan məhsullarının realizə edilməsi üçün coğrafi ərazi xeyli genişlənmişdir. Bu təqdirdə, dizayn yaradıcılıq fəaliyyəti qlobal məkanda, istehlak mallarının – əyani nümunələrin timsalında sosial-mədəni sferada informasiya mübadiləsini intensivləşdirərək, təcrübə və yaradıcılıq sahəsində əməkdaşlığı, inteqrasiya imkanlarını inkişaf etdirmiş olar.

ƏDƏBİYYAT

1. İ. A. Hacıyev. Dizaynda erqoestetik amillər. Bakı, "Tək- nur", 2016, – 144s.: ill.
2. Runge V. F., Manuseviç Yu. P. Dizayn mühitində erqonomika. Moskva, "Memarlıq-S", 2005, Bakı, 2008, (tərcümə), 368 s., ill.
3. https://az.wikipedia.org/wiki/Delft_Texnologiya_Universiteti (mür. tarixi: 12.10.24).
4. https://www.szutest.com.tr/eko-tasarim-nedir/ (mür. tarixi: 12.10.24).

ЭКОТЕХНИЧЕСКИЕ ПРОБЛЕМЫ В ЭКОДИЗАЙНЕ

Имаш Адыширин оглы Гаджиев
imash.hajiyev@mail.ru
Азербайджанский Технологический Университет

В представленном материале анализируются экотехнические проблемы в области экодизайна, который является составной частью дизайн - проектной деятельности. В этом направлении комментируются необходимые требования и выдвигаются предложения.

Ключевые слова: экодизайн, гигиена, окружающая среда, промышленные товары, экотехнические требования.

ECOTECHNICAL PROBLEMS IN ECODESIGN

Imash Adishirin Hajiyev
imash.hajiyev@mail.ru
Azerbaijan Technological University

The presented material analyzes ecotechnical problems in the field of eco-design, which is an integral part of design and project activities. In this direction, the necessary requirements are commented on and proposals are put forward.

Keywords: ecodesign, hygiene, environment, industrial products, ecotechnical requirements.

GEYİM HİSSƏLƏRİNİN YAPIŞQANLI ARAQATI MATERIALLARI İLƏ BİRLƏŞDİRİLMƏSİNDƏ QISALMANIN TƏDQİQİ

Tofiq Hacı oğlu Mirzəyev
Tural Elman oğlu Həmidov
mirzoev.tofig@yandex.ru
Azərbaycan Texnologiya Universiteti

Geyimin hazırlanmasının texnoloji proseslərində nəmləndirib-isitmə emalından genis istifadə edilir, məmulati həm keyfiyyət baximindan və xarici görünüş baxımından xarakterizə edir. Məmulatın tamamilə hazirlanması zamanı nəmlik- istilik emal prosesləri boyuk rol oynayir. Üst geyimin hazırlanması zamanı nəmlik- istilik emalının xüsusi əmək tutumu 22-25 % təşkil edir.

Nəmlik-istilik emalı parça səthinin sahələrinə təsir göstərməklə həyata keçirilir. Bu istehsalın, mexanikləşdirilməsi və avtomatlaşdırılması imkanlarından asılı olaraq aparılır. Emal dəqiqliyini artırılması, əmək hərəkətinin asanlaşdırılması və avadanlıqlarin kinematik sxemlərlə təchiz olunması, mümkün qabaqcıl paralel və ardicil emal üsullarından istifadə olunmasına şərait yaradır.

Geyim istehsalınnin prosesdaxili və son tamamlanma proseslərini üçün nəmlik-istilik emalının müxtəlif növlərindən istifadə edilir.

Tikiş istehsalında nəmlik- istilik emalının üç növü tətbiq edilir :

- ✓ütüləmə,
- ✓sıxıcıda emal,
- ✓buxarlama

Ütüləmə prosesi dedikdə- emal prosesi zamanı ütülənən yarinfabrikat parca səhtinin nəmləndirilmiş bəzi hissələri üzrə sürüşdürülərək müəyyən təzyiqin edilməsidir. Ütüləmə emalının effektivliyi 20-30% nəmləndirmənin və ya buxara vermənin,temperaturun və normal tezyiq və sürtünmənin payına düşür.

Geyim hissələrinin həcmli formasının alınması üçün sıxıcının işçi səthlərinə (üzlərinə) mürəkkəb formalar verirlər. Sıxma zamanı emalın rejimlərinə ciddi riayət etmək vacibdir. Sıxma yarımfabrikatın bütün səthinin (üzünün) paralel emalı olmaqla aparılan prosesdir.

Buxarlamanın təyinatı – məmulata gözəl zahiri görünüşü vermək və parçanın liflərində əvvəlki emalla baglı yaranan gərginlikləri aradan qaldirmaq üçündür. Hazır məmulatın formadəyişməsinin qarşısının alınması üçün tikiş müəssisəsində parçaları “dekarativrləşməyə” məruz qoyurlur. Buxarla məmulatın emalı toxuculuq materialında ləkəni təmizləməyə, buxar nəmlik- istilik emalı vaxtı səthdə yerləşən liflərin hamarlamasına imkan verir.

Nəmləndirilib-isitmə prosesləri nəticəsində materialların qısalması bir sıra qarşılıqlı əlaqədə olan hadisələr kompleksinin nəticəsində baş verir ki, bu da tikiş məmulatlarının keyfiyyətinə təsir göstərir və nəticədə məmulatın forma və konstruksiyası təhrif olunur. Kompozit materialların (üst parça ilə yapöşqahlı ara qatı) müxtəlif dərəcədə qısalması isə

məmulatların keyfiyyətinin dəyişməsinə səbəb olur. Sonuncu məsələ kifayət qədər öyrənilməmişdir və biz qarşımıza kompozit materialların müxtəlif dərəcələrdə qısalmasının yapışqan birləşməsinin keyfiyətinə təsirini öyrənmək məsələsini qoymuşuq.

Təcrübi tədqiqatlar bir artikuldan olan kostyumluq və iki artikuldan olan araqatı materialları ilə aparılmışdır. Bundan sonra «kostyumluq parça art.23193+Q-541 markalı araqatı materialı» və «kostyumluq parça art.23194+Q-541 markalı araqatı materialı» (kompozitləri) yapışqan birləşmələrinə uyğun olaraq A və B variantları üzrə birləşmələr adlandıracağıq.

Materialın qısalmasının yapışqan birləşməsinin möhkəmlənməsində təsirini öyrənmək üçün təcrübi tədqiqatlarda birfaktorlu sınaqlar aparılmışdır. Bu sınaqlarda giriş faktoru kimi nümunəyə daxil edilən nəmliyin miqdarı, çıxış parametri kimi yapışqan birləşməsinin möhkəmliyi qəbul edilmişdir.

Tədqiqatın mahiyyət aşağıdakılardan ibarətdir. Nümunə elektrik prosesinə termodüblirə yolu ilə A və B variantları üzrə hazırlanmışdır.

Nümunələr əvvəlcə 433-435 K (A – variantı), sonradan 283-285K (B – variantı) temperaturada nəmləndirilmişlər. Daxil edilmiş nəmliyin miqdarı bu zaman nümunənin ümumi kütləsinə nəzarən 25%; 50%; 75%; 100% olmuşdur. Nümunələrin təbii yolla qurudulmasından sonra normal atmosfer şəraitində laylara ayrılmaya möhkəmlikləri yoxlanmışdır. Aşağıdakı formula üzrə faizlə möhkəmlik itkisi hesablanmışdır:

$$I_N = \frac{N_1 - N_2}{N_1} \cdot 100\%$$

burada I_N – laylara ayrılmaya möhkəmlik itkisi, %; N_1 – düblirə edilmiş nümunənin nəmləndirməyə qədərki (ilkin) laylara ayrılma möhkəmliyi olmaqla N_1=0,433 N/sm (A variantında) və N_1=0,433 N/sm (B variantında); N_2 – düblirə edilmiş nümunənin nəmləndirmə və qurutmadan sonrakı möhkəmlikləridir.

Tədqiqatlar göstərir ki, üst və araqatı materialları qısalma qabiliyyətinə görə bir-birinə nə qədər yaxın olsalar, yapışqan birləşməsi o qədər möhkəm olar. Əks halda nəmliyin təsiri altında birləşmənin kompozitlərdən biri çox, digəri isə az qısalacaq və bu adgeziv güvvələrin təsirinin azalmasına gətirib çıxardacaqdır.

Açar sözlər: geyim, araqat materialı, qısalma

ИССЛЕДОВАНИЯ УСАДКИ ПРИ СОЕДИНЕНИИ ДЕТАДЕЙ ОДЕЖДЫ С КЛЕЙКИМИ ПРОКЛАДОЧНЫМИ МАТЕРИАЛАМИ

Тофик Гаджи оглы Мирзоев
Турал Эльман оглы Гамидов
mirzoev.tofig@yandex.ru
Азербайджанский Технологический Университет

В статье рассмотрена практические аспекты влажно-тепловой обработки (ВТО) верха изделий с клеевыми прокладочными материалами. Проведена ряд экспериментальных исследований с целю изучение влияния усадки склеиваемых материалов на качеству клеевых соединений при влажно-тепловой обработке. Эта доказывает что, при выборе материалов для композитов, необходимо учесть уровень усадки склеиваемых материалов.

Ключевые слова: одежда, прокладочный материал, усадка.

STUDY ON SHRINKAGE IN JOINING CHILDREN'S CLOTHES WITH ADHESIVE INTERLINING MATERIALS

Tofig Gadji oglu Mirzayev
Tural Elman oglu Gamidov
mirzoev.tofig@yandex.ru
Azerbaijan Technological University

The article considers practical aspects of wet-heat treatment (WHT) of the top of products with adhesive lining materials. A number of experimental studies were conducted to study the effect of shrinkage of the materials being glued on the quality of adhesive joints during wet-heat treatment. This proves that, when choosing materials for composites, it is necessary to take into account the level of shrinkage of the materials being glued.

Key words: clothing, lining material, shrinkage

MÜASİR LOQOTİPLƏRƏ QOYULAN TƏLƏBLƏR

Züleyxa Zaur qızı Quliyeva
zuleikhakuliyeva@gmail.com
İmaş Adışirin oğlu Hacıyev
imash.hajiyev@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Loqotip bir şirkətin və ya məhsulun vizual identifikasiyasının əsas elementidir və brendin imicinin formalaşmasında mühüm rol oynayır. Müasir bazarda loqotiplərə olan tələblər əhəmiyyətli dərəcədə dəyişmiş və yeni dizayn trendlərinə, rəqəmsal mühitə və hədəf auditoriyanın gözləntilərinə uyğunlaşmışdır.

Loqotipləri olan əsas tələbləri müraciət edilmiş mənbələr üzrə aşağıdakı kimi şərh etmək olar:

1. Sadəlik və lakoniklik.

Müasir loqotiplər sadəliyə meyl edir və bu, ani qavrayış və yadda qalma zərurəti ilə əlaqədardır. Formanın sadələşdirilməsi loqotipin müxtəlif kontekstlərdə - böyük reklam lövhələrindən tutmuş kiçik mobil ekranlara qədər - tanınmasını asanlaşdırır. Misal olaraq, Apple və Nike kimi şirkətlərin loqotiplərində əsas elementlər minimuma endirilmiş, lakin yüksək dərəcədə tanınan səviyyədə qalmışdır [1].

2. Adaptivlik və çoxfunksionallıq.

Loqotipin veb - saytlar, mobil tətbiqlər, sosial şəbəkələr və çap materialları daxil olmaqla bir çox platformada istifadə edilməli olduğunu nəzərə alaraq onun adaptiv olması vacib tələblərdən biri hesab olunur. Loqotip ölçüsünün, rəng nüanslarının və fonun dəyişməsinə baxmayaraq, öz xüsusiyyətlərini və oxunaqlığını qorumalıdır. Adaptiv loqotip versiyaları müxtəlif mühitlərdə effektiv işləməyə imkan verir [2].

3. Unikallıq və tanınma.

Bazardakı rəqabət loqotipdən fərqlilik tələb edir ki, bu da brendin rəqiblər arasında seçilməsini təmin edir. Bu, dizaynın orijinallığı, rəng qamması, şriftlər və fərqləndirici elementlər vasitəsilə həyata keçirilir. Loqotipin mövcud olan digər loqotiplərə bənzəməməsi vacibdir ki, qarışıqlıq və hüquqi problemlər yaranmasın [3].

4. Aktuallıq və trendlər.

Loqotip müasir dizayn tendensiyalarını əks etdirməli və auditoriyanın gözləntilərinə uyğun olmalıdır. Son illərdə geniş yayılmış trendlər arasında düz dizayn (flat design), monoxrom sxemlərdən istifadə, dinamik loqotiplər və həndəsi formalar vardır. Loqotipin uzun müddət ərzində aktuallığını qoruması üçün nəzərə alınmalıdır [4] [7].

5. Mədəni və regional xüsusiyyətlərin nəzərə alınması.

Loqotipin hədəf auditoriyasının mədəni və regional xüsusiyyətlərinin nəzərə alınması vacibdir ki, mənfi assosiasiyalardan və yanlış anlaşılmalardan qaçılsın. Bu, xüsusilə beynəlxalq brendlər üçün əhəmiyyətlidir. Simvollar və rənglər müxtəlif mədəniyyətlərdə fərqli mənalar daşıya bilər, buna görə də dizayn prosesində bu cəhətlər diqqətə alınmalıdır [5].

6. Brendin digər elementləri ilə vizual ardıcıllıq.

Loqotip brendin digər vizual elementləri ilə, məsələn, şriftlər, rəng palitrası, veb sayt və reklam materiallarının dizaynı ilə uyumlu olmalıdır. Vizual elementlərin ardıcıllığı brendin bütöv imicini yaratmağa və auditoriya tərəfindən onu daha yaxşı qavramağa kömək edir [6].

Loqotip və əmtəə nişanının kompozisiya həllində aşağıdakı kompleks amillər və tələblər nəzərə alınmalıdır.

Estetik amillər:

- orijinallıq;
- bütövlük;
- harmoniklik;
- lakoniklik;
- Ifadəlilik;
- bədiilik;
- emosionalıq;
- müasirlik.

Utilitar-funksional tələblər:

vizuallığın effektivliyi;

miqyaslılıq [8].

Müasir loqotiplərə olan tələblər bazarın dəyişən şərtləri və yeni texnologiyalar tərəfindən müəyyən edilir. Sadəlik, adaptivlik, unikallıq və aktuallıq loqotipin dizaynında əsas diqqət yetirilməli amillərdir. Bu tələblərin yerinə yetirilməsi brendin rəqabətli və dinamik mühitdə uğurla mövcud olmasına zəmin yaradır.

Açar sözlər: loqotip, dizayn, sadəlik, uyğunlaşma, brendinq, mədəni həssaslıq, aktuallıq.

ƏDƏBİYYAT

1. Marks, A. (2020). Vizuallığın brendinq əsasları. Москва: Dizayn və Marketinq nəşriyyatı, s. 45-47.
2. Brown, K. (2021). Adaptiv dizayn: Hər cihaz üçün loqotip yaratmaq. Moskva: Qrafik Dizayn Studiyası nəşriyyatı, s. 56-59.
3. Johnson, R. (2019). Loqotip yaratma prosesinin kreativ tərəfləri. Лондон. Profi Dizayn nəşriyyatı, s. 72-75.
4. Levin, M. (2023). Müasir brendlər üçün dizayn: Trend və istiqamətlər. Sankt-Peterburq: Qrafika nəşriyyatı, s. 39-42.
5. Cohen, L. (2022). Brendinqin yaradılmasında mədəniyyətlərarası aspektlər. Nyu-York: Wiley, s. 102-105.
6. Wright, E. (2020). Brendinq və dizayn: Teoriya və praktika. London: Penguin Press, s. 89-92.
7. Ağayev, M. (2020)"Müasir Azərbaycan Dizaynında Loqotipin Rolu". Baki: "İqtisad Üniversiteti nəşriyyatı”, s. 60-85.
8. Hacıyev, İ. (2020) “İşarələr haqqında elm: qrafik dizaynın problemləri” . S.Stroqanov adına Moskva Dövlət Bədii-Sənaye Akademiyası. Xəbərlər, №3 /2hissə, s. 236-248.

ТРЕБОВАНИЯ К СОВРЕМЕННЫМ ЛОГОТИПАМ

Зулейха Заур kызы Кулиева
zuleikhakuliyeva@gmail.com
Имаш Адыширин оглы Гаджиев
imash.hajiyev@mail.ru
Азербайджанский Технологический Университет

В статье рассматриваются основные требования к современным логотипам. Простота, адаптивность, уникальность, учет культурных особенностей и согласованность с другими элементами брэндинга являются важными условиями для успешного дизайна логотипа.

Ключевые слова: логотип, дизайн, простота, адаптивность, брэндинг, культурные особенности, актуальность

REQUIREMENTS FOR MODERN LOGOS

Zuleykha Zaur gizi Guliyeva
zuleikhakuliyeva@gmail.com
Imash Adishirin oglu Hajiyev
imash.hajiyev@mail.ru
Azerbaijan Technological University

This article explores the key requirements for modern logos. Simplicity, adaptability, uniqueness, consideration of cultural features, and consistency with other branding elements are crucial factors for a successful logo design.

Key words: logo, design, simplicity, adaptability, branding, cultural features, relevance.

MÜASİR AZƏRBAYCAN GEYİMİNDƏ ÜSLUBLARIN TƏHLİLİ

Şakir Rüstəm oğlu Əliyev
shakiraliyev@atu.edu.az
Gülnarə Nurəddin qızı Əliyeva
g.aliyeva@atu.edu.az
Sevinc Rövşən qızı Məmmədova
memmdovasevinc04@gmail.com
Nəzrin Rza qızı Həsənova
Azərbaycan Texnologiya Universiteti

Müasir geyimlərdə müxtəlif üslubların təsirləri təhlil edilib. Üst geyimlərinin estetik tələblərinə müasir formada üslubun böyük təsir göstərməsi öz əksini tapmışdır. Üslub cəmiyyətin bədii mədəniyyətinin vəziyyətini həmin xalqın adət və ənənələrinin xüsusiyyətini və inkişaf dərəcəsini də müəyyən edir.

Bu günün müasir moda üslubları özündə ötən əsrlərin illərin bəzi motivlərini daşıyır. Bizim müasir geyimlərimizə diqqətlə baxdıqda görürük ki, müxtəlif dövrlərdə yaradılmış geyim üslubları yalnız bir qədər dəyişdirilərək, yeni nəslin zövqünə uyğunlaşdırılıb[1].

Dizayn obyekti kimi müasir kostyum insan şəxsiyyəti ilə birbaşa bağlıdır və onun mədəni anlayışlarını, psixoloji xüsusiyyətlərini, sosial aspektlərini, estetik seçimlərini, yaş xüsusiyyətlərini əks etdirir. Kostyum, bir şəxsin gündəlik həyatı, özünün həyata keçirilməsinin mühüm bir sahəsidir, tarixi və ya dövrün insan mahiyyətini əks etdirən ən doğru aynasıdır və tarixi sənədlərdən fərqli olaraq çox zaman öz dövrün nəzəriyyələri və konsepsiyalarından asılıdır.

Üslub – hər şeydən əvvəl özünü dərindən dərk etməkdən başlayır. Gözəl insanlar üstünlüklərini vurğulamaq üçün seçilmiş tərzdə geyinirlər – hər hansı bir, yumar hissəsindən tutmuş dəqiqliyə, ayaqların gözəl formasına və bir qayda olaraq, bir insanın xarakteri mücərrəd mövcud bir modadan daha çox nə geyinməyi diktə edir.

Stil və moda eyni deyil. Moda, daimi dəyişməkdən əlavə, özünü çox ciddi qəbul edə bilər; manekenlər kimi dəbin son qışqırıqlarında başdan ayağa geyinmiş qadın və ya kişi

kimi stil, sözdə səlahiyyətli şəxslərin şübhə ilə davranmasının hər zaman bir fəzilət olduğunu anlamağı şərtləndirir[2].

Geyim təbiətdə fərqlidir. Təvazökar və ya ekstravaqand, təmkinli və ya cəsarətli, atletik və ya lirik ola bilər. Paltarın təbiəti onun tərzindən asılıdır. 70-ci illərin sonlarında sinif modasının təbiətində dəbli geyim tərifində köklü dəyişikliklər baş verdi. Onlar yalnız üslub, siluet, uzunluq haqqında deyil, həm də stil haqqında danışmağa başladılar. Hər bir üslubun xüsusiyyətləri kəsik, forma, parça bəzək, geyim əşyaları dəsti, habelə zərgərlik və kosmetikanın müxtəlif əlavələri ilə yaradılmışdır. Hal-hazırda əsas üslublar, klassik, gənclik, idman, folklor, cins, retrodur.

Klassik üslub-dəbdə, zövqlərdə, asılılıqlarda, əlavələrdə olan bütün dəyişikliklərə baxmayaraq, müəyyən dərəcədə bilinməyən hallar var. Klassik üslubda olan geyimlərin nisbətləri insan şəklinin təbii nisbətlərinə, formaların xətlərinə uyğundur və lakonikdir. İngilis modelyeri Qabriel Chanelin bir kostyumu və kiçik bir qara paltarı klassik üslubda hazırlanmışdır.

İdman üslubu – idman üçün rahat, gigiyenik və gözəl paltarlara dəbin təsiri altında inkişaf etmişdir. İdman üslubunda müxtəlif məqsədlər üçün paltar təmin edilə bilər. Stilin xarakterik xüsusiyyətləri: rahatlılığı, praktikliyi, müxtəlif strukturların parçalarının birləşməsi, müxtəlif aksessurlar, bitirmə detalları.

Klassik geyim tərzi modanın təməlidir, bütün moda meyllərinin başlanğıc nöqtəsidir, həm rahat və zərif geyinmək istəyənlər ilə həmişə məşhur olan klassik geyimdir[3].

Klassik üslub müxtəlifliyi və parlaqlığı qəbul etmədiyi üçün rənglər uzun müddət əvvəl təyin olunur. Bu bir zolaq, bir qəfəs, bir Milad ağacı bir az daha yayğındır. Rəngi monoton, qara-boz-mavi rəngli çalarlara üstünlük verilir, ən çox açıq boz rəngdən istifadə edilir.

Romantik geyim tərzi ən çox qadın tərzidir. Klassiklərin ciddiliyindən aydınlığından fərqli olaraq romantik üslub, qadın təvazökar, biraz səliqəli, incə bir şəkildə tərk edərkən qadın rəmzinin qamət gözəlliyini vurğulayır.

Vintage geyimləri özünəməxsus bir sənət olmalıdır, orijinal, eyni zamanda dövrünün moda meyllərini tam ifadə edən.

Üslub əsas qaydaları təyin edən müəyyən konseptal bir matrisdir. Aldığımız hər hansı bir şey, əlbəttə ki, hər hansı bir üsluba uyğun və ya aid ola bilər. Stil nisbətən dar bir kateqoriya kimi qeyd etməyə çalışırsınızsa, onda geyimdəki üslub müəyyən əlamətlərin, geyim və aksessuarların xarakterik əşyalarının birləşməsidir.

Üslub moda ilə necə müqayisə olmalıdır?

Moda bəşəriyyətin zaman intervalında müəyyən bir anda necə və niyə geyə biləcəyinizi, seçdiyiniz nümunələr və seçimlər toplusudur.

Müasir moda baxımından yaxşıdır ki, stil motivləri, xüsusən yeniləri, çox mürəkkəb, sərt və mühafizəkar deyil. Ancaq qeyd etmək lazımdır ki, bu cür sərbəstlik müəyyən bir qarışıqlıq yaradır ki, bu da bir mənalı və şübhəzis konkret üslubun daxil olmasına qərar verməyə imkan vermir. Üslubların hüdudları dəyişkən olur, qaydalar şərti olur, sərhədlər keçir. Təmiz şəffaf bir üslub tələb edən sərt moda qanunları tədricən moda reseptlərin təsvirlərinə, meyl və meyllər toplusuna çevrilir.

Hər moda mövsümü içəridə modanı qoruyan müəyyən bir əsas ilə təqdimedilə bilər. Geyə biləcəyiniz və geymək istədiyiniz paltarları inkişaf etdirməlisiniz. Dəbin bu "mühafizəkar" nüvəsini saf sənətə çevrilməkdən qoruyur. Moda əlbəttə ki, olduqca mübahisəli bir hadisədir.

Trendlər və meyllər bir kaleydoskopda olduğu kimi dəyişir. Müasir cərəyanlar və meyllər haqqında çoxlu bir məlumat axını altında modadan yalnız bir vasitə, şəxsi özünü formalaşdırmaq üçün fikir mənbəyi kimi istifadə etmək çox çətindir.

Müasir moda artıq ciddi və əsas tələblər sahəsi olmadığı ilə fərqlənir. Hər hansı geyim seçimindən və nə qədər dəbli geyinməyə çalışmağımızdan asılı olmayaraq, ən başlıcası fərqlənməmək üçün cəmiyyətdə fərdliliyi və şəxsiyyəti qorumaqdır. Geyim heç bir şeylə məhdudlaşmadan özümüzü ifadə etməyə kömək edir. Dəbli və şık olmaq – hər hansı bir üslubda uyğunluq demək deyil, həm xarici, həm də daxili özünə uyğunluq və bu yarışmanı inamla ötürür. Kimsə moda və üslub məsələlərinə və onların bizə təsirinə həddindən artıq şübhə ilə yanaşsa da, səssiz olduğumuzu həmişə xatırlamalısınız, paltarlar biz\im üçün danışır[4].

Üst geyimlərinin estetik tələblərinə müasir formada üslub böyük təsir göstərir. Bədii üslub insan cəmiyyətinin bir dövrünü əhatə edir və həmin dövrün zövqünü özündə əks etdirir. Üslub cəmiyyətin maddi-iqtisadi şəraitini özündə cəmləşdirir. Üslub eyni zamanda cəmiyyətin bədii mədəniyyətinin vəziyyətini həmin xalqın adət ənənələrinin xüsusiyyətini və inkişaf dərəcəsini də müəyyən edir.

Açar sözlər*:* fantaziya, stil, üslub, moda, illuziya, aksessuar

ƏDƏBİYYAT

1. Герольд – Роберт. Костюмы народов мира. Иллюстрирование энциклопедия. Москва, эксмопресс, 2002.
2. Козлова Т.В.Основы художественного проектирования изделий из кожи изд. Легпромиздат. Москва 1988, 259 стр.
3. Əliyev O. Kostyumda estetik xüsusiyyətlərin analizi. Bakı: Elm. 2016.- 51s
4. Yunusov N. R. Müasir modanın inkişaf tendensiyaları, Səda, 2006.

АНАЛИЗ СТИЛЕЙ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ОДЕЖДЫ

Шакир Рустам оглы Алиев
shakiraliyev@atu.edu.az
Гульнара Нуреддин кызы Алиева
g.aliyeva@atu.edu.az
Севиндж Ровшан кызы Мамедова
memmdovasevinc04@gmail.com
Назрин Рза кызы Гасанова
Азербайджанский Технологический Университет

Проанализировано влияние разных стилей в современной одежде. Отражено большое влияние стиля модерн на эстетические требования к верхней одежде. Стиль определяет состояние художественной культуры общества, характер обычаев и традиций этого народа, степень его развития.

Современные модные стили сегодняшнего дня несут в себе некоторые мотивы прошлых столетий. Если мы внимательно посмотрим на нашу современную одежду, то увидим, что стили одежды, созданные в разные периоды, лишь незначительно изменились и адаптировались к вкусам нового поколения.

Ключевые слова*:* фантазия, стиль, мода, иллюзия, аксессуар.

ANALYZING THE STYLES OF MODERN AZERBAIJANI CLOTHING

Shakir Rustam oglu Aliyev[1]
Gulnara Nuraddin gizi Aliyeva[2]
g.aliyeva@atu.edu.az
Sevinj Rovshan gizi Mammadova[3]
memmdovasevinc04@gmail.com
Nazrin Rza gizi Hasanova[4]
Azerbaijan Technological University

The influence of different styles in modern clothing is analyzed. The great influence of modern style on the aesthetic requirements for outerwear is reflected. Style determines the state of artistic culture of a society, the nature of customs and traditions of this nation, the degree of its development.

The modern fashion styles of today carry some motifs from past centuries. If we take a close look at our modern clothes, we can see that the clothing styles created in different periods have only slightly changed and adapted to the tastes of the new generation.

Key words: fantasy, style, fashion, illusion, accessory.

QARABAĞDA DEKORATİV TƏTBİQİ SƏNƏT VƏ SƏNƏTKARLAR

Əli Zeynal oğlu Məmmədov
alimammad377@gmail.com
Kəmalə Məmməd qızı Məmmədova
ysmdizayn13@gmail.com
Azərbaycan Texnologiya Universiteti

XX əsrin axırlarında baş verən müharibələr zamanı Qarabağ ərazisində yerləşən Şuşa, Xankəndi, Laçın, Cəbrayıl və s. kimi şəhərlər dağıldı və orada mövcud olan dekorativ tətbiqi sənət nümunələri hazırlayan sənətkarların emalatxanaları dağıdıldı, həmin bölgədə Azərbaycan xalqının sənəti və muzey mədəniyyəti məhv edilmişdir.

Son illər ərzində Qarabağ bölgəsi işğaldan azad edildikdən sonra hazırki şəhərlərin bərpasına başlanıldı. Yəqin ki, aparılan bərpa işlərində qeyd edilən dekorativ tətbiqi emalat-xanalarında bərpası nəzərdə tutulacaqdır.

Qarabağ bölgəsi nəinki, Azərbaycanın həmçinin dünya ölkələrinin bir çox bölgələrindən fərqli olaraq daha qədim tarixə malik olan bir ərazidir. Məhz, Qarabağ bölgəsi özünün tarixi, maddi-mədəniyyət abidələri, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Qarabağlıların zəngin yaradıcılıq çeşməsində ən mühüm yerlərdən birini onun həyat və məişəti, gündəlik güzəranı ilə bağlı olan xalq sənətləri tutur. Təbiidir ki, Qarabağlıların məişət xüsusiyyətləri, estetik zövqü, bir sözlə milli siması, mənliyi bu sənət növündə özünü xüsusilə parlaq şəkildə büruzə verəcəkdi. Əbəs yerə olmayaraq indi dünyanın ən zəngin muzeylərində Qarabağ xalq sənətkarlığının timsalında Azərbaycan xalq sənətkarlığının bir çox gözəl nümunələri ilə rastlaşmaq olur. Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Romanın, Berlinin, İstambulun, Tehranın, Qahirənin məşhur muzey kolleksiyalarına baxarkən orada Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görmək olar. Qarabağlıların əməyi sayəsində yaranıb bölgənin həyat və məişətində geniş istifadə edilən Qarabağ el sənətinin böyük və qədim bir tarixi var.

Qarabağdan tapılmış qab-qacaq, silah və bəzək nümunələri tək bir tarixi fakt kimi deyil, həm də onu yaradan sənətkarın ustalıq bacarığından məlumat verən qiymətli mənbədir. Metaldan düzəldilmiş sənət nümunələri içərisində elələri vardır ki, onların üzərində olan bəzək və təsvirlərlə biz o dövrdəki insanların adət-ənənələri, dini görüşləri və hətta geyimləri ilə yaxından tanış ola bilərik. Qarabağ xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xusüsiyyətləri öz əksini geyimlərdə tapır. Bu xüsusiyyət həm müəyyən formalı

geyim və onun bəzəklərində və həm də bədii tikmə, toxuma və toxuculuqda özünü biruzə verir. Arxeoloji qazıntılar vasitəsilə külli miqdarda qədim maddi mədəniyyət nümunələrinin aşkar edilməsi Qarabağın maddi və mənəvi mədəniyyət tarixini öyrənməyə imkan vermişdir. Təsadifi deyil ki, qədim və zəngin tarixə malik Azərbaycan xalqına məsxsus olan bu bölgə dünyanın bir sıra alimləri tərəfindən maraqla qəbul edildiyi kimi, eyni zamanda bu ulu diyarın tarixinə saxta yollarla sahiblənmək istəyən avantürüstlərin də diqqətindən yayınmamışdır.

Qarabağdan aşkar edilmiş hər bir arxeoloji material, başqa sözlə maddi mədəniyyət nümunəsi olan irili-xırdalı bütün əşyalar – tikinti materialları, məişət əşyaları, süfrə qab-qacaqları, bəzək əşyaları hər biri həm özünün istehsal olunması baxımından, həm də onların üzərindəki müxtəlif qliptik, teoreftik təsvirlərin, naxışların həkk olunması baxımından qarabağlıarın həyatında özünə yer tutan qədim mədəniyyətin xarakterik cəhətləri, səviyyəsi, inkişaf xüsusiyyətlərinin təcəssümüdür. Misdən, tuncdan, qızıldan düzəldilmiş ev avadanlığının və zinət əşyalarının üzərinə həkk olunmuş müxtəlif rəsmlər Qarabağda hələ qədim zamanlarda təsviri sənətin mövcud olduğunu sübut edir. Müxtəlif dövrlərdə Azərbaycanın Qarabağ xalçaçılıq məktəbində toxunulmuş xalçalar bu günədək öz gözəlliyi ilə insanları valeh edir. Onların bir çoxu dünyanın məşhur muzeylərində mühafizə olunur. Zəngin mədəni irsə malik olan Qarabağ bölgəsi musiqi, muğam diyarı kimi də məşhurdur. Azərbaycan musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Qarabağ musiqisinin çoxəsrlik ənənələri vardır. Qarabağ musiqi sənətində muğamlar, xalq mahnıları, rəqslər, aşıq yaradıcılığı da özünəməxsus yer tutur. Təsadüfi deyildir ki, Qarabağ milli musiqisinin təməl daşı, onun bünövrəsini muğamlar təşkil edir.

Qarabağlı ədəbiyyat nümayəndələrinin yaratdıqları ədəbi əsərlər Azərbaycan mədəniyyəti xəzinəsində özünəməxsus şərəfli yer tutur. Müxtəlif dövrlərdə Qarabağ xalçaçılıq məktəbində toxunulmuş xalçalar bu günədək öz gözəlliyi ilə insanları valeh edir. Onların bir çoxu dünyanın məşhur muzeylərində mühafizə olunur.

Ərazidə aparılmış arxeoloji qazıntıların nəticələri göstərmişdir ki, Qarabağda yaşamış qədim insanlar tarix boyu şərəfli yaradıcılıq yolu keçərək çoxsaylı mədəniyyət əsərləri yaratmışlar və onlardan biri də memarlıqdır. Öz köklərilə ta qədim dövrlərə gedib çıxan Qarabağ təsviri sənət ənənələri özündə neçə-neçə nəsillərin bədii təcrübəsini yığıb saxlamışdır. Buraya Kəlbəcər, Ağdam, Laçın rayonlarındakı qayaüstü rəsmlər, zəngin bəzəyə malik əmək alətləri və məişət əşyaları, öz gözəlliyi və rəngarəngliyi ilə nadir olan xalçaçılıq sənəti, zərgərlik əşyaları və s. daxildir. Həmçinin öz nəfisliyi və zərifliyi ilə seçilən memarlıq abidələrini, məscidləri, məqbərələri, sarayları, kilsələri, məbədləri və kaşı naxışlarını da xatırlamamaq mümkün deyil. Bütün bunlar Azərbaycan xalqının bədii mədəniyyətinin özünəməxsus «genofond»unu yaratmış, onun zəngin irsini təşkil etmişdir. Həmin irs XIX əsrin ortalarından yeni tendensiyalarla daha da dolğunlaşmışdır. Bu dövrün əsas nümayəndələri kimi istedadlı fırça ustaları Mir Mövsüm Nəvvab, şair və rəssam Xurşudbanu Natəvan və bir çox digərləri çıxış edirdi. Öz zənginliyinə və öz unikallığına görə Qarabağ mədəniyyəti Azərbaycan mədəniyyətinin aparıcı və ayrılmaz tərkib hissəsi olmuşdur və olacaqdır.

Əlverişli coğrafi mühitə, zəngin təbii sərvətlərə malik olan Qarabağ ən qədim insan məskənlərindən biri olmuşdur. Azıx bağarasından başlanmış bu həyat su mənbələrinə yaxın olan sahələrin məskunlaşması ilə nəticələnmişdi.

Tunc dövründə Qarabağda artıq tam formalaşmış, müstəqil duluzçuluq, sümük-işləmə, daş-işləmə və sair sənət növləri mövcud olmuşdu. Qədim qarabağlılar Azərbaycanın digər mədəni mərkəzləri ilə iqtisdi-mədəni əlaqələr yaratmışdılar.

Qarabağ sənətkarlığından söhbət gedərkən nəzərə almaq lazımdır ki, qədim dövrdən beynəlxalq əhəmiyyətli ticarət yollarının bir istiqamətinin bu ərazidən keçməsi onun iqtisadi və sosial- mədəni baxımdan inkişafına səbəb olmuşdur.

Qarabağ bədii sənətkarlığında duluzçuluqla yanaşı metalişləmə sənətidə inkişafda idi. Qədim dövrlərdə bu bölgələrdə metal az miqdarda istehsal edildiyindən ondan çox nadir hallarda adi məişət məmulatları düzəldirdilər. Buna görə də metaldan, əsasən dini məzmun daşıyan bədii sənət əsərlərinin düzəldilməsində istifadə olunmuşdur.

Qarabağ sənətkarlarının metaldan düzəltdikləri məişət əşyaları, silahlar, bəzək nümunələri yüksək qiymətləndirilirdi. Metalişləmə sənətinin müəyyən sahələrində nəinki ayrı-ayrı sənətkarlar, həmçinin bütöv məhəllələr ixtisaslaşmışdı. Bu dövrdə bədii metal məmulatlarının üzərində adi sənətkarlarla yanaşı, məşhur rəssamlar da işləmişlər. Rəssamlar məişət əşyaları və silahların üzərini bəzəmək üçün onların forması və ölçüsü əsasında kompozisiyalar hazırlayır, bəzən də usta ilə birlikdə onu metal üzərinə köçürürdülər.

XVI-XVII yüzilliklərdə Azərbaycanda sənətkarlar daşdan, ağacdan və saxsıdan nadir sənət nümunləri yaratmışlar. Bunlardan dövrümüzədək çatmış daş abidələr xüsusi maraq doğrur. Bərdə, Laçın, Ağdam, Kəlbəcər və s. yerlərdən tapılmış daş, qoç və at fiqurları, sujetli qabartma heykəllər Azərbaycan incəsənəti tarixinin maraqlı səhifələrindəndir.

Qarabağın ən qədim tarixi şəhərlərindən olan Bərdə, Beyləqan, Şətəl və Bayat memarlıq və dekorativ-tətbiqi sənətlər xüsusilə XII-XV-ci yüzilliklərdə yüksək inkişaf mərhələsinə çatır. Aran memarlıq məktəbinin formalaşması, şəhərsalma problemlərinin həlli ilə bağlı sənətlərin bədii sintezi sahəsində yüksəliş nəzərə çarpır, memarlıq kompleksləri, ictimai və dini binalar,saraylar, qəsrlər, məscid və türbələr inşa edilir, həmin binaların dekorativ tərtibatında kalliqrafiya-kitabə, ornament, kaşı (mayolika) və qabartma elementlərindən geniş istifadə olunur.

Orta əsr Azərbaycan təsviri sənəti dekorativ – tətbiqi sənətlə yanaşı, memarlıqla da üzvi əlaqədə olmuşdur. Milli estetik baxışları ifadə edən vahid üslub prinsiplərinə əsaslanır.

Açar sözlər*:* xalq sənəti, abidələr, naxışlar, təsviri sənət, kompozisiya.

ƏDƏBİYYAT

1.Əfəndiyev R. Azərbaycan xalq sənəti Bakı: İşıq,-1984,204 s.
2.Əsədova S.D. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. Bakı:Elm, 1978.-154 s.
3.Xəlilov C.Ə. Azərbaycanda tapılmış tunc kəmərlər AMM., IV c.,Bakı: Azərb.SSR EA Nəşriyyatı, 1962. 198 s.
4.Göyüşova T. Azərbaycanın tunc kəmərləri. Tarix üzrə fəl. dok. almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Bakı, 2010. 126 s.
5.İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı: «Elm», 1988. 162 s.

ДЕКОРАТИВНО ПРИКЛАДНОЕ ИССКУСТВО И МАСТЕРА КАРАБАХА

Али Зейнал оглу Мамедов
alimammad377@gmail.com
Камала Мамед кызы Мамедова
ysmdizayn13@gmail.com
Азербайджанский Технологический Университет

Исследовано создание, сегодняшнее состояние и дальнейшее развитие прикладного искусства Карабаха, а так же указаны пути развития прикладного искусства.

Дороги международного значения, которые проходили через Карабах, способствовали развитию экономических и социально- культурного развития региона.

В XVI-XVII веках Азербайджанские мастера создавали из камня, дерева и фаянса уникальные образцы искусства.

Ключевые слова: народное искусство, памятники, узоры, изобразительное искусство, композиция.

DECORATIVE APPLIED ARTS AND ARTISANS OF KARABAKH

Ali Zeynal oglu Mammadov
alimammad377@gmail.com
Kemale Mammad gizi Mammadova
ysmdizayn13@gmail.com
Azerbaijan Technological University

In the Karabakh region of Azerbaijan, when all the branches of decorative applied art appeared, opinions were expressed about its current state, and proposals were made for how to develop it in the future.

When talking about Karabakh crafts, it should be taken into account that since times, passage of one direction of internationally important trade routes through this area has led its economic and social-cultural development.

In the 16th and 17th centuries, Azerbaijani artists created rare works of art from stone, wood and pottey. Of these, the stone monuments that have survived to our time are of special interest.

Key words: folk art, monuments, patterns, fine arts, composition.

BƏDİİ ÜSLUB DƏYİŞİKLİYİ KONTEKSTİNDƏ KOSTYUMUN TARİXİ TƏKAMÜLÜ

Şakir Rüstəm oğlu Əliyev
shakiraliyev@atu.edu.az
Gülnarə Nurəddin qızı Əliyeva
g.aliyeva@atu.edu.az
Radə İsfəndiyar qızı Əsgərova
r.asgerova@uteca.edu.az
Sultan Vaqif oğlu Heydərov
Azərbaycan Texnologiya Universiteti

Təbiətdə hər şey, o cümlədən insan müəyyən qanunlar əsasında yaradılıb. İnsan özünü dərk etdikcə bu qanunları öz yaratdığı məhsullara köçürür və öz yaşayış mühitini yaradır. Ətraf mühiti dəyişərək insan təkcə kompozisiya qanunlarını tətbiq etmir, o həm də insanlığın estetik və fəlsəfi dünya görünüşünü özündə saxlayan bədii stillər yaradır.

Stil formalaşdırmadan alınan nəticə arxitekturadır. Ona geyim, məişət əşyaları və süni landşaft tabedir. Arxitektura da geyim layihələndirməsində olduğu kimi qızıl orta qanunundan başlayan kompozisiya qanunları tətbiq edilir. Fərq yalnız bu qanunların tətbiq edildiyi obyektlərdə və onların tətbiqi qaydasındadır [1]. Kostyum rəssamı müstəvi üzərində həcm predmetlərinin yaradılması ilə bağlı çətinliklərlə qarşılaşır. Paltar özü həcmə malikdir, yəni üçölçülüdür. Eskizdə onun təsviri ikiölçülüdür, yəni müstəvidir. Əgər element təkrarlanırsa, o zaman ritm əmələ gəlir, əgər ritm varsa orada hərəkət var.

XII – XIV əsrlərdə Qərbi Avropada yaranmış və kilsə ehkamlarına əsaslanan, o dövrün dini-idealist fəlsəfəsini əks etdirən qotik üslub üçün rəng ilə səciyyələnən və kostyuma dinamiklik verən assimmetrik bir həll xarakterik idi. Qaranlıqlar içində olan bir katolik düşüncəyə malik orta əsrləri əvəz edən intibah dövründə yeni bir həyatı təsdiq edən dünyagörüşü yarandı. Kostyumun müxtəlif hissələrinin uyğunluğu insan bədəninin quruluşuna nisbətdə kəskin olaraq dəyişdi. İntibah dövrü teatrallıq, tilsimçilik xüsusiyyəti olan Borokko üslubu ilə əvəz edilmişdir. Borokko üslubu üçün əzəmət, ibarəlilik və konkret bir formanın olmaması xarakterikdir[2].

Bu gün dəbdəbəli kostyumun formaları tez-tez dəyişir, odur ki, hər dəfə yeniləndikcə kostyum hətta qısa müddət ərzində adətə çevrilməyi çatdırmır. Hazırda "kostyum" termini dedikdə ayrıca insanın sosial qrupunun obrazı haqqında informasiyanı daşıyan geyim və aksessuarlardan ibarət bir çeşid nəzərdə tutulur. Tamamilə aydındır ki, "kostyum" məfhumu geyim anlaşı ilə müqayisədə daha tutumludur, çünki öz mahiyyətinə görə

kostyum hər zaman geyimdir, ancaq geyimin özü heç də hər dəfə kostyum ola bilmir. Hal-hazırda kostyumun əhəmiyyəti hərtərəflidir, geyim üçün daha səciyyəvi xarakter daşıyan yalnız iki funksiya qoruyucu və estetik funksiyalarla kostyumun ifadəsini məhdudlaşdırmaq bir o qədər də qanuna uyğun olmazdı. Artıq qeyd edildiyi kostyum və geyim məfhumları çağdaş təsəvvürlərdə kifayət qədər bir-birinə yaxın olsa da qətiyyən eyni deyil. Bu terminlərdən hər biri eyni problemin iki tərəfini kifayət qədər ifadəli və mənalı tərzdə təsvir edir, paltara xas olan funksiyaların ikitərəfliliyini düzgün əks etdirir. Bu halda paltar geyim sözündə aşkar surətdə ifadə olunan, ətraf mühitdən insan bədəninin təcrid edilməsini, gizlədilməsini kimi anlaşılan utilitar təyinatı yerinə yetirmiş olur. Başqa sözlə desək paltar-geyim insan bədənini örtür, ancaq paltar-kostyum, ayrıca insanı ona bənzər olan adamlar kütləsindən ayırır, seçir və zahirən ictimai təbəqələri sinfi, əmlak, peşəkarlıq və yaxud hər hansı bunlara bənzər digər əlamətlər üzrə differensasiya edir. Bir tərəfdən, paltar-əşyalar, geyinmə predmetidir, məişət və zəruri ləvazimatdır, digər tərəfdən isə özünəməxsus danışıq tərzinə malik müəyyən məna daşıyan bir işarədir[3]. Tarixin istənilən dövründə son dərəcə maraqlı bir obyektdir, onu insanların gündəlik həyatı, onların vərdişləri, dünyagörüşü, üstünlük təşkil edən ideyalar haqqında bəhs edən mədəni metafora kimi dəyərləndirmək mümkündür.

Hər hansı predmetin bədii ifadəliliyinin yaradılmasına kömək edən amilləri nəzərdən keçirək.

Böyüklük-bu formanın ölçüləri ilə onların müqayisə edildiyi təqdirdə digər formaların ölçüləri ilə nisbətidir.

Həndəsi görkəm-bu xassə formanın bütün istiqamətlər üzrə ölçülərinin nisbəti ilə müəyyənləşir.

Müasirlik-bu formanın çəkisini müəyyən edən formanın doldurulması sıxlığıdır.

Faktura-bu formanın səthinin qurulmasının xarakteridir.

Rəng-məmulatın obrazlı qurulmasına və formanın digər xüsusiyyətlərinin qavranılmasına fəal kömək edən ən emosional ifadəli xarakteristikasıdır.

Kostyum hər bir predmet kimi çoxlu sayda müxtəlif xətlərə malikdir ki, bunların da məcmusu bizə forma və onu bütövlük yaradan hissələr barədə tam informasiya verir.

Öz təyinatına görə kostyum formasının xətləri bunlardır:

- Siluet xətləri bunlar predmetin konturlarını təsvir edirlər və forma haqqında onun daxilindəki xüsusi cəhətləri konkretləşdirmədən ümumiləşmiş təsəvvür verirlər.
- Konstruktiv xətlər siluetin daxilində yerləşən, formanın konstruksiyasını göstərən xətlərdir, yəni formanın ayrı-ayrı elementlərinin və hissələrinin bütövlükdə necə təşkil olunduğunu bildirirlər; kostyumda belə xətlər bütün tikişlərdir.

Kostyumda müxtəlif xətlərin əhəmiyyəti çox böyükdür, lakin bunu birmənalı qəbul etmək də olmaz. Ən mühüm xətlərə siluet xətlərini aid etmək olar, çünki kostyumun formasının ümumi xarakterini, onun plastik təşkilini məhz onlar müəyyən edirlər. Əhəmiyyətinə görə ikinci dərəcəli xətlər konstruktiv xətlərdir[4]. Kostyumda onları minumuma endirmək olar, lakin bunlarsız keçinmək mümükün deyil, çünki bu xətlər formanın ayrı-ayrı hissələrini bütöv məmulatda birləşdirirlər.

Qeyd etmək lazımdır ki, müasir bir kostyum yaradarkən dizayner yalnız moda yenilikləri deyil, həmçinin rahatlığı, çoxfunksiyalılığı və müasir cəmiyyətin tələblərinə və zövqünə uyğun olmalıdır.

Müasir kişi kostyumu modellərinin işlənib hazırlanması zamanı günün tələblərinə uyğun olaraq və müasir dövrün bədii üsullarının tərtib edilməsi kütləvi şəkildə istehsalın

daha məhsuldar olmasını əks etdirir. Yeni tərtib edilən kişi kostyumu modelinin müasir bədii üsullarla hazırlanması geniş vüsət alaraq qabiliyyətinin daha yüksək olmasına səbəb olur.

Heç bir itgiyə yol vermədən daxili və xarici bazar iqtisadiyyatı ilə müştərək anlaşma nəticəsində böyük insan tələbatının rəqabətini qazanacaq.

Açar sözlər*:* stil, siluet, harmoniya, kompozisiya, forma, proporsiya

ƏDƏBİYYAT

1. Paşayev B.S. “Dizayn tarixi”. Dərs vəsaiti. S.16., 2015
2. Əliyeva K. “Müasir geyimin layihələndirilməsində yaradıcılıq mənbəyi olan geyimlərin təhlili”. Bakı, 2018.s.8.
3. Алиева Р. «Модные тренды и их влияние на дизайн современной одежды». Баку, 2018. с.22.
4. Вагнер В.В. «Влияние современных технологий на развитие творчества дизайнеров одежды» Санкт – Петербургский Государственный Университет промышленных технологий и дизайна, г. Санкт – Петербург, Россия, 2018. с.46.

ИСТОРИЧЕСКАЯ ЭВОЛЮЦИЯ КОСТЮМА В КОНТЕКСТЕ ИЗМЕНЕНИЙ ХУДОЖЕСТВЕННОГО СТИЛЯ

Шакир Рустам оглы Алиев
shakiraliyev@atu.edu.az
Гульнара Нуреддин кызы Алиева
g.aliyeva@atu.edu.az
Рада Исфандияр кызы Аскерова
r.asgerova@uteca.edu.az
Султан Вагиф оглы Гейдаров
Азербайджанский Технологический Университет

Все в природе, в том числе и человек, создано на основе определенных законов. По мере того, как человек осознает себя, он переносит эти законы на продукты, которые он создает, и создает свою собственную среду обитания. Изменяя окружающую среду, человек не только применяет законы композиции, но и создает художественные стили, вобравшие в себя эстетический и философский облик мира человечества.

Результатом формирования стиля является архитектура. Ему подчинены одежда, предметы быта и искусственный ландшафт. В архитектуре, как и в дизайне одежды, применяются законы композиции, которые начинаются с закона золотой середины. Разница лишь в объектах, в которых применяются эти законы, и в порядке их применения.

Художник по костюмам сталкивается с трудностями, связанными с созданием объемных предметов на плоскости. Сама одежда имеет объем, то есть является трехмерной. В эскизе его изображение двумерное, то есть плоское. Если элемент повторяется, то образуется ритм, если ритм, то есть движение.

Ключевые слова*:* стиль, силуэт, гармония, композиция, форма, пропорция.

HISTORICAL EVOLUTION OF COSTUME IN THE CONTEXT OF CHANGES IN ARTISTIC STYLE

Shakir Rustam oglu Aliyev
shakiraliyev@atu.edu.az
Gulnara Nuraddin gizi Aliyeva
g.aliyeva@atu.edu.az
Rada Isfandiyar gizi Askerova
r.asgerova@uteca.edu.az
Sultan Vagif oglu Heydarov
Azerbaijan Technological University

Everything in nature, including man, is created on the basis of certain laws. As man realizes himself, he transfers these laws to the products he creates and creates his own environment. By changing the environment, man not only applies the laws of composition, but also creates artistic styles that incorporate the aesthetic and philosophical makeup of the human world.

The result of the formation of style is architecture. Clothing, everyday objects and artificial landscape are subordinated to it. In architecture, as in fashion design, the laws of composition are applied, which begin with the law of the golden mean. The only difference is in the objects in which these laws are applied, and in the order of their application.

The costume designer faces the difficulties associated with creating three-dimensional objects on a plane. The garment itself has volume, that is, it is three-dimensional. In the sketch, its image is two-dimensional, that is, flat. If the element is repeated, then a rhythm is formed, if the rhythm, then there is movement.

Key words: style, silhouette, harmony, composition, form, proportion

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV, AZƏRBAYCAN XALQININ MƏNƏVİ VƏ MİLLİ ƏNƏNƏLƏRİNİ YAŞADANDIR

Əli Zeynal oğlu Məmmədov
alimammad377@gmail.com
Kəmalə Məmməd qızı Məmmədova
ysmdizayn13@gmail.com
Azərbaycan Texnologiya Universiteti

1969-cu ildə görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyə gəlişiylə şəhər-salma və memarlığa münasibət kəskin dəyişdi və tələbat tamamilə artmağa başladı. Şəhərlərdə tarixi mühitə, tarixi abidələrə və memarlığa, ətraf mühitin, bağ-park kom-plekslərinin və yaşıl massivlərin yaxşılaşdırılmasına, kurort və istirahət bölgələrinin bərpa olunmasına və inkişaf etdirilməsinə, yaşayış mikrorayonlarının və qəsəbələrin salınmasına böyük diqqət yetirilməyə başlanıldı. Azərbaycan Dövlət Baş layihə inistitutu tərəfindən Naftalan, Şuşa, İstisu və başqa kurort şəhərlərinin baş planları işlənib hazırlandı, Yalama-Nabran, Lənkəran-Astara kurort bölgələrinin və Abşeronun dəniz kənarının inkişaf layihələri tərtib edildi. Tarixi-mədəni memarlıq və təbii qoruqlar yaradılırdı. 1972-ci ildə Azərbaycan Baş Dövlət layihə institutu tərəfindən Qobustan tarixi-mədəni qoruq ərazisinin inkişafı üçün baş plan işlənib hazırlanmış, burada muzey və Bakı şəhəri yaxınlığında dəniz kənarı istirahət yerləri yaratmaqla iri turizm bölgələrinin qurulması nəzərdə tutulmuşdur.

1970-ci ildə Azərbaycan Respublikasında şəhərsalmanın inkişafının istiqamətlən-dirilməsi məqsədi ilə tövsiyələrin işlənib hazırlanması haqda məsələ qarşıya qoyul-muşdur.

Azərbaycanın məskunlaşmış yaşayış yerlərinin inkişafının məkanı konsepsiyası, bütün yaşayış məntəqələrinin, əsas, dayaq şəhərləri ilə respublikanın yerləşdirmə qrup sistemlərinin mərkəzləri ilə respublika kəndlərində daxil olmaqla, sıx qarşılıqlı əlaqələrə və qarşılıqlı təsirə əsaslanmışdır. Azərbaycanın belə mərkəzi şəhərlərinə Bakı, Gəncə, Şirvan, Şəki, Naxçıvan, Xaçmaz, Lənkəran, Göyçay, Ağdam, Siyəzən, Mingəçevir, Salyan,

Sumqayıt, Quba, Xankəndi, Qazax, Şəmkir, Zaqatala, Daşkəsən, Gədəbəy, Goranboy şəhərləri inkişaf edən yaşayış məntəqələri üzərinə qoyula bilər.

Azərbaycan Respublikası şəhərlərinin Baş planlarının təhlili göstərir ki, yenidən işlənib hazırlanmış bütün Baş planlar yaranmış planlaşdırma sisteminin qismən düzəldilməsi məqsədini güdür.

XX əsrin 70-80-ci illərində respublika rəhbəri Heydər Əliyev tərəfindən verilmiş tapşırığa əsasən 60-a yaxın iri və kiçik şəhərlərin və rayon mərkəzlərinin Baş planları işlənib hazırlanmışdır. Baş planlarda şəhər strukturunun yaxşılaşdırılması üçün memarlıq planlaşdırma effektliyini artırmaq, mövcud landşaft zonalarını qoruyub saxlamaq, tarixi irsi tikililərin müasir tikililərlə orqanik əlaqəsinin artırılmasına fikir verilməli və tikililərin memarlıq məkanı kefiyyətlərinin olması tələb olunurdu.

970-80-ci illərdə, yəni az bir müddət ərzində respublikanın rəhbəri Heydər Əlirza oğlu Əliyev cənablarının təşəbbüsü və iştirakı ilə Bakı şəhərində "Respublika" və "Gülüstan" sarayları, "Azərbaycan", "Moskva", "Abşeron", "Bakı" mehmanxanaları, "Şərq bazarı", "Prezident sarayı", "Milli məclisin" binası, "Azərbaycan nəşriyyatının" binası, "Bakı Məişət kondisionerləri" zavodu, "Dəmiryolu vağzalının" yeni binası, "Nizami", "Əcəmi" metro stansiyaları, "Əhmədli" yaşayış massivi on ildən az bir vaxtda tikilmiş və memarlıq nümunələri kimi əvəzsiz mövqeyə malik olmuşdur.

Quruculuq ideyalarına malik olan Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev cənabları tikintilərdə memar və inşaatçılara əməli məsləhətlər verərək, onlara gündəlik işlərində ilhamverici olurdu, tikintilərin təntənəli və izdihamlı açılışlarında iştirak etməklə, tədbirləri Respublika əhəmiyyətli mərasimlərə çevirərək, inşaatçıların və memarların əməyinə yüksək qiymət verirdi.

O, həmişə Memar Əcəmi Naxçıvaninin kəlamını tədbirlərdə səsləndirirdi və deyirdi:

"Biz gedəcəyik, dünya duracaq,

Biz öləcəyik, bu yadigar qalacaq."

Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev cənabları yeni quruculuq işlərinə daim təkan verirdi və öz iştirakı ilə "Həyat Naxçıvan" mehmanxanasının, "Beynəlxalq Bankın" yeni binasının, "Ramstor" super marketinin, "Televiziya qülləsinin", "Diplomatik" mərkəzin, "Beynəlxalq hava limanı" nın yeni binasının, çoxmərtəbəli yaşayış binalarının tikintilərində və istifadəyə verilməsində əməyi çox böyükdür və layiqdir, Heydər Əliyev cənabları öz çıxışlarında həmişə deyirdi:

"Bakı gözəl şəhərdir. Ancaq gələcəyi bundan da gözəldir."

1969-cu ildə Heydər Əliyev cənablarının Azərbycan Respublikasının rəhbəri olması ilə sənayenin inkişafına olan münasibət surətlə dəyişmişdir. O, Azərbaycanın zəngin təbii sərvətlətinin olmasını nəzərə almaqla maşınqayırma, energetika, mədənçıxarma, qida və başqa sahələri inkişaf etdirməyi qarşısına bir məqsəd kimi qoydu və 14 iri zavodun yerləşdirilməsi qərarını qəbul etdi.

1970-90-cı illər ərzində Bakıda "Məişət kondisionerləri zavodu", "Şampan şərabları" zavodu, "Maşınqayırma" zavodu, "Radio" zavod tikilib istifadəyə verilmişdir, Sumqayıt şəhərində "Kimya profilləri iri sənaye" kompleksi, aliminium zavodu yaradılmış, şəhəri yaşayış binalarının rekonstruksiyasına, mikrorayonların, məhəllələrin müasir memarlıq və şəhərsalma norma və qaydalarına uyğun formada qurulmasını tələb etmişdir.

Gəncə şəhərində "avtomobil" zavodu, gil-torpaq aliminum emalı zavodu, "Karamel məhsulları" fabrikası, "Çini qablar" zavodu, "Billur" zavodu, "Xalça" kombinatı tikilmişdir.

Energetika sənayesinin əsasında Mingəçevir və Əlibayramlı (Şirvan) kimi şəhərlər yaradılmışdır. Gəncə, Mingəçevir, Yelax şəhərlərində pambıq emalı zavodları və yüngül sənaye kombinatları tikilmişdir.

1978-80-ci illərdə Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev cənablarının tapşırığına əsasən Gəncə şəhərinin ərazisi iki rayona, yəni Nizami və Kəpəz rayonlarına

bölündü. Hər bir rayon üçün dövlət inzibati binaları tikildi. Gəncə şəhərinin yeni Baş planı tərtib edildi. Həmin Baş planda 1, 2, 3, 4, 5 mikrorayonların salınması, “Gülüstan”, “Mahrasa bağı”, “Yeni Gəncə” yaşayış qəsəbələrinin və “320-ci” yaşayış məhəlləsinin salınması və tikinti işlərinin aparılması planlaşdırıldı.

Hal-hazırda, bildiyimiz kimi Azərbaycanın ikinci böyük şəhəri və tarixi şəhəri olan Gəncə həmin Baş plan əsasında tikilir, bərpa edilir və sənaye-iqtisadi mərkəzlərdən biri kimi inkişaf edir.

Yuxarıda göstərilənlərdən məlum olur ki, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev görkəmli Dövlət xadimi kimi Azərbaycan Respublikasının yaradıcı Prezidenti olmuş və öz fəaliyyəti dövrünün əbədi memarıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmış, respublikamıza rəhbərliyinin bütün dövrlərində vətən və xalq qarşısında misilsiz xidmətlər, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi nümunəsi göstərmişdir. Bir qərinədən də çox zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu xalqımızın rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb. Müasir tariximizə ən böyük azərbaycanlı kimi həkk olunmuş Heydər Əliyev dövrün ən sərt və çətin sınaqlarından keçərək, qədirbilən xalqımıza. Ona görə demək olar ki, Böyük yaradıcı insanları tarix və onun xalqı yaşadır.

Açar sözlər: layihə, şəhərsalma, tikinti, memar.

ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ, СОХРАНИВШИЙ ДУХОВНЫЕ И НАЦИОНАЛЬНЫЕ ТРАДИЦИИ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА.

Али Зейнал оглу Мамедов
alimamad377@gmail.com
Камала Мамед кызы Мамедова
ysmdizayn13@gmail.com
Азербайджанский Технологический Университет

Общенациональный лидер Гейдар Алиев, основатель и архитектор независимого Азербайджанского государства, всемирно известный политик и великий государственный деятель, который всем своим существованием был предан своей Родине и народу, увековечен в нашей новейшей истории как пример богатейшего образца наследия государственности во все периоды своего руководства нашей республикой своими беспримерными заслугами и спасательной миссией перед Родиной и народом. Великий лидер Гейдар Алиев, руководивший Азербайджаном десятилетиями, не только в годы правления, но и на протяжении всей своей жизни, думал о благополучии своего народа, неустанно трудился, таким образом, посвятив всю свою жизнью во имя этого высшего дела, он завоевав вечную любовь в сердцах и воспоминаниях народа. Гейдар Алиев, вошедший в нашу новейшую историю как величайший азербайджанец, прошедший через тяжелейшие и суровые испытания эпохи, дал возможность нашему уважаемому народу самоутвердиться, превратив традиции национальной государственности в единую систему, и защитить право жить в независимом государстве и иметь свое управление.

Поэтому можно сказать, что история и ее люди увековечивают жизнь великим творческим людям.

Ключевые слова: проект, градостроительство, строительство, архитектор.

THE GREAT LEADER HEYDAR ALIYEV, REVIVING THE SPIRITUAL AND NATIONAL TRADITIONS OF THE AZERBAIJANI PEOPLE

Ali Zeynal oglu Mammadov
alimammad377@gmail.com
Kemale Mammad gizi Mammadova
ysmdizayn13@gmail.com
Azerbaijan Technological University

Heydar Aliyev, the founder and architect of the independent state of Azerbaijan, a world-famous politician and a great statesman who was devoted to his homeland and people with his whole existence, national leader Heydar Aliyev has been immortalized in our modern history, he has shown unparalleled services to the homeland and the people, a rescue mission, and a rich example of statehood heritage during all periods of his leadership in our republic. The great leader Heydar Aliyev, who led Azerbaijan for decades, not only during his years of rule, but throughout his life, thought about the well-being of his people, worked tirelessly, thus devoting his entire life to this supreme cause, he won eternal love in the hearts and memories of the people. Heydar Aliyev, who is engraved in our modern history as the greatest Azerbaijani, passed through the harshest and most difficult tests of the era, gave our esteemed people the opportunity to self-assert by turning the traditions of national statehood into a single system, and managed to protect the right to live in an independent state and govern itself.

That's why it can be said that history and its people keep alive great creative people.

Key words: project, urban planning, construction, architect.

НОВЫЕ ТЕНДЕНЦИИ ЭВОЛЮЦИИ ЖЕНСКИХ СУМОК

Ганира Фаик гызы Аббасова
ganira.abbasowa@yandex.ru
Арзу Тахир гызы Паша
Азербайджанский Технологический Университет

Дамская сумочка – не просто аксессуар, а один из самых необходимых и важных предметов для женщины, который вмещает целый мир. Изящные и элегантные, фантазийные и удобные, дорогие и не очень, сумочки отражают характер, пристрастия и настроение ее обладательницы. История создания сумки теряется в глубокой древности. Первыми сумками, были узлы из шкур первобытного периода. Позднее появились текстильные сумки, предназначенные для переноски небольших предметов. Они были известны уже в древнем Египте. Античность и Средневековье сделали поясные сумочки модным аксессуаром Сумка давно стала неотъемлемым элементом повседневности, именно поэтому мы не привыкли размышлять о ней как о чем-то большем, чем просто о вещи. Сумка – это не только очень удобная и функциональная вещь, но и стильный и модный аксессуар, который может дополнить образ или стать той изюминкой, которая будет приковывать к себе восторженные взгляды. В новом году выбор модных сумок огромен. Дизайнеры уже давно не настаивают на том, чтобы сумка совпадала по цвету с обувью. Для наступившего сезона очень актуальна замша. Любые аксессуары из нее находятся на пике популярности и выглядят очень достойно. Большая прямоугольная сумка из кожи или замши отлично впишется во все образы с верхней одеждой, а длинные кожаные ручки будут удобны, чтобы носить ее на плече. Багет и саквояж в этом сезоне, нам повезло больше чем, когда-либо и тренд на нефункциональные микро-сумки прошел, на смену ему в моде объемные модели тоутов, сумки-саквояжи, сумка боулинг и разные виды багетов. Также популярны сумки со множеством карманов, как на одежде в стиле карго, сумки хобо и различные виды кросс-боди,

Sürətlə dəyişən dünyada süni intellekt bizi hər addımda müşayiət edir. Biz bu dəyişiklikləri dayandıra bilmərik, amma müsbət tərəflərindən faydalanmaqla dünyamızı daha da yaxşılaşdıra, işlərimizi isə asanlaşdıra bilərik.

Açar sözlər; süni intellekt, dizayn, alət, qrafik dizayn.

ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ И ДИЗАЙН

Субхан Афет оглы Исмаилов
subhanisi431@gmail.com
Хафиза Нусрат кызы Гумашова
hafizagumash@gmail.com
Хиджран Адалят кызы Рамазанова
hicran.ramazanova76@mail.ru
Азербайджанский Технологический Университет

Искусственный интеллект присутствует во всех сферах нашей жизни и доминирует в каждом предмете и развитии, делая уверенные шаги к доминированию повсюду. Тот факт, что искусственный интеллект решает проблемы быстро и с небольшими ресурсами, опережает человеческую деятельность. Это может быть дизайнер, редактор, сценарист, преподаватель, водитель, бухгалтер, IT-специалист, простой рабочий. Сегодня искусственный интеллект одни задачи решает быстро, другие — медленно. В быстро меняющемся мире искусственный интеллект сопровождает нас на каждом шагу. Мы не можем остановить эти изменения, но, воспользовавшись их положительными аспектами, мы можем сделать наш мир лучше, а нашу работу – проще.

Ключевые слова; искусственный интеллект, дизайн, инструмент, графический дизайн

ARTIFICIAL INTELLIGENCE AND DESIGN

Subhan Afat oglu Ismayilov
subhanisi431@gmail.com
Hafiza Nusrat gizi Gumashova
hafizagumash@gmail.com
Hijran Adalat gizi Ramazanova
hicran.ramazanova76@mail.ru
Azerbaijan Technological University

Artificial intelligence is present in every part of our life and dominates every subject and development making sure steps towards dominating everywhere. The fact that artificial intelligence solves problems quickly and with little resources is ahead of human activity. It can be a designer, editor, screenwriter, teacher, driver, accountant, IT specialist, a simple worker. Today, artificial intelligence is mastering some tasks quickly and others slowly. In a rapidly changing world, artificial intelligence accompanies us at every step. We cannot stop these changes, but by taking advantage of their positive aspects, we can make our world better and our jobs easier.

Key words: artificial intelligence, design, tool, graphic design.

DİZAYN VƏ PSİXOLOGİYA

Mobil Ramiz oğlu Qarayev
mobil.qarayev89@gmail.com
Aysun Əfqan qızı Məmmədova
aysunmemmedova1808@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Biz bilirik ki, gündəlik həyatımızın hər yerində biz dizaynla rastlaşırıq. Dizayn sadəcə olaraq vizual olaraq bədii həllər deyil insanların davranışlarını, hisslərini, istəklərini və emosiyalarını anlayaraq dizaynlara daha çox dəyər əlavə etməkdir.Əlbəttə yaradıcı dizayn yaratmaq vacibdir həmçinin onun insan psixologiyasına necə təsir edə biləcəyini anlamaqda vacibdir və bu da dizaynerin insan şüurunu daha dərindən anlamasını tələb edir.Buna görə də dizayn və psixologiya bir-biri ilə sıx əlaqəlidirlər. **Psixologiyanın köməyi ilə dizaynerlər daha yaxşı başa düşülən və daha mənalı və yaradıcı dizaynlar yarada bilərlər.**

Dizayn və psixologiya arasındakı əlaqəni görmək üçün bir sıra qanunlar vardır ki, onlara nəzər yetirək.

Biz dizaynerlər olaraq istifadəçilərə məlumatı aydın və sadə şəkildə çatdırmalıyıq ki, bu, qarışıq və yorucu olmasın. Bu, bilavasitə birinci prinsip olan Hik Qanununa aiddir. Hick qanunda deyilir ki,**"bir qərarı verməyə sərf etdiyimiz vaxt və enerji, seçimlərin çoxalmasıyla düzmütənasiblik təşkil edir".** Beynimiz məhdud emal gücünə malikdir, ona görə də istifadəçiyə gələn seçimlərin miqdarı bu həddi aşdıqda Koqnitiv Yük yaranır. Bunun üçün də dizaynda lazımsız elementləri çıxartmaq lazımdır. Bu qanuna sadə bir misal olaraq televizor pultunu misal çəkmək olar. Uzun illər ərzində televizorlarda mövcud olan funksiyalar artdıqca, onların pultlarında mövcud olan seçimlər də artmışdı və bu da qarışıqlıq yaradırdı. Hal hazırda texnologiyanın inkişafı və minimalist dizaynın daha çox önə çıxması ilə üzərində çoxlu düymə olan uzun pultlardan balaca ancaq daha sadə pult dizaynlarına keçid etmişik.Pultun üzərində düymələrin az olması qarışıqlıq yaratmır bu da hik qanununa uyğundur

Digər əsas prinsip Miller Qanunudur ki, *orta insan öz iş yaddaşında yalnız 7 (± 2) element saxlaya bilər* . Bu, 1956-cı ildə koqnitiv psixoloq Corc Millerin qısa müddətli yaddaş və yaddaşın hüdudlarını müzakirə edən bir məqaləsindən qaynaqlanır. Beynimiz 7 elementdən artığını qəbul etməkdə çətinlik çəkir. Bununla belə, qanun sadəcə 7 nömrəyə bağlı qalmır. Millerin qanunundan öyrənə biləcəyimiz ən vacib məqamlardan biri **parçalanmadır .**Parçalanmanın ən sadə və ən təsirli nümunələrindən biri telefon nömrələrini formatlaşdırma üsulumuzdur. Məsələn, 4408675309 və (440) 867-5309

Jakob qanunu Bu, **başqa saytlarda vaxtını keçirən istifadəçilərin saytımızın öyrəşdikləri formada işləməsinə üstünlük verəcəyini** nəzərdə tutan bir qanundur. Dizaynında fərqliliklər etmək normaldır lakin bunun istifadəçiyə necə təsir edəcəyini də nəzərə almaq lazımdır. Biz veb saytlardan və ya avtomobildən istifadə etdiyimiz zaman onların sistemlərinin necə işlədiyinə dair öz beynimizdə modellər yaradırıq. Daha sonra rastlaşdığımız hər hansı yeni veb sayt və ya avtomobildə həmin biliklərdən istifadə edirik və həmin quruluşu axtarırıq.

Sadaladığımız qanunlardan istifadə edərkən bir sıra prinsiplər vardır ki, onları nəzərə almaq vacibdir. Dizaynla psixologiyanın əlaqədə olduğu bir çox məqam olsa da təməl olaraq forma, rəng, şrift və vizual iyearxiya psinsipi haqqında danışa bilərik.

Forma psixologiyası- Hər birimiz öz şüurumuzda müxtəlif formaları fərqli duyğularla əlaqələndiririk. Məsələn, üfüqi xətlər sakitlik və icma ilə bağlıdır. Buna görə bəzən eyni sektorda xidmətlər və ya məhsullar təqdim edən marka loqotiplərindəki formalarda oxşarlıqlar görürsünüz.Dairəvi forma düzbucaqlı ilə eyni şeyi ifadə etmir, hər biri bizə fərqli duyğu ötürür. Dizaynda üstünlük təşkil edən forma dairədirsə, bu istifadəçiyə qoruma, yenilik və mükəmməllik ötürür. Kvadrat üstünlük təşkil edirsə, bu, güc, nizam və sabitlik, düzbucaqlı üstünlük təşkil edirsə, bu, müqaviməti bildirir.Üçbucaq canlılığı, altıbucaqlı kəşfiyyatı, beşbucaqlı isə harmoniyanı çatdırır.

Rəng psixologiyası- ən mühüm prinsiplərdən biridir və insanların rəngləri necə qəbul etdikləri ilə bağlı çoxlu araşdırmalar vardır.Brendlər dəyərlərini, mesajlarını və hətta qiymət aralığını çatdırmaq üçün rənglərdən istifadə edirlər. Məsələn, sarı və qırmızı rəngi restoran və ya qida zənciri biznesi üçün seçim olaraq qəbul edə bilərik. McDonald's və Pizza Hut kimi tanınmış restoran loqoları tərəfindən sübut edildiyi kimi, bu rənglərin birləşməsi aclığa səbəb olur. Qırmızı canlılığın rəngi olduğu üçün insanların iştahını şüuraltı olaraq artıracaq. Qara, qızıl və bənövşəyi rənglər dəbdəbəni nümayiş etdirir. Mavi çox vaxt sakitlik, əmin-amanlıq və sabitlik bildirir. Polislər, banklar və xəstəxanalar bu rəngdən istifadə edirlər. Mavi və yaşıl kimi rənglər adətən səhiyyə sənayesini xarakterizə edir.Yaşıl rəng sakitləşdirici təsirə maliaü göstərir. Bu prinsipi başa düşmək yaxşı istifadəçi təcrübəsi yaratmaq üçün çox vacibdir, vizual iyerarxiya olmadan bir dizayn qarışıq və yönləndirici görünə bilər. Əslində, vizual iyerarxiyanın məqsədi istifadəçinin gözünü

məntiqi ardıcıllıqla dizayn vasitəsilə istiqamətləndirməkdir. Məsələn, fantastik kitabın üz qabığını düşünsək diqqət çəkən və bizi cəlb edən ilk şey fon şəklidir. Sonra diqqətimizi dizayndakı ən böyük yazı olan başlığa yəni kitabın adına yönəldirik. Və nəhayət, müəllifin adına baxırıq,bu adətən aşağıda kiçik formada göstərilir.

Açar sözlər: dizayn, psixologiya, qanun.

ƏDƏBIYYAT

1. https://rezonant.net/digital/the-role-of-psychology-in-design/
2. https://medium.com/@xeyalnecefsoy/dizayn-v%C9%99-psixologiya-%C9%99laq%C9%99si-7a9302db5f3c
3. https://www.flux-academy.com/blog/psychology-in-design-9-principles-designers-should-know
4. https://blush.design/blog/post/design-psychology

ДИЗАЙН И ПСИХОЛОГИЯ

Мобиль Рамиз оглы Гараев
mobil.qarayev89@gmail.com
Айсун Афган кызы Мамедова
aysunmemmedova1808@gmail.com
Азербайджанский Технологический Университет

Мы знаем, что повсюду в нашей повседневной жизни мы сталкиваемся с дизайном. Дизайн – это не только визуально-художественные решения, но и повышение ценности дизайна за счет понимания поведения, чувств, желаний и эмоций людей. Конечно, создание креативного дизайна также важно для понимания того, как он может повлиять на человеческую психологию, что требует от дизайнера иметь более глубокое понимание человеческого сознания. Таким образом, дизайн и психология тесно связаны с помощью психологии, дизайнеры могут создавать проекты, которые лучше понятны, более значимы и креативны.

Ключевые слова: дизайн, психология, право

DESIGN AND PSYCHOLOGY

Mobil Ramiz oglu Garayev
mobil.qarayev89@gmail.com
Aysun Afgan gizi Mamedova
aysunmemmedova1808@gmail.com
Azerbaijan Technological University

We know that everywhere in our daily life we come across design. Design is not just about visually artistic solutions, it is about adding more value to designs by understanding people's behavior, feelings, desires and emotions. Of course, creating creative design is also important in understanding how it can affect human psychology, which requires a designer to have a deeper understanding of human consciousness. Therefore, design and psychology are closely related. With the help of psychology, designers can create designs that are better understood and more meaningful and creative.

Key words: design, psychology, law.

GEYİM MODELİNİN LAYİHƏLƏNDİRİLMƏSİNDƏ ERQONOMİKA ANLAYIŞI

Şakir Rüstəm oğlu Əliyev
shaliyev@atu.edu.az
Gülnarə Nurəddin qızı Əliyeva
g.aliyeva@atu.edu.az
Mehdizadə Rəhim oğlu Fikrət oğlu
mehdizaderehim667@gmail.com
Nəzrin Rza qızı Həsənova
Azərbaycan Texnologiya Universiteti

Model anlayışı bildiyimiz kimi yeni görkəmdə, formada, material və bəzəkdə görünməsi üzrə geyimə xas olan bir varlıqdır. Layihələndirmə isə bir planın, bir nümunənin müəyyən müddəti ərzində meydana gətirilməsinə deyilir. Modelin layihələndirilməsi dedikdə, dizaynerlərin yaradıcılıq prosesində müxtəlif geyim modalarının yaradılması nəzərdə tutulur. Geyim modelinin layihələndirilməsində ən başlıca diqqət olunan proses kimi məhz erqonomik qaydalara ciddi şəkildə riayət etməkdir. Məhz erqonomikanın geyim məmulatlarında yaratdığı komfort həmin geyim modelinin layihəsi ilə məşğul olan rəssam-dizaynerlər qarşısında duran ən aktual məsələdir [2].

Hazır geyim müəssisələrində aparılan erqonomik tənzimləmələr anatomiya və erqonomikanın araşdırılması ilə insan həyatını daha yaxşı şərtlərdə davam etdirmək üçün təşkil edilir. Bu prosesin gedişi təkcə ətraf mühitin dəyişməsi ilə nəticələnən tək istiqaməti bir inkişaf olmamaqla yanaşı, həm də ətrafdakı dəyişikliklər sayəsində insanın özünündə dəyişməsi ilə nəticələnir.

Modelin layihələndirilməsində erqonomik tənzimləmələr üçün günümüzdə insanın əlindəki ən əhəmiyyətli vasitə yaradılan modellərdir [1].

Modelin layihələndirilməsində funksional analiz metodunun tətbiqi zamanı erqonomik tələblər daha aydın və ətraflı şəkildə müəyyənləşdirilir. Geyim modelinin funksional xüsusiyyətlərinə görə təhlili, həmin əşyanın erqonomikliyinin optimallığının müəyyənləşdirilməsi vacib sayılan məqamlardandır.

Geyim növlərini modelləşdirdikdə bütün hissələrin modelləşməsini tətbiq etmək lazımdır. Geyim modelləri layihələndirilərkən, əsasən geyimin növü, hansı mövsümə aid olması, rahatlılıq baxımından erqonomik qaydalardan asılı olaraq tərtib edilir [3].

Geyim məmulatlarında yeni modellərin müasirliyi yalnız onların funksionallığı, konstruksiya və texnologiyasından deyil, eyni zamanda məmulatın bir başa funksiyasını lazımınca yerinə yetirmə dəqiqliyindən də asılıdır. Hazırlanan modelin bədii cəhətdən həlli yalnız estetik keyfiyyəti ilə deyil, eyni zamanda onun ətrafdakı əşya mühiti ilə həmahəng olmasıda vacibdir. Bu həmahəngliyə əsasən məmulatların istismarı zamanı funksional və konstruktiv cəhətdən tələblərə cavab verməsi ilə bağlıdır.

Modelin funksional və konstruktiv olaraq özünü doğrultması, ilk növbədə geyim məmulatlarının maksimum rahat istifadə olunmasını təmin edərək, əmək məhsuldarlığını yüksəldir, erqonomik xassələri yaxşılaşdırır, istehlakçı tələbatını və iqtisadiliyi yüksəldir.

Geyim modelin layihələndirilməsi prosesində onun bədii tərtibatı ilə yanaşı onun istehlak xassələri də nəzərə alınır. Geyim məmulatları müəyyən istehlak xassələrinə malik olmalıdır. Geyim məmulatlarının hazırlanmasında tətbiq olunan materiallar, məmulatın layihələndirilməsinin müasir sistemi olan modelləşdirmə və tikili məmulatların istehsal texnologiyası olan biçilmə və tikilmə prosesləri müəyyən istehlak xassələrinə malik olan tikili məmulatları ərsəyə gəlməsində aparıcı rol oynayır [4].

Geyim məmulatlarının istehsalı zamanı insan bədəninin quruluş və ölçülərinə tam olaraq uyğun gəlməsi, geyimin statik, dinamik və antropoloji xassəsi ilə xarakterizə olunur.

Modelin layihələndirilməsi zamanı naxış və rəng kompozisiyasının seçilməsi məsələsinə də xüsusilə diqqət yetirilməlidir. Modelin layihəsi zamanı parçanın və naxışdan düzgün istifadə modelin estetik baxımdan yaraşıqlı olmasına gətirib çıxarır. Rəng materialın dekorativ xassələrindən istifadə xüsusiyyətlərini xarakterizə edən estetik göstəricisi hesab olunur. Rəng məntiqi şəkildə bütün kompozisiyanı tamamlayıcı bir xüsusiyyətə malikdir. Geyimlərin layihələndirilməsində rəng əsas rol oynayır. Belə ki, müvəffəqiyyətli alınmayan proporsiyanı düzgün seçilmiş rəngin köməyi ilə yaxşılaşdırmaq mümkündür. Rəng seçimi eləcə də, geyim formasının xarakterik xüsusiyyətini kəskinləşdirməyə və ya neytrallaşdırmağa imkan verir. Rəngin köməyi ilə layihəçi-dizayner geyimin lazımı obrazını yaradır. Bu baxımdan da geyim modellərində rəng harmoniyası böyük əhəmiyyət kəsb edir.

Geyim modelinin layihələndirmə prosesində tikiş sənayesinin erqonomikasının daha dəqiq şəkildə tətbiqi insanın gündəlik həyatında daha rahat şəkildə hərəkətinə imkan yaradır. Odur ki, erqonomika sahəsinə diqqətin verilməsi və həmin sahənin elmi və praktik cəhətdən inkişaf etdirilməsi vacib şərtlərdən biridir. Geyim modelləri layihələndirilərkən, əsasən geyimin növü, hansı mövsümə aid olması, istifadə edilən materiallar, rahatlılıq baxımından erqonomik qaydalardan asılı olaraq tərtib edilir.

Açar sözlər*:* model, kompozisiya, ornament, konsepsiya

ƏDƏBİYYAT

1. Кобляков Е.Б. «Основы конструирования одежды» М.: Легкая промышленность, 1980.
2.Orucov Ə.N., Şamxalov O.S. “Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsinin əsasları” Bakı, 2003.
3. Paşayev B.S. “Parça və geyim məmulatlarının bədii layihələndirilməsi”.Bakı, 2004.
4. Черемных А.И. Основы художественного проектирования одежды. М.: 1968.

ПОНЯТИЕ ЭРГОНОМИКИ ПРИ ПРОЕКТИРОВАНИИ МОДЕЛИ ОДЕЖДЫ

Шакир Рустам оглы Алиев
shakiraliyev@atu.edu.az
Гульнара Нуреддин кызы Алиева
g.aliyeva@atu.edu.az
Рахим Фикрет оглы Мехдизаде
mehdizaderehim667@gmail.com
Назрин Рза кызы Гасанова
Азербайджанский Технологический Университет

Концепция модели - это сущность, присущая одежде по тому, как она выглядит в новом облике, форме, материале и отделке, какими мы ее знаем. С другой стороны, проектированием называется составление плана, образца в течение определенного периода времени. Под дизайном модели понимается создание различных модных моделей одежды в творческом процессе дизайнеров. Именно строгому соблюдению правил эргономики уделяется самое главное внимание при проектировании модели одежды как процесса. Именно комфорт, создаваемый эргономикой в изделиях одежды, является наиболее актуальным вопросом, стоящим перед художниками-дизайнерами, занимающимися проектированием этой модели одежды.

Ключевые слова: модель, композиция, орнамент, понятие

THE CONCEPT OF ERGONOMICS IN DESIGNING A CLOTHING MODEL

Shakir Rustam oglu Aliyev
shakiraliyev@atu.edu.az
Gulnara Nuraddin gizi Aliyeva
g.aliyeva@atu.edu.az
Rahim Fikret oglu Mehdizada
mehdizaderehim667@gmail.com
Nazrin Rza gizi Hasanova
Azerbaijan Technological University

Model concept is the essence inherent in a garment by the way it looks in the new look, shape, material and finish as we know it. On the other hand, designing refers to making a plan, pattern over a period of time. Pattern design refers to the creation of various fashionable garments in the creative process of designers. It is the strict adherence to the rules of ergonomics that is given the most important attention in designing a clothing model as a process. It is the comfort created by ergonomics in clothing products that is the most pressing issue facing the artists-designers engaged in designing this model of clothing.

Key words: model, composition, ornament, concept

MÜASİR SƏNAYE DİZAYNININ TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN ROLU

İsgəndər Ceyhun oğlu Əsgərov
asgarzadeh.isgandar@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Sənaye dizaynında İstehsal olunan məhsulun estetik cəhətdən cəlbedici olması, təbii materiallardan istifadə etməklə rahat, gigiyenik, insan sağlamlığının təhlükəsizliyə cavab verən sənaye məhsulları istehsal etmək və tətbiq olunan rənglərin kimyəvi qatqılardan yox, təbii rənglərin alınmasına yönələn yeni texnologiyadan istifadə etmək təklifim müasir sənaye dizaynında innovativ texnologiyalar tətbiq etməklə nail olmaq olar.

İnnovativ texnologiyaların tətbiqi ilə məhsulların günün tələbinə uygun o cümlədən dünya standartlarına cavab verən, tək alıcıların zövqünə uyğunlaşması tələbatı ilə yox, həm də bu tələbat insan zövqünü tamamlamasıdır. İnsan tələbatına uygun sənayedə yüksək texnologiyadan istifadə etməklə minimum xərclərdən maksimum effekt əldə etməklə yanaşı, problemlərin aradan qaldırılmasına nail olmaqla, iqtisadi cəhətdən də səmərəli, zaman, enerji itkisinin aradan qaldırılmsına səbəb olur.

Dizayn (ingiliscə,design-layihələndirmək, konstruksiya etmək deməkdir)-sənaye məmulatlarının yüksək istehlak xassələrlə və estetik keyfiyyətlə işləyib hazırlama üzrə, yaşayış, istehsal və sosial - mədəni sahələrin əşya mühitinin harmonik formalaşması üzrə layihə bədii-texniki fəaliyyət növüdür. Sənaye dizaynının obyektləri qismində sənaye məmulatları ola bilərlər (avadanlıq, məişət texnikası, mebel, qab-qaçaq, geyim və s.) [1] Müasir dizayn - sənayenin, sənaye istehsalının tərkib hissəsidir və onun təyinedici obyektidir. Dizaynın köməyi ilə forma, estetik görünüş məsələsi deyil, həm də onun konstruksiyası, rəngi, uyğunluğu və ondan istifadə etmə qaydalarına riayət olunur.

Müasir dövrdə dizaynın nəzəri cəhətdən nisbətən çox inkişaf etməsi insanın bədii fəaliyyəti ilə bağlıdır. Dizayn ixtisaslaşmasına görə çox müxtəlifdir və insanlar tərəfindən yaradılan bütün predmet aləmini əhatə edir. Sənayenin texniki vasitələri ilə yaradılan bütün predmet aləmi gözəllik və funksionallıq qanunlarına uyğundur [2]**.** Tarixə nəzər salsaq görərik ki, insanın istifadə etdiyi və əhatə etdiyi əşyalar əl vasitəsilə, zəhmətilə hazırlanırdı. XIX əsrin əvvəlindən etibarən sənaye üsulu ilə istehsal malları hazırlanmaga başlandı.

Avadanlıqların işinin yaxşılaşdırılması, inkişafı insan əməyinin, yəni sənətkarların əmək məhsuldarlığını qabaqlayırdı.Texnologiyarın yarandıgı və tətbiqi nəticəsində insanın istifadə etdiyi əşyaların yəni köhnə qaydalarlarla hazırlanan əşyaların yeni üsulla, əvəzolunma prosesi həyata keçirilməyə başlandı. Elmi - texniki nailiyyətlərlərdən istifadə etməklə, sənayedə təkmilləşdirmə prosesi nəticəsində yeni üsul, norma və qaydalara uygun olaraq əvvəlcədən verilmiş xammaldan məhsullar istehsal olunmaga başlandı.İnsan təxəyyülü hər sahədə elm, tibb, sənət o cümlədən sənaye dizaynı sahəsində ugur əldə etmək gücünə qadirdir. Ötən əsrlərə nəzər salsaq, geyim sahəsində olan stillər formalaşaraq, günün nəbzinə uygun müasir tələblərə cavab verən istər gigiyenik, saglamlıq istərsədə modern üslubda estetik görnüşü göz oxşayan üslubda formalaşaraq parçalar, dərilər istehsal olunmaga başlandı. Bu da sənaye texnologiyalarının inkişafı nəticəsində əldə olundu. Sənaye dizaynında inkişaf, sənətkarların yaratdığı əl əməyinin sənaye üsuluna keçməsi ilə nəticələndi. Bu da müasir sənaye dizaynının təkmilləşdirilməsində innovativ texnologiyaların rolunun yüksək əhəmiyyətə malik olmasından xəbər verir.

Açar sözlər: dizayn, sənaye, innovasiya, texnologiya, istehsal və s.

ƏDƏBİYYAT

1. İsmixanov A.X., “Dizayn tarixi.” DƏRS VƏSAİTİ, Gəncə: Azərbaycan Dövlət Aqrar Universiteti, 2011
2.Paşayev B.S. Dizayn tarixi. Dərs vəsaiti. Bakı: «İqtisad Universiteti» Nəşriyyatı- 2015. – 438 səh.

РОЛЬ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В СОВЕРШЕНСТВОВАНИИ СОВРЕМЕННОГО ПРОМЫШЛЕННОГО ДИЗАЙНА

Искендар Джейхун оглы Аскеров
asgarzadeh.isgandar@gmail.com
Азербайджанский Технологический Университет

В промышленном дизайне я предлагаю сделать выпускаемую продукцию эстетически привлекательной, комфортной и гигиеничной. То есть производить промышленную продукцию, используя натуральные материалы и новые технологии, отвечающие требованиям безопасности для здоровья человека. В современном промышленном дизайне вместо химических добавок применяются инновационные технологии.

Ключевые слова: дизайн, промышленность, инновации, технологии, производство и т.д.

THE ROLE OF INNOVATIVE TECHNOLOGIES IN IMPROVING MODERN INDUSTRIAL DESIGN

Isgandar Jeyhun oglu Askerov
asgarzadeh.isgandar@gmail.com
Azerbaijan Technological University

In industrial design, it is my suggestion to make the manufactured product aesthetically attractive, to produce industrial products that are comfortable, hygienic, and meet the safety of human health by using natural materials, and to use new technology aimed at obtaining natural colors instead of chemical additives.

Key words: design, industry, innovative, technology, production, etc.

QRAFİK DİZAYNIN GƏLƏCƏYİ

Mobil Ramiz oğlu Qarayev
mobil.qarayev89@gmail.com
Cavahir İsmayıl qızı Mustafayeva
cavahir.020@gmail.com
Azərbaycan Texnologiya Universiteti

İlk öncə dizayn nədir?

Dizayn ingilis dilində layihələndirmək,konstruksiyalar qurmaq,çertyoj çəkmə bacarığı deməkdir.16- cı əsrdən 21- ci əsrə kimi İngiltərədə də dizayn anlayışı var. Azərbaycanda professional dildə desək dizayn-bədii layihələndirmə,estetik gözəlliyin olması, keyfiyyət və insan üçün komfort,yüksək şəraitin yaradılması və sosial mədəniyyətdə özünü tanıtmışdır.Dizayn estetika nəzəriyyəsinin məfhumlarından biridir.Onun əsas məqsədlərindən biri insanın, cəmiyyətin və toplumun işinin, istifadə və rahatlığını təmin etməkdir. Bugün dizaynın sahələrindən biri olan **qrafik dizayn** haqqında danışacam.

Qrafik dizayn nədir? Qrafik dizayn bugünkü rəqəmsal əsrdə izləyicilərin diqqətini cəlb etməkdə mühüm rol oynayır. Loqotip tərtib etmək, veb sayt tərtibatı yaratmaq və ya göz oxşayan bir reklam hazırlamaqdan asılı olmayaraq, qrafik dizayn hamısının mərkəzindədir. Qrafik dizayn ideyaları, mesajları və məlumatları vizual şəkildə çatdırmaq üçün yaradıcılıq və ünsiyyəti birləşdirən sənət formasıdır. Cazibədar loqoların yaradılmasından tutmuş heyrətamiz veb-saytların dizaynına qədər qrafik dizayn müasir vizual ünsiyyətin vacib komponentidir. Yaxşı hazırlanmış bir loqotip, rəng palitrası və marka aktivləri bir markanın dəyərlərini və şəxsiyyətini vizual şəkildə təqdim edir. Qrafik dizayn, istehlakçılar arasında tanınma, etimad və sədaqəti inkişaf etdirən güclü bir marka kimliyi yaratmağa kömək edir.

Qrafik dizayn sahələri: Qrafik dizayn hər bir özünəməxsus diqqət və tələblərə malik olan geniş sahələri və ixtisasları əhatə edir.

Brendləşdirmə və Kimlik Dizayn - Brend dizaynerləri loqolar, rəng palitraları, mətbəə və brend qaydaları daxil olmaqla, biznes üçün şəxsiyyətlərin yaradılmasında ixtisaslaşırlar. Onlar şirkətin dəyərlərini təmsil edəndə ardıcıl və yaddaqalan brend imici yaratmağı hədəfləyirlər.

Çap Dizaynı - Çap dizaynerləri broşuralar, jurnallar, plakatlar, qablaşdırma və vizit kartları kimi media üçün nəzərdə tutulmuş layihələr üzərində işləyirlər. Vizual cəhətdən cəlbedici və funksional dizaynlar yaratmaq üçün tərtibat, tipoqrafiya, rəng sxemləri və çap xüsusiyyətləri kimi amilləri nəzərə alırlar.

Veb və UI/UX Dizaynı - Veb dizaynerləri vebsaytlar üçün vizual cəlbedici və istifadəçi dizaynlar yaratmağa diqqət yetirirlər. Problemsiz istifadəçi təcrübəsini təmin etmək üçün tipoqrafiya, rəng sxemləri və təsvirləri nəzərə alırlar. UI/UX (İstifadəçi İnterfeysi/İstifadəçi Təcrübəsi) dizaynerləri istifadəçi mərkəzli və vizual cəlbedici olan qarşılıqlı əlaqələrin dizaynında ixtisaslaşırlar.

Reklam və Marketinq Dizaynı - Reklam və marketinq dizaynerləri reklamlar, bannerlər, sosial media qrafikası və e-poçt xəbər bülletenləri kimi tanıtım kampaniyaları üçün materiallar hazırlayırlar. İstənilən mesajı effektiv şəkildə çatdıran və hədəf auditoriyanı cəlb edən dizaynlar yaratmaq üçün marketinq qrupları ilə əməkdaşlıq edirlər.

Hərəkətli Qrafika və Animasiya - Hərəkət dizaynerləri dinamik və cəlbedici məzmun yaratmaq üçün qrafik dizaynı animasiya ilə birləşdirir. Onlar statik dizaynları həyata keçirmək üçün proqram və alətlərdən istifadə edərək başlıq ardıcıllığı, izahedici videolar, animasiyalı loqolar və multimedia təqdimatları kimi layihələr üzərində işləyirlər.

İllüstrasiya Dizaynı - İllüstratorlar redaksiya nəşrlərində, kitab üzlüklərində, reklam kampaniyalarında və rəqəmsal mediada istifadə olunan orijinal sənət əsərləri yaradırlar. İnfoqrafiya/İllustrasiya dizaynerləri illüstrasiyalar, nişanlar və məlumatların

vizuallaşdırılması üsullarından istifadə etməklə mürəkkəb məlumat və məlumatları aydın və cəlbedici şəkildə təqdim etməyə diqqət yetirirlər.

Qablaşdırma Dizaynı - Qablaşdırma dizaynerləri məhsulun markalanması, rəf cəlbediciliyi, funksionallıq və məhsulun qorunması kimi amilləri nəzərə alaraq məhsulun qablaşdırılması üçün dizaynlar yaradırlar. Onlar estetika, mətbəə və struktur dizaynı birləşdirərək diqqəti çəkən və funksional qablaşdırma həlləri yaradır.

Qrafik dizayn proqramları- **Adobe Photoshop , Adobe Illustrator , CorelDraw , 3DS Maks, Canva , Figma , İndesign , Adobe Xd və s. aiddir.** Rəqəmsal texnologiyanın inkişafı ilə **qrafik dizayn** sahəsi də sürətlə dəyişir. 2024-cü ildə və ondan sonra bu sahədə hansı yeniliklərin ön planda olacağını bilmək dizaynerlər və şirkətlər üçün çox vacibdir.

1. **Qrafik Dizayn və Süni Zəkanın Təsiri** - Süni zəka (SZ) qrafik dizaynda böyük bir inqilaba səbəb olur. **Süni zəka ilə qrafik dizayn** prosesləri daha səmərəli hala gəlir. Dizaynerlər SZ-dən istifadə edərək avtomatik eskizlər hazırlaya, rəng seçimi edə və təkrarlanan tapşırıqları tez yerinə yetirə bilirlər. Bu trendin inkişafı qrafik dizaynın gələcəyində mühüm rol oynayacaq.
2. **3D Qrafik Dizaynın Yüksəlişi** - **3D qrafik dizayn** gələcəkdə daha da geniş yayılacaq. Rəqəmsal dünyada 3D elementlərin istifadəsi istifadəçi təcrübəsini daha cəlbedici edir. Xüsusilə veb dizayn və rəqəmsal reklam kampaniyalarında 3D modelləşdirmə istifadə olunaraq daha dərin və real təsvirlər yaradılır.
3. **Minimalist Dizayn Trendi** - Minimalizm qrafik dizaynda populyar trend olaraq qalmağa davam edir. **Minimalist dizayn** sadəliyi ilə diqqət cəlb edir və istifadəçilər üçün daha aydın bir istifadəçi təcrübəsi yaradır. Bu trend, mobil tətbiqlər və veb saytlarda istifadəçilərin diqqətini daha çox cəlb edir.
4. **Rəng Psixologiyası və Qrafik Dizayn** - Rənglər qrafik dizaynın ən vacib elementlərindən biridir. **Rəng psixologiyası qrafik dizaynda** insanların emosional reaksiyalarını təsirləndirmək üçün geniş istifadə olunur. Gələcəkdə markalar brend mesajlarını daha yaxşı çatdırmaq üçün canlı və cəsarətli rənglərdən daha çox istifadə edəcək.
5. **Ekoloji Dizayn və Təbiətdən İlham** -Təbiətdən ilham alan dizaynlar və ekoloji məsuliyyət anlayışları gələcəkdə qrafik dizayn sahəsində geniş yayılacaq. **Ekoloji qrafik dizayn**, təbii rənglərdən və formalardan istifadə edərək, brendlərin ekoloji davamlılığa diqqət etməsini göstərir.
6. **Hərəkətli Qrafika və Animasiya** - **Hərəkətli qrafika** və animasiya qrafik dizaynın gələcəyində əsas rol oynayacaq. Dinamik və cəlbedici vizuallar yaratmaq üçün bu texnikalardan istifadə edərək brendlər sosial media və veb dizaynlarında fərqlənə biləcəklər. Hərəkətli qrafika istifadəçi diqqətini cəlb etməkdə əvəzsiz vasitədir.
7. **Fərdiləşdirilmiş Dizayn Yanaşmaları** - İstifadəçilərə fərdi təcrübələr təqdim etmək **qrafik dizaynın gələcəyi** üçün mühüm rol oynayacaq. Brendlər fərdi istifadəçilərə uyğun dizaynlar yaradaraq, onlarla daha yaxın əlaqələr quracaqlar. Bu yanaşma həm qrafik dizaynda, həm də UX dizaynında fərdi təcrübələrə əsaslanaraq dizaynların yaranmasına səbəb olacaq. **Nəticə olaraq Qrafik dizaynın gələcəyi** sürətlə dəyişir və süni zəka, 3D dizayn, minimalizm, rəng psixologiyası kimi trendlər bu dəyişimin əsasını təşkil edir. Bu meyllər dizaynerlərə yeni imkanlar təqdim edir və brendlər üçün daha güclü strategiyalar yaratmağa kömək edir.

Açar sözlər: qrafik dizayn, çap dizaynı, veb dizayn.

ƏDƏBIYYAT

1. https://www.trenders.team/post/qrafik-dizayn-nedir
2. https://texno.blog/en-yaxsi-qrafik-dizayn-proqramlari
3. https://itstep.az/blog/dizayn-dusunc-si-n-dir-v-muasir-dizaynda-nec-istifad-olunur

БУДУЩЕЕ ГРАФИЧЕСКОГО ДИЗАЙНА

Мобиль Рамиз оглы Гараев
mobil.qarayev89@gmail.com
Джавахир Исмаил кызы Мустафаева
cavahir.020@gmail.com
Азербайджанский Технологический Университет

В результате будущее графического дизайна быстро меняется, и в центре этих изменений находятся такие тенденции, как искусственный интеллект, 3D-дизайн, минимализм и психология цвета. Эти тенденции открывают новые возможности для дизайнеров и помогают создавать более сильные стратегии для брендов.

Ключевые слова: графический дизайн, печатный дизайн, веб дизайн.

THE FUTURE OF GRAPICH DESIGN

Mobil Ramiz oglu Garayev
mobil.qarayev89@gmail.com
Javakhir Ismail gizi Mustafayeva
cavahir.020@gmail.com
Azerbaijan Technological University

As a result, the future of graphic design is changing rapidly, and trends such as artificial intelligence, 3D design, minimalism, color psychology are the basis of this change. These trends provide designers with new opportunities and help create stronger strategies for brands.

Key words: graphic design, print design, web design.

KOSTYUMLARIN DİZAYNINDA ÜSLUB VƏ HAZIRLANMA ÜSULLARIN TƏTBİQİ

Şakir Rüstəm oğlu Əliyev
shakiraliyev@atu.edu.az
Fərqanə İsfəndiyar qızıƏliyeva
f.aliyeva@atu.edu.aza
Adilə Gündüz qızı Həsənova
***A*zərbaycan Texnologiya Universiteti**

Müasir şərtlər daxilində geyim dizayneri təliminin əsas məqsədi öz qarşısına mədəniyyət və sosiumun vacib problemləri ilə bağlı olan çətin layihə məsələləri qoyan və onları layihələndirmənin müxtəlif üsulları vasitəsi ilə həll edən mütəxəssisin hazırlanmasıdır. Beləliklə geyim dizaynı onun rahatlığı, insanın ətraf mühitlə harmonik bütövləşməsi və yeni geyim növlərinin yaradılması ilə bağlı olan problemləri həll etməyə çalışır. Kombinator, modul, destruksiya və ya digər layihələndirmə üsullarından istifadə etməklə, geyim dizaynı geyimin gələcək inkişaf yollarını təqdim edir.

Kostyum ilk dəfə XVII əsrdə Fransada istifadə olunmuşdur. Bu sözün mənasını o zamanlar dövrün xarakterini, üslub tərzini göstərən adət və vərdişlərlə bağlayırdılar. Həm də bu söz önündə paltar geyinməyin üsulunu və qaydasını göstərir. Bu gün dəbdə olan kostyum, formasının tez – tez dəyişməsinə görə hətta qısa zaman dövrü ərzində belə adətə çevrilə bilmir.

İndi "kostyum" termini dedikdə geyimin elementləri və aksessuarları başa düşülür, hansı ki, onlar hər hansı bir fərd və ya insanların bir sosial qrupu haqqında məlumat daşıyır.

Deməli aşkar nəticə belədir, kostyum anlayışı paltar anlayışına nisbətən daha geniş bir anlayışıdır, belə ki, kostyum mahiyyət etibarı ilə həmişə geyimdir, amma geyim isə hər zaman kostyum deyil.

Beləliklə, əgər geyim termini ilə paltarın hər hansı faydalı mənada material xüsusiyyətləri adlandırılırsa onda kostyum termini də xarici görüntü ilə ifadə olunan üslub funksiyası adlanır.

Cəmiyyətin həyat tərzi onun tarixi təkamülünün hər bir mərhələsində geyimdən istifadənin xarakteri ilə əks olunurdu. Buna görə də demək olar ki, geyimin müxtəlif funksiyaları tarixən düzlənmişdir.

Sosial inkişaf prosesində geyimin təyinat sahəsi tədricən mürəkkəbləşmiş və təkmilləşdirilmişdir. Müəyyən formalı geyim quruluşu cəmiyyətdə seçilmək üçün bir nümunəyə çevrilməyə başlamışdı. İctimai təsəvvürü, davranış tərzini və şəxsiyyətin fərdi özəlliklərini əks etdirən kostyum anlayışı belə yaranmışdır [2].

Paltardan fərqli olaraq kostyum, özündə nəinki ayrıca bir insanın həm də millətlərin, xalqların hətta tam bir dövrün görünüşlü xüsusiyyətlərini daşıyırdı. O bir sənət əsəri kimi hər zaman mədəniyyətin inkişafının müəyyən bir mərhələsini əks etdirmiş rəssamlıq və teatr ilə sıx bağlı olmuşdur.

Kostyumun tarixi təkamülünü, incəsənətdə bədii üslubun dəyişməsi ilə izləmək olar.

XII – XIV – cü əsrlərdə Qərbi Avropada yaranmış və kilsə ehkamlarına əsaslanan, o dövrün dini – idealist fəlsəfəsini əks etdirən Qotik üslub rəng ilə səciyyələnən və kostyuma dinamiklik verən assimmetrik bir həll xarakterik idi [1].

İntibah dövrü teatrallıq xüsusiyyəti olan Barokko üslubu ilə əvəz edilmişdir. Barokko üslubu üçün əzəmət, ibarəlilik və konkret bir formanın olmaması xarakterikdir.

"Rokoko" fransız dilində olan rocall-dən əmələ gəlmişdir və çanaq deməkdir. Onu çox vaxt gözəl və səliqəli üslub adlandırırlar. Kostyum getdikcə öz faydalı funksiyasını itirir, getdikcə estetik funksiyaya təslim olur və teatr geyimləri xüsusiyyətini əldə edirdi.

Feodal quruluşdan burjua sisteminə keçid dövründə klassik üslub yaranır. Bu üslubun formalaşması ideal nümunə kimi qədim və antik sənətə yeni bir dönüşə gətirib çıxardı.

Kostyum dizaynında üslub zaman etibarı ilə vaxt və insan cəmiyyətində təkamülü ilə bağlı əsasn anlayışlardan biridir. Burada dövrün stilini, tarixi kostyumun stilini, modalı stili, modelyerin stilini, firma stilini seçib ayırd etmək olar.

Stil öz inkişafının müəyyən mərhələsini xarakterizə edən bədii təfəkkürün ən ümumi kateqoriyası: müəyyən bir dövrdə və ya ayrıca bir incəsənət əsərində təsviri üsulların ideoloji və bədii ümumiləşməsidir [3].

Müəyyən şərtlər daxilində geyim dizayneri təliminin əsas məqsədi öz qarşısına mədəniyyət və sosiumun vacib problemləri ilə bağlı olan çətin layihə məsələləri qoyan və onları layihələndirmənin müxtəlif üsulları vasitəsi ilə həll edən mütəxəssisin hazırlanmasıdır. Beləliklə geyim dizaynı onun rahatlığı, insanın ətraf mühitlə harmonik bütövləşməsi və yeni geyim növlərinin yaradılması ilə bağlı olan problemləri həll etməyə çalışır.Kombinator, modul, destruksiya və digər layihələndirməüsullarından istifadə etməklə, geyim dizaynı geyimin gələcək inkişaf yollarını təqdim edir.

Geyim dizaynında kombinator metodlar – kombinasiyalardan istifadə etməyin əsas metodlarıdır. Bu üsullarla kombinatorika, transformasiya, kinetizm, ölçüsüz geyimlərin yaradılması, bütöv parça hissəsindən geyimin hazırlanması aiddir[4].

Özlərini moda tələblərinə uymayanlardan hesab edənlər əslində sadəcə olaraq köhnə dəbdə qalan insanlardır, başqa sözlə onların geyimləri keçmiş illərin geyim dəblərinə uyğun gəlir.

Müasir dövrdə yaşayan insanların zövqü çox müxtəlifdir, çünki dövrümüzdə dəb sürətlə dəyişilir, müxtəlif üslublar öz aralarında birləşir və moda, eləcə də geyim sahəsinə bir – birini əvəz edən yeniliklər gətirir.

Açar sözlər: geyim, üslub, üsul, siluet, kombinator, metod, kostyum, dizayn

ƏDƏBIYYAT

1. Yunisov N.R. "Müasir modanın inkişaf tendensiyaları" Bakı, 2006.286 səh.
2. Qasımova E., Məmmədova L. "Kostyumun kompozisiyası". Bakı, 2013.
3. Paşayev B.S. Ağamalıyeva Y.C. Məmmədova H. "Moda və kostyumun tarixi" Bakı, 2009, 680 səh.
4. Чернышев О.В. «Формальная композиция». Минск, 1999. 305 стр.

ПРИМЕНЕНИЕ СТИЛЯ И МЕТОДОВ ПОДГОТОВКИ В ДИЗАЙНЕ КОСТЮМА

Шакир Рустам оглы Алиев
shakiraliyev@atu.edu.az
Фергана Исфандияр кызы Алиева
f.aliyeva@atu.edu.az
Адиля Гюндуз кызы Гасанова
Азербайджанский Технологический Университет

Основной целью обучения дизайнера одежды в современных условиях является подготовка специалиста, который ставит перед собой сложные проектные задачи, связанные с важными проблемами культуры и общества, и решает их с помощью различных методов проектирования. Таким образом, дизайн одежды стремится решить проблемы, связанные с ее удобство м, гармоничной интеграцией человека с окружающей средой и созданием новых видов одежды. Используя комбинаторные, модульные, деструктивные или другие методы проектирования, дизайн одежды представляет будущие пути развития одежды.

Ключевые слова*:* одежда, стиль, приём, силуэт, комбинатор, метод, костюм, дизайн

APPLICATION OF STYLE AND PREPARATION METHODS IN COSTUME DESIGN

Shakir Rustam oglu Aliyev
shakiraliyev@atu.edu.az
Fergane Isfandier gizi Aliyeva
f.aliyeva@atu.edu.az
Adile Gunduz gizi Hasanova
Azerbaijan Technological University

The main purpose of training a fashion designer in modern conditions is to train a specialist who sets himself complex design tasks related to important problems of culture and society, and solves them using various design methods. Thus, fashion design seeks to solve problems related to its convenience, harmonious integration of a person with the environment and the creation of new types of clothing. Using combinatorial, modular, destructive or other design methods, fashion design represents future ways of clothing development.

Key words*:* clothing, style, technique, silhouette, combinator, styling, method, costume, design

RƏSSAM PALİTRASI VƏ ONUN YARADICILIQ PROSESİNDƏKİ İMKANLARI

Əbülfət Məhərrəmov
abulfat61@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Palitra – Rəssama yüksən sənət əsəri yaratmaq üçün ən çox lazımlı olan alətlərdən biridir. Palitra-sözü latınca paleterum - "boşqab", "tablet" kimi ifadə olunur. Rəngləri qarışdırmaq üçün palitra mütləq lazımdır. İstifadə olunan rənglərin müxtəlifliyindən asılı olmayaraq istənilən rəng çalarlarını əldə etməkdə palitranın rolu çox böyükdür. [8]

Kağız palitra- Kağız palitraları rəssamlar arasında olduqca populyardır. Belə palitra, vərəqin ön tərəfi islanmasının qarşısını alan xüsusi su itələyici təbəqə ilə örtülmüş olur. Akvarel palitrası üçün ən sadə və ən əlverişli seçim adi ağ kağız vərəqidir. [2]

Kllassik taxta palitra- Əvvəllər taxta palitralar bərk ağacdan hazırlanırdı. İndiki vaxtda, bir qayda olaraq, fanerkadan hazırlanır. Taxta palitrası rütubətin təsiri altında deformasiyaya uğraya bilər. (yağ ilə astarlansa belə)

Plastik palitra - Plastik palitralar çox yüngüldür,nəmlikdən xarab olmur. Lakin plastikin deformasiyaya uğramaması üçün onu birbaşa günəş işığından çəkindirməklə saxlamaq daha yaxşıdır.

Palitralar istifadə olunduqdan sonar təmizlənməlidir. Yağlı palitranı təmizləmək üçün boyalar üçün peşəkar həlledicilərdən də istifadə etmək olar. Sarımsaq şirəsi bərkimiş boya qatını yumşaldır və onun təmizlənməsini asanlaşdırır. Əgər az sayda rənglə işləsəniz və ya kiçik sənət əsərləri yaradılırsa, onda kiçik bir palitra olduqca uyğun olacaq.

Yaradıcılıq prosesində havanın açıq rəngi hərdən sanki, həddindən artıq tünd, üfüqün çəhrayi və qırmızı rəngi, günəşin batmaqda olan rəngi, havanın gecə rənginin verilməsi bir çox hallarda rəssamlar üçün sonsuz çətinliklər yaradır. [6]

Rəng dairəsi və rəssam palitrası biri-birilərindən fərqlənirlər. Hər kəsə məlumdur ki, rəssam heç vaxt rənglərin geniş yığımından istifadə etmir. Rəssamın palitrası məhdudlaşdıqca onun başlıca rəng tapşırığı aydın hiss olunmağa başlayır. [3]

Kolarist rəssam təbiətin sonsuz rəng müxtəlifliyini öz palitrasının məhdud dilinə çevirməyə çalışır. İntibah dövrünün görkəmli kolarist rəssamı Tiçianın son dövr əsərləri bir daha sübut edir ki, palitra həddindən artıq “xəsis” və eyni zamanda çox qüvvətli ola bilər. Rəssamı hər zaman məhdud sayda rənglər maraqlandırmışdır ki, həmin rənglər daha çox sayda parlaq rəng qarışığı yaratmaq bacarığına malik ola bilsinlər. [1]

Hər bir seçilən rəng- rəssam palitrasının öz rəng dairəsinə cavab verir. Rəssam palitrası əgər rəngləri məhdudlaşdırılmışdırsa onda hər zaman təkrar olunmazlığı ilə fərqlənəcəkdir. [7]

Palitradan istifadə etmə qabiliyyəti bütün işə öz təsirini göstərir. Palitra rəngləri elə qurmaq lazımdır кi, həmişə iş üçün təmiz yer olsun. Rəngləri palitranın kənarı boyu qeyd olunan qaydada yerləşdirmək olar. [4]

Bunlardan sonra orta registirli boyaqları yerləşdirmək olar: oxra, təbii siyena. Sonra «kürən» rənglər; mars narıncı, siyena yanmış və nəhayət mürəkkəb rənglər: umbra təbii, mars qəhvəyi, mars mavi, кassel rəhvəyi, yanmış sümük, şaftalı qara. Rəngləri öz yerinə qoymadıqda nizamsızlıq yaranır və işləmək çətin olur.[5]

Bütün bu sadalanan fikirlərdən belə nəticəyə gəlmək olar ki, real, inandırici təsvirlərin yaradılmasında, rəssam palitrasının yaradıcılıq prosesinə təsir imkanları çox böyükdür.

Kağız palitra

Plastik palitra

Ağac, faner palitra

Açar sözlər: Rəssam, palitra,rəng,sulu boya,rəng,spektr, yaradıcılıq.

ƏDƏBİYYAT

1. Verdiyev Ə. Dəzgah rəngkarlığı. Bakı; İşıq nəşriyyatı. -1998. 72 s.
2. Винер, А.В. Материалы живописи (акварель,гуашь,масло) /А.В. Винер.- М.:Искусство, 2014. - 138 с.
3. Лепикаш В.А. Марков П.А. Акварель. Об акварели или живописи водяными красками. Москва. Издательство АСТ. 2021г. 336 ст.
4. Унковский, А.А. Живопись. Вопросы колорита / А.А. Унковский. - М.: Просвещение, 2011. - 128 с.
5. Герчук, Ю.Я. Основы художественной грамоты / Ю.Я. Герчук. - М., 1998. - 208 с.
6. http://muddycolors.blogspot.com/2013/12/a-baroquecomposition.htm
7. http://ndce.edu.ru
8. http://olgabalashova.livejournal.com

ПАЛИТРА ХУДОЖНИКА. ЕГО ВОЗМОЖНОСТИ В ТВОРЧЕСКОМ ПРОЦЕССЕ

Абульфат Магеррамов
abulfat61@mail.ru
Азербайджанский Технологический Университет

Палитра – для художника один из самых необходимых инструментов для создания произведения искусства. Слово палитра происходит от латинского palaterum — «тарелка», «таблетка». Творчество без палитры очень сложно. Форма палитры может быть прямоугольной или квадратной. Бумажные палитры очень популярны среди художников. Как правило, деревянная палитра считается неотъемлемой частью рабочего кабинета. Пластиковые палитры очень легкие, пластиковые палитры не повреждаются от влаги.

Размер палитры зависит от необходимого количества красок и размера используемого холста. Каждому выбранному цвету соответствует своя цветовая гамма палитры художника. Умение пользоваться палитрой влияет на всю работу. Из всех перечисленных идей можно сделать вывод, что при создании реалистичных, убедительных образов большое влияние на творческий процесс оказывает палитра художника.

Ключевые слова: Художник, палитра, цвет, акварель, цвет, спектр, творчество.

THE ARTIST'S PALETTE AND ITS POSSIBILITIES IN THE CREATIVE PROCESS

Abulfat Maharramov

abulfat61@mail.ru

Azerbaijan Technological University

Palette – As an artist, one of the most necessary tools to create a work of art. The word palette comes from the Latin paleterum - "plate", "tablet". Creativity without a palette is very difficult. The shape of the plates can be rectangular or square. Paper palettes are very popular among artists. As a rule, the wooden palette is considered an integral part of the study. Plastic palettes are very light, plastic palettes are not damaged by moisture.

The size of the palette depends on the needs of the number of paints and the size of the canvas used. Each selected color corresponds to its own color range of the artist's palette. The ability to use the palette affects the entire work. From all these listed ideas, it can be concluded that the artist's palette has a great influence on the creative process in creating realistic, convincing images.

Key words: Artist, palette, color, watercolor, color, spectrum, creativity.